**Şahlar Əsgərov**

# Təhsilimiz: Dünən, bu gün, sabah

**Bakı-2003**

Bu kitab Azərbaycan Respublikasının Prezidenti möhtərəm HEYDƏR ƏLİRZA oğlu ƏLİYEVİN 80 illik yubileyinə həsr olunur.

**MÜNDƏRİCAT**


| | | səh. |
|---|---|---|
| | Giriş………………………………………………... | 8 |
| 1. | Təhsil və elm hadisələri……………………… | 11 |
| 2. | Təhsil anlayışı ………………………………… | 13 |
| 3. | Təhsilin səciyyəsi…………………………….. | 14 |
| 4. | Təhsilin məqsədi……………………………… | 16 |
| 5. | Sosial təhsil institutu………………………….. | 25 |
| 6. | Təhsilin cəmiyyətdə yeri……………………… | 28 |
| 7. | Təhsil sistemi və təhsil müəssisələri ………… | 33 |
| 8. | Təhsildə keçidlər …………………………….. | 37 |
| 9. | Sovet təhsili: fəlsəfəsi, uğurları və qüsurları … | 41 |
| 10. | Keçid dövründə təhsil ……………………….. | 59 |
| 11. | Yeni təhsil sisteminin fəlsəfəsi ……………… | 67 |
| 11.1. | Təhsilin liberallaşması ……………………….. | 70 |

| | | |
|---|---|---|
| 11.2. | Müəllimin sosial statusu ……………………… | 79 |
| 11.3 | Təhsildə kütlə və fərd münasibətləri ………… | 81 |
| 11.4. | Təhsildə kəmiyyət və keyfiyyət münasibətləri. | 84 |
| 11.5. | Təhsildə demokratikləşmə…………………… | 87 |
| 11.6. | Təhsildə obyekt-subyekt münasibətləri ……… | 90 |
| 11.7. | Dil dərslərinin fəlsəfəsi……………………… | 93 |
| 11.8. | Təhsildə bəşəri dəyərlər……………………… | 97 |
| 12. | Təhsilin məzmunu…………………………….. | 103 |
| 13. | Təhsilin iqtisadiyyatı ………………………… | 114 |
| 14. | Biliyin qiymətləndirilməsi və imtahanlar…….. | 121 |
| 15. | Təhsilin strukturu…………………………... | 145 |
| 15.1. | İlkin məktəb………………………………….. | 157 |
| 15.2. | İntellekt əmsalı:İQ……………………………. | 158 |
| 15.3 | Orta məktəb …………………………………... | 160 |
| 16. | Təhsil və milli təhlükəsizlik ………………… | 188 |
| 17. | Ali məktəblər …………………………...…… | 197 |
| 17.1. | Ali məktəblərin sayı ………………………….. | 208 |
| 17.2. | Özəl təhsil. ………………………………...…….. | 217 |
| 18 | Maqistratura, aspirantura və doktorantura ……. | 228 |
| 19 | Təhsil haqqında fəlsəf fikirlər………………… | 231 |
| 20 | Məhəmməd Peyğəmbər elm və təhsil haqqında……………………………………….. | 235 |
| 21 | Heydər Əliyevin elm və təhsil haqqında kəlamları ……………………………………… | 237 |
| 22 | Son söz ………………………………………... | 251 |
| | **Əlavələr** | |
| 1. | Düzgün yaşama formulası …………………… | 256 |
| 2. | Sosial strukturlaşma …………………………. | 268 |
| 3. | Azərbaycanın intellektual potensialı…………. | 282 |
| 4. | Təhsilin fəlsəfi problemləri ………………… | 290 |
| 5. | Şərqdə və Qərbdə fərd-toplum problemi …... | 299 |

Azərbaycan Respublikasının prezideti Heydər Əliyev 2001-ci il test imtahanlarının nəticələrinə görə respublika üzrə ən yüksək bal toplamış Rüfət Qaralovu təbrik edir.



«Savadlı, iradəli, bilikli, bacarıqlı, dəyanətli, mərd gəncləri olmayan bir ölkənin gələcəyi ola bilməz».

**H.Əliyev**

# Giriş

Təhsilin 10 min illik tarixi var. Bu minilliklər ərzində təhsil böyük təkamül yolu keçmiş, aqil və müdrik insanların təhsillə bağlı fikirlərini özündə həzm etmiş və gəlib bu günkü səviyyəyə çıxmışdır. Belə qədim sahə ilə bağlı kitab yazıb yeni söz demək çətin və məsuliyyətli bir işdir. İnkişaf etmiş stabil quruluşlarda belə işə ehtiyac da yoxdur. Ancaq keçid dövrünü (bu səbəbdən də dəyərlərin dəyişdiyi dövrü) yaşayan ölkələrdə təhsildə təbii olaraq yaranmış problemlərin varlığı belə işə ehtiyac olduğunu gündəmə gətirir.

Digər tərəfdən son 200 ildə dünya iki bəşəri sənaye inqilablarından keçir. Birinci inqilabın möcüzəsi fiziki gücümüzü artıran **mator,** ikinci inqilabın möcüzəsi əqli gücümüzü artıran **kompüterdir**. Nə matorun, nə də kompüterin yaradılmasında yer kürəsinin əhalisinin üçdən birini təşkil edən müsəlman aləmi, türk dünyası iştirak edə bilməyibdir. Bu tarixi geriliyi diqqət mərkəzinə çəkmək, səbəbini araşdırmağa, bu işdə təhsilin rolunu müəyyənləşdirməyə ehtiyac duyulur.

Azərbaycan bir ictimai-siyasi quruluşdan digərinə keçərək, keçid dövrünü yaşadığından ölkənin təhsil sistemi də öz keçid dövrünü yaşayaraq, sovet təhsil sistemindən bəşəri təhsil sisteminə keçir.

Yeni təhsil sisteminə keçid ciddi problemlərlə müşahidə olunur. Köhnə təhsil sistemi ilə yeni təhsil sistemi, bəzi sahələrdə yeni biliklərlə köhnə biliklər, qapalı cəmiyyətin kütləvi təhsili ilə açıq cəmiyyətin liberal təhsili arasında ziddiyyətlər var və bu səbəbdən də onlar arasında mübarizə təbiidir. Bugünkü siyasət və ideologiya keçmiş siyasətin və ideologiyanın davamı olmadığından, bugünkü təhsil sistemi də keçmiş təhsil sisteminin davamı olmamalıdır. Sosialist təhsil sistemində kütləni təhsilləndirməklə şəxsi təhsilləndirmək ideyası, yeni quruluşda isə şəxsi təhsilləndirməklə toplumu təhsilləndirmək ideyası əsas götürülür. Sovet təhsil sistemində təhsil depersonlaşdırılmışdır.

Lakin müasir təhsil sistemində fərdin təhsili diqqət mərkəzinə çəkilməlidir.

Çağdaş təhsil sistemi inzibati-amirlik dövrünün təhsil sistemi ilə liberal-demokratik cəmiyyətin təhsil sistemi arasındakı dövrü yaşayır. Köhnə təhsil sistemi özünün bəşəri uğurlarını və əldə etdiyi səviyyəsini mühafizə etməkdə çətinlik çəkir. Təhsildə uğurlarla uğursuzluq paralel inkişaf edir.

Yeni təhsil sistemi liberal-demokratik ideya və dəyərlər, yeni sosial-iqtisadi münasibətlər və yeni təhsil texnologiyası üzərində qurulmalıdır. Bu ruhu özündə əks etdirən təhsil sisteminə ehtiyac duyulur. Bir tərəfdən dünyada gedən qlobal dəyişikliklər, inkişaf etmiş ölkələrin sənaye bazalı cəmiyyətlərdən texnoloji, elmi-informasiya bazalı cəmiyyətlərə keçmələri, digər tərəfdən Azərbaycanda müstəqil dövlət quruculuğu, ölkəmizin Avropaya inteqrasiyası, çağdaş ictimai-siyasi durum təhsilin qarşısında yeni-yeni problemlər qoyur. Elm və texnologiyanın təsiri altında sürətlə dəyişən cəmiyyətdə qarşıya çıxa bilən problemləri həll etmək üçün təhsil insanlara **yeni biliklər, bacarıqlar və vərdişlər,** lokal, qlobal və tənqidi düşüncə tərzi öyrətməlidir. Azərbaycan cəmiyyətini telekanallar vasitəsi ilə izləyəndə **"oxuyan-oynayan cəmiyyət"** təsəvvürü yaranır. Biz təhsil vasitəsilə cəmiyyətimizi **"öyrənən cəmiyyətə"** çevirməliyik.

Təhsil sistemində yeniləşmənin uğurla getməsi, yəni Sovet təhsil sisteminin ideoloji-siyasi buxovlardan ayrılıb bəşəri təhsil sisteminə qoşulması üçün ilk növbədə yeni təhsil sisteminin nəzəriyyəsi, fəlsəfəsi, təhsil sahəsində dövlət siyasətinin əsas istiqamətləri, konseptual müddəaları, fəaliyyət prinsipləri, təhsilin məzmunu, məqsədi və quruluşu müəyyənləşməlidir. Bu problemlərdən bəziləri hələ öz həllini gözləyir. Bu kitabın yazılması da bu boşluğu qismən doldurmaq və bu problemlərə işıq tutmaq məqsədi ilə edilən bir cəhddir.

Kitab təhsilin dünəninə, bu gününə və sabahına işıq tutur, bəzi problemlərlə oxucuları üzbəüz qoyur.

Cəmiyyətdə təhsilin yeri, dövlət üçün təhsilin əhəmiyyəti, fərdin potensialının açılmasında təhsilin rolu da kitabda diqqət mərkəzinə çəkilmişdir. Bəzən «təhsilimiz gələcəyimizdir»- deyirik.  Pis təhsildən gələcəyimiz xeyir görməyəcək, əksinə, əziyyət çəkəcəkdir. Bu gün üçün **«keyfiyyətli təhsil gələcəyimizdir»** müddəası daha düzdür. Yaxşı təhsil sistemini yaratmaq imkanımız hələ vardır. Şansı əldən verməməliyik.

## 1. Təhsil və elm hadisələri

*«Cənnətə gedən yollar çoxdur. Onlardan ən qısası elm və təhsildən keçənidir».*

***Həzrəti Məhəmməd***

**Təhsil** - biliklərin gənc nəslə ötürülməsidir. **Elm**- yeni biliklərin əldə edilməsidir. Elm – haqqın, gerçəkliyin axtarılması yolunda alim fəaliyyətidir. Elmi nəticələr insanlar və nəsillər tərəfindən mənimsəniləndə biliyə çevrilir. **Bilik** -tarixi təcrübə ilə təsdiqlənən elmi nəticələr toplumudur. Elmi nəticə kütləviləşəndə biliyə çevrilir. Elmdə yenilik əldə etmək çətin deyildir. Təhsildə yenilik etmək çox çətindir.

**Təhsil** – milli və bəşəri hadisədir. **Elm**- bəşəri və milli hadisədir. Təhsildə millilik və bəşərilik, elmdə kosmopolitizm, bəşərilik üstünlük təşkil edir.

Həm elmdə, həm də təhsildə məqsəd həm lokal, həm də qlobal səciyyə daşıyır.

Təhsildə **təhsilalan** hadisənin **obyektidir.** Elmdə **alim** tədqiqatın s**ubyektidir.**

Təhsillə müqayisədə elmin zamana görə dəyişmə sürəti çox böyükdür. Təhsil elmlə müqayisədə inertdir. Təhsildə yeniləşmənin sürəti azdır. Elmdə isə bu sürət çoxdur.

Təhsil qocalmayan sahədir. Elm tez qocalan sahədir. Bir elm sahəsi yaranır, digər sahə qocalıb sıradan çıxır.

Təhsildə nəticələri çoxlu insanlar, elmdə isə fərdlər əldə edirlər.

Təhsildə nəticələr on illərlə, yüz illərlə əldə edilir. Elmdə nəticələr aylar və illər ərzində əldə edilə bilər. Bu səbəbdən də kvazielmi nəticələr elmdə hay-küy qaldıra bilir, ancaq tez aşkarlanır və ifşa olunur.

Təhsilə kommersiya niyyəti ilə baxmaq yolverilməzdir. Elmdən kommersiya niyyəti ilə istifadə etmək mümkündür.

Təhsil müqəddəs sahədir, fundamental sosial institutdur. Elm qeyri-fundamental sosial institutdur.

Təhsildə *kvaziyeniliklərin* ifşası çətin məsələdir. Elmlə müqayisədə təhsil daha çox **ölçülü-biçimli** olmağı və daha çox qayğı tələb edir.

Təhsilin ən önəmli sosial funksiyası bundan ibarətdir ki, insanlar təhsilləndikcə, içərisindən keçdikləri ictimai-sosial proseslərin obyektindən subyektinə çevrilirlər, proseslərin idarə olunan yox, idarə edən tərəfi, uduzan yox, udan tərəfi olurlar.

Göründüyü kimi **elm** və **təhsil** hadisələri kifayət qədər fərqli sosial hadisələrdir. Bu iki fenomen arasında məqsədyönlü əlaqə yaratmaq, daha doğrusu, təhsildən elmə keçmək, təhsili elmi nəticələrlə zənginləşdirmək üçün bir körpü tələb olunur. Keçmiş Sovet təhsil sistemində bu körpü rolunu **aspirantura,** xaricdə isə **doktorantura, post graduate student** və ya **research scholarship** oynayıbdır.

Yuxarıda göstərilən fərqlərə baxmayaraq bu iki fenomen daim bir birini qarışılıqlı zənginləşdirirlər. Hətta belə demək olar ki, elm təhsilin, təhsil isə elmin tətbiq sahəsidir. Elm idrakın təhsildən sonra gələn pilləsidir.

Elm-təhsil ananın doğduğu qüdrətli övladdır. Mükəmməl təhsil olmayan yerdə elm ola bilməz. Şərqlilər elmdə geri qalıblar ona görə yox ki, şərqlilərin elmi təfəkkürü zəifdir. Ona görə ki, Şərqdə vaxtında **mükəmməl**, dünyəvi ali təhsil müəssisələri-universitetlər yaradılmayıbdır. 1919-cu ildə Bakı Dövlət Universitetinin yaradılması xalqımızın inkişafında müstəsna rol oynamışdır. Stanbul Universitetinin yaşı 550-dən çox olsa da Ankara Universitetinin yaşı 60 ildən azdır. Keyfiyyətli təhsil həm fərd, həm cəmiyyət, həm də dövlət üçün xeyirlidir.

## 2. Təhsil anlayışı

*«Təhsil müqəddəs cihaddır».*

**Həzrəti Məhəmməd**

Amerikalı alim D.Karneqinin fikrincə, təhsil – istənilən həyat situasiyalarında düzgün hərəkət etmək qabiliyyətidir. Bu ifadəni bir az da müasirləşdirib demək olar ki, təhsil-istənilən həyat situasiyalarında düzgün qərar qəbul etmək qabiliyyətini öyrədən sahədir.

Təhsil anlayışının mənası zaman-zaman dəyişibdir. Bəşəriyyət inkişaf etdikcə, dövrün yeni səciyyəvi cəhətləri əmələ gəldikcə, təhsil anlayışına yeni çalarlar əlavə olunur. Təhsilin onlarca tərifi vardır. Bunlardan biri də Ə.X.Paşayevin, F.A.Rüstəmovun «Pedaqogika, Yeni kurs» (Bakı, 2002.) kitabında verilən aşağıdakı tərifdir:

**Təhsil cəmiyyətin və dövlətin mənafeyi naminə şəxsiyyətin intellektual və emosional sferalarını inkişaf etdirmək, onu həyata hazırlamaq məqsədi ilə müasir standartlara uyğun olaraq müəyyənləşdirilmiş məzmunun tədris müəssələrində mənimsənilmə səviyyəsinin qəbul olunmuş meyarlarla yoxlanılan və hüquqi sənədlərdə təsbit olunan nəticəsidir.**

Göründüyü kimi təhsil həm vətəndaşın, həm cəmiyyətin, həm də dövlətin mənafeinə xidmət edən sahədir. Bu səbəbdən də təhsili həm vətəndaş, həm cəmiyyət, həm də dövlət diqqət mərkəzində saxlayır. Bu səbəbdən də Həzrəti Peyğəmbərimiz təhsili müqəddəs cihad hesab etmişdir. Yeri gəlmişkən, qeyd edək ki, Peyğəmbərimizin bu fikirini Vaqner çevirərək «Bilik uğrunda müharibə lazımdır» formasında söyləmişdir. Çox təəssüf ki, Sovetlər zamanında cəmiyyətin bu sahəyə müdaxilə imkanı minimum idi.

Təhsil **öyrənməklə** və **öyrətməklə** müşayət olunan ictimai-sosial hadisə və fundamental sosial institutlardan biridir.

## 3. Təhsilin səciyyəsi

*«Heç kəs sənin düşmənin deyil, heç kəs sənin dostun deyil, hər kəs sənin müəllimindir».*

**Florens Şinn**

Təhsil qocalmaz, daim gərəkli peşədir. Onun böyük əhəmiyyəti haqqında hələ bir neçə min il öncə Çin filosofu Konfutsi demişdir: **"Əgər bir illik planınız varsa, taxıl əkin. Əgər 10 illik planınız varsa, bağ salın. Əgər 100 illik planınız varsa, insanları öyrədin"**.

Təhsil sap deyil ki, qırılanda düyüb təzədən istifadə edəsən. Təhsil şüşədir, qırıldı məsrəfdən çıxır. Təhsildə kəsilməzlik çox vacibdir.

Diqqət yetirməyə dəyər ki, YUNESKO-nun son sənədlərində təhsil **"xəzinə özündə"** hesab edilir.

Strukturlaşmış cəmiyyətdə sosial piramidanın yüksək səviyyələrinə qalxmaq üçün təhsil istifadə olunan yollardan başlıcasıdır. Bu baxımdan təhsilə **"sosial lift"** kimi də baxmaq olar. Bu səbəbdən də təhsilə qoyulan sərmayə gələcək inkşafa sərf olunan sərmayə kimi dəyərləndirilir.

Təhsil sisteminin məxsusi cəhətlərindən biri də bundan ibarətdir ki, ona edilən təsirlər (müsbət və mənfi) özünü çox gec büruzə verir. 1920-ci illərdə təhsilə göstərilmiş qayğı 40-cı və 50-ci illərdə öz bəhrəsini verdi. 1950-ci illərdə təhsilə vurulan zərbələrin nəticələri 80-90-cı illərdə üzə çıxdı. Beləliklə, təhsilə edilən həmlələrin mənfi və ya müsbət nəticəsi dərhal yox, 30-40 ildən sonra hiss olunur.

Təhsil insanların potensial imkanlarının hərtərəfli açılmasına kömək edən əsas vasitədir. Cəmiyyətin harmonik inkişafına kömək edir və həm fərdin, həm də cəmiyyətin geriqalma problemini həll edir. Nəsilbə nəsil kasıb yaşayan bir ailənin kasıblığına son qoymanın yeganə və etibarlı çarəsi təhsildir.

Təhsilləndikcə insanların intellektual səviyyəsi və **fərqlilik** dərəcəsi artır. Təhsil nəinki insanın özünü, hətta insanın cəmiyyətdə mövqeyini dəyişdirir.

Bütün bu xarici və daxili faktorları, təhsilin səciyyəvi cəhətlərini nəzərə almadan təhsillə bağlı qəbul edilmiş istənilən qanun və qərarların həyatda işləməsi şübhə doğurur.

A.Linkolin bir kəlamında deyir: **"Bir nəfəri həmişə, hamını bir dəfə aldatmaq olar. Hamını həmişə aldatmaq olmaz".** Ölkənin təhsil sistemi güclü olarsa, onda heç bir nəfəri də aldatmaq mümkün olmaz.

Azərbaycan Prezidenti Heydər Əliyevin bir kəlamında deyilir: **"Əgər hər bir ölkənin vətəndaşları öz hüquqlarını anlayarsa və qoruya bilərsə, onda ən kiçik dövlətlər belə böyük məmləkət qədər qüdrətli olar".**

İnsanlar təhsilli olarsa, onlar öz hüquqlarını anlayar və qoruya bilərlər. Onda dövlətimiz də qüdrətli olar. Dövlətin qüdrətli olması üçün vətəndaşlar təhsilli olmalıdır.

Yüzbaşı Səlahəddinin bir kəlamında deyilir: **«Cahil olan ağıllının əsiridir»**. Təhsil insanları cahillikdən uzaqlaşdırır və qüvvətli edir. Bu səbəbdən də H.Cavid: **«Şübhəsiz, bilgidə Allah gücü var»** - demişdir.

## 4. Təhsilin məqsədi

*"Bizim təhsil sistemimizin məqsədi Azərbaycanın gələcək inkişafını təmin etməlidir".*

**Heydər Əliyev**

Sovetlər zamanı Respublika təhsilinin qarşısında duran **məqsəd** Bakıda yox, Moskvada müəyyən edilirdi. Şübhəsiz, təhsilin məqsədi o quruluşun ali məqsədinə uyğun müəyyən edilirdi. Biz o quruluşdan imtina etmişik. Çağdaş, müstəqil, suveren Azərbaycan köhnə quruluşun davamı olmadığından, yeni təhsilin **məqsədini** biz müəyyən etməliyik. Təhsilimizin məqsədini dövlətimizin məqsədinə uyğunlaşdırmalıyıq. Ukraynalı professor S.Xarçenkonun fikrincə: "Müasir orta məktəbin əhatə dairəsinin böyüklüyü və onun idarəolunmaz artımı başa düşülən və eyni zamanda təzadlı faktorla bağlıdır: təhsilin dəqiq ifadə olunmuş məqsədi yoxdur. Təbii ki, **məqsədsiz təhsil, nəticəsiz təhsil yaratmalıdır".** (S.Xarçenko, "Pedaqoqika XX1 veka", str.14).

Ona görə də təhsilin **məqsədini** müəyyən edərkən dövlətçilik mövqeyi əsas götürülməlidir. Azərbaycan Respublikasının Konstitusiyasının 12-ci maddəsinin birinci bəndində dövlətin ali məqsədi belə təsbit olunmuşdur:

***"I. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir".***

Şübhəsiz, dövlətin ali məqsədi təmin olunduqca təhsil sisteminin bütün subyektlərinin (həm şagirdin, həm tələbənin, həm də müəllimlərin) şəxsi məqsədləri və maraqları ödənilməlidir.

Kim təhsilin məqsədini, təhsil sistemində çalışanların dövlət tərəfindən dolandarılması, gənclərə attestat və diplom verilməsi kimi başa düşürsə, o, ciddi səhvə yol verir. Belələri təhsildə radikal addım atmağa müqavimət göstərir və onun sosial partlayışla nəticələnəcəyi haqqında "öncəgörmüşlük""" edirlər.

Dövlət təhsilə ona görə pul xərcləmir ki, təhsil işçilərinin sosial müdafiəsini təmin etsin, bu məqsədi reallaşdıran müvafiq qurumlar vardır. Dövlət təhsilə ona görə vəsait ayırır ki, cəmiyyətin intellektual səviyyəsi yüksəlsin və gələcəkdə xalq daha yaxşı və firavan yaşasın.

ABŞ dövlətlər sırasındakı liderliyini nə Avropa dövlətlərinə, nə də Yaponiyaya vermək niyətində deyildir. Bu səbəbdən də onun *təhsil doktrinasında* belə bir məqsəd qırmızı xətlə keçir:

- "cəmiyyətin bütün üzvlərinin bilik və bacarıqlarının tətbiqi **beynəlxalq iqtisadiyyatda millətin liderliyinin** təmin olunmasına yönəldilməlidir"».

Qarşıya qoyulan məqsəd aydındır. Göründüyü kimi, Amerikada **təhsilin məqsədində** dövlətin mənafeyi ali tutulur və digər subyektlərin fəaliyyəti bu məqsədin həyata keçirilməsi istiqamətinə yönəldilir.

Təhsil prosesi kəsilməz və dinamik bir proses olduğundan zaman-zaman onun qarşısında duran məqsəd və vəzifələr dəyişir. Misal üçün, XIX əsrdə bizim təhsilin qarşısında duran məqsəd yazmağı və oxumağı bacarmaq, XX əsrdə isə məqsəd bilikləri dərindən öyrənmək, elmi araşdırmalar aparmaq olubdur.

YUNESKO sənədlərində qeyd olunur ki, müasir dövrün tələblərinə cavab verən təhsil sistemi aşağıdakı vəzifələri yerinə yetirməlidir:

- bilgi əldə etməyi öyrətməli;
- icad (ixtira) etməyi öyrətməli;
- birgə yaşamağı öyrətməli;
- yaşama mədəniyyətini öyrətməlidir.

Bizim indiyə qədər qarşımızda duran vəzifə «bilgi əldə etməyi öyrətmək» olmuşdur. Yeni əsr qarşımıza yeni vəzifələr qoyur.

İkinci vəzifənin öhtəsindən gəlmək üçün, birinci vəzifə əla qiymətlərlə yerinə yetirilməlidir. **A.Frans** biliyin tətbiqi ilə bağlı belə bir fikir söyləmişdir: **"Biliyin çevrilməsi üçün onu**

**iştaha ilə udmaq lazımdır".** Təhsilin qarşısında duran digər iki vəzifə həyatımıza daxil olmuş qloballaşma ilə bağlıdır. Misal üçün, ermənilər birgə yaşama mədəniyyətini öyrənmə-diklərindən monomillətdən ibarət dövlət yaratmışlar. Bu qloballaşmanın məntiqinə ziddir.

Təhsilin məqsədi elə olmaladır ki, o, dövlətin müstəqilliyini təmin etsin, dövləti dövrün tələbləri səviyyəsində saxlamağı bacarsın. Başqa sözlə, təhsilin məqsədi dövlətin hazırki sosial-iqtisadi və siyasi durumuna, ideologiyası və siyasətinə müvafiq olaraq müəyyənləşdirilməlidir.

Sovet dövründə Azərbaycanda **təhsilin məqsədini** Təhsil Naziri M.Mərdanov ("Azərbaycan", 20.02.99) cənabları belə xarakterizə etmişdir: "*Bu da bir həqiqətdir ki, ənənəvi Azərbaycan təhsil sistemi yaxın zamanlara qədər müəyyən mənada indinin özündə də əsasən maarifçilik, savadsızlığı ləğv etmə, attestatlı və diplomlu kadr yetişdirmək missiyasını yerinə yetirməyə xidmət etmişdir".*

Çağdaş dövr üçün təhsilimizin məqsədilə bağlı cənab nazirin fikri belədir: "*Bu gün iki əsrin qovuşağında, dünya təhsil sisteminə inteqrasiya şəraitində, müasir demokratik əsaslara söykənən **milli təhsil sistemimizin əsas məqsədi,** yeni tarixi missiyanın yerinə yetirilməsinə, millətimizin, xalqımızın, ölkəmizin gələcəyi olan uşaqların, gənclərin əqli və fiziki inkişafına, intellektual səviyyəsinin yüksəlməsinə, şəxsiyyətin formalaşmasına nail olmaqdan ibarətdir. Başqa sözlə, bu gün təhsilimizin keyfiyyəti və mahiyyətcə yeni missiyası ən ciddi, milli və dövləti əhəmiyyətli problemlərdən biri, milli mentalitetimizin aparıcı amili kimi ortaya çıxır".*

Görkəmli türk alimi **R.Gənc** 1999-cu il aprelin 24-də "Azərbaycan" Universitetindəki çıxışında söylədi: **"Milli egitimin amacı duyğu birliyi, hiss birliyi, fikir birliyi yaratmaqdır. Azad düşüncə olmasa tərəqqi olmaz. Sivilizasiya elə bir atəşdir ki, ona lazım olmayanı yandırır".**

Göründüyü kimi təhsilin məqsədi haqqında fikirlər çox müxtəlif ola bilər.

Aydındır ki, təhsilin məqsədini və ya məqsədlərini müəyyən etmək bir alimin, bir nazirliyin işi deyil. Bu hədəfin seçilməsində, bu məqsədin müəyyən edilməsində cəmiyyətin intellektual təbəqəsi öz töhfəsini verməlidir. Təhsil sahəsində milli proqramda bu məqsədlər öz əksini tapmalıdır. Bu proqramın hazırlanmasına Azərbaycanın zəkalı insanlarını cəlb etmək lazımdır. Çağdaş dövrümüz üçün təhsilimizin məqsədini necə müəyyən etməli, hədəfə nələri götürməliyik? – suallarına aydın cavab verməyə borcluyuq və təhsil sisteminə rəhbərlik edənlərin hamısı bu məqsədləri çox aydın təsəvvür etməlidirlər. Necə deyərlər, bu məqsədlər sadə, aydın, şəffaf, parlaq olmalıdır ki, yadda qalan olsun və icrası mümkün olsun.

Təhsilin qarşısında duran məqsədlər haqqında zaman-zaman mən də kütləvi informasiya vasitələrində fikirlər söyləmişəm. İndi onların bəzilərini yada salmaq olar:

* **“təhsil-gələcəkdə qarşıya çıxa biləcək problemləri uğurla həll etmək“** qabiliyyətini” gənclərə öyrətmək məqsədi daşımalıdır.

Milli Məclisin Elm və təhsil məsələləri daimi komisiyasının 1999-cu il yanvarən 28-də keçirilən iclasındakı çıxışımda Qarabağ müharibəsindəki uğursuzluqlarımızı təhsildəki qüsurlarla bağladım və dedim: “Müəllim tələbəyə 3-ü satarsa, tələbə əsgər olanda silahını sata bilər“.” İndi isə əlavə etmək olar, biz düşmənlə döyüşüb, torpaq itirməmişik, biz aldanıb torpaq itirmişik. Biz silah (güc) müharibəsində yox, söz(ağıl) müharibəsində aldanıb torpaq itirmişik. Təhsil bizi elə formalaşdırmalıdır ki, gələcək mübarizələrimizdə aldanmayaq.

1991-92-ci illərdə həm iqtidar, həm də müxalifət bizi asanlıqla aldada bilirdilər. Bizi əhatə edən xarici dövlətlər isə həm bizi, həm müxalifəti, həm də iqtidarı aldada bildilər. Çoxbilmişlər azbilmişləri, biclər sadəlövhləri, informasiyası çox olanlar, informasiyası az olanları həmişə aldada bilərlər. Biz

hamımız aldandıq. O zamankı, təhsilə rəhbərlik edənlər bu gün millət qarşısında məsuliyyət daşımalıdırlar, çünki biz fiziki güc meydanında yox, intellektual güc meydanında-söz və intellekt müharibəsində uduzmuşuq, aldanmışıq. Bu səbəbdən də

- təhsilimiz **"aldanılan milləti aldanmayan, düşünən millətə çevirə bilmək**" məqsədi daşımalıdır.

Bir el misalında deyilir ki, bir gün siçana təklif olunur ki, bu deşikdən çıxıb bu deşiyə girsən bir qızıl pul qazanarsan. Siçan fikirləşir: "Mənzil yaxın kirə çox, bunun bir amması var"". Ağıla, idraka güvənmək, fikirləşmək daha çox insani keyfiyyətdir. Varlı xarici təşkilatların ölkəmizdə olması, aparılan beynəlxalq danışıqlarda düşüncəyə və ağıla üstünlük verməyi ön plana çıxarır.

*1813-ci ilə qədər Azərbaycanın sahəsi 410 min kv.km olmuşdur. 1828-ci ildə Rusiya imperiyasının tərkibinə qatılan Azərbaycanın sahəsi 130 min kv. km olmuşdur. 1918-20-ci illərdə Azərbaycan Demokratik Respublikasının qurulduğu ərazinin sahəsi- təxminən 114 min kv.km olmuşdur. Azərbaycan Sovet Sosialist Respublikasının ərazisi 86,6 min kv.km olmuşdur. Göründüyü kimi, 1813 –cü ildən 1920-ilə qədər Azərbaycan torpağının 5 paydan 4-nü itirmişdir. 1920-ci ildən bəri Moskvanın, Sov.İKP-nin dəstəyi ilə Azərbaycan 28 min kv. km ərazisinin böyük bir hissəsi Ermənistan tərəfindən, sözün əsl mənasında,* ***oğurlanmışdır.*** *Dünyada heç bir zaman baş verməyən hadisə – torpaq oğurluğu baş vermişdir. Torpaq müharibə yolu ilə zəbt edilər və ya qaytarılar. 1920-1988-ci illər arası bizim Ermənistanla müharibəmiz olmamışdır, ancaq torpaqlarımız zaman-zaman ermənilər tərəfindən oğurlanmışdır. Dünyada torpağı oğurlanmış yeganə xalq, yəqin ki, bizik. Bu torpaqların ərazisi Dağlıq Qarabağınərazisindən təqribən 6 dəfə çoxdur.*

*Bu itkiyə qarşı mübarizə aparmaq əzmimiz olmamışdır. Sanki biz yuxulu olmuşuq. Şair Məmməd Araz deyir:*

*Qoca millət!*

*Mürgülədik qoşa-qoşa*
*Dağlarımız oğurlandı.*
*Çaylarımız, göllərimiz*
*Oğurlandı.*
*Düzlərimiz, çöllərimiz*
*Oğurlandı.*
*Oğurlatdıq!*

*Bu yuxululuğun əsas səbəbini millətin təhsilsiz olması və düşünən təbəqəsinin olmaması ilə izah etmək olar. 1937-ci illərdə Azərbaycanın düşünən insanlarını – ziyalılarını, alimlərini, şairlərini güllələdilər, həm də ona görə ki, millətin başbiləni, yolgöstərəni olmasın. N.Nərimanovun, S.Vurğunun, Ü.Hacıbəyovun, Ş.Qurbanovun, T.Özalın dünyalarını dəyişmələrində təbii səbəblərlə bərabər siyasi səbəblərin də olduğuna inanıram. Zamana görə torpaq itkimiz qrafik halında şəkil 4.1-də göstərilmişdir.*




Şəkil 4.1. Azərbaycan torpağının zamana görə azalma qrafiki

*Qrafiki gələcək zamana ekstriolyasiya etsək onda təqribən 150-200 ildən sonra torpaqlarımızı ermənilərtərəfindən zəbt oluna bilər. Yəni 1800-ci illərdən başlamış «dənizdən-dənizə» ideyası 2150 –ci illərdə reallaşa bilər. Bunu bilməyimiz vacibdir. Bu səbəbdən də*

- **"təhsilimiz məhv olmaq həddinə çatmış milləti düşünən millətə çevirmək"** məqsədi daşımalıdır**.**

Düşünməyə, yüz ölçüb bir biçməyə səbəb çoxdur. Biz zaman-zaman öz tarixi torpaqlarımızın beşdən dörd payını itirmişik, qalır bir payı. Bu bir payın da bir hissəsində (20%) yenə düşmən gözü var. Bu bir payı qorumaq "ölüm və ya olum"" delemmasını həll etməyə bərabərdir. Bu torpaq itirmək tendensiyasını dayandırmaq, tarixin təkərini tərsinə döndərə bilmək bizim düşünən millətə çevrilməyimizi zəruri edən böyük səbəbdir. Sağlam və tənqidi düşüncə tərzini, aldanmamaq qabiliyyətini bizə **təhsil** öyrətməlidir.

Böyük **T.Fikrətin "Sönməz əbədi hər gecənin gündüzü vardır"** fikrinə qüvvət XX əsrin son onilliyində millətimizin gündüzü görünməyə başladı. Məhv olmaq həddinə çatdığımız məqamda taleyin hökmü ilə müstəqillik əldə etdik və dövlətimizi qura bildik. Bu dövlətin banisi və qurucusu möhtərəm Prezidentimiz Heydər Əliyevdir.

*Müstəqilliyimizin 12-ci ilini yaşayırıq. Bu şansın tarixin təkərini tərsinə fırlatmağa gücü çatar. Bu qüvvənin də mənbəyi **təhsildədir.** Təhsil 1813-ci ildən bəri milli mənafeyimizin əksinə işləyən tarixin təkərini dayandırmalı və tərsinə, bizim xeyrimizə fırlatmaq məqsədi daşımalıdır.*

- Təhsilimiz **"gənclərimizə düzgün qərar qəbul etmək qabiliyyətini öyrətməlidir. Başqa sözlə, təhsilimiz gəncləri əmək fəalliyyətinə, məsul vətəndaş mövqeyinə, həyata hazırlamaq"** məqsədi daşımalıdır.

ABŞ-ın Priston Universitetinin sabiq prezidenti C.Hibben: **“təhsilin ali məqsədi bilik toplamaq deyil, hərəkətdir”**-demişdir.

Bu deyiləndən aydındır ki, bilik toplamaq məqsəd deyil vasitədir, məqsəd biliyin həyatda tətbiqidir, hərəkətidir.

Həqiqətən cənab Hibben çox düz deyibdir. Təhsil bizim dinamikliyimizi artırmalıdır. Sükunətə reaksiya yoxdur, reaksiya hərəkətədir.

- **Təhsilin ali məqsədi cəmiyyəti dövrün tələbləri səviyyəsinə qaldırmağı və milli mənafeyimizi qorumağı bacaran vətəndaşlar yetişdirməkdir.**

ABŞ alimi C. Konat ötən əsrin ortalarında sübut edib ki, hər 100 gəncin 15-i istedadlı, bu 15 faizin 3 faizi yüksək dərəcədə istedadlıdır. Yeni təhsil sisteminin ali **məqsədlərindən** biri bu **istedadları zaman-zaman aşkarlayıb təhsilləndirmək, sonra onları cəmiyyətin xidmətinə verməkdir.**

Dövlət təhsil sistemində böyük bürokratik aparatı məhz bu məqsədlə saxlayır ki, belə istedadlı gənclər təhsildən kənarda qalmasınlar. Bu talantlı insanları erkən müəyyən etmək mümkün olsaydı, təhsil sisteminin bürokratik aparatını bir neçə dəfə ixtisar etmək mümkün olardı.

«Təhsil qanunu» layihəsində təhsilin məqsədi qısaca aşağıdakı kimi müəyyənləşdirilib:

1. Hər bir **fərdin** potensial imkanlarının hərtərəfli açılmasına və inkişafına nail olmaq, milli-bəşəri dəyərləri və bilikləri mənimsəyən, gələcəkdə qarşıya çıxa biləcək problemləri uğurla həll etmək qabiliyyətinə malik, fiziki və mənəvi cəhətdən sağlam, özünə güvənən peşə sahibi və mütəxəssis hazırlamaq;

2. **Cəmiyyətin** təhsil səviyyəsini yüksəltməyi, milli-mənəvi dəyərlərini qorumağı və inkişaf etdirməyi bacaran, xalqını dünya iqtisadiyyatının, mədəniyyətinin yaradıcı iştirakçısına çevirməyi bacaran ümumxalq mənafeyini şəxsi mənafelərdən üstün tutan vətənpərvər vətəndaş yetişdirmək;

3. **Dövlət** qarşısında vəzifə və məsuliyyətini dərk edən və onları fəaliyyətində rəhbər tutan, müstəqil Azərbaycan dövlətini dövrün tələbləri səviyyəsində saxlamağı bacaran və onun dövlətlər sırasında layiqli yer tutmasına çalışan, dövləti mənafeləri şəxsi mənafelərdən üstün tutan şəxsiyyət yetişdirmək.

Beləliklə, təhsilimizin əsas məqsədi fərdin, kütlənin və dövlətin iqtisadi, siyasi, sosial və mədəni inkişafını təmin edə biləcək nəsili yetişdirməklə bərabər, təhsilin başlıca və qısaca məqsədlərindən biri də **öyrənməyi öyrətməkdir.**

Təhsil işçiləri təhsilin qarşısında duran bu məqsədləri aydın bilməli və fəaliyyətlərində əsas götürməlidirlər.

Paraqrafın sonunda Şərq təhsil sistemində (həm də dünya təhsil sistemində) özünəməxsus yeri olan Yapon təhsilinin məqsədinin bir məqamını oxucuların diqqətinə çatdıraq:

**«Yapon insanına yapon əxlaqı verməkdir».** Bu əxlaq Qərbdən fərqli olaraq azadlıq üzərində deyil, vəzifə və məsuliyyət üzərində qurulur. İnsanın özünə, ailəsinə, tanıdığı və tanımadığı hər kəsə və bütün insanlığa qarşı borcları, yəni vəzifələri vardır. İnsan bu borclara sadiq və vəzifələrə vəfalı olmalıdır. Bunu edən insan xoşbəxt və azad olar. Yəni Yapon təhsilində azad insan haqları yerinə vəzifələrini yerinə yetirən insan haqlarına üstün yer verilir.

## 5. Sosial təhsil institutu

> **«Təhsil mürəkkəb bir sahədir.
> Təhsil sahəsi nə sənayedir, nə
> kənd təsərrüfatıdır, nə də ticarətdir.
> Bu, cəmiyyətin xüsusi, intellektual
> cəhətini əks etdirən sahədir».**
>
> ***Heydər Əliyev***

İnsanların tələblərini ödəyən qurumlar sosial institutlar adlanır.

Sosiologiya elminə görə (A.Kravçenko "Soüioloqiə", M. 2002, str.46) təhsil cəmiyyətin fəaliyyətini tənzimləyən və inkişafını təmin edən beş fundamental sosial institutlardan (ailə, din, dövlət, istehsal, təhsil) biridir.

Alimlərin fikrinə görə istehsalın 2 milyon il, ailənin 500 min il, insan cəmiyyətinin 40 min il, dövlətin 10 min il yaşı vardır. Təhsilin yaşı 10 min ildən çoxdur. İlk dövlət, ordu yarananda təhsil müəsisələri də yaranıbdır.

Sosial institutlar öz-özünə yox, cəmiyyətin inkişafının məntiqi nəticəsi kimi törəyir və onlar ehtiyacdan yaranır. Bu ehtiyacları ödəmək mexanizmi sosial institutlar tərəfindən həyata keçirilir.

Sosiologiyaya görə fundamental sosial institutların hər biri çoxlu sayda qeyri-əsas institutlardan təşkil olunur. Bu institutlar sosial praktiklər adlanırlar. Misal üçün, dövlət (əsas) sosial institutuna prezident institutu, parlament institutu, ordu, məhkəmə və s. qeyri-fundamental sosial institutlar daxildir.

Sosial təhsil institutu – çoxlu sayda status, rol, sosial norma və təşkilatları əhatə edən nəhəng bir sistemdir. Orta təhsil müəssisələri, peşə məktəbləri, texnikumlar, ali məktəblər, təhsil nazirliyi, onun aparatı və təhsillə məşğul olan digər müəssisələr, elmi-tədqiqat institutları, qəzet və jurnal redaksiyaları, nəşriyyatlar və bunun kimi pedaqogika ilə bağlı hər şey sosial təhsil institutunun tərkib hissələridir. Qərb dövlətlərindən fərqli

olaraq Şərq dövlətlərinin heç birində mükəmməl təhsil doktrinası olmamışdır. Şərqlilərin **irrasional**, qərblilərin **rasional** düşüncəyə malik olduqları təhsil sahəsində də öz təsdiqini tapır. Bunun nəticəsində Şərq cəmiyyətləri nə birinci, nə ikinci bəşəri-sənaye inqilablarında iştirak etməmişlər. Qeyd edək ki, birinci sənaye inqilabının möcüzəsi olan **motorun** ixtirasından sonra fiziki gücümüz qat-qat artmışdır. İkinci sənaye inqilabının möcüzəsi sayılan **kompüterlər** əqli imkanlarımızı çoxqat artırmışdır. Hər iki bəşəri sənaye inqilabları son iki yüz il ərzində Qərbdə yaranmış mükəmməl təhsil sistemindən törənmiş nəticələrdir.

Təhsil ilk baxışda çox asan fəaliyyət sahəsi kimi görünür. Ancaq təhsil sferasının daxilinə girdikcə onun nə qədər mürəkkəb sahə olduğu aydınlaşır. Təhsil, təkcə məktəb, direktor, müəllim, şagird, valideyn münasibətlərinin cəmi deyildir. Təhsildə tarixi təcrübə, milli ənənə, bəşəri dəyərlər cəmləşmişdir. Təhsil sosial pramidanın hər bir təbəqəsinin marağı daxilindədir. Misal üçün, dövlət başçısı əhalinin savadlı olmasında maraqlıdır. Çünki əhalinin savadlı olması bir tərəfdən xarici qüvvələrin qərəzli təsirinə müqaviməti artırır, digər tərəfdən savadlı əhali iqtisadiyyatı, mədəniyyəti inkişaf etdirir.

Həqiqətən, təhsil çox mürəkkəb sahədir. Həzirət Əlinin bir kəlamında deyilir: **«Öyrəndikcə nə qədər az bildiyimi öyrəndim».**

Bu kəlamın tətbiqi ilə bağlı iki misal çəkmək istəyirəm. Birinci misal: 30 il öncə ilk avtomaşını alarkən professor Azər Hənifə oğlu Zeynallının mənə verdiyi məsləhətdir. Professor Zeynallı dedi: *«İlk dəfə mən də maşın alarkən dayım dedi ki, bacıoğlu, maşını ilk dəfə idarə edən insanlar elə bilirlər ki, onlar maşını həm yaxşı bilirlər, həm də yaxşı idarə edirlər. Ancaq 5 ildən sonra başa düşürlər ki, maşını idarə etməyi bacarırlar, amma maşını bilmirlər. 10 ildən sonra isə başa düşürlər ki, nə maşını bilirlər, nə də idarə etməyi bacarırlar. Odur ki, bacıoğlu, mənim bu sözlərimi yadında saxla».*

1950-ci illərdə deyilmiş sözləri Azər Zeynallı yadında saxlayıb 1975-ci ildə mənə dedi. Mən də yadımda saxlayıb bu gün oxucularıma deyirəm ki, onlar da bu qiymətli fikiri gələcək nəsillərə ötürsünlər.

İkinci çəkmək istədiyim misal belədir: *«Hindistan padşahı Qərb ölkələrindən birinin kralına bir fil hədiyyə göndərir. Kral göstəriş verir ki, ölkənin ən güclü veterinarını filəbaxan təyin edin. Bir həftədən sonra kral fillə maraqlanır. Deyirlər ki, hər gün həkim 100 dəfələrlə filin başına fırlanır. Kral həkimi çağırdırır və filin vəziyyətini soruşur. Həkim deyir: Kral həzrətləri, sağ olun! Bu necə heyvandır? Bir həftədir ki, mən bu heyvanın başı ilə arxasını tapa bilmirəm»*.

Həqiqətən, yunan filosofunun «bilmədiyimi ayaqlarım altına yığsam, başım göylərə dəyər» fikri haqlı fikirdir. Bəli, təhsil mürəkkəb sahədir. Bu sahədə bilmədiyimiz, bildiyimizdən qat-qat çoxdur.

## 6. Təhsilin cəmiyyətdə yeri

**"Müasir cəmiyyətlərdə təhsil məsələsi ölüm-dirim məsələsidir, cəmiyyətin gələcək taleyinin asılı olduğu məsələdir".**

***Ernest Renan***

E. Renan X1X əsrdə yaşamışdır. Onun bu kəlamı XXI əsrdə də öz əhəmiyyətini saxlayır. Onun həmyerlisi və həmyaşıdı Lui Paster həmin fikri başqa cür ifadə etmişdir: **"Elm vətənin ən uca təcəssümü olmalıdır, çünki xalqlardan hansı biri başqalarını fikir və əqli fəaliyyətdə üstələsə, o, həmişə birinci olacaqdır".** Hər iki fikir bizim üçün də çox əhəmiyyətlidir. Ancaq bu fikirlərdən də daha güclü fikiri XX-əsrin əvvələrində böyük Məhəmməd Hadi söyləmişdir:"

**"Əlməktəbü, əlməktəbü, ey millət amandır".**

Əmək ehtiyatlarının keyfiyyəti, deməli iqtisadiyyatın vəziyyəti bütövlükdə birbaşa təhsilin səviyyəsindən asılıdır. Bu səbəbdən də Yaponiya və Cənubi Koreya təhsil sistemini yeniləşdirərək iqtisadi sferada keyfiyyət sıçrayışına nail olmuşlar. Keyfiyyətli təhsil həm fərdə, həm də cəmiyyətə lazımdır. Keyfiyyətli təhsil bir tərəfdən ölkəni yüksək ixtisaslı kadrlarla təmin edir (bu isə əmək məhsuldarlığını artırır, yeni texnologiyanın tətbiqini asanlaşdırır və sosial strukturada yüksək səviyyələri tutmağa imkan verir). Digər tərəfdən yüksək təhsil görmüş fərd cəmiyyətdə özünü asanlıqla reallaşdıra bilir.

Ekspert rəylərinə görə təhsilin inkişafına dövlət tərəfindən qoyulan investisiya ən sərfəli və tez bəhrə verən sahə hesab olunur. Başqa sözlə, kapital qoyulması üçün ən əlverişli sahə gənclər üçün təhsil sistemidir. Yuxarıda qeyd edildiyi kimi, fərdin, ailənin, dövlətin ildən ilə ötrülən kasıblığının qarşısını ancaq keyfiyyətli təhsillə almaq olar. Yaponiya, Cənubi Koreya praktikada bunu subut etdi. Biz də bunu təkrar edə bilərik.

Müstəqil Azərbaycanda dövlət quruculuğu, ölkəmizin dövlətlər birliyinə inteqrasiyası, çağdaş ictimai-siyasi durum, həm dünyada gedən qlobal dəyişikliklər (dünyanın yeni maraq dairələrinə bölünməsi, sənaye bazalı cəmiyyətlərin elmi-texnoloji və informasiya bazalı cəmiyyətlərə keçməsi), çoxlu, mürəkkəb, həlli vacib problemlər yaradır. Bu problemlərin həlli insanlardan daha çox biliklərə və vərdişlərə yiyələnməyi tələb edir. Rasional dünyagörüşə görə, yaradıcı fəaliyyət üçün bilik lazımdır. Bilikli, ağıllı olmaq üçün təhsil almaq lazımdır.

Yeni təhsil sisteminin uğurlu qurulması müstəqilliyimizin təminatı üçün çox vacibdir. Keyfiyyətsiz təhsil sistemi ilə müstəqilliyi qorumaq mümkün deyildir.

Təhsil almaq insanların əsas hüquqlarından biri olmaqla bərabər cəmiyyət üçün çox lazımlı və dərk olunduğundan daha vacib məsələlərdən biridir. 2003-cü ildə dövlətimizin büdcəsi təqribən 1,2 milyard ABŞ dolları səviyyəsində qəbul edildi. Büdcəmiz hər beş ildən bir iki dəfə artır. Ölkəmiz bu templə inkişaf edərsə, onda 20 ildən sonra büdcəmiz təqribən 20 milyard doll səviyyəsinə qalxar. Beləki, müstəqilliyimizin 30 –cu ilində büdcəmiz, əhalisi və ərazisi təqribən biz qədər olan Avstriyanın büdcəsindən yenə iki-üç dəfə az olacaqdır. Bu geriliyi iqtisadi, siyasi yolla aradan qaldırmaq mümkün deyildir.Bu geriliyi ancaq təhsillə aradan qaldırmaq mümkündür.

Subyektiv fikrimə görə, yeni qurulan dövlətdə birinci vacib məsələ dövlət maşınının qurulması, ikinci vacib məsələ isə mükəmməl təhsil sisteminin yaradılmasıdır. Bu sistem nə qədər mükəmməl olarsa, dövlətimiz dövlətlər sırasında bir o qədər qabaqcıl mövqe tutmuş olar.

Təhsilin cəmiyyətdə rolunu rasional düşüncə əsasında yüksək tutan amerkalılar hesab edirlər ki, əvvəla, XX1 əsrdə dövlətlərin qarşılaşacağı problemlər XX əsrdəkilərdən asan olmayacaqdır. İkincisi, ölkənin inkişaf vasitəsi onun siyasi quruluşu, iqtisadiyyatı, bankı, hərbi deyil, **yeni tipli təhsildir.**

Üçüncüsü, təhsil ölkəni **lazımi səviyyədə** saxlamağa qadir olan vasitədir.

Elm üzrə Şuranın Ağ Evə göndərdiyi məruzələrin birində yazılır: «Amerika cəmiyyətinin firavanlığı universitetlərdə işin vəziyyətindən birbaşa asılıdır"».

ABŞ prezidentlərindən birinin fikrincə: **"Amerika universitetləri qüvvətlidir ona görə yox ki, Amerika varlıdır. Amerika varlıdır, ona görə ki, onun universitetləri qüvvətlidir".**

Təhsilin cəmiyyətin sosial strukturunun formalaşmasına təsiri vardır. Belə ki, təhsil səviyyəsi yüksək olduqca fərdlər sosial strukturada da yüksək səviyyələri tuturlar. Bu şərt ödəndikcə cəmiyyət daha öncül mövqe tuta bilir, daha çox **öyrənən cəmiyyətə** çevrilir.

Yapon alimi **Yuasa** dünya dövlətlərini XVI-XX əsrlər arasında bəşəri elmi-texniki tərəqqinin yaranmasında oynadıqları rola görə sıraya düzməyə cəhd etmişdir (Q.M.Dobrov, "Nauka o nauke", Kiev, 1970, str. 266). Burada hər hansı bir ölkədə elmin nisbi səviyyəsinin göstəricisi kimi baxılan dövrdə əldə edilmiş elmi nəticələr əsas götürülmüşdür. Əgər müəyyən zaman kəsiyində bu nəticələr bəşəri elmi uğurların 1/4-dən çoxdursa, onda Yuasa bunu "elmin aktiv mərkəzi""" hesab etmişdir. Yuasaya görə, müxtəlif əsrlərdə "elmin aktiv mərkəzi"" yerini dəyişmiş və bu yer dəyişmə şəkil 6.1-də göstərildiyi kimi İtaliya (XVI əsr), İngiltərə (XVII əsr), Fransa (XVIII əsr), Almaniya (XIX əsr), ABŞ, SSRİ (XX əsr) olmuşdur. Göründüyü kimi Şərq ölkələrinin bu sırada yeri yoxdur. Dünyəvi təhsil dini təhsildən ayrıldıqdan sonra Qərb ölkələrində təhsil və elm sürətlə inkişaf etmişdir. Qeyd etmək lazımdır ki, dünyəvi təhsil Şərq ölkələrində XX əsrin əvvəlindən formalaşmağa başlamışdır. Azərbaycanda ilk müasir universitet 1919-cu ildə Azərbaycan Demokratik Cümhuriyyəti tərəfindən Bakıda yaradılmışdır.

Məlumdur ki, ölkələr sənaye bazalı cəmiyyətlərdən elmi və informasiya bazalı cəmiyyətlərə keçirlər. Belə dövrdə **təhsil**

**səviyyəsinin indeksi** az olan cəmiyyətin müstəqil dövlət şəklində yaşaması gələcəkdə çətin olacaq. Hal-hazırda bu indeks Azərbaycanda kifayət qədər yüksəkdir və 2002-ci il üçün 0,89-a bərabərdir.




is

insan potensialının inkişaf indeksini (İPİ) təyin etmək üçün lazım olan üç indeksdən biridir.

Bu indeksi hesablamaq üçün yaşlı əhalinin savad səviyyəsi (S) və təhsilalan kontingentin ümumi sayı (N) əsas götürülür. BMT-nin inkişaf proqramı çap etdirdiyi **«Doklad o razvitii çeloveka za 2002 qoda»** kitabında Azərbaycan üçün S=0,97, N=0,71 olduğu göstərilmişdir. Beynəlxalq metodologiyaya görə ölkəmiz üçün hesablanmış təhsil indeksi yuxarıda qeyd edildiyi kimi 0,89-a bərabərdir. Azərbaycanda bu indeks ilbəil aşağı düşəcəyi gözlənilir, ən azı ona görə ki, həm orta, həm də ali təhsilin səviyyəsi hər il aşağı düşür və ilbəil təhsildən yayınan kontingentin sayı artır.

Bir neçə il öncə bir türk diplomatından eşitdiyim fikirlə bu paraqrafı yekunlaşdırmaq istəyirəm:

**«İnsan var gündəlik çörəyini əli ilə qazanır. O fəhlədir. İnsan var çörəyini əli və ağlı ilə qazanır. O ustadır. İnsan var çörəyini əli, ağlı və ürəyi ilə qazanır. O ustaddır».**

İnsan mükəmməl təhsil sistemi keçərsə və sənətinə məhəbbəti olarsa, cəmiyyətdə şərəfli mövqe tuta bilər və ustad səviyyəsinə yüksələ bilər.

Hər kəsdən eşitmək mümkündür: «Təhsil millətin gələcəyidir». Bu fikir qüsurludur. Düzgün fikir isə belədir: **«Keyfiyyətli təhsil millətin gələcəyidir».** Kənddə məktəbin olması yox, keyfiyyətli təhsil verən məktəbin olması çox vacibdir. Bir təkəri olmayan avtomaşının kəndə xeyri nə qədərdisə, komplektləşməyən, keyfiyyətsiz təhsil verən məktəbin də xeyri təqribən o qədərdir. Keyfiyyətsiz təhsil verən məktəb millətin xeyrinə yox, zərərinə işləyir.

Bir jurnalist bir dəfə Mustafa Kamal Atatürkdən «Cumhurbaşqanı olmasaydınız nə olmaq istərdiniz?“”- sualına “milli egitimin başına keçmək istərdim”-deyərək cavab verir və bununla da təhsilə böyük əhəmiyyət verdiyini diqqət mərkəzinə çəkir.

## 7.Təhsil sistemi və təhsil müəssisələri

**“Bilməyən və bilmədiyini bilən uşaqdır. Onu öyrədin. Bilən və bildiyini bilməyən yuxudadır. Onu oyadın. Bilməyən və bilmədiyini bilməyən nadandır. Ondan qaçın. Bilən və bildiyini bilən liderdir. Onu izləyin”.**

**Çin misalı**

Böyük alman filosofu İ.Herder dövləti idarə edən qurumu maşına, aparata bənzətmişdir. (Bax: Ş. Əsgərov: “Keçid dövrünə fəlsəfi baxış“”. Bakı, 1998.). Texnokrat baxışına görə **dövlət maşını** ölkənin iqtisadi, intellektual və zaman potensialını xalqın arzusuna, məqsədinə çevirən bir mexanizmdir. Bu maşın yan-yana qoyulmuş üç qab kimi təsəvvür edilə bilər. Birinci qaba iqtisadi, intellektual və zaman potensialı (çox təəssüf ki, Şərq ölkələrində **zaman potensialı** dəyərincə qiymətləndirilmir) tökülür. Üçüncü qaba xalqın məqsədi - xoşbəxt və firavan yaşamaq arzusu toplanır. Orta qab potensialı arzuya çevirən aparatdır, qurğudur. Deməli, arzuya çatmaq üçün hökmən potensial, sonra potensialı arzuya çevirən qurum (mexanizm, qurğu) lazımdır. Potensialın arzuya çevrilmə dərəcəsi bu aparatın faydalı iş əmsalından asılıdır. Faydalı iş əmsalı çox olan aparat daha mükəmməl hesab olunur. Qeyd edək ki, Danimarkada, Yaponiyada dövlət maşınının işlətdiyi potensial, əsasən, intellektual potensialdır. Bizim dövlət maşınının işlətdiyi potensial isə əsasən neft, qaz, kənd təsərrüfatı məhsulları və sairədir. İnkişaf etmiş ölkələrlə, üçüncü dünya ölkələrinin fərqi bundadır.

Bilik, savad dövlət maşınının işlətdiyi potensial olduğundan, dövlət əhalisinin savadlı olmasında maraqlıdır. Ona görə əhalinin (xüsusi ilə gənclərin) təhsil alması üçün xeyli vəsait (2002-ci ildə büdcənin 22%-ni) ayırır. Dövlət bu pulun

vətəndaşların biliyinə çevrilməsi üçün **qurumlar** təsis edir. Bu qurumların ən böyüyü **Təhsil Nazirliyidir**. Bu niyyətlə Təhsil Nazirliyi özü də çoxlu sayda qurumlar təsis edir. Təhsil nazirliyinin əsas vəzifəsi dövlətin təhsilə ayırdığı pulu gənclərin biliyinə çevirməkdən ibarətdir.

Deməli, Təhsil Nazirliyi dövlət maşınının bir hissəsi olmaqla bərabər, dövlətin təhsilə ayırdığı maliyyə və maddi vəsaitləri gənc nəslin biliyinə çevirən bir maşındır, aparatdır. Bu maşın çoxsaylı hissələrdən (təhsil müəssisələrindən) - uşaq baxçaları, orta məktəblər, universitetlər və digər təhsil qurumlarından ibarətdir.

Təhsil müəssisələrinin, xüsusən məktəbin cəmiyyət üçün əhəmiyyəti, millətin taleyində oynadığı rolunu Məhəmməd Hadi qədər, hesab edirəm ki, heç kəsə sərrast ifadə etmək nəsib olmamışdir:

Məktəb nə demək? Xadimi-qüdsiyyəti-millət
Məktəb nə demək? Baisi- ülviyyətü şövkət,
Məktəb nə demək? Cilvəgəhi-nuri-həqiqət,
Məktəb nə demək? Rəhbəri-irşadü səadət.
Övladi-vətən etmək üçün bizdə təali
Məktəblər açıb kəsb edəlim elmü kəmali!

Məktəbin insan həyatında rolunu məncə bundan düzgün qiymətləndirmək mümkün deyildir.

Təhsilimizə dövlət tərəfindən ayrılan vəsait ilbəil artır, 2002-ci ildə bu vəsait təqribən 1082 mld. manatdan çox olmuşdur. Qeyd edək ki, müharibə şəraitində yaşamağımıza baxmayaraq, dövlət təhsilə müdafiədən çox pul xərcləyir.

Azərbaycan Respublikasının dövlət büdcəsindən son illərdə təhsilə və elmə ayrılan vəsait aşağıdakı cədvəldə milyon manatlarla göstərilmişdir.

**Cədvəl 7.1**

| İllər | Təhsil | Elm |
|---|---|---|
| 1999-cu il | 860212,5 | 43378,1 |
| 2000-ci il | 955270,2 | 50926,2 |
| 2001-ci il | 1011133,0 | 58521,8 |
| 2002-ci il | 1082269,6 | 61705,1 |
| 2003-cü il | 1216265,8 | 89546,0 |

Gənclərə təhsil vermək prosesi praktiki olaraq bütün ölkələrdə üç pilləyə bölünür. Təhsil prosesi ilk (ibtidai) təhsillə başlayır və ali təhsillə yekunlaşır. Bu iki pillə arasında orta təhsil durur. Adından da göründüyü kimi ali təhsillə təhsil prosesi başa çatır. "Ali"" sözü ona işarədir ki, seçilmiş ixtisasla bağlı həmin dövr üçün məlum olan biliklər tam öyrədilməlidir. Bu səviyyə bütün ölkələrdə təqribən bir-birinə bərabər olmalıdır və beynəlxalq standart hesab olunur. Ali məktəblərin nüfuzu bu səviyyə ilə müəyyənləşir. Yəni ali təhsil, təhsilin zirvə səviyyəsidir. Orta təhsil pilləsi ilk məktəblə ali məktəbin ortasında yerləşdiyi üçün "orta məktəb"" adlanır. Ancaq ali məktəbdən sonra da təhsil almaq olar və vacibdir.

Eynşteynə görə insanın anadan olduğu və öldüyü gün onun əlində deyil. Bu iki nöqtə arasındakı zaman məsafəsi isə isanın öz əlindədir. Çünki **Həzrəti Peyğəmbərimizin** buyurduğu kimi insan bu iki nöqtə arasında (**beşikdən qəbirə kimi)** təhsil almalıdır.

Həm öz təcrübəmiz, həm də bəşəri təcrübə göstərir ki, məktəbəqədər təhsildən ilk təhsilə qədərki təhsil müəssisələrinin varlığı uşaqların daha harmonik və dünyagörüşlü böyüməsinə kömək edir.

Təhsil sisteminin əhatə dairəsi həm struktur, həm də kontingent baxımından çox böyükdür. Belə nəhəng sistem elmi müddəalar, milli-bəşəri dəyərlər və prinsiplər əsasında yaradıla və idarə oluna bilər. Bu səbəbdən də təhsilin nəzəri əsasını,

fəlsəfəsini bilmək çox vacibdir. Əks halda təhsil maşını dövlətin təhsilə ayırdığı vəsaiti biliyə çevirə bilməz.

Yuxarıda qeyd edildiyi kimi təhsilin tarixi çox qədimdir və təhsil sistemi isə nəhənk sistemdir. Bu sahədə güclü yenilik etmək çox çətindir. Radikal dəyişikliklər faciə ilə nəticələnə bilər.

## 8. Təhsildə keçidlər

*"Savadlı, iradəli, bilikli, bacarıqlı, dəyanətli, mərd gəncləri olmayan bir ölkənin gələcəyi ola bilməz".*

**Heydər Əliyev**

Təhsil prosesi fasiləsiz, kəsilməz olmaqla bərabər, çoxsaylı keçidlərlə müşahidə olunur. Təhsil sisteminin uğurları, həm də bu keçidlərin hüquqi, pedaqoji, etik baxımdan vaxtında ciddi və güzəştsiz aparılmasından asılıdır. Bu keçidlər imtahanlarla müşayət olunmalıdır və bu imtahanlar süzgəc (və ya çəpər) rolu oynamalıdır ki, yuxarı təhsil pilləsinə bilik, intellektual və əxlaq səviyyəsi az olan gənclər buraxılmasınlar. İdeyaya görə, yuxarı pilləyə keçə bilməyənlər təkrar sinifdə qalmaqla öz kəsir və qüsurlarını növbəti tədris ilində düzəltməlidirlər.

Hal-hazırda təhsil sistemində bu keçidlər formal aparılır və demək olar ki, məqsədinə xidmət etmir. Təhsil sistemində keyfiyyət və mənimsəmə göstəricisinin aşağı olmasının əsas səbəbini burada axtarmaq lazımdır.

Uşaq bağçasından ilk (ibtidai) məktəbin 1-ci sinifinə daxil olmaq, bu keçidlərin **birincisidir.** İlk məktəbin sonuncu sinifindən baza təhsilinə keçid, keçidlərin **ikincisidir.**

**Üçüncü** keçid- baza təhsilindən (IX sinifdən) tam orta təhsilə keçiddir.

Mənim subyektiv fikrimə görə, Konstitusiyamızla verilən icbari ümumi orta təhsil almaq hüququ baza təhsil ilə yekunlaşmalıdır. Bu problemin həllində ingilis təhsil sistemini örnək götürmək olar.

Bu sistemdə baza təhsilini başa vuranlara "0" səviyyəli əsas təhsil sertifikatı verilir (General Certificate of Education "0"" level). X-XI sinifləri qurtaran şagirdlərə "A"" səviyyəli əsas təhsil sertifikatı verilir (General Certificate of Education, "A""

level). Şübhəsiz, "A"" səviyyəli sertifikat alanlarla müqayisədə "0"" səviyyəli attestat alanların ixtisas seçmə imkanı məhduddur.

Konstitusiyamızın 42-ci maddəsi yeni ictimai-siyasi şəraitə uyğun şərh tələb edir. Bu problemin həlli yolları professor S.Xəlilovun "Təhsil strateji sahədir" məqaləsində (Azərbaycan qəzeti, 23.02.99) göstərilmişdir. Hesab edirəm ki, bu nöqteyi-nəzər milli, fəlsəfi və elmi baxımdan düzgündür.

Baza təhsilindən sonra adi məktəblərlə bərabər müxtəlif ixtisaslaşmış məktəblər, liseylər də fəaliyyət göstərə bilərlər. Rəngarənglik nə qədər çox olarsa bir o qədər yaxşıdır.

Gənclərin həyatında həlledici keçid - **dördüncü** keçid orta məktəbin buraxılış imtahanları zamanı baş verir. Bu imtahanlarla gəncin bilik səviyyəsi qiymətləndirilir. Bu imtahanların məxsusi cəhəti ondan ibarətdir ki, bu imtahanı keçən şagirdlərə dövlət sənədi sayılan «**Attestat**» verilir. Orta məktəbi əla qiymətlə bitirənlər əvəllər "qızıl"" və ya "gümüş"" medallar alardılar. Təhsilin liberallaşması bu praktikanı yenidən gündəmə çıxarır. Gənclərin 11 illik bilik marafonunda çempionları müəyyən etməmək və mükafatlandırmamaq, qiymətləndirməmək düzgün deyil.

Gənclərin həyatında digər vacib keçid **beşinci** keçid - orta məktəbdən ali məktəbə keçiddir. Sovetlər dövründə orta məktəbi qurtaran şagirdlərin üçdən biri ali məktəbə daxil olurdu. İndiki zamanda bu nisbətin az olması çox qorxulu deyil, ona görə ki, bizim əsas məqsədimiz talantlı gəncləri itirməməkdir. Ali məktəblərdə yerlər kifayət qədərdir və belə gəncləri itirmək qorxusu az ehtimallıdır. Bu keçid test imtahanları ilə reallaşır. Şübhəsiz, gələcəkdə əhalinin hər 10 min nəfərinə düşən tələbə sayını artırmaq dövlət tərəfindən diqqət mərkəzində saxlanılmalıdır. Sovetlər zamanı Ali məktəbi qutaran hər bir gənc işlə təmin edildiyindən digər keçidlərlə müqayisədə bu keçidə ictimai maraq daha çox idi.

**Altıncı keçid** - ali məktəbi qurtardıqda baş verir. Bu keçid "*bakalavr*" ixtisas dərəcəsi almaq üçün dövlət imtahanları ilə

yekunlaşır. Bu barədə yuxarıda geniş söhbət getdiyindən təkrara ehtiyac yoxdur. Bu pilləni uğürla bitirən tələbələrə dövlət sənədi olan «**Diplom**» verilir.

Növbəti **keçid-** "bakalavr"" ixtisas dərəcəsi alandan sonra və ya istehsalatdan ***magistraturaya*** qəbul zamanı baş verir. Bu keçiddən sonra təhsil prosesinə elm hadisəsi qovuşur və bir-birini qarışıqlı zənginləşdirir. Magistr elmi rəhbəri tərəfindən onun qarşısında qoyulmuş elmi problemi həll edə bilməlidir və nəticələrini elmi məqalə kimi çap etdirməyi bacarmalıdır. Aydındır ki, bir elmi iş yazan magistr ikincisini də, üçüncüsünü də yaza bilər. Elm evinin qapısını bir dəfə açan gənc, onu növbəti dəfə də aça bilər. Bu səbəbdən də magistraturadan sonra yeni bir təhsil pilləsinə ehtiyac qalmır. Elmi iş aparmağı, nəticələrini çap etdirməyi bacaran magistr üçün təzədən xərc çəkib, təhsil mühiti yaratmaq, ona dərs keçib elmi iş yazmağı öyrətmək, həm iqtisadi, həm də digər baxımdan məqsədə uyğun deyildir.

Bu keçidlər dövründə təhsil ocağının əsas məqsədi uşaqları, yeniyetmələri, gəncləri öyrətməkdir. Birinci keçiddən sonra məktəb uşaqlara *oxumağı, hesablamağı* öyrədir. Sonrakı keçidlər müddətində təhsil ocağının məqsədi gənclərə *bilik* öyrətməkdir.

**Səkkizinci keçid-** ya magistr səviyyəsindən, ya da istehsalatdan *doktoranturaya* (aspiranturaya) keçiddir. Bu keçid *təhsil-elm* hadisəsindən *elm* hadisəsinə keçiddir. Maqistratura ilə təhsil prosesi yekunlaşır. Doktorantura təhsil prosesi deyil, elmi dəyərli prosesləri və hadisələri ciddi araşdırma imkanıdır. Doktorantura dövlət tərəfindən tədqiqatçıya intensiv elmi iş aparmaq üçün yaradılmış şəraitdir. Belə olan halda tədqiqatçı özünü elmə daha çox həsr edər, elmi səviyyəsini yüksəldər, elm inkişaf etdirir, son nəticədə universitetlərimiz daha yüksək səviyyəli elmi-pedaqoji kadrlarla zənginləşər.

Gənclərimizin bilikli, bacarıqlı, iradəli, savadlı və mərd olmaları üçün təhsildə olan bu keçidlər, keçid imtahanları ədalətlə, obyektiv və vicdanla aparılmalıdır. Bunu ölkəmizin

gələcək taleyi tələb edir. Qurani-Kərimin bir ayəsində deyilir: **«Ölçüdə və qiymətdə aldadanların vay halına».**

Müqəddəs kitabımızın bu ayəsinə müəllimlərimiz riayət etməlidirlər.

Bu keçidlərdən sonra dövrün tələbinə uyğun daimi **özünütəhsilləndirmə** prosesi başlayır. Öz ixtisasını mükəmməl bilən alim və ya müəllim qonşu və qohum ixtisasları da öyrənməyə maraqlıdır. Çünki bu üfqi keçidlərin də elmdə rolu çox böyükdür. Elmlərin kontaktında böyük elmi uğurlar qazanmaq mümkündür.

Vətənpərvərliyi, milliliyi özündə əxz edən keyfiyyətin əxlaq toplananı bütün ciddiliyi ilə keçidlərdə nəzərə alınmalıdır.

## 9. Sovet təhsili: fəlsəfəsi, uğurları və qüsurları

*"Azərbaycanda 1920-ci ildən indiyə qədər mövcud olan təhsil sistemi sovet təhsil sisteminin bir hissəsidir".*

**Heydər Əliyev**

Bugünkü dünyəvi təhsil sistemi təkamül yolu ilə qərarlaşmışdır. Sovet təhsil sisteminin əsasında qurulan təhsil sistemimiz bir çox on illər ərzində inkişaf edərək, milli fəxr yerimizə çevrilmişdir. Keçid dövrünün başlanğıcına qədər dünya ölkələrinin çoxu üçün problem olan bir çox təhsil problemləri milli təhsil sistemində öz həllini uğurla tapmışdır. Beləki:

- əhali tamamilə təhsilə cəlb edilmişdir;
- qadın və kişilərin təhsilalma əmsalları təhsilin müxtəlif səviyyələrində yüksək idi;
- məktəbdə yüksək əmək intizamı mövcud idi;
- məktəblər, təhsilalanlar dərslik və dərs vəsaitləri ilə təmin edilmişdir;
- beynəlxalq olimpiadalarda təhsilalanlar yüksək nailiyyət qazanırdılar;
- sinifdəqalma əmsalı az idi;
- təhsildən kənarda qalmamaq qanunla qorunurdu.

90-cı illərin əvvəllərində sosialist lagerini iqtisadi böhran bürüdü. Əsas səbəb qeyri rentabelli müəssisələrin çoxluğu və müasir bank sisteminin olmaması idi.

İqtisadi böhran əhalini sürətlə kasıblaşdırdı. İlk baxışda təhsil sistemi bu prosesdən kənarda qaldı. Dünya Bankının mütəxəssislərinin fikrincə, hal-hazırda MDB ölkələrinin çoxunda təhsil **gizli böhran** vəziyyətindədir.

Sovet təhsil sistemi bəşəri təhsil sisteminin prinsipləri əsasında qurulmasına baxmayaraq, məxsusi cəhətlərə malik idi. Sovet təhsil sisteminin fəlsəfi əsası və bu əsasda aparıcı müddəası bundan ibarət idi ki, **kütləni** təhsilləndirsin, bununla da **fərdlərin**

təhsil səviyyəsini yüksəltsin. Yəni cəmiyyətin təhsil səviyyəsini yüksəltmək üçün diqqət mərkəzinə şəxslər yox, kütlə çəkilirdi. Bayrağında oraq və çəkicin şəkli olan cəmiyyət marksizmdən bəhrələnərək oraq və çəkicin daşıyıcılarını özünün xilaskarı hesab etdiyindən **kütlənin** təhsilli olmasına çalışırdı. Dövlət bu konsepsiyaya sadiq qalaraq hər kənddə, obada məktəb açmışdı, necə deyərlər, Məhəmməd dağa tərəf getmirdi, dağ Məhəmmədə tərəf gəlirdi. «Rabfaklar», axşam fakültələri, şəhərlərdə yataqxana şəbəkələri həmin konsepsiyanın həyatda yaşamasının təzahür formaları idi. Bu konseptual müddəa sovet təhsilinə beynəlxalq uğur gətirmişdir.

Sovetlər zamanında təhsilin **üfqi** istiqamətdə inkişafı aparıcı idi və dövlət siyasəti səviyyəsinə yüksəldilmişdi. Bu sistemdə **kəmiyyət** əsas göstərici kimi çıxış edirdi. Sovet dövləti bunu pulunun çoxluğundan etmirdi. Bunun siyasi səbəbi var idi. O da bundan ibarət idi ki, **sosial ədalətli** bir cəmiyyət qurmaq kimi tarixi missiyanı öz üzərinə götürmüş proletariatın övladlarını savadlandırsın.

Orta məktəb təhsilində «depersonlaşma» ideyası bu gün təhsildə baş verən bütün qüsurların əsas səbəblərindən biridir.

Sovet təhsil sistemi təhsilin **şaquli** inkişafına, yəni **keyfiyyətə** lazımi diqqət yetirmirdi. ABŞ-ın bir universitetində işləyən Nobel mükafatı laureatlarının sayı bütün sovetlər ölkəsindəkilərdən çox idi. Kəmiyyət-keyfiyyət münasibətləri keyfiyyətin yox, kəmiyyətin xeyrinə inkişaf edirdi.

Sovet təhsil sistemi **forma** və **məzmun** baxımından bəşəri təhsil sisteminə anoloji idi. Ancaq təhsilin məzmununda sosialist, kommunist ideyaları üstün yer tuturdu.

Sovet təhsilində **liberal** və **demokratik** dəyərlərin tətbiqi yox dərəcəsində idi. İdarəetmə şaquli ox üzərində qurulmuşdur. Ucqar dağ rayonunun kənd ibtidai məktəbinin direktorunu da Bakıda nazir təyin edirdi. Hər universitet rektorunun üzərində çoxqat nəzarət var idi. Sovet dönəmində təhsilin inkişafında cəmiyyətin rolu demək olar ki, yox dərəcəsində idi.

Sovet sisteminin mahiyyətindən doğan qüsurlar, problemlər də təhsil sistemində az deyildi. Ən böyük qüsurlardan biri də təhsilin məzmunu ilə bağlı idi. Orta təhsilin məzmunu **“orta sovet adamı“** yetişdirməyə yönəldilmişdi. Bu təhsildə millilik az, kosmopolitizm çox idi. Sovet təhsili Pavlik Morozovu gənclərə nümunə kimi təblğ edirdi. Təhsildə ənənəçilik yox dərəcəsində idi. Bu təhsilin yaratdığı qüsurları biz Qarabağ münaqişəsinin gedişində əyani olaraq gördük. Adi şəxsdən ali şəxsə kimi hamının danışığında ikiüzlülük, ikili standartlar, şəxsi mənafe üstünlük təşkil edirdi.

Sovet dövründə Respublikanın Təhsil Nazirliyi öz fəaliyyətində əsasən ***təyinedici*** və ***paylayıcı*** funksiyaları yerinə yetirirdi. Bunu isə ölkəmizdə müstəqil yox, yarımmüstəqil dövlət olması ilə izah etmək olar. Çünki Respublika Təhsil Nazirliyi öz fəaliyyətində lazım olan elmi-nəzəri müddəaları, əsasnamələri özü hazırlamırdı, mərkəzdən hazır şəkildə alırdı.

Təhsil müqəddəs fəaliyyət sahəsi olduğundan burda uğurlar da, qüsurlar da düz söylənməlidir. Keçid dövrünün yaratdığı şəraitdin istifadə edib pisə yaxşı, yaxşıya isə pis demək olmaz. Burda qüsurlara göz yummaq və ya onu təkrarlamaq yolverilməzdir.

## 9.1 Uğurlar

Demək olar ki, hamımız sovet təhsil sistemində təhsil almışıq, ondan bəhrələnmişik və ondan da imtina etmişik. Sovet təhsil sistemi Yer kürəsinin böyük bir hissəsində savadsızlığı ləğv etmişdir, dəyərli alim, mühəndis, həkim, müəllim ordusu yaratmışdır. Ancaq çox təəssüf ki, kifayət qədər biliyi olmayanlar da diplom əldə edə bilmişlər. Sovet təhsil sisteminə məhz bu cür hərəkətlər gölgə salmışdır. Ola bilsin ki, SSRİ-nin dağılmasında bu faktor da böyük rol oynamışdır.

Təhsildə uğurlarımız da az deyildir. Əhalimizin 100% savadlı olması bizim ən böyük uğurumuzdur. Orta təhsilin icbari olması, gənclərimizin 1/3 hissəsinin ali məktəblərdə təhsil alması,

əhalinin hər 10 min nəfərinə düşən tələbə sayının 176 (1982-ci il) nəfər olması sovetlər dönəmində təhsil sahəsində qazandığımız uğurlardandır.

1991-ci ilin əvvəli üçün əhalimizin təhsil səviyyəsi haqqında statistik məlumat aşağıda göstərilmişdir:

Əmək qabiliyyətli əhalinin sayı: 4309 min nəfər.

o cümlədən:

- tam ali təhsilli 523 min;
- natamam ali təhsilli 95 min;
- orta ixtisas təhsilli 709 min;
- ümumi orta təhsilli 2055 min;
- natamam orta təhsilli 927 min nəfər olmuşdur.

Bu uğurların əsas baza səbəblərindən biri də bundan ibarət idi ki, sovet təhsil sistemində müəllimin və alimin cəmiyyətdə **sosial statusu** və rolu yüksək tutulurdu və bu konseptual xəttə 1950-ci illərin sonuna kimi sadiq qalındı. Elin, obanın hörmətli insanlarına da **"müəllim"** deyirdilər. Azərbaycanda ilk Lenin ordeni məhz müəllimə verilmişdir.

Sovet quruluşunun ilk onillikləri dövründə müəllimin əmək haqqının yüksək olması, təhsil müəssisəsinin ədalətli idarə edilməsi, Rusiya təhsil sisteminin inqilabdan qabaqkı müsbət ənənələrinin davam etdirilməsi, qızıl, gümüş medallarla əlaçı məzunların təltif edilməsi, tələbələrə təqaüdlərin verilməsi təhsil mühitini münbit edirdi, təhsil müəssisələri, demək olar ki, qüsursuz fəaliyyət göstərirdilər. Adlı-sanlı məktəb kollektivləri yaranmışdır. Elə məktəblər var idi ki, buraxılış sinfinin 20-30% məzunu məktəbi medalla qurtarırdı.

Müəllim və alimin qüsursuz, uğurla işləməsi üçün hər cür şərait yaradılmışdı. Universitetlərdə haqqın, gerçəkliyin əsasını təşkil edən biliklər əldə edilir, məktəblərdə bu biliklər gənc nəslə öyrədilirdi. Bu səbəbdən də **elm-təhsil** müəssisələri **məbəd** statusunda fəaliyyət göstərirdi.

Müəllimlər və alimlər dövlət qayğısına fədakar əməkləri ilə cavab verirdilər. Təkcə sovet fiziklərinin əməyi nəticəsində tarixi şəraitin diqtəsi altında 1947-ci ildə atom, 1952-ci ildə hidrogen bombaları ixtira edildi. 1957-ci ildə Yerin ilk sputniki, sonralar ilk bəşər övladı kosmosa göndərildi. Bu uğurlar sovet təhsilinin nəticələri idi. ABŞ kimi super dövlət sovetlərin bu uğurlarından sonra ilk növbədə öz təhsil sistemini yenidən nəzərdən keçirdi və təftiş etdi.

Uğurlarımızdan çox danışmağı sevdiyimizdən onlar ictimaiyyətə yaxşı məlumdur. Təkcə BDU-nun timsalında demək olar ki, universitetdə 250 nəfərdən çox professor, 700 nəfərdən çox elmlər namizədi, ümumiyyətlə, 1250 nəfərdən çox müəllim 17 fakültədə 110-dan çox kafedrada təhsil prosesi ilə məşğuldur. Universitetin bir çox alimləri dünyanın aparıcı alimləri sırasındadır. Onların elmi məqalələri, əsərləri həmkarlarına yaxşı məlumdur və ixtisasçılar tərəfindən hörmətlə qarşılanır və öyrənilir. Müqayisə üçün qeyd edək ki, 1921-ci ildə Azərbaycanda ali savadlıların sayı cəmi 62 nəfər olmuşdur.

70-ci illərdə elitar fakültələrdə fəhlə və kəndli balalarının nisbi sayı azalanda, quruluş öz fəlsəfi əsasına sadiq qalaraq ali təhsil ocaqlarının hamısında fəhlə və kəndli balalarının ali təhsil alması üçün **hazırlıq fakültələri** açmışdı. Bu qurum fəhlə və kəndli balalarının nüfuzlu ixtisaslara qəbul olmasına kifayət qədər şərait yarada bildi. Əslində bu fakültələrin açılması 1950-ci illərlə müqayisədə 70-ci illərdə orta təhsilin keyfiyyətinin aşağı düşməsinin dövlət tərəfindən etirafı idi. Düzgün olardı ki, hazırlıq fakültələrinin açılması əvəzinə, orta təhsildə keyfiyyətin qaldırılması nəzarətə götürüləydi.

Müdriklərin fikrincə problemin olmasından yox, olmamasından narahat olmaq lazımdır. Çünki həll olunmuş problemlər, həlli vacib yeni problemlər yaradır. Bu isə inkişaf deməkdir. Problemlər nə qədər masştablı olarsa və həllini taparsa, inkişaf daha sürətli olar. Ən vacib şərt problemi görmək və həll etməkdir. Digər vacib şərt qüsurları görmək və gizlətməməkdir.

Akademik Y.B.Xoritonun fikrincə: **“Hər bir kəs səhv edə bilər. Əsas odur ki, səhv təkrar olmasın. Səhvləri malalamaq yaramazlıqdır“.** Ədalətli və yadda saxlamalı fikirdi.

**9.2 Qüsurlar**

Azərbaycan həm inkişafının müasir səviyyəsinə, həm də uğursuzluqlarına görə öz təhsil sisteminə borcludur. Son 100 ildə qarşılaşdığımız faciələr və əldə etdiyimiz uğurlar təhsilimizlə bağlıdır. Son 10 ildə təzadlı hallarla qarşılaşmışıq. Biz özümüzdən sayca az və iqtisadi cəhətdən zəif olan ermənilərə torpaq uduzmuşuq. Bu təzadlı hallar ona görə baş verib ki, biz içərisindən keçdiyimiz ictimai-siyasi hadisələrin, proseslərin **subyekti yox, obyekti olmuşuq.** Bunun səbəbi təhsil sistemimizdə qüsurların və milli **təhsil indeksimizin** (bax §6) nisbətən az olmasıdır. Təhsilimiz qüsursuz olsaydı səhv qərarlar yox, düzgün qərarlar qəbul edərdik və Qarabağ problemində uduzmazdıq. Ermənilər Qarabağdan qat-qat çox torpaqları «göz qırpımında» bizdən oğurlayıblar. Əgər Dağlıq Qarabağ torpaqlarını 14 il ərzində geri qaytara bilmiriksə, burada təhsilimizin də günahı böyükdür.

Sağlam düşüncəyə uyğun olaraq təhsildə uğurlarımızdan çox xəstə problemlərimiz haqqında danışmağımız faydalı olardı. Təhsil sistemində tənəzzül və qüsurların həm obyektiv, həm də subyektiv səbəbləri var. Bir tərəfdən keçid dövrü çətinliklər, problemlər yaradır, digər tərəfdən də mənəvi cəhətdən qüsurlu, müstəqilliyin yüksək nemət olduğunu başa düşməyənlər, institutu zorla qurtarmışlar, ixtisasında qeyri-kompitent, funksiyasında savadsız insanlar özlərini təhsilin idarəetmə strukturlarında yerləşdirə bilmişlər.

Sovet təhsil sisteminin ən qüsurlu cəhəti bundan ibarət idi ki, ali məktəbə qəbulu diqqət mərkəzində saxlayırdı, dövlət adından ali məktəbin verdiyi diplomun səviyyəsi aşağı idi.İctimai şüurda yer almış «O, inistitüu qutarmadı, inistitut ondan qutardı» deyimi real həyatdan bəhrələnirdi. Ali məktəblərin rektorlarının, partiya təşkilatı katiblərinin, dekanların tez-tez təkrar etdikləri

**“pis tələbə yoxdur, pis müəllim var“** prinsipi, bəlkə də təhsildə keyfiyyəti aşağı salan başlıca səbəblərdən biri idi. Heç bir müəllim “pis müəllim“”” statusunu boynuna götürmək istəmirdi, bilənə və bilməyənə, tapşırılana və ya pul verənə qiymət yazırdı. Dövlət diqqət mərkəzində qəbul imtahanlarından daha çox, dövlət imtahanlarından saxlamalıdır. Başqa sözlə, dövlət tələbə biletinin yox, verdiyi diplomun məsuliyyətini daşımalıdır.

Ali məktəbə qəbul ətrafında ajiotaj baş verirdi. Ölkədə ali təhsil müəssisələrinin süpürgəçisindən tutmuş nazirə qədər hamı avqust ayında qəbulla məşğul olurdu. Qəbul bütün güc strukturlarının diqqət mərkəzində saxlanılırdı. Bu inzibati-partiya nəzarətindən də çoxlu qüsurlar törəyirdi.

Təhsildəki qüsurları iki qrupa bölmək olar: **əsas və törəmə qüsurlar.**

**Əsas qüsurlar** təhsilin konseptual müddəalarından uzaqlaşdıqca yaranmışdı. N.Xuruşşov zamanında a**limin, müəllimin** cəmiyyətdə **sosial statusu** zaman-zaman xeyli aşağı düşmüşdü. Yəni təhsilin **konseptual** müddəalarının birindən imtina edildi. Bunun əvəzində aqronom və zootexnikin **sosial statusu** ön plana çəkildi və müəllimin statusundan üstün tutulurdu. Cəmiyyətdə müəllimin sosial statusu aşağı düşdükcə sistemə rüşvət daxil olurdu. Bunun nəticəsində sovet təhsil sistemi getdikcə zəiflədi, cəmiyyətdə mənəvi çürümə, deqradasiya başladı. Müəllim gülüş hədəfinə çevrilirdi. Bəzi valideyinlər “uşağıma dəymə, oxuyar adam olar, oxumaz müəllim olar“” sözlərini dilə gətirirdi. Müəllimin gözü valideynin cibinə dikildi. Təhsil sistemində deqradasiya prosesi 50-ci illərin sonundan başlayaraq, uşaq bağçalarından universitetlərə kimi bütün sferalara yayıldı.

1960-cı illərdən sonrakı dövrlərdəki təhsil sitemində ən böyük qüsur dövlətin ayırdığı pulun **biliyə çevrilməməsi** və yaxud pis çevrilməsidir. Başqa sözlə, Təhsil Nazirliyinin öz məqsədinə zəif qulluq etməsidir. Ədəbiyyatı tarixdən, cəbri həndəsədən, mübtədanı xəbərdən ayıra bilməyənlərin, nəinki

kamal attestatı, hətta **institut diplomu** əldə etmək imkanı vardı. On illərlə xarici dil, rus dili dərsləri keçilməsinə baxmayaraq gənclər nəinki orta məktəbi, hətta ali məktəbi qurtarandan sonra da xarici dil bilmirdilər. Bu deyilənləri ixtisas fənlərinə də şamil etmək olar. Təhsil maşınının faydalı iş əmsalı ilbəil aşağı düşürdü.

Digər fundamental qüsur təhsilin **üfqi** və **şaquli** istiqamətdə inkişafı arasında, fəlsəfi dillə desək **kəmiyyətlə keyfiyyət** arasında vəhdətin pozulması ilə bağlıdır. Qeyd etmək lazımdır ki, prof. S.Y.Xarçenkonun (Ukrayna) fikirincə təhsil insan fəaliyyətinin elə unikal sahələrindəndir ki, burada kəmiyyət keyfiyyəti artırmır, əksinə azaldır. Ölkədə məktəb şəbəkəsinin genişlənməsi (yəni kəmiyyət göstəricisinin artması), maliyyə resursunun artması ilə müşahidə olunmurdu. Sadə dildə desək, təhsilin şaquli istiqamətdə inkişafına lazımı diqqət verilmirdi. Forma və məzmunca orta məktəblər yeknəsəng idilər. Nə orta məktəb imtahanları, nə də ali məktəb imtahanları məqsədinə xidmət etmirdi, biliklərin qiymətləndirilməsi obyektiv aparılmırdı, formal xarakter daşıyırdı.

Digər fundamental qüsur pedaqoji kadrların hazırlanması ilə bağlıdır. Cəmiyyətdə müəllimin sosial statusunun aşağı düşməsi nəticəsində pedaqoji institutlara orta məktəb məzunlarının zəif hissəsi qəbul olunurdu. Zəif tələbə kütləsi zəif bilikli müəllimlərə çevrilir, onlar da öz növbəsində zəif bilikli şagird kütləsi hazırlıyırdılar. Bu səbəbdən də son illər də test imtahanlarında məzunlar hər il əvvəlki illərdən zəif bilik səviyyəsi nümayiş etdirirlər. Çox təəssüf ki, bu prosesə diqqət verilmir. Bu fonda qocaman dəyərli müəllimlərin nüfuzu çox yüksək tutulmalıdır.

Bu fundamental qüsurlardan çoxlu sayda **törəmə qüsurlar** meydana gəlirdi. Belə törəmə qüsurların bəzilərinin üzərində dayanaq:

**Rüşvət.** Rüşvət – vəzifəli şəxsin (məmurun) öz vəzifə səlahiyyəti daxilində rüşvət verənin xeyrinə gördüyü işin

müqabilində aldığı pul, qiymətli əşya, mülk və digər şeylərdi. Vəzifəli şəxs rüşvət alaraq dövlət mənafeyini öz şəxsi mənafeyinə qurban verir. Dövlət zəifləyir, müqavimət qüvvəsi azalır. Vətəndaşın dövlətə inamı  zəifləyir. Rüşvətin nəticəsində qazanan (heç bunu qazanmaq da saymaq düz deyil, ölkəmizin rüşvətlə varlanan bir çox adamları xaricdədirlər, heç Vətənə dönə bilmirlər) rüşvəti verən və alandır. İtirən isə dövlətdir.

Mənim qənaətimə görə, rüşvət kütlənin mənafeyinin şəxsi mənafeyə qurban verilməsidir. Bu səbəbdən də rüşvətxor məmuru kütlə sevməz. Kütlənin mənafeyini mənimsəmək cinayətdir. Milli qəhrəmanlığa diametral əks hadisədir, çünki qəhrəmanlıq fərdin kütlə yolunda özünü fəda etməsidir. Hər bir həqiqi ziyalı ümumxalq mənafeyini şəxsi mənafedən yüksək tutmalıdır. Dövlət rüşvətə qarşı ciddi mübarizə aparmalıdır.

**Təhsildə rüşvət:** Müşahidələr göstərir ki, rüşvətxor müəllimə maraqlı deyil ki, şagird, tələbə dərsə gəlsin, dərsin öyrənsin, əks halda o, rüşvət ala bilməz. Bu cür xislətli müəllimlər dərsi mürəkkəb deyir, həm də əlaçı tələbəyə və ya hörmətli müəllim övladına imtahanın başlanğıcında 2 yazır ki, sinfi (qrupu) şoka salsın, sonra pul yığsın.

Rüşvətin cəmiyyətə, dövlətə vurduğu ziyan və zərbələr haqqında fikirlərimi "Keçid dövrünə fəlsəfi baxış"" kitabımda (Bakı, 1998, s.61)  söyləmişəm.  Əlavə qeyd etmək istəyirəm ki, rüşvət müstəqilliyimizin əleyhinə işləyən amansız qüvvədir. Azərbaycanın müxtəlif adlı, ünvanlı xarici düşmənlərindən heç biri onu diz çökdürə bilmədi. Amma rüşvət daxildən müstəqiliyyə böyük ziyan vura bilər.

Dövlət, cəmiyyət, məmur olan hər yerdə, hər ölkədə prinsipcə rüşvət vardır. Dövlətin nizam-intizamından asılı olaraq, müxtəlif ölkələrdə bu prosesin masştabı müxtəlifdir. Dünyanın ən sivil, inkişaf etmiş ölkəsində də rüşvət müşahidə olunur. Amma bu ölkələrin təhsilində rüşvət yoxdur.  Azərbaycan təhsilində rüşvətin miqyası genişdir. Azərbaycan təhsilində rüşvətin olmasından çox narahat olmağa bəlkə də dəyməz. Ona görə ki,

keçid dövrüdür, çətinliklər var və bu proses öz-özlüyündə aradan götürülməsinin zamana ehtiyacı vardır. Azərbaycan təhsilində olan rüşvətin heyrətləndirici cəhəti ondan ibarətdir ki, rüşvətxor təhsil şöbəsinin müdirini, məktəb direktorunu bəzi səlahiyyətli məmurlar müdafiə edirlər. Onların fəaliyyətlərinə nəzarət etməli olanlar, onların himayadarlarına çevriliblər. Təhsildə rüşvətə qarşı ictimai mübarizə başlanmalıdır. Rüşvətin təsiri altında məktəb əldən gedə bilər. Şagirdlər və valideynlər məktəbdən üz döndərərlər. Valideynlərdən «Oğul mənimdir əgər, oxutmuram əl çəkin» sözlərini eşitmək mümkündür. Bizim bugünkü məktəbin, müəllimin taleyini keçən əsrin əvvəllərindəki ruhani məktəblərinin, mollaların taleyi gözləyir.

Azərbaycan təhsilində "rüşvət"" sağlam düşüncəyə ziddir və bu səbəbdən də zərərli bir fenomendir. Nə qədər rüşvət verilib-alınır, o qədər bilik itirilir, mənimsənilmir: dil öyrənilmir, şer əzbərlənmir,kimyəvi,fiziki, riyazi formulalar öyrənilmir və s.

Milli müstəqilliyimizi məhv edə biləcək bu xəstəliyə qarşı hamımız birgə mübarizə aparmalıyıq. Bu, tək Təhsil nazirliyinin işi deyil, cəmiyyətin hər bir üzvü təhsildə rüşvət doğura bilən addımlar atmaqdan çəkinməlidir. Bu addımlar ictimai qınaqla, tənbehlə qarşılanmalıdır.

Avropada heç kəsi inandırmaq mümkün deyil ki, Azərbaycanda bəzi valideynlər övladlarına qiyməti pul ilə yazdırırlar. Valideynlərin öz övladlarına pulla qiymət yazdırması anormal bir işdir. Bu faktın özü kifayətdir ki, qeyd edək ki, biz düzgün yaşamırıq. Normal ölkələrdə bunu heç kəsə başa salmaq mümkün deyildir. Bu baxımdan da təhsildə rüşvət anlaşılmaz bir işdir. Çox vaxt rüşvət təhsildə **səbəb** deyil, **nəticədir**. Səbəb mənimsənilən bilik səviyyəsinin aşağı olmasıdır. Orta məktəb güclü təhsil versə, ali məktəbdə rüşvət olmaz. Ən başlıca səbəb isə inzibati-amirlik sisteminin təhsildə yaratdığı qapalı mühitdir. Qonşu İranda və Türkiyədə təhsildə rüşvət yoxdur, ancaq uzaq **Slovakiyada** var. Oradan gəlmiş bir təhsil işçisinin sözlərinə görə, hüquq və tibb fakültələrinə qəbul zamanı rüşvətdən istifadə

edilir. Bu, keçmiş ictimai-siyasi mühitin yaratdığı nəzarətsizliyin, biganəliyin, məsuliyyətsizliyin, təhsilin cəmiyyətdə rolunu düzgün dərk edə bilməməyin nəticəsidir. Demokratiyanın, söz və fikir azadlığının təhsil sistemində olmamasıdır. Üstəlik zədələnmiş insan psixologiyasından, rasional və tənqidi düşüncə tərzinin zəif olmasından törəyən bir amildir.

Sovetlər dönəmində rüşvətxorluq ali məktəblərdə korrupsiya səviyyəsinə qalxmışdır. Korrupsiya çox qorxunc xəstəlikdir. Bu xəstəlik şəbəkə şəklində quruluşa malikdir. Aşağı rütbəli məmurlar rüşvət alıb yuxarı rütbəli məmurlara ötürürlər. Qarşısına maneə çıxarsa, həmin maneəni nəyin bahasına olursa-olsun aradan götürür. Rüşvətə, korrupsiyaya qarşı mübarizə aparmağa borclu olan qurumlar öz funksiyalarını düzgün yerinə yetirməyəndə bu mənfi proseslər daha sürətlə inkişaf edir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev: **«Rüşvət bizi içimizdən yeyir» -**deyərkən yəqin ki, ən çoxu dövlətin mənafeyinə vurulan zərbəni nəzərdə tutur.

Rektorlar, partkomlar bütün seçkili vəzifələri (dekanları, kafedra müdirlərini) bu baxımdan seçirdilər. Bə'zən bədən tərbiyəsi müəllimi qəbul imtahanı komissiyasına sədr tə'yin edilirdi. Rüşvət, korrupsiya səbəbindən ali məktəblərə qəbul yerləri əsassız olaraq **ilbəil şişirdilirdi.** Bu artım maddi-texniki bazanın möhkəmləndirilməsi və kadr hazırlığı ilə müşayət olunmadığından bilik səviyyəsi, keyfiyyət ilbəil aşağı düşürdü.

Təhsil sistemində mövcud olan qüsurlarla biz ciddi mübarizə aparmalıyıq, bu xəstəliklərin kompleks müalicəyə böyük ehtiyacı var. Burada həm inzibati, həm də yeni, demokratik, elmi metodlardan istifadə etmək lazımdır.

Təhsildə yayılmış xəstəlikdən biri də **tapşırıqdır.** Tapşırıq ictimai şüurda kök salmış zərərli bir fenomendir. İlk baxışda çox qorxulu hesab edilmir. İctimai şüurda bu hadisə çox vaxt normal və müsbət dəyərləndirilir. Bir sosial hadisə kimi Azərbaycan cəmiyyətinin bütün sahələrində, o cümlədən də təhsil sistemində də geniş yayılıbdır.

Təhsil sistemində, hətta bu hadisəni xarakterizə etmək üçün Azərbaycan və rus dilinin potensialından istifadə edərək rus bölməsinin tələbələri yeni termin **"po tapşu"** terminini icad ediblər. Adətən bu bölmənin tələbələri tapşırıqla qiymət alanda bu termindən istifadə edirlər.

Bu xəstəlik orta məktəblərdə, xüsusilə ali məktəblərdə geniş yayılmışdır. Bu xəstəliyin əhatə dairəsi genişdir. Bilməyənə məqbul qiymət yazmaq, «üç» bilənə «dörd» və ya «beş» yazmaq və digər variantlarda da müşahidə olunur.

Bu sosial fenomen dövlətçilik baxımından çox zərərlidir. Dövlət gənc vətəndaşların savadlı, təhsilli olmasında maraqlıdır. Gənclərə təhsil vermək və onların gələcəyini xoşbəxt etmək dövlətin əsas vəzifələrindəndir. Bu niyyətlə də dövlət təhsilə böyük miqdarda sərmayə qoyur, məktəb tikir, onun maddi-texniki bazasını yaradır.




**«Bal-rüşvət» münasibətinin qrafik təsviri**

Sovet təhsilinin digər görünən qüsuru onun xarici dil öyrədə bilməməsi idi. Böyük miqdarda maliyyə vəsait

xərclənməsinə baxmayaraq, nəinki ali təhsilli, elmlər namizədi, heç elmlər doktoru, professor xarici dil bilmir. Mən inanmıram ki, ismtənilən Avropa dövlətində, misal üçün  Almaniyada alman dilindən başqa dil bilməyən professoru alman cəmiyyəti qəbul edə.

Bu xəstəliklərin qarşısını almağın ən asan və ədalətli yolu, zəruri biliyi olmayan təhsilalanı təhsilin yuxarı pilləsinə buraxmamaqdır. Təhsil sistemində keçid imtahanlarını ədalətlə və ciddi aparmaq lazımdır. Ədalətsizlikdən yeni ədalətsizliklər törəyir. Dördüncü sinif səviyyəsində biliyi olmayanı beşinci sinifə, səkkizinci sinif  səviyyəsində biliyi olmayanı doqquzuncu sinifə, 11-ci sinif səviyyəsində biliyi olmayanı ali məktəbə, birinci kurs səviyyəsində biliyi olmayanı ikinci kursa buraxmamaq lazımdır. Belə olan halda təhsil sistemi bu xəstəlikdən azad olar.

Yuxarıda qeyd edildiyi kimi Təhsil Nazirliyi dövlətin təhsilə ayırdığı pulu öz sisteminin köməkliyi ilə biliyə, bacarığa və vərdişə çevirməlidir. Yəni təhsil sistemi maddi varlığı intellektual varlığa çevirməlidir. Bu proçsesdə böyük hikmət gizlənir. Beləki, maddi varlıq xırcləndikcə azalar, intelektual vaprlıq xərcləndikcə çoxalar. İntellektual sərvətin maddi sərvətdən əsas fərqi bundadır ki, onu kimsə kimə bağışlaya bilməz, hədiyyə də edə bilməz. Kiminsə köməyi, dəstəyi ilə vəzifə almaq olar, varlanmaq olar, ancaq ali təhsil, alimlik dərəcəsi almaq mümkün olmamalıdır. Tapşırıq zamanı dövlətin təhsilə ayırdığı sərmayə biliyə çevrilmir. Çünki ortada əmək yoxdur. Həm tapşırıq", həm də pulla" qiymət yazılarkən dövlətin pulu biliyə çevrilmədiyindən dövlət mənafeyinə  zərbədir. Digər tərəfdən, bu prosesin nəticəsində mənəvi mühit korlanır. Şəxsi mənafe milli mənafedən üstün tutulur. İnsanda ülvi hisslər korlanır. Savadlı gənclər sınırlar. Mükəmməl biliyin zəruriliyinə ehtiyac duyulmur. "Tapşırıq"", "rüşvət"" orta və ali məktəblərdə uşaqları və gəncləri ədalətsiz edir. Bədbin ruhda tərbiyə edir, daha doğrusu, tərbiyə sistemini pozur. Onların müxtəlif sahələrdə

zirvəni fəth etmək potensialını zəifədir. Orta məktəblərdəki ədalətsizliklər şagirdlərin kövrək qəlbini sındırır. Ümidsiz insanlara çevirir. Bu isə xeyriyyəçiləri, valideynləri məktəbdən uzaqlaşdırır, onlarda məktəbə doğmalıqdan çox, biganəlik hissi aşılayır. Bir neçə misal çəkmək istəyirəm.

*1. Amerikanı kəşf vedən Xristofor Kolumb bir ziyafətdə iştirak edirmiş. Məclisdəkilərin biri lətifə söyləyir, biri şer deyir, digəri maraqlı söhbət edir. Kolumbun kəşfi arzu etdiyi kimi diqqət mərkəzinə çəkilmir və adilərdən hesab olunur. Kolumb söhbətə qarışır və stolun üstündən bişmiş bir yumurtanı götürür və deyir: kim bu yumurtanı stolun üstə dik qoya bilər? Stol ətrafında oturanların hamısı cəhd edir, ancaq yumurta yıxılır. Növbə Kolumba çatır. O, yumurtanın dik tərəfini stola bərk vurur və sındırır sonra yumurtanı dik qoyur. Hamı etiraz edir və deyir ki, biz də belə edə bilərdik. Kolumb onlara deyir: "Elə mən Amerikanı da belə qeyri-adi addım atmaqla kəşf etmişəm".*

Əsas odur ki, insan qeyri-adi, qeyri-standart addımları ata biləsən. Rüşvətlə, tapşırıqla tələbələr ali məktəblərin koridorlarında sınırlar. Onlar gələcəkdə X.Kolumb kimi qeyri-standart addımlar ata bilməyəcəklər.

2. "Space"" TV kanalının 2002-ci il yanvarın 17-də «Ailə üçbucağı»" verilişində çıxış edən Ramin adlı bir gənc dedi ki, ali məktəbdə biliyin düzgün qiymətləndirilməməsi, daha açıq desək, bilməyənlərin imtahanlara şax girib, şax çıxması, bilənlərin qiymətinin azaldılması gənclərimizi sındırır, onları bədbin edir və qəhrəmanlıq potensialını əlindən alır. Mən bu gəncin fikirləri ilə razıyam.

O müəllimlər ki, tapşırığa baxmırlar, güzəştə getmirlər, onlar dövlətin mənafeyini qoruyurlar. Onlar az əmək haqqı ilə dolanır, ancaq milli mənafeyi şəxsi qazancdan üstün tuturlar. Mən bu mənəviyyatı təmiz insanları dövrümüzün *qəhrəmanları* hesab edirəm. Tapşırığa baxanlar isə dövlətin mənafeyinə zərbə vururlar. Çox təəssüf ki, ictimai şüurda tapşırığa baxan müəllim müsbət imicə malikdir, çünki mülayimdir, həlimdir. Məsələyə

lokal yanaşsaq, bəlkə də bu addımda xeyirxahlıq vardır, qlobal baxımdan tapşırığa baxanlar dövləti mənafeyə zərbə vururlar.

Dövlət təhsil müəssisələrində tapşırıq zamanı dövlət və milli mənafe şəxsi mənafeyə qurban verilir. Özəl təhsil müəssisələrində tapşırıq zamanı sahibkarın mənafeyi xüsusi mənafeyə qurban verilir. Dövlət, mənafeyi tapdalananda dözür, ancaq sahibkar dözmür və dözə də bilməz. Bu səbəbdən də normal özəl məktəblərdə bu xəstəliklər olmamalıdır.

Rüşvət inkişaf etmiş ölkələrdə də müşahidə olunan sosial bəladır. Cavan demokratik quruluşlarda rüşvətin yayılmasına şərait daha çoxdur, çünki inzibatçılıq və ictimai nəzarət azdır. Belə quruluşlarda dövlət qanunlarla daha ciddi şəkildə idarə olunmalıdır.

Ali məktəbə qəbul statistikasına diqqət yetirsək görərik ki, 2000-ci ildə test imtahanında iştirak edənlərin cəmi 10%-i 420 baldan çox bal toplayır. Dövlət təhsilə müdafiədən çox pul xərcləyir, ancaq bu pul rüşvətin hesabına biliyə çevrilmir, sanki yanıb heç olur. **Nəticədə millət düşünə bilən yox, aldanılan millətə çevrilir.** Çünki orta məktəbdə gənc, həm fiziki, həm də mənəvi cəhətdən sınır.

Sovet dövründə mütəxəssis hazırlığının keyfiyyəti ilbəil aşağı düşürdü. Vəsait çatmırdı. Moskva Aviasiya İnstitutunun keçmiş rektoru, mənim də yaxından tanıdığım akademik Y.A.Rıjov mərkəzi TV ilə etdiyi çıxışlarının birində qeyd etdi ki, biz mühəndis hazırlamırıq, biz mühəndisin müqəvvasını hazırlayırıq. O zaman bir mühəndisin hazırlanmasına 5000 rub. (5000 ABŞ dollarından çox) vəsait ayrılırdı. Bu vəsait artan tələbatı ödəmirdi, baxmayaraq ki, dərs vəsaiti və digər köməkçi vasitələr təhsil müəssisələrinə öz maya dəyərindən aşağı qiymətə satılırdı.

Orta təhsilə növbəti zərbə məktəbi **medalla** qurtarmaq praktikasına son qoymaqla və medalın statusunu azaltmaqla vuruldu.

Məktəblə valideyn arasında əlaqə zəif idi. Həm valideyn tərəfdən, həm də məktəb tərəfdən böyük biganəlik hökm sürürdü. Valideyn uşağını məktəbə göndərməklə, məktəb isə «oxuyur oxusun, oxumur cəhənnəmə oxusun”»-deməklə öz işlərini bitmiş sayırdı. Şagirdlərə qayğı göstərilmirdi.

*Burada bir haşiyə çıxmaq istəyirəm. Azərbaycan Respublikasının Belçika dövlətindəki səfiri cənab M.Əfəndiyev söhbət zamanı dedi ki, oğlum 7-ci sinifdə oxuyanda xəsdələndiyindən axırıncı dərsə qalmayaraq, evə qayıdır. Səhərisi məktəbdən evə məktub gəlir. Əvvala, şagirdin axırıncı dərsdə olmadığı haqda valideynlərə məlumat verilir. İkincisi, məktəblinin dərsdə olmamasının səbəbi soruşulur. Ana məktuba cavab yazır, uşağın dərsdə olmamasının səbəbini göstərir və məktəbə göndərir. O birisi gün məktub təzədən geri qaytarılır və atanın da məktuba qol çəkməsi tələb olunur. Bu misal məktəb-valideyn münasibətinə bir örnək ola bilər.*

Bu yerdə sağlam təhsil sisteminə nümunə kimi bir haşiyə də çıxmaq istəyirəm:

*Eşitdiyimə görə, Böyük Britaniyanın Baş Naziri T.Bleyer bir həftəlik istirahatə gedəndə orta məktəbdə oxuyan övladına məktəbdən icazə ala bilməyibdir.* Bu hadisə Uinstron Çerçilin «Orta məktəb müəllimlərinin hakimiyyətini baş nazir ancaq arzu edə bilər» fikrində nə qədər haqlı olduğunu təsdiqləyir.

Orta məktəblərdə imtahanlar formal keçirilirdi. Qiymətləndirmə obyektiv aparılmırdı. Sinifdəqalma praktikası tətbiq edilmirdi. Birinci sinfə qəbul olunanların (ölüm-itim halları istisna olmaqla) hamısı orta məktəbi qurtarıb kamal attestatı alırdı. Attestat qiymətləri şişirdilirdi. Məzunlar dövlət sənədi olan attestatdakı qiymətlərə uyğun bilik nümayiş etdirə bilmirdilər. Bəzən attestatların satılması halları da müşahidə olunurdu. Siyasət naminə belə cinayət hallarının üstü tez ört-basdır edilirdi. Pedaqoji qurumlar fəaliyyətsizlik göstərirdi.

Məktəb ilə valideyn arasında ciddi, qarşılıqlı məsuliyyətin olmamasından iki böyük qüsur: təhsildə keyfiyyətsizlik, mənəviyyatda pozğunluq törəyir.

## 9.3 Terminoloji qüsurlar

Dünyəvi təhsil sistemi Azərbaycanda bərqərar olandan bəri hesab etmək olar ki, başlanğıcda bəzi terminlər düz seçilməyibdir. İndi onlardan yaxa qurtarmağın vaxtı çatıbdır.

Şərq ölkəsi olaraq biz uşaqlarımızı ***oxuda-oxuda*** sinifdən sinfə keçiririk. Qərb ölkələrində valideynlər övladlarını **öyrədə-öyrədə** sinifdən sinfə keçirirlər. Bu cinayətdə müəllim və valideyn əlbirdirlər. Bu səbəbdən də qüsur yaşayır. Oxudulan, amma öyrədilməyən (əzbərlənməyən) şer yeri gələndə təkrar edilə bilinmədiyi kimi, öyrənilməyən bilik də yeri gələndə tətbiq edilə bilməz. Bir sənəti və ya ixtisası öyrənərlər, sonra öyrənilənləri həyatda tətbiq edərlər. Təhsil də qlobal masştabda bu məqsədə qulluq edir.

Valideynlərimizin **"oğlum və ya qızım universitetdə oxuyur"-** deməsi düzgün deyildi. Gənclərimiz universitetlərdə oxumurlar, öyrənirlər. Biri fizikanı, biri hüququ, digəri isə mühəndisliyi öyrənir. Oxumaq **vasitədir**, öyrənmək **məqsəddir**. Oxumaq asan, öyrənmək çətin işdir. İşin çətinliyindən qorxmaq lazım deyildır. Ruslar da, ingilislər də "oğlum və ya qızım univrsitetdə və ya məktəbdə öyrənir""- deyirlər, oxuyur demirlər. Bu qüsur səbəbindən Leninin məşhur «öyrənmək, öyrənmək və yenə də öyrənmək» kəlamı dilimizə «oxumaq, oxumaq və yenə də oxumaq» kimi tərcümə edilmişdir. Məqsədimiz öyrənib mütəxəssis, ixtisasçı olmaqdır, məqsədimiz oxuyub quru diplom almaq olmamalıdır. Yüz illər qabaq oxumağın təhsildə məqsəd olduğuna inanıram. Amma indi bizə öyrətmək lazımdır.

Biz övladlarımıza bilməyi yox, oxumağı öyrətdiyimizə görə cəmiyyətin intellektual səviyyəsi aşağı düşür. Şairlərimizin sayının lazım olandan çox olmasının bir səbəbini də burda axtarmaq lazımdır. Çünki intellektual potensialı yüksək olan bu

insanlardan potensial şer şəklində xərclənir. Bu şairlərin çoxunun timsalında neçə-neçə alim, mühəndis, konstruktor, sənayeçi, bankir, maliyyəçi, siyasətçi, hərbiçi, general itirmişik. “Cidanı çuvalda gizlətmək“” mümkün olmadığı kimi yazmağı, oxumağı bacaran insanın daxili potensialı da vurub bədəndən şer formasında çıxır.

Şüurlarda psixoloji çevriliş, inqilab etmək lazımdır. Beyinlərdən **oxumaq** sözünü çıxarıb, yerinə **öyrənmək** sözünü qoymaq lazımdır.

Təhsil sistemində istifadə edilən bəzi terminlərə yeni dövrün gözü ilə baxaraq, iradlar söyləmək mümkündür. Təhsil tariximizin müstəqillik dövründə qüsurlu terminlərdən vaxtında imtina etsək yaxşıdır. Subyektiv fikirimə görə və beynəlxalq təcrübəni nəzərə alaraq **“ibtidai məktəb“**”, **“natamam orta məktəb“, “ali təhsildən sonrakı təhsil“** terminlərinin **“ilk məktəb“, “baza məktəb“, “ali məktəbdən sonrakı təhsil“** terminləri ilə əvəz etsək düzgün olardı.

Təhsil alana orta məktəbdə şagird, ali məktəbdə tələbə, aspiranturada aspirant, bəzi kurslarda müdavim deyirlər. Türkiyədə bu qrup insanlar öyrənci adlanırlar. Məncə bu adların hamısın **təhsilalan** termini ilə ifadə etmək olar.

Dövlət məmurlarımız dövlətdən maliyyələşməyən təhsil müəssisələrinə **“qeyri-dövlət təhsil müəssisələri”** deyirlər. Hesab edirəm ki, bu müəssisələr qeyri-dövlət yox, qeyri-hökumət təhsil müəssisələri adlandırılmalıdırlar. Çünki bu təhsil müəssisələri dövlətin cəmiyyət qarşısında üzərinə götürdüyü konstitusion öhdəlikləri yerinə yetirir. Bu məktəbləri özəl məktəblər adlandırmaq daha düzgün olardı.

## 10. Keçid dövründə təhsil

*”Azərbaycan müstəqil dövlət kimi yeni iqtisadi-siyasi sistem yolu ilə gedərək, dünyanın bütün ölkələrinin, xüsusən Qərb ölkələrinin təcrübəsindən istifadə etməyə çalışır və təhsilin də təkmilləşməsində bu təcrübədən istifadə etmək lazımdır”.*

***Heydər Əliyev***

Yeni təhsilə keçid bir çox səbəbdən zəruridir. Əvvəla, onu qeyd edək ki, sovet təhsil sistemi uzun illər dövrün tələbinə uyğun inkişaf etmirdi. Sovet quruluşunu dağıtmaq istəyən qüvvələr hədəfə siyasi hakimiyyət, iqtisadiyyat, hərbi sahə ilə bərabər, həm də təhsili götürmüşdülər. Tarixin sınağından keçmiş dərsliklər, dərs vəsaitləri yeniləşmə adı altında korlandı, anlaşılmaz edildi. Orta məktəbdə “qızıl”, “gümüş“” medallar praktikası gah ləğv edildi, gah da statusu dəyişdirildi. Təhsildə rüşvətə göz yumuldu. Müəllimin statusu ədalətsiz olaraq ilbəil endirildi.

İkinci səbəb son 10 ildə yaranmışdır. Yeni cəmiyyət yeni təhsil sistemi tələb edir. Yeni quruluş köhnədən fərqləndiyi üçün yeni təhsil sistemi də əvvəlkindən fərqlənməlidir. Çünki dövlətin ideoloji yükünün çox hissəsini təhsil sistemi çəkir. Yeni dövlətimiz öz mahiyyətinə görə liberal-demokratik dövlət olduğundan, təhsil sistemi də bu dövlətə qulluq etməyə qadir olmalıdır. Təhsil sistemində demokratik və liberal dəyərlərdən istifadə olunmalıdır. Təhsil sistemini liberal-demokratik dəyərlərdən kənar saxlamaq, çoxlu sayda yeni qüsurların törəməsinə səbəb ola bilər.

Yeni təhsil sisteminə keçid ciddi problemlərlə müşahidə olunur. Köhnə təhsil sistemi ilə yeni təhsil sistemi arasında, qapalı cəmiyyətin kütləvi təhsili ilə açıq cəmiyyətin liberal təhsili

arasında, yeni baxışlarla köhnə baxışlar arasında ziddiyyətlər var və bu səbəbdən onlar arasında gedən mübarizə təbiidir. Üstəlik müasir sağlam düşüncə ilə köhnə düşüncə arasındakı mübarizə də təhsildə keçid proseslərini labüdləşdirir.

Bu səbəbdən də yeni təhsil sisteminə keçidin zəruriliyi əvvəlki paraqraflarda göstərilən qüsurların varlığından da törəyir. Keçid dövrünün təhsil sistemində yaratdığı digər qüsurları tezislər halında belə ifadə etmək olar:

- ailə-məktəb, müəllim-tələbə, müəllim-şagird, müəllim-valideyn, xeyriyyəçi-məktəb arasında mənəvi çəpər, inam yoxdur, gərginlik və maneə vardır. Bazar əhval-ruhyəsi həm ali məktəbə, həm də orta məktəbə daxil olur.
- ailə mənəvi örnək, müdafiəçi, köməkçi olmaq rolunu itirir;
- valideynlər təzə əlifbanı bilmədiklərindən uşaqlarına kömək edə bilmir, bu isə təhsilin səviyyəsini xeyli aşağı salır;
- təzə əlifba ilə əlavə ədəbiyyat, dərs vəsaiti çatışmamazlığı səbəbindən təhsilin səviyyəsini aşağı düşür;
- bəzi müəllimlərin fənn üzrə bilik səviyyəsi lazımı səviyyədə deyildir;
- orta məktəbdə rus dili ilə bərabər başqa bir xarici dil öyrədilməlidir, ancaq öyrədilmir. Vəsait havayı xərclənir.
- gənclərimizi zərərli informasiyadan qorumaq getdikcə çətinləşir. Gözlərimiz qarşısında xalqımız **"öyrənən yox, oxuyan və oynayan millətə"** çevrilir; 15 fevral 2003-cü il tarixdə Az.TV-nin şənbə qonağı bəstəkar Nəriman Əzimov oldu. O, ürəkağrısı ilə qeyd etdi ki, 8 milyon xalqın 7 milyonu oynayır. Elə bil ki, biz Ermənistandan Qarabağı almışıq. Bu iradı mən də təqdir edirəm.

- əgər əvvəllər ali məktəblərdə qeyri-sağlam bir işi keçirmək mümkün olmurdusa, indi tərsinə, bəzi ali məktəblərdə düz işi keçirmək çətindir, bəlkə də, qeyri-mümkündür.

Keçid dövrü, qaçqınlıq həyatı, müharibə şəraiti təhsil sistemi üçün əlavə problemlər yaratmışdır.

Ətraf mühit, küçə zorakılığı təhlükə mənbəyinə çevrilir. Azyaşlıları narkotikadan, alkaqoldan və digər sosial bəlalardan qorumaq getdikcə çətinləşir.

Müasir informasiya vasitələri, TV-kanalları, video-texnika cəmiyyətimizə həm müsbət, həm də mənfi çalarları ilə daxil olur. Çox təssüflər ki, mənfi cəhətlər daha cəzbedici olduqlarından gənclərimiz zərərli təsir altına tez düşürlər.

Dərsə davamiyyət və ona nəzarət bərbad vəziyyətdədir. Adı və soyadı rayon məktəbinin jurnalında, özü aylarla, illərlə Bakıda repetitorla məşğul olan yüzlərlə şagird vardır. Amma nə məktəb, nə müəllim, nə maarif işçiləri, nə rayon icra hakimiyyətinin məsul işçiləri, nə rayon prokuroru, nə də qeyri-hökumət təşkilatları (QHT) dövləti və vətəndaş borclarını yerinə yetirmirlər səsini çıxarmır, çünki neçə illərdi ki, bu xəstə hala vərdiş edilibdir.

Təhsil mühiti, təhsildə mənəviyyat deqradasiya olubdur. Öyrənmək, oxumaq qız sənətinə çevrilir. Kitabxanaların və kitab mağazalarının sayı günü-gündən azalır, barların, diskotekaların sayı isə günü-gündən çoxalır. Gününü restoranda keçirən gəncin hörməti, kitabxanada keçirəndən qəlbi tutulur. Tələbələr məktəbə əlləri cibində, kitabsız, çantasız gedirlər. Elə gedirlər ki, tələbə olduqları seçilməsin.

«Zəbt olunan Şərq ərazisindəki camaatla nə edəcəyik?» sualına **Hitler:** «Qoy radio bu əhaliyə yalnız mümkün qədər çox musiqi yeritsin. Mə’nəvi özbaşınalığın yaranması üçün onları əqli işə yaxın buraxmaq olmaz. Mə’nəviyyatı yoxsul olan insanlar isə özlərini həmişə xoşbəxt sayırlar». Bu fikir filosof **Muxtar**

**Şahanovun** «Sivilizasiyanın yanlışlıqları» əsrindən götürülmüşdür.

Həmin kitabdan başqa bir misal: «...Hələ 1945-ci ildə, SSRİ-yə qarşı işlənib hazırlanan bir doktrina da planlaşdırmışdır: «Biz, ehtiyatla onların mə’nəvi dəyərlərini dəyişərək, şüurlarına seks kultu, zorakılıq, sadizm, sözə xəyanət, sırtıqlıq, alkoqolizm və narkomaniya, qorxu və həyasızlıq, bir sözlə, əxlaqa zidd olan şeyləri yeritməliyik. Namus və vicdan lağa qoyulacaq, keçmişin mə’nasız qalığına çevriləcək. Yalnız çox az adam bundan xəbər tutacaq, hətta nələr baş verdiyini anlamayacaqlar da. Onları da gülünc vəziyyətə salıb, aciz durumda buraxacayıq».

Adamın ağlına fantastik gümanlar gəlir. Görəsən, çağdaş dövrdə belə doktrinalar bizə tətbiq olunmur ki? Axı mənzərə tanışdır. TV-nin bütün kanalları sanki yuxarıdakı doktrinaların müddəalarını tətbiq edirlər. Azərbaycan xalqını A.Kazımovalar, K.Həsənlilər tərbiyə edirlər.

Məktəblə valideyn arasında əlaqə çox zəifdir. Həm valideyn tərəfdən, həm də məktəb tərəfdən böyük biganəçilik hökm sürür. Valideyn uşağın məktəbə göndərməklə, məktəb isə «oxuyur oxusun, oxumur cəhənnəmə oxumasın» -deməklə öz işlərini bitmiş sayır.

Bəzən eşidirsən, bəzən də KİV-lər yazır ki, filan şəhərdə yeniyetmə evdən məktəb adı ilə çıxmış, amma məktəbə yox başqa yerə getmişdir. Məktəblə valideyn arasında ciddi, qarşılıqlı məsuliyyətin olmamasından iki böyük qüsur: **təhsildə keyfiyyətsizlik, mənəviyyatda pozğunluq** törəyir. Təhsil naziri də gecə barlarında şagird qızlırın olduğu barədə ictimaiyyətəməlumat vermişdir.

Bəzi işbazlar məktəbi qazanc sahəsinə çevirmək istəyirlər. İş yerlərinin az olduğu bir vaxtda belə adamlar saxta sənədlərlə müəllim, sonra direktor, təhsil şöbəsinin müdiri vəzifəsini ələ keçirir, olmayan məktəblər (papka məktəblər) yaradırlar, dövlət büdcəsinə əl uzadırlar. Cinayətin səviyyəsi o həddə çatıbdır ki, bəzən bir şagirdin adı bir neçə məktəbdə jurnala yazılır,

şagirdlərin sayı süni surətdə artırılır və dövlətin vəsaiti talan edilir. Təşviş doğuran odur ki, bu işbazlar dövlətin mənafeini qorumağa borclu olan məmurlar tərəfindən müdafiə olunurlar.

Moskva metrolarında 250 ABŞ dollarına satılan diplomlar, sonralar ikinci ali təhsil vasitəsi ilə Azərbaycanda leqallaşır, milli diploma çevrilir. Nəticədə mütəxəssis səviyyəsi aşağı düşür.

Ötən ilin əvvəlində bir vətəndaş məktəbli oğlu ilə bağlı ərizə ilə bizə müraciət etdi. Ərizədə yazılırdı ki, oğlum 14.01.02 tarixdə 4-cü saat nəğmə dərsindən qaçmışdır. Sabahısı gün məktəbin direktoru Qənirə müəllimə (Bakı şəhəri, Xətai rayonu) uşağı sinifdən qovmuşdur. Anası dərhal məktəbə gedib, lakin direktor onu qəbul etməyib. Səhərisi gün 75 yaşlı babası gedib, direktor onu da qəbul etməyib. Sonra atası gedib və üzr istəyib. Müraciətdə yazır ki, amma üzürümüz də qəbul edilmədi.

Mən yuxarıda Belçikadakı səfirimizin məktəbli oğlu ilə bağlı məktəb-valideyn münasibəti haqqında yazmışdım. Yazının məntiqi bundan ibarətdir ki, Belçikada məktəblər şagirdi küçədən məktəbə dartır, bizdə isə tərsinədir. Şagirdi məktəbdən küçəyə itələyirlər. Bu hərəkət sağlam düşüncə tərzinə sığmır. Qənirə müəlliməni başa düşmək çətindir. Deməli, biz düşüncə tərzimizi yeniləşdirməliyik. Təhsilə yeni təfəkkür gəlməlidir. Bu cür düşüncə tərzinə malik direktorlar vəzifələrindən uzaqlaşdırılmalıdırlar.

Məktəb həm formaca, həm də məzmunca yeniləşməlidir. 1940-50-ci illərdə məktəb binaları, şəhərlərin, rayon mərkəzlərinin, kəndin ən abad ərazisi olmuşdur. Məktəb həyəti cəlbedici olmalıdır. Elə olmalıdır ki, hətta ən zəngin villada böyüyən məktəblinin gözü məktəbə yönəlməlidir. Məktəb, həyətinin abadlığı, idman qurğuları, kitabxanasının zənginliyi ilə fərqlənməlidir. Məktəb dövrün tələbləri səviyyəsinə qalxmalıdır.

Qeyd etmək lazımdır ki, dəyişən dünyamızda universitetin, məktəbin, müəllimin rolu da kifayət qədər dəyişir.

Ali məktəblərin cəmiyyətdə rolu dəyişir. Ali məktəb kəsilməz təhsil müəssisəsinə çevrilməkdədir.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) apardığı test imtahanlarının nəticələrinə (cədvəl 10.1) görə 2001-ci ildə Azərbaycan bölməsi üzrə cəmi 813 nəfər (bu göstərici 2000-ci il üçün 235, 2002-ci il üçün 132 nəfər olmuşdur) 600 baldan çox toplayıb. Bu, qəbul imtahanlarında iştirak edən 80 000 nəfərin 1,08%-ni təşkil edir. Deməli, C.Konatın dediyi gəncliyin talantlı 15%-dən cəmi 1%-i öz potensialını məktəbdə aça bilir, 14%-i isə potensialını reallaşdıra bilmir. Bu dağ boyda varın itməsi deməkdir. Son illərdə abituriyentlərin nisbi sayının test imtahanlarında topladıqları bala görə paylanması cədvəldə göstərilmişdir. On bir il orta məktəbə gedib-gəlmiş, ancaq test imtahanlarından “0”“ bal toplamış insan övladının sayı da cədvəlin birinci sətrində göstərilmişdir. Cədvəlin son sətrində abituriyentlərn biliyə görə paylanmasının mediana qiyməti göstərilmişdir. Mediana qiyməti abituriyentlərin 50%-nin topladığı bal intervalını göstərir. Misal üçün, 2002-ci il imtahanlarında azərbaycan bölməsi üzrə abituriyentlərin 50%-i 120-dən də az bal toplamışlar.

Müasir dövrümüzdə, informasiya, kommunikasiya, kompüter texnikasının tətbiqi təhsildə yeni cəhətlərin və imkanların yaranmasına səbəb olmuşdur.

Yeni informasiya texnologiyası, rabitə vasitələri, radio və peykli TV yayımı, kompüter şəbəkəsi tədris mühitini “divarsız və sərhədsiz“” edir. “Sinif“” klassik mənada dörd divar mənasında öz nüfuzunu itirir. Müəllimin sinifdə biliyə, informasiyaya hakim mövqeyi zəifləyir. Gənclər (təhsilalanlar) biliyi, məlumatı tək sinifdə, həm də tək müəllimdən almırlar. Təhsil texnologiyasında bu yeni faktorlar nəzərə alınmalıdır.

**Cədvəl 10.1**

| Bal | | 2000-ci il | | 2001-ci il | | 2002-ci il | |
|---|---|---|---|---|---|---|---|
| | | A/b | R/b | A/b | R/b | A/b | R/b |
| 1 | 0-0 | 661 | 29 | 211 | 4 | 186 | 7 |
| 2 | 0-140 | 53,34 | 32,88 | 39,5 | 29,1 | 56,73 | 38,48 |
| 3 | 0-280 | 82,55 | 71,12 | 72,39 | 63,90 | 82,49 | 72,82 |
| 4 | 0-420 | 94,74 | 90,95 | 89,75 | 87,02 | 94,37 | 90,45 |
| 5 | 0-560 | 99,21 | 98,65 | 97,72 | 97,51 | 99,24 | 98,13 |
| 6 | 0-700 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| Orta bal | | 163 | 218 | 208 | 240 | 163 | 218 |
| Mediana qiyməti | | 118 | 133 | 178 | 220 | 120 | 180 |

Dünyada gedən qlobal və təbii dəyişikliklər, yuxarıda saydığımız qüsurların, mənfi halların olması təhsildə islahat aparılmasını vacib edir. Göründüyü kimi, köhnə quruluş dağılmasaydı belə, təhsildə yeniləşməyə ehtiyac vardır.

Yuxarıda qeyd edildiyi kimi təhsildə **təzadlı hallar** yaranmışdır.

**Valideyn** övladının bilik almasına yox, qiymət almasına pul xərcləyir. İmtahanı, zaçotu pulla yazdırır.

**Valideyn** övladı institutu bitirəndə yox, qəbul olanda şənlik məclisi qurur, sevinir. Başqa sözlə, institutun verdiyi tələbə bileti, dövlətin verdiyi diplomdan uca tutulur.

Təhsil müəssisələrində aparılan imtahanlar formal xarakter daşıyır, öz məqsədinə qulluq etmir. Tapşırığa baxan müəllim cəmiyyətdə daha çox müsbət imicə malikdir, nəinki ciddi və obyektiv müəllimlər.

Sosializmdən gələn «pis tələbə yoxdur, pis müəllim var» prinsipini bəzi rektorlar rəhbər tutaraq imtahanların obyektiv aparılmasında düzgün mövqe tutmurlar və s. Bu təzadlı hallar təhsil mühitində gərginlik yaratmışdır. Bu gərginliyi götürmək üçün təhsildə yeniləşməyə ehtiyac böyükdür.

Modernləşmənin əhatə etdiyi istiqamətlərin bəzilərini göstərmək olar:

1.Yeni təhsil sisteminin fəlsəfəsinin, nəzəri əsasının (təhsil nəzəriyyəsinin) müəyyənləşdirilməsi, liberal və demokratik dəyərlərin təhsilə gətirilməsi. Təhsil fəaliyyətində köhnə prinsiplərin bəzilərindən imtina, yeni prinsiplərin qəbuluna ehtiyac duyulur;

2. Təhsil sferasının maliyyələşdirilməsinin təkmilləşdirilməsi;

3. Təhsil sferasında özəl sektorun formalaşması;

4. Mütəxəssis hazırlığının bazar konyukturuna uyğunlaşdırılması;

5. Təhsilin məzmununun, təhsil proqramları və tədris planlarının təkmilləşdirilməsi;

6. Təhsilin strukturunun və idarə edilməsinin təkmiləşdirilməsi;

7. Biliyin qiymətləndirilməsi probleminin və keyfiyyətə nəzarət prosesinin təkmilləşdirilməsi;

8. Ölkədə vahid təhsil mühiti yaratmaq və bunun kimi digər sahələrdə yeniləşməyə ehtiyac duyulur.

Bu işin uğurla getməsi üçün ilk növbədə təhsil **sisteminin fəlsəfəsi,** başqa sözlə desək, onun konseptual müddəaları müəyyənləşməlidir. Bu müddəalar əsasında **depersonlaşmış** təhsildən **personlaşdırılmış** təhsilə keçmək və **təhsil nəzəriyyəsini** yaratmaq lazımdır. Kəmiyyət yox keyfiyyət diqqət mərkəzinə çəkilməlidir. Yeni konsepsiya köhnənin davamı ola bilməz və ondan çox fərqlənməlidir. Çünki yeni qurulan cəmiyyətin nəzəri əsası əvvəlkindən kökündən fərqlənir. Bir sözlə, təhsil və təhsil sisteminin konsepsiyası yeniləhməlidir.

## 11. Yeni təhsil sisteminin fəlsəfəsi

*“Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır".*

Sosializm, faşizm, liberalizm ideyaları XX əsrdə müxtəlif dövlətlərdə tarixi təcrübədən keçmişdir. Bu ideyaların, ideologiyaların başlanğıc amalı xoşbəxt cəmiyyət qurmaq olmuşdur. Sosializmdə kütləni xoşbəxt etməklə onun içərisində fərdi xoşbəxt etmək, liberalizmdə tərsinə fərdi xoşbəxt etməklə kütləni xoşbəxt etmək ideyası hədəfə götürülmüşdür. Faşizm ideologiyasının əsasında ali irqi hakimiyyətə gətirməklə cəmiyyətdaxili ziddiyyətlərə son qoyaraq xoşbəxt cəmiyyət yaratmaq ideyası durmuşdur.

XX əsrdə bu ideyaların hər biri praktikada sınandı. Kommunizm və faşizm ideyaları tarixin təkərləri altında məhv olundu. Liberalizm bütün sınaqlardan uğurla çıxdı. Hal-hazırda aparıcı, öncül fikir bundan ibarətdir ki, liberal-demokratik dəyərlərə alternativ heç bir ideya yoxdur. ABŞ alimi **Frensis Fukuyama** belə düşünür. O, fikirlərini 1989-cu ildə **“Tarixin sonu”** essesində söyləmişdir.

Bu ideya Azərbaycanda da aparıcı yer tutur. Azərbaycanda liberal-demokratik dəyərlər əsasında dövlət artıq qurulmuşdur. Söz azadlığı, fikir müxtəlifliyi, bazar iqtisadiyyatı, insan hüquq və azadlıqlarının təminatı bu quruluşun baza prinsiplərindəndir. Ali idarəedici orqanlar demokratik üsullarla seçilir.

Liberal-demokratik dəyərlər təhsil sisteminə də gətirilməlidir. Yeni təhsil sisteminin fəlsəfi əsası liberal-demokratik dəyərlər əsasında formalaşdırılmalıdır.

Müstəqillik dövründə əldə edilən ən böyük uğurumuz Moskvadan asılı olmamağımızdır. Özəl orta və ali məktəblərin

açılması, ali təhsilin pillələrə bölünərək həyatımıza daxil olması təhsil sistemində olan yeniliklərdəndir.

Sovet təhsil sisteminin nəzəri və konseptual əsasları Moskvada hazırlandığından biz sadəcə elmi kökləri bizə bəlli olmayan təlimatlar əsasında fəaliyyət göstərmişik. Bu səbəbdən də müvafiq orqanlar yeni təhsil sisteminin nəzəri əsaslarını, əsas prinsiplərini, konseptual müddəalarını qurduğumuz dövlətin nəzəri əsası və prinsiplərinə uyğun formada hazırlamalıdır.

Sosialist təhsil nəzəriyyəsində kütləni, liberalizm nəzəriyyəsində isə fərdi savadlandırmaq diqqət mərkəzinə çəkilir. Hal-hazırda keçid dövrünü yaşayırıq və bizim təhsilimiz bu iki qütb arasında dayanmışdır. Liberal təhsil sisteminə uğurla keçməyimiz üçün çağdaş təhsil sisteminin üzərindən sosializm qəlibini (və ya kölgəsini) götürmək lazımdır. Bu isə asan məsələ deyildir. Ukraynalı alim S.Xarçenkonun fikrincə, depersonlaşdırılmış təhsildən personlaşdırılmış təhsilə keçidin nəzəri əsasını yaratmaq müasir **pedaqogika elminin** əsas aktual məsələlərindəndir. Təhsil nəzəriyyəsinin mərkəzində fərd durmalıdır. Bu nəzəriyyə indiki məktəblərin əsaslandığı keçmişin əsassız emprikasından imtina etməlidir.

Məktəb təhsilinin depersonlaşdırılması bizim məktəb bəlalarının əsas səbəblərindən biridir. Bu müddəa, müasir pedaqogika elminin gəldiyi nəticədir.

Öz həyatımızdan sadə bir misal çəkmək istərdim. Hər kəsin yadındadır ki, sovetlər dönəmində istənilən iclasda, konfransda çıxış edən zala **"yoldaşlar"** deyə müraciət edərdi. Bu müraciət son on ildə **"hörmətli xanımlar və cənablar"** formasını almışdır. Bu sadə müraciət sözlərində böyük və gizli fəlsəfə durur. **"Yoldaşlar"** sözü sosializm nəzəriyyəsinə söykənir. Zalı kütləşdirir. İnsanlar bir-birinə bərabər tutulur. **"Xanımlar və cənablar"** sözləri liberal nəzəriyyəyə uyğun olaraq zalı fərdiləşdirir, şəxsiyyətləndirir. Fərz olunur ki, insanlar bir-birindən çox fərqlidir. Ən azı zalın bir hissəsi qadın, digər hissəsi kişilərdir.

Liberalizm nəzəriyyəsinin mərkəzində insanın anadangəlmə məhv edilməyən yaşamaq, azadlıq və şəxsi mülkiyyət hüququ ilə bağlı ideya durur. Sosial sahədə liberalizm hesab edir ki, öz maddi və mənəvi rifahını təmin etmək üçün hər bir adamın kifayət qədər imkanı var. Təhsil bu imkanların açılmasına kömək edən vasitədir.

Təhsilin fəlsəfəsi siyasi quruluşdan asılıdır. Quruluş dəyişəndə fəlsəfə də dəyişməlidir. Yeni təhsil sistemini yeni quruluşun fəlsəfəsinə uyğun olaraq, özündə yeni ideya, yeni münasibət, yeni təhsil texnologiyasını birləşdirərək qurmaq lazımdır. Yeni təhsil sistemi Azərbaycanın müstəqilliyinə və iqtisadiyyatına xidmət etməlidir.

Təhsilin heç bir problemi məkandan və zamandan kənarda həll edilə bilməz. Təhsilin hər bir problemi sağlam və tənqdi düşüncə və liberal-demokratik dəyərlər əsasında, zaman və məkan daxilində həll edilməlidir. Misal üçün, 1992-ci ildə BDU-da “Beynəlxalq hüquq və beynəlxalq münasibətlər”“ fakültəsinin açılması haqqında qərar vaxtında qəbul edilmişdir. Çünki gənc Azərbaycan dövlətinə diplomatlar lazım idi. Gecikmək olmazdı. Ancaq əlifbanın dəyişilməsi haqqındakı qərarın vaxtından qabaq qəbul edildiyi qənaətindəyəm. Bu səbəbdən də bəzi məktəblərdə şagirdlər latın qrafikası ilə yazır, müəllimlər isə sinif jurnallarını kiril əlifbası ilə doldururdular.

Mən Möhtərəm Prezidentimiz Heydər Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin təsis edilməsi haqqında 7 avqust 2002-ci il (№1003) tarixli sərəncamını, elm və təhsil müəssisələri ilə bağlı qərarlarını vacib və zamanı qabaqlayan addım hesab edirəm. Güman edirəm ki, bu qərarlar Azərbaycanı gələcəkdə baş verə biləcək problemlərdən qoruyur.

Təhsilin fəlsəfəsi, təhsil sahəsində dövlət siyasətinin müddəaları və istiqamətləri, konstitusiya normaları, təhsil sahəsində fəaliyyət prinsipləri təhsilin konseptual əsasını təşkil edir. Sovet təhsilinin konseptual əsasını yuxarıda (9-cu

paraqrafda) nəzərdən keçirdik. Yeni təhsil sisteminin fəlsəfəsini müddəalarını formalaşdırmağa cəhd edək.

## 11.1. Təhsilin liberallaşması

*«Lazımdırsa cəhalətlə güləşmək,*
*Bir çara var, o da ki, yeniləşmək».*

**H.Cavid**

Yuxarıda qeyd edildiyi kimi (§9) sovet təhsil sistemində liberal və demokratik dəyərlərin tətbiqi yox dərəcəsində idi. Cəmiyyətin təhsil prosesinə müdaxiləsi mümkün deyildi. Təhsil sistemi şaquli idarəetmə sisteminə uyğunlaşdırılmışdır.

Təhsil sistemində liberal dəyərlərə üstünlük verilməsi, o deməkdir ki, kəmiyyət göstəricilərindən keyfiyyət göstəricilərinə keçid, kütlənin yox, fərdin təhsilalma prosesi diqqət mərkəzinə çəkilməlidir. Fərdi təhsilləndirməklə cəmiyyəti təhsilləndirmək yeni təhsil sisteminin əsas müddəalarındandır.

Tədqiqatlar göstərir ki, milli toplum daxililində insan sayının **ağıllılıq dərəcəsinə** görə paylanması **normal Qauss funksiyasına** tabedir. Normal paylanmaya görə cəmiyyəti təşkil edən insanların bir qismi (15%) istedadlı (bu qismin 3%-i isə çox istedadlı), böyük bir qismi (70%) ağıllı, bir qismi (15%) isə zəif ağıllı və kəmağıllılardır. Bu deyilənləri nəzərə alıb təhsilalanları üç qrupa bölmək olar: istedadlı, orta və zəif təhsilalanlar.

Müşahidələr göstərir ki, bu qrupların hər biri təhsil müəssisələrindən keçdikdə müxtəlif həcmdə, ölçüdə, çəkidə bilik, informasiya toplayırlar. Əlaçılar az zaman kəsiyində çoxlu bilik toplayırlar. Yaxşılar çox təhsil aldıqca çox da biliklənirlər. Zəiflərin informasiya, bilik əldə etmək imkanları məhduddur. Təhsil müəssisələrində onların üzərində vaxt itirib çox işləməyə ehtiyac yoxdur. Onlara baza təhsili verib sənətə, sadə peşələrə istiqamətləndirmək lazımdır.

Şəkil 11.1-də hər üç qrup təhsilalanların biliklənmə səviyyəsinin zamandan asılılıq qrafiki göstərilmişdir.




Şəkil 11.1. İstedadlı (I), orta (II) və zəif qabiliyyətli (III) təhsilalanlar üçün təhsillənmənin zamandan asılılığı.

Şəkildən göründüyü kimi eyni bir bilik səviyyəsinin əldə edilmə müddəti müxtəlif qruplar üçün müxtəlifdir. Misal üçün, elmlər namizədi səviyyəsini (PhD) istedadlı adamlar 25-30 yaşında, orta biliklilər 35-40 yaşında, zəif biliklilər 50-60 yaşında əldə edə bilərlər.

Birinci qrupun təhsilalanları istedadlı insanlardır. Bu istedad onlara Allah tərəfindən verilmiş paydır. Dövlət, cəmiyyət bu insanların potensialının açılması üçün düşünülmüş şəkildə şərait yaratmalıdır. Onların təhsil, bilik almaq fəaliyyətini stimullaşdırmalıdır. Orta məktəbdə medal, test imtahanlarının çempion adları, ali məktəblərdə adlı təqaüdlər, gənc alimlər üçün müxtəlif mükafatlar verməklə onların fəaliyyətini 7 yaşından 30

yaşına qədər nəzarətə götürüb stimullaşdırmaq olar. Bu mükafatlar uğrunda gənclərin açıq yarışını təşkil etməklə Vətənimizi müasir cəmiyyətə çevirmək olar. Başqa stimullaşdırıcı faktorlar da düşünmək olar. Vacib məsələ bundan ibarətdir ki, təhsilalanların birinci qrup təmsilçiləri öz potensiallarını cəmiyyət və dövlət işlərinə həsr etsinlər və şəxsiyyət kimi formalaşsınlar. Böyük Plutarx demişdir: «Şəxsiyyətsiz azadlıq xəyaldır». 28 may 2003-ildə Qərb Universitetində Amerikalı sovetoloq, tarixçi alim Maykl Rıvkinlə Azərbaycanda keçid prosesləri ilə bağlı söhbət etdik. Söhbət zamanı o, İraq müharibəsində ABŞ-ın uğurlarını prezident Buş komandasının çox güclü şəxsiyyətlərdən təşkil olunduğu ilə əlaqələndirdi və Ramsfeldin, Kolin Pauellin və Kondoliza Raysın adlarını çəkdi.

Müstəqil Azərbaycanda vətəndaş cəmiyyəti qurulur. Bu o deməkdir ki, **"dövlət-vətəndaş"** münasibətləri şaquli müstəvidən üfüqi müstəviyə keçir. Bu dövlət nəzarətinin şaquli istiqamətdə zəifləməsi hesabına baş verir. Praktiki həyatda bu, o deməkdir ki, əgər biri övladına yüksək səviyyəli təhsil vermək istəyirsə və başqa biri bu işi yüksək səviyyədə görə bilirsə, dövlət bu işə maneçilik yox, şərait yaratmalıdır. "Repetitorluq" bu prosesin həyatda primitiv şəkildə təzahürüdür. Ali səviyyədə bu missiyanı **özəl** məktəblər həyata keçirə bilərlər.

Buradan çıxardığımız nəticə bundan ibarətdir ki, elmlə istedadlı insanlar məşğul olsa yaxşıdır. Çünki onlar qısa müddətdə əhəmiyyətli elmi nəticələr əldə edə bilir. Orta və zəif biliklilləri elmə buraxmağa ehtiyac yoxdur. Onların elmə getməsi ilə elm qiymətdən düşür, elmi müəssisə çevikliyini azaldır.

Təhsilin liberallaşması milli mənafeyə uyğun, yerli şəraiti nəzərə alaraq, yeni tipli məktəblərin də (misal üçün, bələdiyyə məktəblərinin) açılması zərurətini yaradır.

1995-ci ildən bəri talantlı gənclərin – test çempionlarının cəmiyyətə təqdim olunmasına cəhd etdik. 1995-ci ildə çempionları YAP xətti ilə iş adamı T.İbrahimovun

mükafatlandırmasına, 1996-cı ildə «Avrasiya» qəzetində şəkillərinin çapına nail olduq. Həm 2001-ci il, həm də 2002-ci il çempionlarının şəkillərini iş adamı Ə.Evsənin dəstəyi ilə oxu dəftərlərinin üz qabığına və sonuncu səhifəsinə vurulmasına nail olduq. (bax: Şəkil 11.2 və 11.3). Şəkil 11.2-də 2001-ci il test imtahanlarında 694.4 bal toplayaraq respublka üzrə 2-ci yerə çıxmış və ADİU-nun beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olmuş Cavid Məmmədovun şəkli üz qabığına vurulmuşdur. Dəftərin cildinin 4-cü səhifəsinə isə həmin ilin çempionlarının şəkilləri vurulmuşdur.

Şəkil 11.3-də 2002-ci il test imtahanlarında 693,8 bal toplamış respublika üzrə birinci yerə çıxmış BDU-nun iqtisadi kibernetika ixtisasına qəbul olunmuş Quluzadə Emilin şəkili dəftərin üz qabığına vurulmuşdur. Dəftərin cildinin 4-cü səhifəsinə isə həmin ilin çempionlarının hamısının şəkili vurulmuşdur.

1993-cü ildən bəri bir qrup alimə, ziyalıya və talantlı tələbələrimizə dayaq duran məşhur xeyriyyəçi Əli bəy Evsənin dəstəyi ilə 2002-ci il test imtahanların çempionlarının şərəfinə 12 fevral 2003-cü ildə ziyafət verildi. Ziyafətə Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının üzvləri ilə bərabər çempionlar, onların müəllimləri, valideynləri də dəvət edilmişdir.

2001-ci il test imtahanlarının çempionlarına göndərdiyim məktubu «Azərbaycan» qəzeti 2.09.2001 –ci sayında **«Bilik zirvələrini fəth etmiş çempionlara»** adı altına çap etmişdi. Məktubda deyilirdi:

*«Bu il xalqımız müstəqilliyimizin 10 illiyini qeyd edəcəkdir. On ildir ki, od-alov içərisindən keçərək müstəqil dövlətimiz qurulur və möhkəmlənir.Dövlətimizin banisi möhtərəəm prezidentimiz Heydər Əliyev müstəqil dövlətimizi yeni əsaslarla, yeni prinsiplərlə qurur.Bu əsaslara görə cəmiyyətdə kütlə yox, şəxsiyyətlər diqqət mərkəzinə çəkilir. Demokratik prosedurlar nəticəsində fərdlər kütlədən seçilir və şəxsiyyət səviyyəsinə qaldırılır.*

*Bu il TQDK –nın apardığı imtahanlar nəticəsində 80 mindən çox məzunlar içərisindən təhsil və bilik çempionları seçilmişdir. Bu gənclər yüksək bilik səviyyəsi nümayiş etdirərək nər biri öz qrupunda 1-ci yerə çıxmışdır. Bu gəncləri artıq çox insanlar tanıyır. İstərdim ki, onları Azərbaycan ictimaiyyəti tanısın, təbrik etsin və onlarla fəxr etsin!*

*Beləliklə, 700 mümkün baldan 11 qrupda 697 bal toplayıb 1-ci yer tutmuş Rüfət İsrəndiyar oğlu Qaralovu, 1V qrupda 692 bal toplayıb 1-ci yer tutmuş Aysel Nazir qızı İsmayılovanı, 111 qrupda 692 bal toplayıb 1-ci yer tutmuş Lamiyə Natiq qızı Şirvanzadəni, 1-ci qrupda 686 bal toplayıb 1-ci yer tutmuş Tamilla İqoryevna Əliyevanı, V qrupda 610 bal toplayıb 1-ci yer tutmuş Numay Tufan qızı Axundzadəni ürəkdən təbrik edirəm!*

*Əziz çempionlar! Bu qələbəniz və 111 minilliyin ilk «Bilik günü» münasibəti ilə sizi, valideyinlərinizi, və müəllimlərinizi təbrik edirəm. Arzu edirəm ki, nümunəvi şagird olduğunuz kimi, nümunəvi tələbə və vətəndaş olaraq xalqımızın adını yüksəklərə qaldırasınız. Bu çətin, lakin şərəfli işdə hamınıza can sağlığı, xöşbəxtlik və uğurlar diləyirəm! Üaddan çıxarmayın ki, bilik uğrunda döyüş lazımdır!*

***Şahlar Əsgərov,***
*Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının sədri, əməkdar elm xadimi, professor»*

Bu, fərdin diqqət mərkəzinə çəkilməsi və liberalizmin praktiki həyatda tətbiqi deməkdir.

2003-cü ildə aparılan testin nəticələri elan edilib. Çempionlar artıq məlumdur. Fürsətdən istifadə edərək test çempionları – İlmar Balaxan oğlu Qəhrəmanovu (I qrup, 695.000 bal), Elçin Nəbi oğlu Hüseynovu (II qrup, 687.411 bal), Tural

Ağabala oğlu Quliyevi (III qrup, 688.750), Aytən Sirac qızı Məmmədovanı (IV qrup, 675.000 bal), Validə Yaşar qızı Əsgərovanı (V qrup, 623.428 bal) təbrik edirəm, onlara təhsildə daha uca zirvələri fəth etməyi arzulayıram.


2001
Ali məktəblərə qəbulun liderləri
Cavid Məmmədov
694.375 bal
ADİU, Beyn. İqt. Mün

Шякил 11.2




*Шякил 11.2*


Ali məktəblərə qəbulun liderləri
Quluzadə Emil
693.750 bal
BDU. İqtisadi Kibernetika
2002

*Шякил 11.3*


2003
Yanvar / January
Aprel / April
Iyul / July
Oktyabr / October
Fevral / February
May / May
Avqust / August
Noyabr / November
Mart / March
Iyun / June
Sentyabr / September
Dekabr / Desember

*Шякил 11.3*

## 11.2. Müəllimin sosial statusu

**«Həqiqi müəllim adını daşıyan insan həmişə, tarixin ən çətin dövrlərində dəyanətli, dözümlü olubdur və mənəviyyatını hər şeydən yüksək tutubdur».**

***Heydər Əliyev***

İnsanın cəmiyyətdə və ya qrupda tutduğu mövqe-status adlanır. İstənilən status rollardan ibarətdir. Müəllimin statusu onun vəzifə borcunu müəyyənləşdirir. Müəllim bilikləri şagirdlərə ötürməyə borcludur. Onun biliyini qiymətləndirərək, tərbiyəsinə nəzarət edərək müxtəlif rolları yerinə yetirir. Müəllimin hüquq və vəzifəsi qanunla və ənənə ilə müəyyənləşir.

Beləliklə, status cəmiyyətin sosial strukturunda tutulan yerdir və müəllimin bu strukturda özünə layiq yeri vardır. Qeyd etmək lazımdır ki, Yaponiyada müəllimin statusu kifayət qədər yüksəkdir. Bu yerin tutulmasında, bu yerə uyğun hüquq və vəzifələrin formalaşmasında milli ənənənin xüsusi yeri vardır.

Təhsil prosesinin subyekti-müəllimin sosial statusu cəmiyyətdə yüksək tutulmalıdır. Bu bəşəri dəyər bütün zamanlarda hər bir cəmiyyətin diqqət mərkəzində olubdur.

V.Yanın "Çingiz xan" (Bakı, 1983) əsərində maraqlı bir səhnə var. Çingiz xan Buxaranı təslim edib *"məscidə yaxınlaşanda bütün camaat öz padşahı qarşısında etdiyi kimi, səməd atın ayaqlarına düşdü. Ancaq bir neçə qoca ülamə əllərini qurşaqlarının üstünə qoyaraq düz dayanmışdılar. Onlar öz* ***alimliklərinə*** *görə hökmdarın qarşısında üzü üstə düşməkdən azad idilər".*

Türk məmləkətlərində və o cümlədən Azərbaycan cəmiyyətində müəllimin statusu XX əsrin ortalarına qədər çox yüksək olub, cəmiyyətin ən hörmətli adamına (yuxarıda qeyd edildiyi kimi) **"müəllim"** deyiblər. Sonra sui-istifadə halları başlayıb, küt, savadsız, mənəvi cəhətdən qüsurlu insanlar müəllimlik etdikcə bu peşəyə münasibət dəyişib, inversiya baş

verib, müəllim hörmətdən düşübdür. XX əsrin əvvəllərində ruhani məktəblərində mollalar dini və mədrəsəni nə qədər hörmətdən salmışdırsa, çağdaş dövrümüzdə müəllimlərin bir qismi təhsili, məktəbi o qədər hörmətdən salıblar. Bizim müəllimləri tənqid atəşinə tutmaq üçün "Molla Nəsrəddin"" jurnalını yolun azmış müəllimləri tənqid etmək üçün təzədən **«Müəllim Nəsrəddin»** adı altında nəşr etməyə ehtiyac duyulur.

Müəllimin cəmiyyətdə sosial statusunu qaldırmaq üçün dövlət səviyyəsində proqram hazırlayıb həyata keçirməyə ehtiyac duyulur. Əvvəla, müəllim peşəsinə yaramayanlar təhsil müəssisəsindən uzaqlaşdırılmalı, ikincisi, müəllimlərin orta aylıq əmək haqqı cəmiyyətin digər üzvlərinin orta aylıq əmək haqqından yüksək olmalıdır. ABŞ iqtisadçısı **Cekson Qreyson** Yaponiyada müəllim peşəsinin müqəddəs sayılmasını və qanun üzrə müəllimlərin ən yüksək maaşlı 25 faiz içərisinə daxil olduğunu qeyd edir. C.Qreyson yazır ki, 1983-84-cü illərdə Yaponiya müəllimlərinin orta aylıq əmək haqqı ölkə üzrə orta aylıq əmək haqqından 2,4 dəfə yuxarı olmuşdur və ABŞ-da uyğun göstəricinin 1,7 olduğuna təəssüflənir.

2000-ci il üçün Azərbaycanın təhsil sistemində orta aylıq əmək haqqı 166 min manat, ölkə üzrə orta aylıq əmək haqqı 205 min manat olmuşdur (Bax "Müstəqil Azərbaycan 10 il"" kitabı, Bakı, səh. 101.). Təhsildə orta aylıq əmək haqının ölkə üzrə orta əmək haqqından az olması qüsurlu hal kimi qeyd olunmalıdır. Qeyd etmək yerinə düşər ki, 1970-ci illərdə respublikada orta aylıq əmək haqqı 109 rub olarkən, təhsildə 120 rub olmuşdur. Əmək haqlarının nisbəti təhsilin xeyrinə 1,1-ə bərabər olmuşdur. Bu nisbəti çağdaş cəmiyyətimizə gətirməklə dirçəlişə tez nail olmaq olardı.

Azərbaycan Respublikasının prezdenti H.Əliyevin «Təhsil müəssisələri işçilərinin əmək haqlarının artırılması haqqında» 15 may 2003-cü il tarixli sərəncamından sonra bu nisbət bizdə təqribən bərabər olmuşdu.

## 11.3. Təhsildə kütlə və fərd münasibətləri

**«Ziyalı kütləvi ola bilməz. Alimdir, şairdir, bəstəkardır, rəssamdır, yazıçıdır, artisdir – bunlar fitri istedada malik olan nadir adamlardır və öz mədəniyyəti, yaradıcılığı, fəaliyyəti ilə bizim cəmiyyətin mədəni səviyyəsini qaldırır».**

***Heydər Əliyev***

Təhsil konsepsiyasını qurarkən nəzərə almaq lazımdır ki, hər bir insan əvvəlcədən ümumi və xüsusi qabiliyyət dəsti (naboru) ilə dünyaya gəlir. Psixi cəhətdən normal insanların ümumi qabiliyyətləri praktiki olaraq eynidir və cəmiyyətdə, təbiətdə və məişətdə insani davranışların sadə formalarını əldə etməyə qulluq edir. Xüsusi qabiliyyətlər həm talant səviyyəsinə görə, həm də fəaliyyətin müxtəlif istiqamətlərinə görə hamıda müxtəlifdir. Misal üçün, musiqi qabiliyyətini xüsusi qabiliyyətə aid etmək olar. Lakin talantlı insanlarda da bu qabiliyyət müxtəlif ölçüdədir. Bu fikirlərimiz insanın təbiət elmlərinə, texniki və digər xüsusi qabiliyyətlərinə də aid edilir.

Depersonlaşmış təhsildə xüsusi qabiləyyətin nəzərə alınmamasından şəxsiyyətlər əziyyət çəkirlər. Çox təəssüf ki, bu ağrını isə heç kəs hiss etmək istəmir. Vəziyyətdən çıxış yolu təbii forma olaraq, təhsilin fərdiləşdirilməsi konsepsiyasına üstünlük verilməsidir.

Yeni təhsil sisteminin konseptual müddəalarından biri, yuxarıda qeyd edildiyi kimi, diqqət mərkəzinə **şəxsiyyətin, fərdlərin** çəkilməsidir. Cəmiyyətin aparıcı qüvvəsi istedadlı insanlar, şəxsiyyətlər hesab edilməlidir. Şəxsiyyətin keçmişdə danılmış rolu bərpa edilməli, proletariatın (kütlənin) tarixi missiyasından isə imtina edilməlidir.

Dediklərimizdən aydın olur ki, yeni təhsil sisteminin dayaq nöqtəsi sosialist təsəvvürünə uyğun olaraq **kütlə** üzərində yox, əsasən istedadlı **fərdlər** üzərində qurulmalıdır. Sual olunur

bu iki dünyagörüşlərün fərqi nədir? Qeyd etmək lazımdır ki, bu dünyagörüşlərdə təhsilə münasibət fərqlidir. Fərq isə bundadır ki, kütləni öyrətmək lazımdır, şəxsə isə şərait yaratsaq özü öyrənəcəkdir. Fəlsəfi dillə desək, kütlə təhsillənmə prosesində həmişə obyekt, fərd isə həm də subyekt ola bilər.

İstedadlı gənclərin təhsildən kənarda qalması yolverilməzdir. Belə gənclər yaxşı təhsil sistemindən keçsələr, gələcəkdə nəinki özləri ayaq üstə möhkəm dayanacaqlar, bir çox hallarda yeni ideyalar əsasında yeni qurumlar (özəl, ictimai, yaradıcı təşkilat və s.) yaradaraq yüzlərlə həmvətənlərinə iş yeri açacaqlar. Xalqın hörmətini qazandıqdan sonra belə insanların fəaliyyəti, mədəniyyəti, davranışı gənc nəsil üçün örnək ola bilər.

Şagirdlərimiz beynəlxalq bilik yarışlarında, müsabiqələrdə, olimpiadalarda, yaxşı mənada fərqlənmə yarışlarında uğurla iştirak edirlər. Daxildə də belə yarışları geniş tətbiq etmək lazımdır. Əlaçı məzunların orta məktəbi "medalla"" bitirməsi praktikasını təzədən bərpa etmək, olimpiadalar, zənnimizcə təhsil səviyyəsinin yüksəlməsinə kömək edərdi. "qızıl"" və "gümüş""  medallar praktikası yeni quruluşun ruhuna, fəlsəfəsinə uyğundur. Belə tədbirlər şagird və tələbə kütləsinin içərisində talantlı gənclərin yetişməsinə kömək edərdi.

19.04.03 tarixdə Bakı şəhəri 67 saylı orta məktəbin XI sinif şagirdi Sevda Mehdiyevanın «Pıçıltı» kitabının təqdimat mərasimində iştirak etdim. Məktəbin müəllim kollektivinin bir şagirdin yaradıcılığına göstərdikləri qayğını, isti münasibəti gördüm və sevindim. Belə məktəblərin və belə şagird-müəllim münasibətlərinin olması insanı sevindirir.

Deməli, yeni təhsil sistemi istedadlı gəncləri diqqət mərkəzində saxlamalıdır. Bunu sübut etmək üçün bizim tarixə müraciət etməyə ehtiyacımız yoxdur. H.Əliyev şəxsiyyəti bizə örnəkdir. Bir Şərq mütəfəkkiri sərrast demişdir: "Bütün aləmi bir şəxsiyyətdə toplamaq cənabi **Haqqa** zor gəlməz"...1992-ci il və 2002-ci il Azərbaycanında təməl fərq cəmiyyətdə yox, ali

rəhbərlikdə baş veribdir. Dövlətin, cəmiyyətin inkişafında tarixi şəxsiyyətin rolu çox böyükdür.

Beləliklə, təhsilin konsepsiyasında insanın təbii fərdi qabiliyyətlərini nəzərə alan təhsildə fərdiləşməyə (depersonlaşma) üstünlük verilmədir.

Yeri gəlmişkən, cəmiyyətdə də «fərd-kütlə» münasibətinə toxunmaq istəyirəm. Bu münasibəti bilmək, cəmiyyətdə düzgün mövqe seçmək, qərar qəbul etməyə kömək edir.

19.04.03 tarixində TV kanallarının gecə verilişlərinin birində «qəhrəmanlıq» mövzusu müzakirə edilirdi. Ekranda tanınmış insanlar bu problemi açmaq istəyirdilər. Ancaq problem açılmadı. Çünki problemə fərd-kütlə kontekstində baxılmadı. Orada bir cümlə deyilsəydi kifayət edərdi: **qəhrəmanlıq kütlə yolunda fərdin özünü fəda etməsidir.** Şəxsi həyatını ictimai həyata qurban verməsidir. Satqınlıq ictimai marağın şəxsi marağa qurban verilməsidir.

Göründüyü kimi həm təhsildə, həm cəmiyyətdə fərd-kütlə münasibətlərinin aydın dərk olunması, cəmiyyətdə çox problemə aydınlıq gətirər.

## 11.4. Təhsildə kəmiyyət və keyfiyyət münasibətləri

*«Təhsilin və elmi tədqiqatın keyfiyyət kriteriyası nəticə etibarı ilə ölkənin əldə etmiş olduğu xeyirlər və faydalardır».*

***S.Kolqan***

Təhsil insan fəaliyyətinin elə nadir sahəsidir ki, kəmiyyət keyfiyyəti yüksəltmir, əksinə azaldır. Bu səbəbdən də əsassız şişirdilmiş plan və proqramlar ümumi təhsildə gözlənilən səmərəni vermir.

Yeni quruluşun nəzəri əsasına görə təhsilin inkişafının **şaquli** komponenti əsas mövqeyə çıxarılır və dövlət siyasəti səviyyəsinə yüksəldilir. Praktiki həyatda bu o deməkdir ki, talantlı gənclərin potensialının hərtərəfli açılması, zəruri bilik almaları üçün lazımı şərait yaradılması tələb olunur. Bu sistemdə **keyfiyyət** əsas meyar kimi çıxış edir. Sovet təhsil sistemində kök atmış kəmiyyət göstəricilərindən keyfiyyət göstəricilərinə keçilməlidir. Talantlı gənclərə dərin bilik verilməlidir. Bu baxımdan sovet beş illik ali təhsil pilləsinin iki yerə bölünməsi və «4+2» formulası ilə fəaliyyət göstərməsinin çox böyük əhəmiyyəti var. Bakalavr səviyyəsini bitirmiş tələbələrin 10-20%-nin magistraturada təhsillə, doktoranturada elmlə daha dərindən məşğul olması zamanın tələbinə və çağırışına uyğundur.

Təhsildə kəmiyyət-keyfiyyət göstəricilərinin əhəmiyyətini dərindən dərk etmək üçün 1960-cı ildən indiyə qədər müəllim ordusunun artım dinamikasına diqqət yetirək. 1960-80-cı illərdə müəllimlərin sayı 2 dəfə artaraq 54 000 nəfərdən 112 000 nəfərə çatmışdır. 1985-90-cı illər ərzində bu say cəmi 5 000 nəfər çoxalmışdır. Sovet dövləti dağılana qədər bu say 132 000 nəfər olmuşdur. Postsovet erasında 1992-ci il təhsil qanununun yaratdığı qeyri-real şərait müəllimlərin sayını 30 000-dən çox

artırmışdır. (bax: şəkil 11.2) Bu cür əsassız artım təhsilin keyfiyyətini azaldan başlıca amillərdən biridir.




**Şəkil 11.2 Təhsil işçilərinin (+) və müəllimlərin (•) sayının zamanı görə dəyişməsi.**

Çünki məktəbə, təhsilə səriştəsiz insanlar çox cəlb olunubdur. Oğurluq, quldurluq edib türmədə həyatı keçmiş adamlara indi məktəb həyatında rast gəlmək mümkündür. Halbuki, bir qox inkişaf etmiş ölkələrdə siqaret çəkən müəllimi sinifə buraxmırlar.

Ali təhsildə keyfiyyətə təsir edən faktorların biri və vacibi təqaüddür. İqtisadi əhəmiyyəti ilə bərabər, təqaüd tələbəni zaman resursundan da səmərəli istifadə etməyə sövq edir.

F.Kafkaya görə: Materialın xassəsi onda olan elektronların sayı ilə təyin olunur. Kütlənin səviyyəsi isə hər fərdin təfəkkür səviyyəsindən asılıdır.

Təhsil təfəkkürü dəyişə bilər. Azərbaycan təhsili dövlətimizin müstəqilliyindən istifadə edərək yeni bir sıçrayış etməlidir. O, cəmiyyətimizi **"oxuyan cəmiyyətdən öyrənən cəmiyyətə"** çevirməlidir.

Keyfiyyətin əxlaq, tərbiyə toplananı bütün ciddiliyi ilə təhsil prosesində nəzarət altında saxlanmalıdır. Bu kitab çapa hazırlanarkən Milli Məclisin üzvü, Reqional məsələlər daimi komissiyasının sədri professor Z.Qaralovun «Tərbiyə» kitabı çapdan çıxmışdır. Təhsildə keyfiyyətə tərbiyənin təsirini nəzərə alaraq, pedaqoji ictimaiyyətin həmin kitabdakı müddəa və dəyərlərdən bəhrələnəcəyinə inanıram. Bu baxımdan Əli Fuat Başgilanın «Gənclərlə üz-üzə» (Bakı-1999) kitabıda çox qiymətlidir. Qeyd etməyə dəyər ki bu kitab Türkiyyədə 36 dəfə çap edilmişdir.

Bəşəri təcrübə göstərir ki, tədrisin keyfiyyəti əsasən üç faktordan asılıdır: təhsilin məzmunu, pedaqoji texnologiya və təhsilin keyfiyyətinə nəzarət. Bu üç faktor arasında harmoniya olarsa təhsildə tələb olunan keyfiyyəti təmin etmək olar. Son olaraq deyə bilərik ki, millətin, dövlətin taleyi təhsildən yox, **keyfiyyətli təhsildən** asılıdır. Bu baxış aparıcı dövlətlər üçün doğrudur. ABŞ-da yüksək səviyyəli təhsil müəssisələri olmasaydı, o dünyanın qüdrətli dövlətinə çevrilə bilməzdi. Dövlətin, millətin və fərdin nəsilbənəsil, ilbəil ötürülən kasıblığın yolunu ancaq keyfiyyətli təhsillə kəsmək mümkündür.

## 11.5. Təhsildə demokratikləşmə

*"Yeni qərarlar qəbul etməyəni yeni problemlər gözləyir. Çünki zaman böyük novatordur".*

***F.Bekon***

Yeni təhsil sisteminin konseptual müddəalarının biri də təhsilin **demokratikləşməsidir**. Demokratiyanın potensialından təhsil sistemində də istifadə etmək lazımdır.

Təhsilin problemlərini həll etmək üçün bir tərəfdən təhsil kollektivini, digər tərəfdən valideynləri bu prosesə cəlb etmək lazımdır. Bunun üçün orta təhsil müəssisələri rəhbərlərinin və ali məktəb rektorlarının təyinatında demokratik prinsiplərdən istifadə etmək lazımdır.

Mənim subyektiv fikrimə görə, torpağın meyvə, ət-süd, bal (və bu kimi digər rəngarəng potensialından) istifadə etmək üçün uyğun olaraq meyvə ağaclarından, mal-qaradan, arı pətəyindən və bunun kimi digər varlıqlardan (çeviricilərdən) istifadə etdiyimiz kimi, cəmiyyətin müxtəlif rəngarəng potensiallarını ondan kadrlar vasitəsi ilə qopara bilərik. Arıdan meyvə, ağacdan ət-süd qoparmaq mümkün olmadığı kimi hər insandan da direktor, müdir, rektor kimi istifadə etmək mümkün deyildir. Kadrları düz seçməklə cəmiyyətin inkişafına, səhv seçməklə cəmiyyətin çürüməsinə nail ola bilərik.

Bir haşiyəyə çıxaraq qeyd edək ki, II Dünya müharibəsindən sonra ingilislər Ü.Çerçili özlərinə 2-ci dəfə baş nazir seçməmələrinin səbəbi maraq doğurur. Qeyd edək ki, Çerçildə ingilis cəmiyyətini müharibəyə səfərbər etmək, əsgərləri ruhlandırmaq və bunun kimi digər qabiliyyətlər yüksək idi. Müharibədən çıxmış ölkəyə indi belə şəxs yox, iqtisadiyyatı dirçəldən şəxs lazım idi. Bu səbəbdən də ingilislər müharibə qəhrəmanını artıq özlərinə baş nazir seçmədilər. Qərb (rassional)

düşüncə tərzinin, Şərq (irrosional) düşüncə tərzindən fərqi bundadır.

Kadr məsələlərinə məktəb daha həssasdır. Çünkü burada profesionallıqla bərabər, mənəvi keyfiyyətlər də əsas rol oynayır. Bu prosesdə ictimaiyyətin gücündən istifadə etməyin hikməti böyükdür. Sovetlər zamanında bu potensialdan istifadə edilmirdi.

Demokratiyanın imkanlarından istifadə edərək təhsil ictimaiyyətinin layiqli üzvlərini məktəbə, təhsilin idarə olunmasına cəlb etmək lazımdır. Cinayətkarı cəmiyyət məktəbə müdir (direktor) seçməz, amma təəssüf ki, belə adam bəzən məmur təyin edilir.

Demokratiyanın gücü böyükdür. Bu potensialdan istifadə etmək lazımdır. Fikir müxtəlifliyinin hikməti ilə bağlı Bernard Şounun bir kəlamında deyilir: **«Əgər sənin bir alman varsa və mənim bir almam varsa, almalarımızı dəyişsək yenə hərəmizin bir alması olar. Əgər sənin bir ideyan varsa və mənim bir ideyam varsa, ideyalarımızı dəyişsək hərəmizin iki ideyası olar».** Mənəvi varın maddi vardan fərqi və üstünlüyü bundan ibarətdir. Digər fərq isə yuxarıda dediyimiz kimi bundan ibarətdir ki, maddi var xərcləndikcə azalar, mənəvi var xərcləndikcə artar, çoxalar.

1980-cı illərin əvvəllərində mərkəzi TV-nin axşam verilişlərinin birində siyasi icmalçı Oleq Kondraşevin çıxışı indiyə qədər yadımdadır. O, Böyük Britaniyada diplomatik qulluqda olarkən, bir dəfə qızının təhsil aldığı məktəbdə 7-ci sinifin tarix dərsində iştirak edir. Tədrisin metodu ilə bağlı O.Kondraşev qeyd etdi ki, müəllim şagirdin birini ayağa qaldırıb və dedi ki, sən Marqaret Tetçerin Afrika siyasətini tənqid et. Digər bir şagirdə isə dedi ki, sən M.Tetçerin Afrika siyasətini müdafiə et. Şagirdlərin biri bildiyi arqument və faktlarla M.Tetçerin siyasətini müdafiə edir, digəri isə tənqid edir. Tədrisin bu metodu vasitəsi ilə həm fikir müxtəlifliyi tərbiyə edilir, həm də hadisəyə, prosesə, məsələ müxtəlif bucaqlar altında baxılır. Bu metod hələ 2500 il öncə Çin filosofu Kanfutsi: **«Cəmiyyətdə əks**

**fikirlər bir-birini tamamlayır»** kəlamının həyatda tətbiqi idi. Cəmiyyətdə müxtəlif fikirlərin deyilməsi və bu fikirlər içərisindən xeyirlisinin seçilməsi milləti həm qoruyar, həm də inkişafına səbəb olur.

1988-ci ildən qabaq bir çox insanlar Dağlıq Qarabağda ermənilərin gizli pul topladıqlarını və Azərbaycandan ayrılmağa hazırlaşdıqlarını deyirdilər. Ancaq təəssüf ki, Azərbaycan rəhbərləri bu fikirləri yerindəcə boğurdular və müzakirəyə çıxarmırdılar. Bu **xəstə düşüncə tərzi** bizə çox baha başa gəldi. Dağlıq Qarabağ probleminin törənməsində fikir müxtəlifliyinin və demokratiyanın qıtlığının günahı az deyil. Təhsil vasitəsilə biz demokratik və digər bəşəri dəyərləri, tənqidi düşüncə tərzini gənclərə öyrətməyə borcluyuq.

## 11.6. Təhsildə obyekt-subyekt münasibətləri

*«Əvvəlcə sev, sonra öyrət».*

***Y.Kaminski***

Azərbaycan təhsil sistemində obyekt-subyekt münasibətlərinə yanaşma birmənalə olmadığına görə bu barədə ətraflı söhbətə ehtiyac duyulur.

Fərz edək ki, məktəb həyatində iki gənc dalaşır və biri digərini döyür. Hüquq müstəvisində hər iki gənc dalaşma hadisəsinin subyektləridir. Sosial-fəlsəfi baxımdan bu hadisənin iki tərəfi var: aktiv və passiv. Prosesi idarə edən onun aktiv, idarə olunan isə passiv tərəfidir. İdarəedən (döyən) tərəf bu hadisənin **subyekti,** idarəolunan (döyülən) tərəf isə hadisənin **obyektidir.**

Bu fikrin işığında orta məktəbdə dərs prosesinə diqqət yetirək. Sinifdə müəllim dərs deyir, şagirdlər qulaq asırlar. Ona görə də biliklərin müəllimdən şagirdlərə ötürülməsi bu münasibət üzərində qurulubdur. Müəllim şagirdi lövhəyə dəvət edir, danışdırır, biliyini qiymətləndirir və s. Bu dərs prosesinin obyekti şagird, subyekti müəllimdir. Çünki müəllim dərs prosesini idarə edir. Ona görə ki, müəllimin biliyi, məlumatı, həyat təcrübəsi, dünyagörüşü şagirdinkindən qat-qat çoxdur. Müəllim və şagirdlər arasındakı bu bilik və dünyagörüşlər fərqi **müəllimi** tədris prosesinin subyektinə çevirir. Orta məktəb illərində bu vəziyyət praktiki olaraq saxlanılır.

Ali məktəblərdə vəziyyət xeyli dəyişir. Tələbələrə sərbəstlik verilir. Tələbələr **kvazisubyektə** çevrilir. Bu müstəqillik də ondan ibarətdir ki, tədris prosesinə yeni pedoqoji texnologiya - **mühazirələr, laboratoriya dərsləri** və **seminarlar** daxil edilir. Tələbəyə çox informasiya vermək məqsədi ilə müəllim öz dərslərini mühazirələr şəklində qurur. Tələbələrdən gündəlik dərs soruşulmur. Onlara tədris prosesinin

subyekti olmaq şansı verilir. Tələbəni aktivləşdirmək məqsədi ilə seminar formasından istifadə olunur. Tələbələr seminar dərslərində öz bilik və bacarıqlarını sərbəst nümayiş etdirirlər. **Laboratoriya** dərslərini yerinə yetirməklə tələbəyə tam subyektləşmə şansı verilir. Yuxarı kurslarda təhsil prosesində tələbənin rolu daha da artır. Universitetlərdə buraxılış kursunda diplom işləri üzərində işləyərkən tələbə öz mövzusu sahəsində bəzən tam **subyekt** səviyyəsinə qədər ucalır. Diplom işlərinin mövzuları adətən çox aktual olur. İngiltərəli universitet diplomçusu Cozefson öz diplom işinə- «Cozefson effektinə» görə sonralar Nobel mükafatı almışdır.

XX1 əsr informasiya əsri olduğundan obyekt-subyekt münasibətlərində yeni çalarlar əmələ gəlir, təhsil işçiləri bu faktı gözdən qaçırmamalı və tədrisin metodikasına yeni düzəlişlər daxil etməlidirlər.

Ən nəhayət, ali təhsilin son pilləsi olan magistraturada müəllim- tələbə münasibəti **subyekt-subyekt** səviyyəsinə qalxır. Müəyyən məsələlərin həllində, elmi hadisələrin izahında artıq magistr-tələbə müəllimindən daha çox informasiyaya malik ola bilər. Müəllim öz tələbəsinə artıq həmkarı kimi baxa bilir. O müəllim xoşbəxtdir ki, tələbəsi ondan daha çox bilir.

Aspiranturada (doktoranturada) gənc tədqiqatçı öz rəhbəri ilə birlikdə müştərək elmi məqalələr yazır. Bu zaman o, rəhbəri üçün həmkar səviyyəsinə yüksəlir. Elmi mövzunun yerinə yetirilməsində aspirant rəhbəri ilə bərabər hüquqlu subyekt kimi çıxış edir.

Beləliklə, birinci sinifə təhsil prosesinin **obyekti** kimi daxil olan şagird, aspiranturanı bu prosesin **subyekti** kimi qurtarır. Təhsil prosesində idarə olunan səviyyədən idarəedən səviyyəsinə qədər yüksəlir. Bu cür gənclər artıq Vətənə qulluq etməyə hazırdırlar.

Beləliklə, tam və mükəmməl təhsil prosesi gəncləri fəaliyyətin istənilən sahəsində “obyekt“ statusundan “subyekt“ statusuna qaldırmalıdır. Bu işi ancaq mükəmməl təhsil sistemi

görə bilər. Burada **mükəmməl** sözünü bir də vurğulayıram. Çünki mükəmməl təhsil sistemindən keçməyən gənclər sonralar içərisindən keçdikləri prosesləri uduzurlar, özünə güvənən gənc kimi yetişmirlər.

Azərbaycan təhsil mühitində şagirdə subyekt kimi baxmaq ideyası ətrafında ucuz alver edilir. Bu ideyanın əsasında şagirdə insan kimi baxmaq, onu insan kimi sevmək, ona açılmamış potensial, vətənin layiqli övladı kimi baxmaq durur. Ona biliyi öyrətməklə bərabər, öyrənməni öyrətmək ideyası durur. Yoxsa hansısa məktəbdə «məktəb parlamenti» yaratmaqla şagirdi subyektləşdirmək absurddur. Şagirddən süpürgə pulu, şüşə pulu, fond pulu yığmaq nəinki şagirdin, hətta məktəbin obyektləşməsidir. Bu səbəbdən də yüksək idarəetmə orqanlarında məktəbə obyekt kimi baxan məmurlar da az deyildir.

Bir gün **Eynşteyn** Rezerfordun laboratoriyasına gəlir və onun əməkdaşları ilə tanış olur. Tanışlıqdan sonra o, Rezerforddan soruşur: "Bu cür talantlı insanları bir laboratoriyaya necə yığa bilmisiniz?""

**Rezerford**: "Mən həmişə onları inandırmağa çalışmışam ki, onlar məndən ağılsız deyillər" - cavabını verir.

Deməli, Rezorford öz əməkdaşları ilə münasibətini subyekt-subyekt səviyyəsində qura bilmişdir.

Biz şagirdlərə, tələbələrə heç zaman yuxarıdan aşağı baxmamalıyıq. Onların potensialının açılmasına hərtərəfli kömək etməliyik. Biz onları sındırıb özümüzə tabe etməməliyik, onları yüksəldib özümüzü onlara etibar etməliyik.

İngiltərənin kralı VIII Eduardın «Amerikada məni xüsusilə heyran edən o oldu ki, valideynlər necə öz övladlarına qulaq asırlar» fikiri bu gün üçün də aktual və ibrətamizdir.

## 11.7. Dil dərslərinin fəlsəfəsi

*«Əgər məktəblərimiz ingilis, fransız, alman dillərində dərs keçirsə, bu, böyük nailiyyətdir. Əgər rus dilində də təhsil alırlarsa, bu da böyük nailiyyətdir».*

***Heydər Əliyev***

Dünyada qloballaşma prosesi gedir. Dünya qloballaşdıqca insanlar tək doğulduqları ölkələrdə yox, başqa-başqa ölkələrdə əmək fəaliyyəti göstərə bilərlər. İqtisadiyyatın qloballaşması ilə əlaqədar dünyada iş yerləri də qloballaşır. Bakıda kifayət qədər iş yerləri xarici ölkə vətəndaşları tərəfindən tutulubdur. Bu proses get-gedə daha çox genişlənəcəkdir. Hal-hazırda çoxlu azərbaycanlı dünyanın müxtəlif yerlərində uğurla fəaliyyət göstərir. Mənim universitet tələbələrim ABŞ-da, Kanadada uğurla çalışırlar. Beləliklə, almanın Amerikada, amerkalının Fransada, fransızın Bakıda işləməsi qloballaşmanın nəticəsidir. Bu proses başlayıbdır və bunun qarşısını almaq mümkün deyildir. Bu problemlərin həllində təhsil bizə dayaq ola bilər. Biz vətəndaşlarımıza keyfiyyətli təhsil verə bilsək, əvvəla, iş yerlərimiz xaricilər tərəfindən az tutular, ikincisi də, əksinə, bizimkilər gedib xaricdə iş yerlərini tuta bilərlər.

Biz Bakıdakı iş yerlərimizi qorumağa borcluyuq. Bunun üçün gərək biz ixtisas fənləri ilə bərabər dil dərslərinin tədrisinə böyük əhəmiyyət verək. Orta məktəbdə, ali məktəbdə və aspiranturada dil dərslərinə çoxlu saat ayrılır, deməli dövlət tərəfindən bu işə pul xərclənir. Amma bu pul tam biliyə çevrilmir. Xərclənən pul dili açmır. 2001-ci ildə AFR-nın – DAAD təmsilçisi komissiyamızın qonağı oldu. Söhbət əsnasında məlum oldu ki, o, 7-8 xarici dil bilir və o cümlədən də türk dilini. Ondan soruşanda ki, buna necə nail olmusunuz? O,cavabında bu dillərin birini orta məktəbdə, birini ali məktəbdə, birini isə doktoranturada, qalanlarını isə sərbəst öyrəndim,- dedi.

Sovet təhsil sistemində xarici dil dərslərinin fəlsəfəsi belə qurulmuşdur ki, şagird orta məktəbdə ən azı bir xarici dil (rus dilindən əlavə), tələbə ali məktəbdə ikinci xarici dil, aspiranturada üçüncü xarici dil öyrənsin. Ancaq sovet dövləti qapalı olduğundan bu dillər əvvəla pis tədris olunurdu, ikincisi də öyrənilsə belə tətbiq tapmadıqlarına görə sonradan unudulurdu. Azərbaycanda min nəfərdən çox professor, 6 mindən çox elmlər namizədi var, ancaq bu insanların çoxu nəinki üç və ya iki xarici dil, heç birini də düzəməlli bilmirlər. Keçmiş təhsil sisteminin bu qüsurunu gələcəyə aparmamalıyıq.

Sovet təhsil sistemi nəinki xarici dil, heç öz vətəndaşlarına rus dilini öyrədə bilmədi. Dil bilmək ziyalılığın, professorluğun göstəricisidir. Bizim təhsil sisteminin dil dərslərinin effektliyi sıfıra yaxın olubdur.

Təhsildə effektivlik vahid xərcə düşən proqram materialının mənimsənilməsidir. Təhsildə keyfiyyət və çəkilən xərc arasında münasibət aşağıdakı formula ilə verilə bilər:

$$\text{Mənimsəmə} = K \cdot \text{Xərc}.$$

Haradakı, K - effektivlik əmsalıdır. Xərci artırmaqla, keyfiyyəti artırmaq mümkündür. Əsas odur ki, az pul xərcləyib yüksək keyfiyyət əldə edəsən. Bunun üçün çalışmaq lazımdır ki, K əmsalı böyük olsun. K əmsalını artırmaq pedaqogika, psixologiya və sosiologiya elmlərinin başlıca vəzifəsidir.

Yadda saxlamaq lazımdır ki, fəaliyyətimizin əksər sahələrində dil bizim üçün **məqsəd** deyil **vasitədir.** Dil öyrənmək əsasən dilçilər üçün məqsəddir. Xarici İşlər (və ya digər beynəlxalq təşkilatlarla işləyən qurumların) Nazirliyinin əməkdaşları üçün dil zəruri vasitədir.

"İzvestiə"“" qəzeti" 15.02.02. tarixli sayında yazır: "Dövlət Dumasının Beynəlxalq Əlaqələr Komitəsinin sədri Dmitri Roqozin 5 əcnəbi dil bilir. Fransız dilini orta məktəbdə, italyan və ispan dillərini ali məktəbin jurnalistika fakultəsində

öyrənibdir. Orada həm də çex dilini öyrənibdir. Çünki beynəlxalq jurnalistlərdən sosialist dövlətlərinin birinin dilini öyrənmək tələb olunurdu. İngilis dilini isə müstəqil öyrənib ki, müxtəlif konfranslarda tərcüməçinin köməyindən istifadə etməsin"". Deputat üçün pis göstərici deyil. Onu da qeyd edək ki, D.Roqozin RF-nın Azərbaycana müsbət və obyektiv münasibət bəsləyən deputatlarındandır. Ç. Aytmatova görə çox dil bilmək ziyalılıq əlamətidir.

İndi Azərbaycanda müstəqil dövlət və açıq cəmiyyət qurulur. Biz dil dərslərini yeni dövrün tələblərinə uyğun qurmalıyıq. Birincisi, bir neçə xarici dil və ixtisası dərindən öyrənəndən sonra, dünyanın çox yerində iş yeri tapa bilərik. İkincisi, öz ölkəmizdə iş yerlərinin xarici ölkə vətəndaşları tərəfindən tutulmasının qarşısını almış olarıq. Üçüncüsü, bu dillərin köməyi ilə Azərbaycanın haqq işini beynəlxalq ictimaiyyətə çatdıra bilərik, həm də maraqlarını qoruya bilərik. Təsadüfi deyil ki, ABŞ prezidenti Corc Buş prezidentliyinin 15-ci günü təhsillə bağlı öz fikirlərini açıqladı. Riyaziyyatın və xarici dillərin öyrənilməsinə önəmli yer verilməsini diqqət mərkəzinə çəkdi. Bu faktı yadda saxlamağa dəyər. Bir də fikirləşmək lazımdır ki, C.Buş niyə belə etdi?

Dillə bağlı Azərbaycan cəmiyyətində problem çoxdur. Bizi idarə edənlərin bəziləri nəinki xarici dil, heç doğma dilini bilmir. Bu isə bizi müxtəlif dünyagörüşlü edir, nəticədə cəmiyyət parçalanır: rus dilli azərbaycanlılıar, azərbaycan dilli azərbaycanlılar. Qeyd etmək lazımdır ki, ikidillilik bizi iki mentalitetli edir. Bu isə birliyimiz üçün qorxuludur. Dil probleminə filoloji problem kimi yox, siyasi problem kimi baxmaq lazımdır. Sovet dövründəki müşahidələrə görə rus dilində danışan digər millətlrin nümayəndələri, çətinə düşəndə öz dillərində danışırlar. Bizimkilərin bəziləri öz dillərində danışanda çətinə düşəndə rus dilinə keçirlər.

Sadə həqiqət bundan ibarətdir ki, "dil əlilliyi"" dünya ilə münasibətləri yaxşılaşdırmağa kömək etmir. Rusiya Federa-

siyasının Dövlət Duması beynəlxalq görüşlərdə ali Rusiya məmurlarının qeyri-rus dilindən istifadə etmək ideyalarını rədd etmir.

Roma papası İohan Pavel II poliqlotdur. Rus dili də daxil olmaqla o, 8 dildə sərbəst danışır. Bu dillərin hər birini öyrənməyə o, xeyli əmək sərf etmişdir. Milli Məclisin deputatı İlham Əliyevin də çox dil bilməsi ona və respublikamıza, dövlətimihzə xeyli uğur gətirir. Gənclərin İlham Əliyevə rəğbətinin bir kökü də bundadır.

Dil mükəmməl bilinərsə, beynəlxalq aləmdə Azərbaycanın maraqları uğurla qorunar. Çünki belə vətəndaş içərisindən keçdiyi beynəlxalq proseslərin obyekti yox, subyekti olar. Azərbaycan Respublikasının milli maraqlarını uğurla qoruya bilər.

## 11.8. Təhsildə bəşəri dəyərlər

**«Hzr uy zpkrkyez tpas ftçjsükapeas, ğzr ez bhçhs upnzpzxpz ğaylxnl ayae zpaqzpzxezs küçkcaez jezxzn, ksnkəac jçrkə upnzpzxks çzöxhbzüksk çzğükp üağzüksez çzçbkq jçrzn rhrnhsehx».**

***Heydər Əliyev***

Həm təhsil sisteminin qurulmasında, həm də təhsilin məzmununda milli və bəşəri dəyərlər vəhdət təşkil etməlidir. Dünyəvi təhsil sisteminin quruluşu təqribən bütün dövlətlərdə bir-birinə oxşardır. Böyük fərq təhsilin məzmununda büruzə verir. Misal üçün, Böyük Britaniyanın tərkib hissəsi olan İngiltərə və Şotlandiya təhsil sistemi bir-birindən fərqlənir və bu fərq necə öyrətmədə yox, məhz nəyi öyrətməkdədir.

Təhsil bilməni, icad etməni, birgəyaşama mədəniyyətini, liberal-demokratik cəmiyyətlərin baza prinsiplərini, dövləti düşüncəni, müstəqilliyin yüksək amal, azadlığın ali nemət olduğunu gənclərə öyrətməlidir. Sovet quruluşunda milli respublikalarda **dövləti düşüncə tərzi,** milli maraqlara sadiqlik tədris edilmirdi. Bu boşluq da doldurulmalıdır. Azadlıqla, ədalətlə, müstəqilliklə bağlı bəşəri fikirlər tədris prosesində gənclərə məqsədyönlü öyrədilməlidir. Misal üçün, ABŞ-ın üçüncü prezidenti T.Cefersonun **«Dövlət işində işləyənlər xalqın qulluğunda olduqlarını unutmamalıdırlar»** kəlamını və ya Con Stüart Millin söylədiyi **«Dövlətin dəyəri, dövləti meydana gətirən şəxslərin dəyərinə bağlıdır»** fikirlər və buna bənzər digər fikirlər gənclərimizə öyrədilməlidir.

Demokratiya, azadlıq, ədalət, humanizm, insan haqqlarına hörmət, elmi-texniki yaradıcılığa meyillilik, informasiyanı və zamanı dəyərləndirə bilmək qabiliyyətini gənclərə öyrətmək, təhsil sisteminin əsas vəzifələrindəndir.

Bütün fəlsəfi fikirlər, qanadlı ifadələr, xalq misalları da bəşəri dəyərlər sisteminə daxildir. Vətəndaşların kamil

formalaşmasında əhəmiyyətini nəzərə alaraq, antik dövürdən bu günə kimi dünya filosoflərının təhsillə bağlı fikirlərinin bir qismi 18-ci paraqrafda toplanmışdır.

Təhsilin vacib məsələlərindən biri də milli dəyərlərimizi bəşəriyyətə, bəşəri dəyərləri xalqımıza çatdırmasıdır.

Təhsilin və müəllimin cəmiyyətdə rolunu nəzərə alaraq öz ənənələrimizdən bir neçə misal çəkmək istəyirəm. Hesab edirəm ki, bu milli dəyər nümunələrimizdən özümüz istifadə etməklə bərabər, onları bəşəri dəyər səviyyəsinə qaldırmağa cəhd etməliyik:

## Yavuz Süleyman və Kamal Paşazadə

Yavuz Sultan Səlim at üzərində səfərdən dönərkən yanında türk alimi Kamal Paşazadə var idi. Kamal Paşazadənin atının ayağından padşahın üzərinə palçıq çırtladı. Kamal Paşazadə padşahın hirslənməsinə imkan vermədən söylədi:

- Padşahım, Abbasi xəlifələrindən Nəsir, ölüm döşəyinə düşdüyü zamanı filan sandıqda bir kərpic vardır. Mən öləndə onu yastıq kimi başımın altına qoyarsınız. Bunun üzü suyu hörmətinə qəbr əzabından qurularam,- demişdir.

Maraq edənlər soruşub öyrəndilər ki, saraya gələn ülamaların ayaqqabılarının palçıqlarını xəlifə bir yerə toplatdırmış və sonra ondan bir kərpic düzəltdirmişdir.

Yavuz Süleyman bu rəvayəti dinlədikdən sonra:

-Hə bakalım, Molla sən də çamurunu bana saklatasın... deyərək, hiddətini teskin etdi.

## İkinci Mahmud və müəllim

İkinci Mahmud günlərin birində bir məktəbi ziyarət etdi. Padşah sinifə girəndə xoca dərsini verirdi. Xoca gələn zatın padşah olduğunu anladı və dərsini davam etdi. Dərs bitdikdən sonra cocuqları sinifdən çıxarıb padşahın ayaqlarına qapanaraq təzimata bulundu.

-Mənə layiq olan hörməti niyə öncədən göstərmədin?

-Padşahım, tələbələr dünyada xocadan daha böyük adam olduğunu bilməzlər. Əcər təzimatımı onların yanında etsəydim, onlar , deməli xocadan da böyük adam varmış deyər və məni saymazlar. Mən də onları bu ölkəyə layiq övladlar olaraq yetişdirə bilmərəm.

Xocanın bu sözlərindən məmnun olan ikinci Mahmud, bu müəllimi ihsanda bulundu.

## Əmir Süleyman və xocası

İldırım Bəyazidin oğlu Əmir Süleyman dərslərinə pis çalışırdı. Şahzadənin tənbəlliyini görən müəllim onu falaqqaya yatırıb zoğal çubuqla döyür. Şahzadə atası İldırım Bayazidin yanına gedərək müəllimindən şikayət edir.

İldırım müəllimin yanına gələrək soruşur:

-Oğlum Süleymanı niyə döydün?

-Sabah şahzadə böyük bir dövlətin başına keçəcək. Cahil qalarsa, dövləti idarə edə bilməz, çünki elmdən bixəbərdir - deyir.

-Sabah mən bura yenə gəlib soruşacam. Bu dəfə zopa ilə mənə hücum edərsiniz.

Ertəsigün İldırım oğlu ilə bərabər xocanın yanına gəlir və oğlunun döyülməsinin səbəbini soruşur. Xoca zopanı götürüb padşahın üzərinə hücum edir. Oğlu və İldırım oradan qaçırlar.

Görürsənmi, xocanın qəzəbindən mən də qorxdum. Dərslərinə çalışmaqdan başqa çarə yoxdur. Bizi bu xocalar belə yetişdirmişlər.

Atasının xocadan qorxduğunu görən Süleyman dərslərinə müntəzəm çalışmağa başladı. Keçmiş zamanlar atalar uşalarını tərbiyə üçün xocaya təhvil verəndə:

-«Əti sənin, sümüyü mənim» – deyərdilər.

Həzrəti Peyğəmbərimizin bir kəlamında deyilir: **«İki şəxs doymaq bilməz: elm təşnəsi və dünya malı hərisi».** Qeyd edək ki, dünya malı xərcləndikcə azalır, elm xərcləndikcə çoxalır.

Biliyin, intellektual sərvətin üstün dəyərini göstərən digər bir misal çəkmək istəyirəm:

Antik dövrlərdə **iranlılar** Kiçik Asiyada yunanların sahilboyu şəhərlərini zəbt edəndə məşhur 7 müdrükün biri olan **Biant** da öz dostları ilə şəhəri tərk edir. Yerliləri ondan evdən niyə əliboş çıxmısan?-deyərək soruşanda, o, «hər şeyimi özümlə götürmüşəm»-deyərək cavab verir. Bu fikir də intellektual sərvətin, maddi sərvətdən dəyərli olduğunu göstərir və bizim həyati yükümüzün əsas hissəsini təşkil etməlidir.

ABŞ-da təhsilə münasibətə nəzər salaq. Əvvala, ona görə ki, dövlətlər lideri olan ABŞ-ın bəşəri təcrübəsindən bəhrələnək. İkincisi də, ciddi dövlətlər təhsil məsələsinə həmişə ifrat ciddi münasibət bəsləyirlər. Üçüncüsü, ABŞ-ın təhsilə münasibətini bəşəri dəyər kimi qiymətləndirmək olar.

1994-cü ilin yanvarın 25-də Amerika Konqresi **«Amerika-2000: təhsilin inkişaf strategiyası»** adlı sənəd qəbul etmişdir. «Risk həddinə çatmış milləti düşünən millətə necə çevirmək» devizi altında çap olunmuş bir neçə yüz səhifəlik bu sənəddən bir neçə fikri oxucuların diqqətinə çatdırmaq istəyirəm:

***Fikir 1:*** ABŞ-ın milli proqramı: «Amerika-2000: təhsilin inkişaf strategiyası» iki sadə həqiqəti dərk etmək üçün cəmiyyəti hərəkətə gətirməyə bir cəhddir:

əvvala, ABŞ-ın XX1 əsrdə qarşılaşacağı problemlərin mürəkkəbliyi, təhsil tiplərini dəyişdirməyi, yeni tipli məktəblərin yaradılmasını tələb edir;

ikincisi, ölkənin inkişaf vasitəsi iqtisadiyyat, siyasi quruluş, bazar, hüquq, xüsusi mülkiyyət, hərb və güc və ya daha nələr deyil, yeni tipli təhsildir.

***Fikir 2:*** Təhsilin inkişaf strategiyasının məqsədi, «Risk həddinə çatmış milləti düşünən millətə çevirməkdir». Bu proqram elə olmalıdır ki, ölkəni lazımi səviyyədə saxlamağa qadir olsun. Məktəb heç zaman onu yaradan cəmiyyətdən yaxşı ola bilməz. Ona görə təhsilin yeniləşməsi üçün, cəmiyyətin bütün təbəqələrinin təhsillənməsindən başlamaq lazımdır.

***Fikir 3:*** Texnologiya, informasiya, kommunikasiya erasından o millətlər faydalanırlar ki, onlar yeni intellektual sahələrin yeni biliklərini öyrənirlər, yeni ixtisaslara malik olurlar.

***Fikir 4:*** Amerika təhsilinin həll edəcəyi altı məsələdən (problemdən) ikisi belədir:

a) Amerika məktəblərini qutaranlar, təbiət elmləri və riyaziyyat sahəsində dünyada ən yüksək bilik səviyyəsi nümayiş etdirməlidirlər;

b) Öz hüquq və məsuliyyətini tam savadlı cəmiyyət qarşısında dərk edən cəmiyyətin bütün üzvləri bilik və bacarıqlarını tətbiq edərək beynəlxalq iqtisadiyyatda millətin liderliyin tə'min etsinlər.

***Fikir 5:*** ABŞ prezidenti bütün ölkə ictimaiyyətini dörd şeyi etməyə çağırır:

1. Milli təhsil reformasının altı istiqamətinin məğzini başa düşmək;
2. Bu istiqamətləri həyata keçirmək üçün geniş ictimaiproqram hazırlamaq;
3. Bu istiqamətləri həyata keçirmək üçün nəzarət sistemi yaratmaq;
4. Yeni tipli məktəb yaratmaq ideyasını müdafiə etmək, reallaşdırmağa köməkçi olmaq;

Bu sənəddə bir neçə məqama təkrarən diqqət yetirmək zəruridir. Birincisi, XXI əsrdə dövlətlərin qarşılaşacağı problemlər XX əsrdən az və asan olmayacaqdır. İkincisi, ölkənin inkişaf vasitəsi onun siyasi quruluşu, iqtisadiyyatı, hərbi deyil, **yeni tipli təhsildir.** Üçüncüsü, təhsil ölkəni **lazımi səviyyədə** saxlamağa qadir qüvvədir. Lazımi səviyyə isə məlumdur: dövlətlər arasında liderlikdir. Yə'ni XXI əsrdə Amerika bir dövlət kimi liderliyi nə Avropa dövlətlərinə nə də Yaponiyaya vermək niyyətində deyildir. Ən nəhayət, «cəmiyyətin bütün üzvləri bilik və bacarıqlarını tətbiq edərək **beynəlxalq iqtisadiyyatda millətin liderliyini** tə'min etsinlər». Qarşıya qoyan məqsəd açıq və və aydındır.

Göründüyü kimi, Amerikada təhsilin məqsədində dövlətin mənafeyi ali titulur və digər subyektlər də bu məqsəd istiqamətində yönəldilir.

Beləliklə, çağdaş təhsil sistemində **liberal və demokratik dəyərlərə, kəmiyyət-keyfiyyət münasibətlərində** keyfiyyətə üstünlük verilməsi, **fərd-kütlə münasibətlərində** fərdin təhsil almasının diqqət mərkəzinə çəkilməsi, **"hamı üçün baza təhsil", "beşikdən qəbirə qədər öyrənmək"** müddəaları **təhsilin fəlsəfəsinin** əsas müddəalarındandir. Depersonlaşmış təhsildən personlaşmış təhsilə keçmək, təhsildə effektlivliyi artırmaq, təhsilin nəzəriyyəsinin vacib məsələlərindəndir. Təhsilin keyfiyyətinə təsir edən amillər: təhsilin məzmunu, pedoqoji texnologiya və nəzarət daim diqqət mərkəzində durmalıdır.

Təhsilin müasir pedaqogikası, psixologiyası, sosiologiyası, fəlsəfəsinin əsas müddəalarından milli təhsil sistemimizin həm formaca, həm də məzmunca qurulmasında istifadə etməliyik.

**"Kəsilməz təhsil"** konsepsiyasının əsas məqsədi cəmiyyəti **"öyrənən cəmiyyətə"** çevirməkdən ibarətdir. Cəmiyyətin hər bir üzvü hər zaman özünü öyrənci hesab etməlidir. O, nə vaxt, harada, hansı təhsil istəsə ala bilmək şansı olmalıdır.

Həzrəti Peyğəmbərimizin məşhur **"beşikdən qəbirə qədər öyrənmək"** kəlamı müasir dövrümüzdə təhsil sahəsində dövlət siyasətinin əsas istiqamətlərindən biri olan **«kəsilməz təhsil»** konseptual müddəasının əsasını təşkil edir.

Məlum olduğu kimi gəncliyin 15-20 faiz istedadlı hissəsini aşkar etməkdən ötrü baza təhsili hamı üçün olmalıdır. Yəni **"Hamı üçün baza təhsil"-** konseptual müddəa səviyyəsinə qalxmalıdır. YUNESKO sənədlərində baza təhsili deyəndə milli fənlərlə yanaşı biologiya, kimya, fizika, riyaziyyat, tarix, xarici dil və digər fənlərin tədrisi nəzərdə tutulur.

## 12. Təhsilin məzmunu

*"Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır".*

***Heydər Əliyev***

Təhsilin məzmununun strateji müddəası Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yuxarıdakı fəlsəfi kəlamında verilmişdir.

Təhsilin məzmunu elə müəyyənləşdirilməlidir ki, gənclərimiz həm **vətənpərvər,** həm də müasir tələblərə cavab verə bilən **bilikli insan** kimi formalaşsınlar. Təhsilin məzmununu təhsilin qarşısında duran məqsədə uyğun formalaşdırmalıyıq.

Təhsilin liberallaşması tədris olunan fənlərin də dövrün tələblərinə uyğun olaraq seçilməsini və bu fənlər içərisində elmi (xüsusilə riyaziyyat) və humanitar (xüsusilə xarici dil) fənlərin aparıcı yer tutmasını ön plana çəkir.

"Dialoq Avrasiə"" dərgisinin 2001-ci il 5-ci sayında müasir dövrümüzün tanınmış filosof-şairi Muxtar Şaxanovla **"Qlobal dəyişiklik çağında ənənələrin hayqırtısı"** adı altında müsahibə dərc edilmişdir. Həmin müsahibədən bəzi məqamlar təhsilin məzmunu baxımından diqqəti cəlb edir.

**Muxtar Şaxanov** söyləyir: *«Qızılqum çöllərində **"Cantak"** (dəvətikanı) adlı bir bitki vardır. Bu çirkin və sadəcə dəvələrin yediyi bitkinin kökləri yerin 50-60 m dərinliyinə qədər gedir. Bir də **"kambak"** (süpürüm) adlı digər bir bitki vardır. Onun kökü 3-5 sm dərinlikdədir. Bu bitki zəif bir küləkdə kökündən qopur və səhrada yuvarlanır. Qum fırtınaları zamanı nəinki bitkilər, hətta yerin qum örtüyü yerini dəyişərək köç edir. Lazımi qədər kökü olmayan süpürüm (kambak) külək tərəfindən asanca qumla bərabər yerini dəyişir. Cantak isə öz yerində möhkəm dayanır, çünki kökləri dərindədir. **Kökü olmayan insanlar, kambaka bənzər və cəmiyyət üçün çox qorxuludur».***

*"Mədəniyyətin yanılqısı" əsərimdə bir fəsil var: "Dörd ana". Bu fəsildə söyləmişəm: hər insanın öz ata-anasından başqa dörd anası var: 1) Ana vətən, 2) Ana dili, 3) Mənəvi var və adət-ənənələr, 4) Öz xalqının tarixi.*

***İnsanlar bu dörd anada*** *kök salmazlarsa, zəif kambak bitkisi kimi küləyin önündə dayana bilməz. Tarixə baxdığımız zaman bütün müharibələrin bu dörd ananı qorumaq üçün olduğunu görürük.*

*Mən, əslən xalqımın tarixində qəhrəmanlıq rolu oynamış Otrardanam. Orta əsrlərin meqopolislərindən biri olan bu şəhər 6 ay Çingiz xanın hücumlarına tab gətirmişdir.*

*Çingiz xan bu şəhəri fəth edəndən sonra onun hüzuruna iki nəfər gətirirlər: Otrar xanı Kairxanı və satqınlıq edib şəhərin qapılarını düşmən üzünə açan satqını. Çingiz xan Kairxana deyir: Kairxan, sən həqiqətən qəhrəmansan. Otrardan ötəri mən 6 ay vaxt itirdim. Bu duruş mənim şöhrətimə, qələbələrimə kölgə saldı. Mən sənin qəhrəmanlığını qiymətləndirirəm və səni satan adamın özün cəzasını ver - deyərək, Kairxana qılınc verilməsini əmr edir.*

*Kairxan deyir: Dayanın. Bu satqının atası Otrarın ən məşhur alimidir. Mən ona hörmət edərək bu gəncə inanmışam. Əmr edin onu gətirsinlər və baş verən hadisələrin səbəbini izah etsin.*

*Satqının əsir atasını gətirirlər. Kairxan ona baxaraq deyir:*

*- Qartaldan qartal törəməsi, ilandan ilan törəməsi təbiidir. Necə oldu ki, qartaldan ilan törədi?*

*Satqının atası utanaraq deyir:*

*- Deməli, mən heç zaman qartal olmamışam. Bizim xalqın müdrik bir adəti var: Uşaq anadan olandan həddibuluq çağına çatana qədər doğulduğu torpaqda tərbiyə edilməlidir. Bu cocuğun doğulduğu torpaq üzərində ayağıyalın gəzməsi, qurbağaların, eşşəklərin, xoruzların səsini duyması lazım. Ana torpaqdakı çiçəkləri toplaması, iyləməsi... Yaxşılığı, pisliyi öz*

*vətənində görməsi, yəni bütün bunları hiss etməsi, öz malı etməsi lazım. Bu cür tərbiyə edilən insan* ***vətəninə xəyanət etməz.*** *Xəyanət etmək istəsə belə xəyanət edə bilməz. Öz qəlbiylə, şüuru ilə bütünləşən bu torpaq onun bir parçası olur. Mən bu adəti pozdum. Arvadımın uşağı olmayan bir qardaşı var idi. Cocuq anadan olanda israrla onu istədi. Başqa uşaqlarım olduğu üçün bu uşağı ona verdim. Bu uşaq Otrarda deyil, başqa bir yerdə böyüdü. Böyüdükdən sonra evimə döndü. Bu səbəbdən də Otrarı satması onun üçün asan oldu. Beləliklə, mən də bu satqınlıqda ortağam. Oğlumla bərabər məni də cəzalandırmalısınız ki, başqaları üçün bu dərs olsun».*

Təhsilin məzmunu ilə bağlı bu hekayətdən biz bir neçə vacib faydalı nəticə çıxara bilərik. Birincisi, “kökü olmayan insanlar, kambaka bənzər və cəmiyyət üçün çox qorxuludur“. On il bundan öncə rus mahnıları oxuyanlar indi başqa dildə mahnılar oxuyurlar, yəni kambaklıq edirlər, çünki milli-mənəvi irsimizə dərin kök atmayıbdır. İkincisi, bu köksüz insanları vətənə bağlamaq üçün dörd anadan qidalandırmalıyıq. Üçüncüsü, millətin tarixində tərbiyənin əhəmiyyəti böyükdür. Fərdin tərbiyəsi cəmiyyətin (toplumun) taleyində mühüm rol oynayır. Toplumun mənafeyinin fərd tərəfindən satılması satqınlıqdır və bu pis tərbiyyənin nəticəsində baş verir. Təlim - tərbiyə sistemi elə qurulmalıdır ki, birincilərin sayı maksimum, ikincilərin sayı minimum olsun, daha yaxşı olar ki, heç olmasın.

Təhsilin məzmununu müəyyənləşdirərkən bu fikirlərin, hisslərin nəzərə alınmasına böyük ehtiyac duyulur. Qarabağ müharibəsində bizi satanlar az olmadı. Otrarın başına gələn müsibət Qarabağın başına gəldi. Bir-iki nəfərin satqınlığı ucbatından bir miliyon əhalimiz qaçqın oldu. Hüquq müdafiəçisi adı altında fəaliyyət göstərən Eldar Zeynalov kimiləri Azərbaycanın mənafelərini necə asanlıqla sata bilir. Hesab etmək olar ki, onun kimilər dörd anadan süd almayıblar. Ana vətənlə təmasları az olubdur. Milli-mənəvi dəyərlərimizi- ana dilini, ata

yurdunun tarixini bilmirlər. Əks halda onlar belə addım atmazdılar.

Mənim fikrimcə, təhsil proqramları iki blokda cəmləşməlidir. Birinci blok fənlər gənclərin milli hisslərini yüksəldərək vətənpərvər etməli, ikinci blok fənlər onları bilikli etməlidir. Birinci blok (milli blok) aşağıdakı fənləri əhatə etməlidir: ana dili və ədəbiyyat, Azərbaycan tarixi, coğrafiyası (yaxşı olardı ki, bu fənn bəzi hallarda «Ana vətən» adı altında tədris olaydı) və milli-mənəvi dəyərləri, adət-ənənələri özündə birləşdirən fənn; İkinci – bəşəri bilik bloku isə fizika, riyaziyyat, kimya, astronomiya, biologiya və s. əhatə etməlidir. Şübhəsiz, birinci blok fənnə Azərbaycan və Şərq mədəniyyəti, mənəviyyatı, milli, dini dəyərləri birləşdirən **«İslam mədəniyyətinin əsasları»** adı altında da tədris etmək olar. Başqa ad da fikirləşmək mümkündür. İslam mədəniyyətinin əhəmiyyətini qeyd etmək niyyəti ilə bir əhvalat danışmaq istəyirəm:

*«Xorasan vilayətinin Gilan şəhərindən olan 15 yaşlı azərbaycanlı balası* ***Əbdülqadir Gilani*** *doğma şəhərində ilk təhsilini alandan sonra yüksək təhsil almaq üçün Bağdada getmək arzusunu anasına bildirir. Anası oğlunun bu arzusunu bəyənir və onu Bağdada gedən bir karvana qoşur və deyir:*

*-Oğlum, Allahdan qorx və yalan söyləmə.*

*Karvan Bağdada yaxınlaşarkən onların qarşısını quldurlar kəsir və karvan əhlini soyurlar. Növbə Əbdülqadirə çatır. Quldurbaşı soruşur:*

*-Pulun varmı?*

*Əbdülqadir düşünmədən deyir:*

*-Əmican, var.*

*-Hardadır?*

*-Anam cibimin içinə tikdi.*

*Quldurbaşı bu etirafa heyran qaldı və dedi:*

*-Hər kəs pulunu gizlədir, sənin doğru danışmağının səbəbi nədir?*

*-Mən yola çıxarkən, anam mənə dedi yalan söyləmə, cənab Haqq hər şeyi görür.*

*Bu uşaqdan eşitdiyi sözlərdən quldurbaşının gözləri yaşardı. Cənab Haqqın gözləri qarşısında illərlə quldurluq ömrü yaşadığını anladı. Dərhal ruhunda dəyişiklik baş verdi. Pulların geri qaytarılmasına əmr verdi və Əbdülqadirdən soruşdu:*

*-Oğlum, hara gedirsən?*

*-Bağdada təhsil almağa.*

*-Gəl bərabər gedək və mənə övladlıq et, deyərək quldur dəstəsini dağıtdı. Əbdülqadiri mədrəsəyə yerləşdirib təhsilinə göməklik etdi».*

Bu azərbaycanlı balası sonra Şərqin böyük alimi olmuş və **Qadirilik** təriqətini yaratmışdır.

Bu blokların nisbi çəkiləri ilk, orta və ali məktəblərdə müxtəlif olmalıdır. Belə ki, ilk məktəbdə I blok, ali məktəbdə II blok, orta məktəbdə isə hər iki blok müxtəlif siniflərdə müxtəlif nisbi çəkilərdə tədris olunmalıdır.

Fərz etsək ki, orta məktəbdə I blok fənləri II bloka nisbətən daha dərindən və mükəmməl keçirilir, onda bizim gənclər ifrat millətçi, faşist, "başıqırxıqlar" (skinhedlər) kimi böyüyəcək, millətə zərərləri xeyirlərindən çox olacaqdır. Və ya tərsinə, fərz etsək ki, II blok dərslər I bloka nəzərən daha mükəmməl və əhatəli tədris olunur, onda gəncin kosmopolit kimi böyüməsinə şübhə yoxdur. Bu halda da millətin qazancı itirdiyindən az olacaq.

Deməli, bu bloklar arasında zəruri nisbətin tapılması təhsil sisteminin və **milli pedaqogikanın** vacib problemlərindəndir.

Bundan başqa təhsilin məzmunu sadədən mürəkkəbə, millidən bəşəriyə xətti üzrə qurulmalıdır.

Həzrəti peyğəmbərimizin **«Alim öldü, aləm öldü»** və ya **«Cənnət anaların ayaqları altındadır»** və bu kimi yüzlərlə kəlamları 1 blok fənlər vasitəsi ilə gənclərimizə öyrədilməlidir ki, onlar elmin, ananın, Vətənin qədrini bilsinlər. N.Tusinin, A.Bakıxanovun, H.Zərdabinin milli-mənəvi dəyərlər xəzinəmizi

zənginləşdirən fikirləri bu blokdakı fənlər vasitəsilə gənclərə öyrədilməlidir.

Birinci blokda bəşəri dəyərlərə də lazımı diqqət yetirilməlidir. Çoxlu sayda qiymətli nümunələr gətirmək olar. Misal üçün, Riyard Kiplinqin (1865-1936) məşhur “Altı qulluqçu kişi“ şerini misal çəkmək istərdim:

Altı qulluqçum var, cəsur-cəngavər,
Onlar öyrədiblər biliyi mənə.
Söyləyim adını bilsin hər nəfər,
Harda, haçan, niyə, kim, necə və nə?

Bu dəyərli tövsiyyəni bizim şagirdlər də bilsə pis olmaz. Çünki sual verə bilməsən, cavab ala bilməzsən. Cavab almasan məlumatın az olar. Məlumatın az olanda düzgün qərar qəbul edə bilməzsən.

Yeri gəlmişkən, yahudi tərbiyə sistemi ilə bağlı bir misal çəkmək istərdim.

*Bir yəhudi ravvini otağın bu başından o başına gedərək niyə? niyə? niyə? deyir. Otaqda olan digər yəhudi soruşur:*

*-Ravvin, Siz niyə öz-özünüzə danışırsınız?*

*Ravvin deyir:*

*Mən fikirləşirəm ki, niyə «çörək» sözündə «a» hərifi yoxdur.*

*-Ravvin, çörək sözündə «a» hərifi yazılmır.*

*Ravvin deyir:*

*Əgər yazsaq?*

*-Niyə?*

*Onda ravvin: Allaha şükürlər olsun ki, sən də bir sual verməyi bacardın- deyir.*

Həqiqətən, sual verməyin hikməti böyükdür. Təhsil sual vermək və tənqidi düşüncə qabiliyyətini təhsilalanlara öyrətməlidir.

İkinci misal olaraq, azadlıq uğrunda mübarizə üçün etalon ola biləcək (kaş, bu mahnını 1990-cı illərdə oxuya biləydik) bu mahnı və onun sözləri aşağı siniflərdə öyrədilərsə, bizim şagirdlərin vətənpərvərlik və azadlığın qədrini bilmək hissləri daha güclü olar. Bu ingilis mahnısının sözləri belədir:

We shall owercome,
We shall owercome,
We shall owercome, some day.

Mahnının nəqarət hissəsində oxunulur:

Oh, deep in my heart,
A do beliwe,
We shall ower come, some day.

Gözəl melodiyanın səsləri altında **(notlar əlavə olunur)** optimist bir ruh tərbiyə olunur:



Biz qalib gələcəyik,

Biz qalib gələcəyik,
Bir gün gələcək ki,
Biz qalib gələcəyik,
Ürəyimin dərinliyi,
Məni inandırır ki,
Biz qalib gələcəyik!

Göründüyü kimi həm Şərq, həm də Qərb dəyərlərindən istifadə edərək, təhsilin məzmununu mükəmməlləşdirərək, XXI əsrin tələblərinə cavab verən vətəndaşlar hazırlaya bilərik. Çünki yuxarıda qeyd edildiyi kimi təhsilin keyfiyyətinə təsir edən faktorların ən başlıcası təhsilin məzmunudur.

Yəhudi milli tərbiyə sisteminə görə hər yəhudi valideyni, övladı və milləti qarşısında məsuliyyət daşıyır. Yuxarıda qeyd edildiyi kimi Yapon təhsil sistemi azadlıq üzərində yox, məsuliyyət üzərində qurulmuşdur. Yapon təhsilindən digər bir örnək ola biləcək **«yazıya bağlılıq prinsipini»** diqqət mərkəzinə çəkmək istəyirəm.

Bu prinsipin dəyərini düz qiymətləndirmək üçün X1X əsr və XX əsrdə özümüzün yazıya bağlılığımızı müqayisə etsək, görəriyki XX əsrdə yazıya bağlılığımız çox yüksək olubdur. XX əsrdə yaradıcı insanlarımızın yaratıqlarını ortaya qoysak böyük intelektual mülkiyyət malik olduğumuza inanarıq. Bu yazıya bağlılığın nəticəsində baş veribdir. Tək yaradıcı insanları yox, milləti yazıya bağlamaq lazımdjır. Bu işi təhsil görməlidir. TV vasitəsi ilə beynəlxalq görüşləri izləyərkən təəsüf hissi keçirirəm. Çünki xarici qonaqlarımız yazıya bağlıdır, bizimkilər nə deyirsə qeyd aparırlar, ancaq bizimkilərin qarşısında kağız –qələm yoxdur.

Yeri gəlmişkən qeyd edək ki, Çingiz xanla söhbətində Çinli alim Çan Çun demişdir ki, adamların üç min müxtəlif cinayətlərindən ən iyrənci öz valideynlərinə hörmətsizlikdir. Çingiz xan bu təklifi bəyənmiş və qanunlar toplusu “YASA“-ya

əlavə edilmişdir. Çoxlu bu cür misallarla təhsilin məzmununu zənginləşdirmək mümkündür.

Zəmanəmizin görkəmli alimlərindən biri olan **Valter Vayskona (ABŞ) görə: "İnsan həyatı iki balina üzərində dayanır: elm və hissiyat. Hissiyatsız elm qeyri-insanidir. Elmsiz hissiyat qeyri-effektlidir".** Biz elmsiz vətənpərvərlər hazırlasaq, onların gələcək fəaliyyəti effektli olmayacaqdır. Ona görə bizim təhsilimizin əsas məqsədi vətənpərvər və bilikli gənclər yetişdirməkdir.

Mükəmməl dünyagörüşün, düzgün düşüncə tərzinin formalaşmasında təhsilin rolu əvəzedilməzdir. Örnək olaraq Şərq düşüncə tərzindən (bax: «Ağıl mücrüsü», Bakı, 1962.) iki misal çəkmək istəyirəm. Birinci hekayətdə söylənilir:

*«Bir nazirin namuslu, diqqətli və çox əməksevər bir köməkçisi var idi. O, nazirin yanında üç il işləyəndən sonra nazir dedi:*

*-Mən sizdən razı deyiləm və sizin xidmətinizə artıq ehtiyacım yoxdur.*

*Bu sözdən sarsılan köməkçi heyrətlə soruşur:*

*-Məgər mən sizin tapşırıqlarınızı lazımınca yerinə yetirməmişəm? Məgər mən bir dəfə də olsun tənbəllik etmişəm? Məgər mən öz işimə diqqətli olmamışam?*

*-Bunlar hamısı doğrudur! – deyə nazir təsdiq etdi.*

*-Onda bəs nə üçün siz məni öz mərhəmətinizdən məhrum edib, sizə xidmət etməyimə daha icazə vermirsiniz?*

*Nazir cavab verir:*

*-Üç il siz mənə köməkçi olmusunuz. Bu illər ərzində bir dəfə də olsun* ***çatmayan cəhətimi*** *göstərməmisiniz.* ***Demək, siz mənim yaxşı işləməyim üçün deyil, mənim xoşuma gəlmək üçün çalışırsınız.*** *Məhz bu səbəbdən də mənim sizin xidmətinizə daha ehtiyacım yoxdur».*

Əvvala, çatışmayan cəhətləri demək lazımdır. İkincisi isə xoşa gəlmək üçün yox, işin yaxşı getməsinə çalışmaq lazımdır. Bu nəticələrin hər ikisi bizim üçün çox vacibdir. Bu işdə məktəb

öz tövhəsini verməlidir. Bunun üçün də bir daha qeyd edək ki, bizə demokratiya lazımdır ki, cəmiyyətdə fikir müxtəlifliyi bərqərar olsun. Demokratik tərbiyənin əsası məktəbdə qoyulmalıdır.

İkinci hekayənin təhsilin məzmunu ilə birbaşa əlaqəsi vardır. Hekayədə söylənilir:

*Qədim zamanlarda Çində Çju Pin-man adlı bir adam yaşayırdı. Bir dəfə Pin-man eşidir ki, qocaman ovçu Ma Ten əjdaha öldürməyi bilir. Pin-man ovçunun yanına gəlib ona deyir:*

*-Hörmətli cənab Ma Ten, xahiş edirəm əjdahı öldürməyi mənə öyrət.*

*-Bu çox çətin sənətdir! – deyə Ma Ten cavab verir. Əjdahaya qalib gəlməyi öyrənmək üçün çox illər məşğul olmaq lazımdır. Bir də sən beş il bu meşədə yaşaya bilərsənmi? Beş il səhərdən axşama kimi təlim almağa hövsələn çatarmı? Təlim üçün mənə verməyə pulun varmı?*

*Çju Pin-man dedi:*

*-Mən bu meşədə beş il yaşamağa hazıram. Beş il səhərdən axşama kimi təlim alacağam. Mən bütün pullarımı sizə verəcəyəm, təki siz mənə əjdahaya qələbə çalmağı öyrədin.*

*Ovçu:*

*-Elə isə təlimə başlayaq,* - *dedi.*

*Qurtarmaq bilməyən beş il keçir, ovçu deyir:*

*-Mən bütün biliyimi sənə verdim. Bu gündən sən nə cür əjdaha olur-olsun qalib gələ bilərsən.*

*Xoşbəxt Pin-man öz kəndlərinə qayıtdı. Olan-qalanını təlim üçün verdiyindən tamam pulsuz qalmışdı. Lakin Çju Pin-man kədərlənmirdi. Axı o heç kəsin bacarmadığı bir işi – əjdahaya qalib gəlməyi bacarırdı.*

*O, qürurla həyətləri, kəndləri gəzir, öz xidmətini təklif edirdi.*

*-Sən nə iş görə bilərsən?- deyə ondan soruşduqda, Çju Pin-man məğrur-məğrur cavab verirdi:*

*-Əjdaha öldürə bilərəm!*

*-Yaxşı da, əjdaha görünən kimi biz səni tez çağırarıq, - deyə adamlar ona cavab verirdi və hələlik sənin biliyin bizə gərək deyil! – deyirdilər.*

*Çju Pin-man uzun zaman yaşadı, lakin bir dəfə də olsun əjdaha ilə rastlaşmadı. Beləliklə, o heç bir iş bacara bilmədiyinə görə həyatı ehtiyac və qüssə ilə keçdi.*

*Çju Pin-man sadə həqiqəti ancaq qocalığı zamanı başa düşdü, bildi ki, insana ancaq adamlara gərək olan və xeyir gətirən* ***bilik*** *lazımdır.*

Zaman-zaman təhsilin qarşısında duran məqsəd dəyişdiyindən, məqsədə nail olmaq üçün təhsilin məzmunu da ehtiyatla və düşünülmüş şəkildə dəyişməlidir.

Milli təhsilimizin forma və məzmunu arasında münasibət elə qurulmalı, bir-birini elə tamamlamalıdır ki, təhsilin qarşısında duran ali məqsədinə nail olmaqla bərabər, bizim gənclərimiz içərisindən keçdiyi ictimai-sosial hadisələrin, proseslərin idarə olunan yox, idarə edən tərəfi olsun, başqa sözlə, obyekti yox, subyekti olsunlar.

Mənim inancıma görə insan iki cazibə mərkəzi (qütb) arasında fəaliyyət göstrir. Özünə məhəbbət və xalqa , millətə məhəbbət. Birinci qütb heyvanidir, ikinci qütb insanidir. Bu baxımdan K.Marks həqiqətəq haqlıdır: **İnsan ictimai varlıqdır.** Son 50000 ildirki, insan oğlu özünə məhəbbətdən insani məhəbbətə döğru yol gedir. Bu fəaliyyətin ən bariz nümunəsi 10000 il öncə dövlətin əmələ gəlməsidir. Dövlət bir qurum olaraq ictimai məhəbətin təzahür formasıdır. Hər kəs özünə məhəbbətdən bir az kəsib, millətə məhəbbət, dövlətə məhəbbət payının üzərinə qoyur. Müxtəlif insan toplumları bu yolla irəliyə doğru hərəkət edir. Hansı toplumlarda vətənə, millətə məhəbbət özünə məhəbbətdən üstünlük təşkil edirsə o cəmiyyət daha qabaqcıldır. Cəmiyyət daxili qüsurların çoxu özünə məhəbbətin ifratlığından doğur. Vətənə məhəbbət güclü olan cəmiyyətlərdə rüşvət olmaz, küçədən kəsib həyatyanı sahəyə ğatmazlar, şəhərin mərkəzində qəsir tikilməz və s. Hər dəfə Bakı bağlarına

gedəndə, bağ yollarının əyri-üyrü və dar olmasını görəndə özünə məhəbbətin bizdə üstün olması nəticəsinə gəlirəm. Deyəyki, Almaniyada belə mənzərəyə rast gəlmək mümkün deyil. Çünki o toplumda millətə vurğunluq daha çoxdur.

Təhsilin məqsədi elə müəyyənləşməlidir və məzmunu elə qurulmalıdır ki, insanın Vətənə, millətə məhəbbəti özünə məhəbbətdən qat-qat çox olsun.

## 13. Təhsilin iqtisadiyyatı

*«Hesab edirəm ki, cəmiyyət hardan olur olsun, nədən olursa kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir».*

***Heydər Əliyev***

Müasir dünyada dövlətlər adətən iqtisadi qüdrətinə görə sıraya düzülürlər. İqtisadiyyatın açarı texnikadadır. Texnikanın açarı texnologiyadadır. Texnologiyanın açarı elmdədir. Elmin açarı təhsildədir. Beləliklə, iqtisadiyyatın da açarı təhsildədir qənaətinə gəlmək olar. Deməli, **iqtisadiyyatımız təhsilimizin başqa formada inikasıdır**. Təhsilin bütün problemlərinin kökündə iqtisadiyyat durur və yuxarıda deyildiyi kimi iqtisadiyyatın da açarı təhsildədir. Odur ki, dövlətin güclü olması üçün **xəzinəsi özündə** olan təhsil sisteminin potensialından istifadə etmək lazımdır. Təhsilə ona görə çox pul xərcləyirlər ki, xəzinə daha zəngin olsun və gələcəkdə yaşayış daha firavan olsun.

Təhsillə iqtisadiyyatın əlaqəsi fizikanın **birləşmiş qablar qanununda** olduğu kimiidir. İqtisadiyyatı yüksək olan ölkələrin təhsili, təhsili yüksək olan ölkələrin iqtisadiyyatı yüksəkdir. Təhsilə iqtisadiyyatı inkişaf etdirən bir amil kimi baxılmalıdır. Çalışmaq lazımdır ki, bu müddəa həm iqtisadiyyat sahəsində çalışanların, həm də təhsil işçilərinin şüurlarına hakim kəsilsin.

YUNESKO-nun məlumatına görə, inkişaf etməkdə olan ölkələrin bütün dövlət büdcəsi keyfiyyətli təhsil sistemi qurmağa çatmır. Azərbaycan öz dövlət büdcəsinin 22%-ni təhsilə yönəltmişdir. Əgər nəzərə alsaq ki, şagirdlərin sayı 1,7 mln.-dan, tələbələrin sayı 300 mindən, təlim-tərbiyə, təhsillə məşğul olan müəllimlərin sayı isə 200 mindən çoxdur, onda bu nəticəyə gələrik ki, bizdə də vəziyyət çox gərgindir və inkişaf etməkdə olan ölkələrdəki kimidir.

Rusiya Federasiyasının təhsil naziri V.Filippov hesab edir ki, təhsilin dövlət büdcəsindən kifayət qədər maliyyələşməsi ya

inkişaf etmiş kapitalizm, ya da inkişaf etmiş sosializmdə mümkündür. Bu səbəbdən də MDB ölkələrində təhsil sistemi dövlət tərəfindən kifayət qədər yox, zəruri miqdarda maliyyələşir.

Bazar münasibətləri müəllim əməyinə qiymət qoyubdur. Repetitor kimi müəllim bir tələbədən bir fənn üzrə ayda əməyinə təqribən 50 ABŞ dolları haqq alır. Bu məbləği bir ölçü kimi götürərək istifadə etmək olar.

Bir qədim misalda deyilir: **“Ölçüdən böyük səadət yoxdur. Ölçü harmoniyanın əsasıdır“.** Büdcə mə’lum. Şagird, tələbə, müəllimin sayı da məlum. Ölçü də var. Hesablama aparsaq görərik ki, arzumuz imkanımıza uyğun deyildir. Yəni keyfiyyətli təhsil qurmaq üçün maliyyə vəsaiti çatmır. Bu, təhsilin başlıca problemlərindəndir.

Müxtəlif dövlətlərdə təhsilə ayrılmış büdcə xərclərinin təhsil pillələri üzrə paylanması cədvəl 13.1-də göstərilmişdir.

**Cədvəl 13.1.**

| Ölkələr | Məktəbə Qədər | İbtidai | Orta və orta ixtisas | Ali |
|---|---|---|---|---|
| ABŞ (1994) | 7 | 32 | 36 | 25 |
| Yaponiya (1994) | 2.3 | 37 | 42 | 12 |
| Türkiyə (1995) | 0.2 | 43 | 22 | 35 |
| Azərbaycan (1996) | 15.4 | - | 57 | 6.7 |

Göründüyü kimi bizim təhsil sistemində büdcənin təhsil pillələri üzrə paylanmasında bir strategiya yoxdur, bəşəri təcrübəyə söykənmə hiss edilmir.

Dövlətin təhsilə ayırdığı vəsaitin hamısının (100%) orta məktəbə yönəldildiyini nəzəri cəhətdən fərz etsək və bu pulu orta məktəb şagirdlərinin sayına bölsək, ildə hər şagirdə 550-600 min manat, ayda isə 50-60 min manat pul düşər. Bu pulda həm

məktəb binasının, həyətinin saxlanılması, (işıq, istilik, mebel, avadanlıq xərcləri), həm də müəllimlərin əmək haqqı oturur.

Yuxarıda qeyd edildiyi kimi, repetitor ayda bir fəndən təqribən 50 dollara qədər haqq alır. Bu nəqd puldur və digər köməkçi xərclər buraya daxil deyildir. Əgər hər sinifdə 10-12 fənnin tədris olunduğunu nəzərə alsaq, bu rəqəm 350-600 dollara qalxar. Yuxarıda göstərildiyi kimi bizim büdcədə isə hər məktəbli üçün ayda 55000 - 60000 manat və ya 10-12 dollar vəsait nəzərdə tutulur. Deməli, ali məktəbin, aspiranturanın fəaliyyətini dondursaq belə, dövlətin təhsilə ayırdığı vəsait, orta məktəbin tələbatını dövrün tələbi səviyyəsində ödəməyə imkan vermir. Bu rəqəmlər problemlərin nə qədər ağır, çözülməsinin nə qədər çətin olduğunu bir daha təsdiqləyir.

Ali məktəbləri qapamaq olmaz. Onlar hökmən işləməlidir. Aspirantura hökmən fəaliyyət göstərməlidir. Ali təhsil çox pul tələb edən sahədir. Ali məktəblərin normal fəaliyyət göstərməsi üçün də böyük vəsait tələb olunur. Bu vəsait ABŞ-da təhsil büdcəsinin 25%-ni, Türkiyədə isə 35%-ni təşkil edir.

Bəs **nə etməli, vəziyyətdən necə çıxmalı?** - suallarına cavab vermək zəruridir. Azərbaycanın elmi potensialını, alimlərini, zəkalı insanlarını bu işə cəlb edib bu vacib sahənin problemlərini həll etməyə çalışmalıyıq. Dövlət vəsaitinin təhsil pillələrinə görə bölünməsi (bax cədvəl 13.1.) də təhsilin iqtisadiyyatının vacib problemlərindəndir.

Həm orta, həm də ali məktəb müəllimlərinin əməyinin layiqincə qiymətləndirilməsi təhsilimizin əsas vacib problemlərindəndir. Hər bir cəmiyyətdə orta aylıq əmək haqqı göstəricisi olduğu məlumdur (bax: Cədvəl 13.2). Əgər məktəb müəlliminin orta əmək haqqı Respublika üzrə orta əmək haqqından **azdırsa,** belə vəziyyətdə məktəb dövlətin ayırdığı pulu biliyə çevirə bilməz. Belə şəraitdə təhsil maşını düz işləyə bilməz. Cəmiyyətin inkişafı və ya mənəvi çürüməsi bu əmək haqqları arasındakı fərqdən asılıdır. Əgər istəyiriksə ki, cəmiyyətimiz inkişaf etsin, onda müəllim ordusunun orta əmək haqqı cəmiyyətdə mövcud

olan orta əmək haqqından çox olmalıdır. Bu fərq nə qədər çox olarsa, təhsil maşınının faydalı iş əmsalı o qədər çox olar. Bir neçə dəfə istifadə etdiyim bir misalı təkrar çəkmək istəyirəm: külək ona görə əsir ki, fəzanın iki nöqtəsi arasında təzyiqlər fərqi var. Çay ona görə axır ki, çay boyunca iki nöqtə arasında hündürlüklər fərqi var. Elektrik lampası ona görə yanır ki, elektrik dövrəsinin iki nöqtəsi arasında gərginliklər fərqi var. O zaman cəmiyyətdə deqradasiya dayanar və sağalma başlayar ki, təhsil işçilərinin, intellektual sahə adamlarının orta maaşı (T) iqtisadiyyat üzrə orta maaşdan (İ) çox olsun. Əmək haqqları arasında bu fərq hərəkətverici qüvvəyə çevrilir, stimullaşdırıcı rol oynayır. Belə olan halda təhsil maşını düzünə işləyir və dövlətin təhsilə ayırdığı vəsait biliyə çevrilər. Cəmiyyət bilikli olar və inkişaf edər, onun nou-xau yaratmaq qabiliyyəti artar. Beləliklə, müasir cəmiyyətin inkişaf şərtlərindən biri belədir:

$$\frac{T}{\mathrm{I}} > 1$$

haradakı T-təhsil üzrə orta əmək haqqı, İ-iqtisayiyyat üzrə orta əmək haqqıdır. Bu şərtin ödənilməsi təhsilin, ümumilikdə isə cəmiyyətin sağlam inkişafına səbəb olar.

**Cədvəl 13.2.**

| | Orta əmək haqqı (manat-la) | 1970 | 1990 | 1996 | 1997 | 1998 | 2000 | 2003 |
|---|---|---|---|---|---|---|---|---|
| İ | İqtisa-Diyyat üzrə | 109 rub | 19.5 | 89370 | 141643 | 168412 | 205000 | 373500 |
| T | Təhsil üzrə | 120 rub | 17.7 | 63047 | 119830 | 132209 | 166000 | 267000 |
| T/İ | T/İ | 1.1 | 0.91 | 0.705 | 0.85 | 0.79 | 0.81 | 0,72 |

Əgər dövlət bu şərti bir başa təmin etməyə imkanı çatmazsa, onda bu proses proqram şəkilində yavaş-yavaş həyata keçirilməlidir. Digər yol cəmiyyətin öz potensialından istifadə etməkdir. İmkanlı valideyn üçün əhəmiyyətli deyil ki, onun övladı dövlət və ya özəl təhsil müəssisəsində təhsil alır, əhəmiyyətli odur ki, hansı müəssisənin verdiyi təhsil daha keyfiyyətlidir. Bütün dünyanın qəbul etdiyi bu sadə həqiqət bəzən, Azərbaycanda "Çin səddi" ilə qarşılaşır. Liberalizmin təhsillə bağlı müddəaları təhsil sferasında anlaşılmazlıqla qarşılanır. Təəssüf doğuran budur ki, bəzən belə fikirləri təhsilə rəhbərlik edən yüksək rütbəli məmurlardan da eşidirik.

Cədvəl 13.2-də ölkəmizdə keçən əsrin son rübü üçün təhsil və iqtisadiyyat üzrə əmək haqqının miqdarı və nisbəti göstərilmişdir. Cədvəldən göründüyü kimi 1970-ci ildə təhsil işçilərinin orta əmək haqqı iqtisadiyyat üzrə orta əmək haqqından təqribən 10% çox olubdur. Bu gün cəmiyyətimizdə çalışan 50-60 yaşlı insanlar o zaman təhsil alanlardır. 1996-cı illərdə təhsil almışlar 50-60 yaşına 30 ildən sonra çatacaqlar və cəmiyyəti kəsir biliklə idarə edəcəklər. Cədvəlin son stununda prezident Heydər Əliyevin təhsil işçilərinin əmək haqqılarının artırılması haqqında verdiyi 15.05.03 tarixli sərəncamdan sonrakı vəziyyət əks edilmişdir. Qeyd edək ki, fərmandan sonra təhsil işçilərinin orta aylıq əmək haqqı 267 min manat, müəllimlərin orta əmək haqqı isə 368 min manat olmuşdur. Beləliklə, müəllimlər üçün T/İ əmsalı yüksələrək 0,98-ə bərabər olmuşdur.

Tanınmış moskvalı alim, professor S.Kapitsa sovetlər dövründə hazırlanmış professorun intellekti 1.000.000 ABŞ dolları səviyyəsində qiymətləndirmişdir. Bu rəqəmin düzlüyünə şübhəm yoxdur. Bizim ali məktəblərdə və elmi institutlarda belə dəyərli alimlərimiz çoxdur. Son zamanlar bir çox təbəqələrin əmək haqqı xeyli artırıldığından inanıram ki, tezliklə alimlərimiz xüsusi diqqət mərkəzində olacaqdır.

Ali məktəb müəllimlərini layiqli əmək haqqı ilə təmin etmək, əmək haqqı ilə elmi dərəcə arasında münasibəti yaratmaq

mümkündür. Bunun üçün başlanğıc olaraq iqtisadiyyat üzrə orta əmək haqqını istifadə etmək olar. Sonra isə Sovetlər zamanından məlum olan əmsallardan istifadə edib dosent və professor əməyini düzgün qiymətləndirmək mümkündür.

Ayrı-ayrı dövlətlərin təhsilə ayırdığı dövlət xərcləri cədvəl 13.3. göstərilmişdir.

**Cədvəl 13.3.**

| Ölkələr | ÜDM nisbəti % | Ümumdövlət xərclərinə nisbəti % |
|---|---|---|
| Yaponiya | 4.7 | 16.6 |
| Türkiyə | 2.8 | --- |
| Litva | 5.6 | 22.8 |
| Azərbaycan (1999) | 4.8 | 24.8 |

Cədvəldən göründüyü kimi, 1999-cu ilin dövlət büdcəsindən təhsilə ayrılan xərclərin payı kifayət qədər yüksək xüsusi çəkiyə malikdir (25%), həm də ÜDM-dan təhsilə ayrılan pay müqayisədə o qədər də kiçik deyil, təxminən 4,8%-ə bərabərdir. Ancaq maliyyələşməyə gedən məbləğin mütləq həcmi kiçik olduğundan əhalinin hər nəfərinə düşən təhsil xərci 25 dollardır ki, bu da orta Afrika göstəricisindən (38 dollar) xeyli azdır. Bu göstəricilər cədvəl 13.4. göstərilmişdir.

**Cədvəl 13.4.**

| Ölkələr | ÜDM-də təhsil xərcləri % | Əhalinin hər nəfərinə düşən təhsil xərci. Dollarla |
|---|---|---|
| Ümumi dünya | 5.1 | 229 |
| Afrika | 6.2 | **38** |
| Amerika | 5.4 | 597 |

| | | |
|---|---|---|
| Asiya<br>Avropa | 4.3<br>5.0 | 72<br>782 |
| Azərbaycan<br>(1999-cu il) | 4.8 | **25** |

Bu rəqəmlər göstərir ki, təhsilin inkişafına mane olan inzibati çəpərlər götürülməlidir. Təhsil sferasında liberal-demokratik prinsiplərdən tam şəkildə istifadə olmalıdır.

RF Parlamenti Elm və təhsil məsələləri komitəsinin sədr müavini O.Smolinin fikrincə, müəllimlərin, mədəniyyət və səhiyyə işçilərinin əmək haqqı məsələsi iqtisadi məsələ deyil, ideoloji məsələdir. Dövlətin prioritet məsələsidir.

Sadə həqiqət bundan ibarətdir ki, büdcə sferasının hər sahəsinin – səhiyyənin, təhsilin, mədəniyyətin öz məxsusi xüsusiyyəti vardır və ixtisas tələbləri müxtəlifdir. Hamını bir cərgəyə düzüb eyni xətkeşlə ölçmək düz deyildir. Təhsilin məxsusi cəhətlər nəzərə alınmalıdır.

Azərbaycan Respublikasının prezidenti cənab H.Əliyevin bu problemlə bağlı fikri belədir: **«Bizim büdcədə ən çox payı olan təhsil sistemidir. Bu da təsadüfi deyildir. Başqa sahədə ola bilər, kəsirlər də olsun, amma təhsildə yox. Çünki təhsildə olan kəsir, çatışmazlıq bizim gələcəyimizə xətalar yaradacaqdır».**

İnanıram ki, prezident Heydər Əliyevin həm bu, həm də epiqrafa çıxarılmış fikirlərini aidiyyatı nazirlər öz əməli fəaliyyətlərində nəzərə alacaqlar.

## 14. Biliyin qiymətləndirilməsi və imtahanlar

*«Heç bilənlə bilməz bir olarmı?»*

**Qurani – Kərimdən**

Qurani-Kərimdə deyilmiş bu qiymətli kəlamdan da göründüyü kimi cəmiyyət üçün biləni bilməzdən ayırmaq Allah

əmridir. Bəşəriyyətin inkişafı, cəmiyyətin stabilliyi bu kəlama, bəşəri dəyərə əməl etməkdən çox asılıdır. Ancaq bu məsələ bəşəriyyətin ən çətin məsələlərindən biridir. Ona görə ki, bütün dövürlərdə bilməyənlərin sayı bilənlərin sayından qat-qat çox olduğuna görə onların cəmiyyətə təsir etmək imkanları da daha çox olubdur. Natarazlığın əsas səbəbi bundan ibarətdir ki, bilənlər ömrünü bilik toplamağa, düzgün davranış qaydaları öyrənməyə, qalanları isə düz və əyri yolla var toplamağa həsr edirlər. Bilməyənlər pul, var hesabına tərəzinin gözünü özləri tərəfə həmişə əyə biliblər.

XX əsrin ikinci yarısında təhsil sferasında bəşəri və tarixi əhəmiyyətli hadisə baş verdi. Bu hadisə, sözün yaxşı mənasında, «partlayış» effekti yaratdı. Bir çox ölkələrdə təhsilli insanların sayı təhsilsiz insanların sayına nisəbətən zaman keçdikcə artdı. Yer kürəsinin əhalisi təhsilin işığından və istisindən faydalanmağa başladı.

Müasir Qərb ölkələrində, açıq və demokratik cəmiyyətlərdə bu bölgünü düzgün aparmaq məqsədi ilə ictimai şüura yeridilən **yeni paradiqma** bundan ibarətdir ki, **sənaye** bazalı cəmiyyətlərdən **elmi və informasiya** bazalı cəmiyyətlərə keçmək lazımdır. Fəxr etməyə dəyər ki, cəmiyyətin idarə olunmasında, qurulmasında təhsildən və elmdən istifadə etmək ideyasını Həsənbəy Zərdabi hələ XIX əsrin axırlarında söyləmişdir (Bax: ASE, IV cild, səh. 323). Hələki Şərq ölkələrində bu paradiqmadan istifadə edilmir. Biləni bilməzdən ayırmaq prinsipinə düzgün əməl etməmək bizi kifayət qədər geri dartır, irəliləməyimizə imkan vermir.

X1X əsr Azərbaycanın mütəfəkir insanlarının ünvanında «molla» titulundan istifadə edilmişdir: «Molla Pənah Vaqif», «Molla Vidadi» və s. XX əsrin əvvəllərində «molla» titulu deqradasiyaya uğradı və ictimai qınaqla qarşılaşdı.

XX əsrin ortalarında cəmiyyətin hörmətli insanlarını «müəllim» deyib müracət etdilər. İndi müəllim tituluda təhlükə

altındadır. Bu titulun hörmətdən düşməsinin əsas səbəbi biliyin qiymətləndirilməsində müəllimlərin buraxdığı qüsurla bağlıdır.

Təhsil sahəsində də Qurani Kərimin əmrinə düzgün əməl edilmir. Təəssüflər olsun ki, müəyyən bilik səviyyəsini özündə əks etdirən və dövlət tərəfindən verilən həm attestatı, həm də diplomu pulla əldə etmək mümkündür.

Təhsil sisteminə dövlət və cəmiyyət böyük miqdarda pul xərcləyir. Bu vəsaitin effektiv xərclənməsinin əsas göstəricisi təhsilin keyfiyyəti və **biliyin qiymətləndirilməsidir.** Biləni bilməzdən ayırmaq üçün ölçü, meyar lazımdır. Təhsil sistemində biliyin qiymətləndirilməsi çox vagib prosedurlardan biridir.

Biliyin beşballı qiymətləndirmə şkalası XX əsr boyu Azərbaycan təhsil sisteminə yetərincə qulluq edib və öz tarixi rolunu oynayıbdır. Daha dəqiq şkalaların tətbiqinə ehtiyac duyulur. Beş ballı şkalada müəllimin bir bal səhv etməsi (üzürlü və üzürsüz səbəblərdən) 20 faiz xəta törədir. Yəni proqramın mənimsənilməsi və iqtisadi vəsaitin xərclənməsi məsələsində 20 faiz xəta yaranır. Bu çox böyük xətadır və bir çox cəhətdən cəmiyyətin, dövlətin əleyhinə işləyir. Təkcə bu faktın özü yeni qiymətləndirmə şkalasının gərəkliyini aktual edir. Azərbaycan təhsil sistemində əsasən iki (5 ballı, 700 ballı) qiymətləndirmə şkalasından istifadə edilir. Bir çox özəl universitetlərdə isə bilik 100 ballı şkala ilə qiymətləndirilir. Hələ üstəlik 9 ballı sistemlə bağlı Təhsil Nazirliyi tərəfindən təcrübə aparılır. Bütün bunlar təhsil mühitini həm çox mürəkkəbləşdirir, həm də vahidliyini pozur.

Azərbaycan təhsil sistemində bu problem heç zaman diqqət mərkəzində olmamışdır. Bu problemlə bağlı araşdırmalar apararkən cəmi iki işə rast gəlindi. Bu işlərin biri A.Mehrabov və A.Əliyevin **«Təhsil sistemində qiymətləndirmə problemi və onun reallaşdırılması imkanları»** («Bilgi» dərgisi. Təhsil. Mədəniyyət. İncəsənət №2, səh.3-10, 2002) məqaləsidir. Bu məqalədə biliyin qiymətləndirilməsindən yox, təhsil sisteminin müxtəliv struktur hissələrinin fəaliyyətinin qiymətlən-

dirilməsindən söhbət gedir. İkinci iş Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda Y.Kərimovun redaktorluğu ilə çap olunmuş **"Şagirdlərin təlim müvəffəqiyyətlərinin 9 bal sistemi ilə qiymətləndirilməsi normaları"** (Bakı-2000, təkrar nəşri-2002. 144 səh.) kitabıdır. Bu kitablarda biliyin qiymətləndirilməsinin 9 ballı şkalası tərənnüm edilir. Hər iki nəşirdə bu problemlə bağlı nə tarixi ənənə, nə də bəşəri təcrübə dərindən öyrənilməyibdir. Bu səbəbdən də elmi ədəbiyyata istinad yoxdur. Belə qənaətə gəlmək olar ki, bu problem Azərbaycan pedaqoqlarını heç zaman düşündürməmiş və onlar beşballı şkalanı **mütləq düz** şkala hesab etmişlər.

Qiymətləndirmə prosesinin inkişaf tarixini, məntiqini, nəzəri əsasını, fəlsəfəsini bilmədən mövcud qiymətləndirmə şkalalarının məğzini, dəyərini düz şərh etmək çətin məsələdir. Bu məntiqi, fəlsəfəni tapmaq isə asan deyildir. Bunun üçün elmi araşdırmalar aparmaq məlum **nəticədən** naməlum **səbəbə** tərəf getmək lazımdır.

Bu yerdə gündəlik həyatımızdan bir analogiya gətirmək istəyirəm. Həyatımızda məişət cihazlarından istifadə edirik. Bunların biri də, deyək ki, elektrik çaynikidir. Biz elektrik çaynikindən istehsalçının hazırladığı **təlimata** uyğun istifadə edirik. Təlimatda isə, adətən, yazılır ki, çayniki su ilə doldurub, sonra dövrəyə qoşun. Bu sadə bilik bu cihazdan istifadə etməyə kifayət edir. Ancaq təlimatda yazılmayıb ki, bu çaynik işləyərkən fizikadan məlum olan həm Om qanunundan, həm də Coul-Lens qanunundan istifadə edilir. Bu dərin biliklər **istehsalçı** üçün vacib, **istehlakçı** üçün qeyri-vacibdir. Əgər biz çaynik istehsal etmək istəyiriksə, hökmən bu işin nəzəri əsasını öyrənməliyik.

Biz təhsilalanların biliklərini qiymətləndirmək üçün 5 ballı şkaladan «istehlakçı» qismində istifadə etmişik. Bu şkalanı biz yaratmamışıq, ancaq təlimata uyğun istifadə etrmişik. Bu səbəbdən də şkalanın nəzəri əsasını, fəlsəfəsini, kölgədə qalan məntiqini bilmirik. Biz yeni qiymətləndirmə şkalası qəbul etmək

istəyiriksə, onda qiymətləndirmənin tarixini, fəlsəfəsini, məntiqini, nəzəri əsasını öyrənməliyik.

Qiymətləndirmə şkalası haqqında elmi ədəbiyyatda kifayət qədər elmi məlumatlar vardır. M.V.Arapovun «5 ballı qiymətləndirmə şkalası! dəyişmə ehtiyac varmı?» (bax. Gnerqiə: gkonomika, texnika, gkoloqiə», №4, str. 69-72, 2003) məqaləsində problemin tarixi, məğzi və müasir dövr üçün kəsb etdiyi əhəmiyyət təhlil edilmişdir.

Məqalədə göstərilir ki, 5 ballı sistem 1837-ci ildə Rusiya Xalq Təhsili Nazirliyi tərəfindən rəsmi tətbiq edilmiş, sonralar isə ləğv edilmişdir. 1935-ci ildə ÜKP (b) MK qərarı ilə biliyin 5 ballı diferensial qiymətləndirmə sistemi təzədən bərpa edilmişdir. Ancaq biliyin qiymətləndirilməsi rəqəmlərlə yox, sözlərlə ifadə edilmişdir: «əla», «yaxşı», «kafi», «pis» və «çox pis».

Hal-hazırda istifadə etdiyimiz beş ballı qiymətləndirmə şkalası 1944-cü ildən bəri bizə məlum şəkildə tətbiq edilir. Ancaq «1» və «2» qiymətlərinin fərqi aydın təsəvvür edilmədiyinə görə bu şkala əslində 4 ballı şkala kimi qəbul edilmişdir. Sonradan bu şkala transformasiya edilərək 12 ballı və 10 ballı şkalalara çevrilmişdir. Belə ki, «5», «4», «3» və «2» qiymətlərinin hər birini müsbət (+) və mənfi (-) çalarlarla fərqləndirərək (5+, 5, 5-) bu şkala avtomatik 12 ballı şkalaya çevrilmişdir. Əgər 2 qiymətini ancaq bir səviyyəli qəbul etsək, onda bu şkala 10 ballı şkalaya çevrilir: 5+, 5, 5-, 4+, 4, 4-, 3+, 3, 3- və 2.

Qeyd edək ki, 2001/02 tədris ilində Belorusiyada 10 ballı, Ukraynada (2000/01) isə 12 ballı qiymətləndirmə şkalaları rəsmi olaraq tətbiq edilir.

Praktiki fəaliyyətimizdən və qiymətdirmənin məntiqindən bilirik ki, biliyin qiymətləndirilməsinin beş ballı şkalasında mövzunu (fənn proqramını və s.) **əla** bilənə 5 (beş), **yaxşı** bilənə 4 (dörd), **kafi** bilənə 3 (üç) qiymət verilir. Mənimsəmənin dərəcəsi ilə qiymət rəqəmləri arasındakı bu əlaqədən bəzi nəticələr əldə etmək mümkündür. Çox təəssüf hissi ilə qeyd edirəm ki, Y.Kərimovun redaktorluğu altında nəşr olunmuş

kitablar mənimsəmənin qiymətləndirilməsinə həsr edilsə də, nə mənimsəmə, nə də qiymət anlayışlarına aydınlıq gətirilməmiş və ya tərif verilməmişdir. Bu səbəbdən də əvvəlcə, bəzi anlayışlara aydınlıq gətirmək lazımdır. Mənim subyektiv fikirimə görə:

**qiymət** – proqram materialının mənimsənilmə dərəcəsinin rəqəmlərlə ifadəsidir. Başqa sözlə, qiymət biliyin, fənnin, proqramın mənimsənilməsinin %-lə göstəricisinin rəqəmlərlə ifadəsidir;

**mənimsəmə** – dövlət tərəfindən qəbul edilmiş tədris proqramını (və ya proqramlarını) minimum normadan (standarta uyğun hissədən) çox bilməkdir. Başqa sözlə, qiymət mənimsəmə – proqram materialını 60%-dən çox bilmək deməkdir. Bəşəri təcrübədə proqramı materialını 60%-dən az bilmək qeyri-məqbul (qeyri-kafi) hesab edilir.

Beləliklə, 5 ballı şkalanı qrafik olaraq aşağıdakı kimi təsvir etmək olar.




Şəkil 14.1 Mənimsəmə şkalası

Harada ki, $L_L$-bilir parçasının, $L_m$-bilmir parçasının uzunluğudur.

Məlum həqiqətlərdən naməlum səbəbə tərəf gedərək bəzi nəticələr əldə etmək mümkündür:

1) 5 ballı şkala "bilir" və "bilmir" kimi iki parçaya bölünür. Keyfiyyətli təhsil üçün bilmir parçasının uzunluğu, bilir parçasının uzunluğundan çox olmalıdır. Sovet təhsil sistemində bilmir parçasının uzunluğu, bilir parçasının uzunluğundan 20% çox idi.

2) Bölünmə şkalanın 3 nöqtəsinə uyğun gəlir. Bu nöqtə biləni bilməyənlərdən ayırır. Kafi səviyyədən aşağı bilik səviyyələrinin qiyməti qeyri kafi, qeyri məqbul hesab edilir ki, bunun da rəqəmlə ifadəsi «2»-dir. Üç (3) qiyməti məqbul həddin rəqəmlə ifadəsidir. Bu hədd dövlət standartı hesab edilməlidir və pozulmazdır. Təhsil sahəsində mənimsəmənin aşağı (minimum) və yuxarı (maksimum) həddini dövlət tərəfindən qanunla müəyyənləşdirilməlidir. Minimum səviyyədən aşağı biliyi dövlət və cəmiyyət qəbul etməməlidir. Bu səbəbdən də müxtəlif dövlətlər üçün (və ya təhsil müəssisələri üçün) bu hədd müxtəlif ola bilər. Dövlət qüdrətləndikcə bu hədd sağa, təhsil sistemi korlandıqca bu hədd sol tərəfə sürüşür.

Bu nöqtəyə uyğun bilik ona görə kafi, məqbul hesab edilir ki, bu nöqtədə tədris proqramı 60% mənimsənilir, dövlətin xərclədiyi vəsaitin 60%-i biliyə çevrilir. Bundan aşağı mənimsəməni heç bir normal dövlət qəbul etməməlidir.

3) Bu parçaların hər birinin öz məxsusi cəhətləri var.

a) "**Bilir** " parçasının məxsusi cəhəti bundan ibarətdir ki, **mənimsəmənin** dərəcəsini göstərmək məqsədi ilə şkala səviyyələrə bölünür. 5 ballı şkalada bu səviyyələr 3, 4, 5 rəqəmləri ilə göstərilir.

b) **«Bilmir»** parçası (biliksizlik) dərəcələrə bölünmür. Pis pisdir, pisin yaxşısı, babatı olmur. Bu səbəbdən də "bilmir" parçası belə səviyyələrə bölünmür. "Bilmir" parçasını səviyyələrə bölmək əbəsdir. Çünki qaradan o yana rəng yoxdur. Şkalanın (0-3) parçasına uyğun gələn istənilən bilik səviyyəsinin qiyməti şərti olaraq "2”" rəqəmi ilə göstərilir.

Məşhur fizik **Viqnerin** bir kəlamında deyilir: **"Bilik uğrunda döyüş lazımdır".** Təhsil məsələsi də elə döyüş

məsələsidir. Müharibədə bir kəndi, şəhəri, rayonu satanın bir adı var, o da satqındır! Satqının yaxşısı, pisi olmaz. Satqınlığı, uğursuzluğu dərəcələrə bölüb vaxt itirmək, vəsait xərcləmək olmaz. Müharibədə uğurlar isə müxtəlifdir. Kimi igidlik göstərir, kimi qəhrəmanlıq göstərir, kimi isə vicdanla döyüşür. Hərənin öz qiyməti var və bu qiymətlər isə müxtəlifdir. Deməli, hərbdə də uğursuzluq yox, uğur dərəcələrə bölünür.

Təhsil sahəsində tarixi ənənə əsasında qərarlaşmış nəticə bundan ibarətdir ki, adətən "mənimsəmə", "müvəffəqiyyət" qiymətləndirilir və səviyyələrə bölünür. Uğursuzluq isə səviyyələrə bölünmür.

Biliyin qiymətləndirilməsi ilə bağlı fikirlərimi "Azərbaycan" qəzetinin 8.02.2002-ci il tarixli sayında söyləmişəm. O fikirlərin bəzilərini təzədən oxucuların diqqətinə çatdırmağı məqsədəuyğun hesab edirəm.

Mənim nöqteyi-nəzərimcə, istənilən təhsil müəssisəsi (məktəb, kollec, universitet və s.) dövlətin (və ya vətəndaşların) təhsilə ayırdığı pulu təhsilalanların biliyinə çevirən qurumdur. Bu quruma şərti olaraq «təhsil maşını»da demək olar.

Bu maşın ideal olarsa, qüsursuz işlərsə, onda dövlətin və ya vətəndaşın təhsilə ayırdığı pul tam biliyə çevrilər. Yəni belə təhsil maşınının faydalı iş əmsalı (f.i.ə.) 100 faiz olar. Nə totalitar, nə də demokratik cəmiyyətlərdə belə maşın qurmaq mümkün olmamışdır. Belə maşın qurmaq qabaqcıl ölkələrin ümdə arzularındandır. Deməli, real təhsil maşınının f.i.ə. 100 faizdən az olacaqdır, çünki həm də təhsilalanların intellektual qabiliyyəti və ya **"ay-kü"** əmsalı (bax: §15.3) müxtəlifdir, eyni deyildir. Bəşəri təcrübə göstərir ki, normal **təhsil maşınının** f.i.ə. aşağı, minimum həddi 60 faiz, maksimum həddi isə 100%-dən aşağıdır.

Aşağı həddin niyə 60 faiz götürüldüyünü izah etmək çətin deyildir. Misal üçün, bizim orta məktəblərimizin 8-ci sinfində "Azərbaycan coğrafiyası" fənni il ərzində tədris olunur. Dövlət

bu fənn proqramının tədrisinə təqribən 80 saat ayırıbdır və proqramı maliyyələşdirir.

Məktəb isə dövlətdən maliyyə alaraq bu proqramın reallaşmasını öz üzərinə götürən qurumdur. Bunun üçün zəruri infrastruktura (sinif otağı, maddi-texniki baza və s.) yaradaraq, coğrafiya müəllimini bu işə cəlb edərək, proqramı yerinə yetirir.

Fənnin öyrənilməsinə nəzarət etmək üçün düşünülmüş bir mexanizm də vardır. Mexanizm də bundan ibarətdir ki, müəllim rüb ərzində şagirdi bir neçə dəfə danışdırır, biliyini qiymətləndirir və rüblük qiymətini müəyyənləşdirir. Sonra rüblük qiymətlər əsasında illik qiymət çıxarır (bəzən nəticəni dəqiqləşdirmək üçün proqramın tədrisinin sonunda əlavə imtahan da keçirmək olar). Fərz edək ki, hər hansı bir şagird "Azərbaycan coğrafiyası" fənnindən bütün rüblərin nəticələrinə görə 3 qiymət almışdır. 700 ballı şkalada bu, 420 bala ekvivalentdir. Bu, nə deməkdir? Bu, o deməkdir ki, şagird dövlət tərəfindən tərtib edilmiş fənn proqramının 3/5-nü mənimsəmişdir, yəni 10 göl, dəniz və çaydan 6-nın adını, 10 şəhərdən 6-sı haqqında, onun iqtisadiyyatı, haqqında kifayət qədər məlumatı var, yerini xəritədə düz göstərəbilir və s.

Dövləti baxımdan bu o deməkdir ki, bu fənnin bu şagird tərəfindən mənimsənilməsi üçün ayrılan vəsaitin 60 faizi biliyə çevrilib, 40 faizi çevrilməyibdir. Digər tərəfdən bu o deməkdir ki, şagird minumum bilik toplayıb, vaxtından çox da səmərəli istifadə etməyibdir. Bütün dünya dövlətləri yəqin ki, bu səbəbdən 50%-i yox, məhz 60%-i məqbul, kafi hədd sayırlar. 60% mənimsəmə qiymətləndirilmənin beynəlxalq standartının **minimum** həddi hesab edilir. Məntiq isə sadədir: dövlətin və ya vətəndaşların təhsilə ayırdıqları vəsaitin yarıdan çoxu (60%-i) məqsədinə xidmət etməli və biliyə çevrilməlidir.

Atalarımız çox yaxşı deyiblər: **"dad yarımçıq əlindən".** Məktəb yarımçıq insan yetişdirməməlidir. **Milli standart** adı altında mənimsəməni 40-50%-ə endirmək yolverilməzdir. Dövlət və cəmiyyət buna dözməməlidir. Prinsipcə cəmiyyət

kamilləşdikcə kafi hədd (60%) sağ tərəfə, yüksək faizlər tərəfə sürüşməlidir.

«Bilmir» parçasının uzunluğunun $L_m$ «bilir» parçasının uzunluğuna $L_L$ (bax: şəkil 14.1) nisbəti ilə biliyin mənimsənilməsinin faiz göstəricisi arasında münasibət şəkil 14.2-də göstərilmişdir. Şəkildə **A** nöqtəsi sovet təhsil sistemini, **B** nöqtəsi çağdaş inkişaf etmiş ölkələrin təhsil sistemini xarakterizə edir.




Şəkil 14.2. Mənimsəmənin faiz göstəricisinin $L_m$/ $L_L$ faktorundan asılılığı.

Qrafikdən göründüyü kimi ideal təhsil sistemi yaratmaq mümkün deyildir. Ancaq çalışmaq lazımdır ki, işçi nöqtə absis oxu boyunca sağ tərəfə sürüşsün.

Şəkil 14.3-dən görünür ki, təhsilin keyfiyyətini yüksəltmək üçün qeyri-məqbul sahə (ştrixlənmiş), məqbul sahənin hesabına genişlənməlidir.

Əgər on ballı şkaladan istifadə etsək, onda müəllimin bir bal xətası (üzürlü və ya üzürsüz səbəbdən) fənn proqramının mənimsənilməsində 10 faiz xəta yaradır. Yüz ballı şkalada belə

xətanın yaratdığı fəsad bir faiz olar. İndiki şəraitdə bu şkalaların hər birini Azərbaycan üçün məqbul saymaq olar. Ancaq qeyd edək ki, 100 ballı şkala isə 10 ballıdan xeyli üstündür. Ali təhsilin keyfiyyətinin yüksəldilməsində yüz ballı şkalanın potensial imkanları daha çoxdur, biliyə nəzarət daha asandır.




Şəkil 14.3. “5”“” və “700“ ballı şkalalar arasında münasibət.

Son zamanlar bir çox məktəblərdə 9 ballı qiymətləndirmə şkalası ilə bağlı eksperiment aparılır. Bu ekserimenti Təhsil Nazirliyi dəstəkləmiş və müvafiq qərarlar qəbul etmişdir. Misal üçün, TN –nin 28.06.02 tarixdə keçirilmiş müşavirəsində və 09.07.02 tarixli 746 saylı qərarında 9 ballı qiymətləndirmə şkalası təqdir edilir. Dünya Bankı isə bu işi dəstəkləyir. Bu qurumun niyyətini başa düşmək mənim üçün çətindir. Biz Dünya Bankı və bu kimi qurumların məsləhətlərini eşitməklə bərabər öz milli mənafeimizi qorumağı da bacarmalıyıq.

“Azərbaycan müəllimi “ qəzeti 5-11 iyul 2002-ci il tarixli sayında 9 ballı qiymətləndirmə şkalası ilə bağlı Təhsil Nazirliyində keçirilmiş müşavirə haqqında geniş məlumat dərc etmişdir.Qəzet yazır:

*“İyunun 28-də Təhsil Nazirliyində geniş* ***müşavirə*** *keçirilmişdir. Müşavirədə respublikanın ümumtəhsil məktəblərində şagirdlərin təlim müvəffəqiyyətlərinin* ***9 bal*** *sistemi ilə qiymətləndirilməsinin tətbiqi məsələləri müzakirə olunmuşdur. Tədbirdə Təhsil Problemləri İnstitutunun direktoru, direktor müavini və şöbə müdirləri, Nərimanov, İsmayıllı, Quba, Şəki, Lənkəran RTŞ müdirləri, Gəncə Şəhər Təhsil İdarəsinin rəisi, həmin rayonların RTŞ metodmərkəzlərinin direktorları, məktəb rəhbərləri və nazirliyin əməkdaşları iştirak edirdilər. Müşavirəni giriş sözü ilə təhsil naziri açaraq qeyd etdi ki,* ***1998-1999-cu*** *dərs ilindən başlayaraq* ***Nərimanov və İsmayıllı*** *rayonlarının ümumtəhsil məktəblərində şagirdlərin bilik, bacarıq və vərdişlərinin 9 bal sistemi ilə qiymətləndirilməsi üzrə eksperimentə başlanılmış, sonrakı dərs ilində bu iş davam etdirilmişdir. Həmin rayonların məktəblərində eksperimentin* ***ikiillik təcrübəsi*** *onun tətbiq dairəsinin genişləndirilməsi üçün əsas vermiş, nazirliyin müvafiq əmri ilə 2000-2001-ci dərs ilindən Gəncə şəhərinin, Quba, Şəki və Lənkəran rayonlarının ümumtəhsil məktəblərində eyni məzmunda eksperimentə başlanmışdır».*

Göründüyü kimi 9 ballı sistemə Təhsil Nazirliyi cari məsələ kimi yox, ciddi məsələ kimi yanaşıb;

Azərbaycan təhsilinə rəhbərlik edən bütün insanlar bu müşavirədə iştirak edib;

Ən nəhayət 1998-1999-cu illərin təcrübəsi əsas veribdir ki, eksperimentin tətbiq dairəsi genişləndirilsin və Gəncə, Quba, Şəki və Lənkəran şəhərlərinin ümumtəhsil məktəblərində eyni məzmunda eksperimentlər aparılsın.

Bununla bərabər 1998 – 1999 –cu illərin təcrübəsinin verdiyi **əsas nədir?** – sualı hələ ki açıqdır. Qəzet sonra yazır:

*«Təhsil Problemləri İnstitutunun direktor müavini, eksperimentin rəhbəri, professor* ***Y.Kərimov*** *şagirdlərin təlim müvəffəqiyyətlərinin 9 bal sistemi ilə qiymətləndirilməsi üzrə aparılan eksperimentin* ***mahiyyətindən,*** *bununla əlaqədar görülən işlərdən ətraflı danışdı. Şagirdlərin təlim müvəffəqiyyətlərinin 9 bal sistemi ilə qiymətləndirilməsinin bir çox cəhətlərinə görə mövcud* ***"5" bal sistemindən üstün olduğunu elmi-metodik, pedaqoji cəhətdən əsaslandırdı, bunu orta ümumtəhsil məktəblərində aparılan islahat sahəsində mühüm addımlardan biri kimi qeyd etdi və müvafiq təkliflər irəli sürdü.***

*Müşavirədə Lənkəran şəhər 9 saylı məktəbin direktoru Söhbət Ağasıyev, Dünya Bankı Layihəni İdarəetmə Qrupunun rəhbəri A.Cahangirov, Təhsil Problemləri İnstitutunun direktoru A.Mehrabov, həmin institutun direktor müavini Ə.Abbasov çıxış etdilər.*

*Təhsil nazirinin müavini İ.İsgəndərov öz çıxışında ötən illər ərzində bu sahədə əldə olunan təcrübəni, şagirdlərin təlim müvəffəqiyyətlərinin 9 balla qiymətləndirilməsinin mahiyyətini, onun* ***müsbət cəhətlərini ətraflı izah etdi****, bu işin təkmilləşdirilməsi ilə bağlı təkliflərini verdi".*

*Müzakirələrdə belə bir* ***ümumi fikir*** *səsləndi ki, şagirdlərin bilik, bacarıq və vərdişlərinin 9 bal sistemi ilə qiymətləndirilməsi* ***təhsilin humanistləşdirilməsi və demokratik-ləşdirilməsi prinsipinə*** *əsaslanır, obyektivliyin gözlənilməsi, müəllim-şagird, müəllim-valideyn münasibətlərinin səmərəli əməkdaşlığa çevrilməsi baxımından çox faydalıdır".*

Qəzetdə verilmiş məlumatlardan 9 ballı qiymətləndirmə şkalasının məntiqini, nəzəri əsasını anlamaq mümkün deyildir. Bu şkalanın şanına-şöhrətinə deyilmiş təriflərin heç bir elmi-nəzəri əsası yoxdur.

Təhsil Nazirliyinin 09.07.02 746 saylı qərarını təhlil etmək niyyətində deyilik. Həmin qərarda da 9 ballı şkala müsbət xarakterizə edilir, bu sistemin yayılması üçün Təhsil Nazirliyinin

müxtəlif struktur hissələrinə və rayon təşkilatlarına müvafiq göstərişlər verilir.

9 ballı qiymətləndirmə şkalasının 5 ballıdan üstünlüyünün, mahiyyətinin, elmi-pedaqoji, metodik əsasının müsbət cəhətlərinin, onun təhsilin humanistləşməsində və demokratikləşməsində müsbət rolunun nədən ibarət olmasını başa düşmək çətindir. Müşavirədə çıxış edənlərin çoxu tanınmış, insanlardır. Ancaq inandırıcı əsas olmasa, bu sözçülük kimi qəbul edilə bilər. Mən əminəm ki, 9 ballı şkala xeyirli bir şkala deyildir. Ancaq belə bir qiymətləndirmə şkalası ilə bağlı təhsil ictimaiyyətinin **ümümi fikrin birliyi** də təəccüb doğurur. Bəs niyə bu əhəmiyyətsiz qiymətləndirmə şkalasına bu qədər görəvli təhsil işçiləri və pedoqoji ictimaiyyət yekdil münasibət bəsləyiblər? Bir də qeyd eməyi lazım bilirəm ki, biliyin 9 balla qiymətləndirməsi şkaladır, sistem deyildir. Və şkalanın sistem adlandırılması təəcüb doğurur. Burada mən təhsil nazirliyindən çox, pedoqoji ictimaiyyəti və sahə elm adamlarını günahlandırıram.

İkinci qeydim «islahat» termininə aiddir. Mənə elə gəlir ki, bu termin çox vaxt yerində işlədilmir. Birincisi, islahat sözünün açılışına fikir versək görərik ki, lüğətlərdə yazılır: İslahat – ictimai həyatın hər hansı bir sahəsində mövcud sosial strukturun əsasını dağıtmadan aparılan, dəyişmək, çevirmək, başqa şəkilə salmaqdır.

Azərbaycanda kənd təsərrüfatı sahəsində islahat getdi: kolxoz və sovxozlar ləğv edildi, onların yerində fermer təsərrüfatları yaradıldı və dövlət torpaqları əhaliyə paylandı.

Təhsildə bu ölçüdə dəyişiklik baş verməyib və mənim fikrimcə də baş verə bilməz. Çünki təhsilin yaşı 10000 ildir və bu sahədə heç bir ölkə köklü dəyişiklik apara bilməz. 9 ballı qiymətləndirmə şkalasının təhsildə islahat adlandırılmasını da düzgün hesab etmək olmaz. Bu səbəbdən də qonşu Rusiyada təhsildə reformadan çox, modifikasiyadan (yeniləşmədən) söhbət gedir. (Bax: «Poisk», № 9, 7.03). Beləliklə təhsildə «islahat»

terminini yerində işlətmak lazımdır, Prezident H.Əliyev deməli, dəb xətrinə yox:

**«İslahatlar, xüsusən təhsil, elm sahəsində islahatlar çox ağıllı, düşünülmüş şəkildə həyata keçirilməlidir... Dəb naminə yox, yalnız əldə etdiyimiz səviyyədən daha yuxarı qalxmaq üçün təhsilin səmərəliliyi, elmin səmərəliliyini artırmaq üçün aparılmalıdır».**

9 ballı şkala sadə deyildir, əksinə mürəkkəbdir. Mənimsəmə faizi ilə 9 ballı şkalanın rəqəm göstəriciləri arasında əlaqəni tapmaq üçün fənn müəllimləri tənasüb qurub və həll etməli olacaqlar. Bu şkala ilə 80 % mənimsəmənin rəqəm göstəricisi 7.2-dir. Mənimsəmə əsas faizlərinin rəqəm göstəricisinin tam ədədlə ifadə olunmaması bu şkalanın başlıca qüsurudur. Əgər bu qüsur olmasaydı, onda 5 ilə 100 tam ədədlər sırasından onlarla qiymətləndirmə şkalası düzəltmək mümkün olardı.

Cədvəl 14.1-də müxtəlif qiymətləndirmə şkalalarında mənimsəmənin faiz və rəqəm göstəriciləri arasında münasibət tərtib edilmişdir.

**Cədvəl 14.1.**

| Mənim-səmə %-lə | Qiymətləndirmə şkalası | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Key-fiy-yətcə | Kəmiyyətcə | | | | | | | |
| | | 5 | 10 | 20 | 50 | 100 | 700 | 9 | 11 |
| 100 | Əla | 5 | 10 | 20 | 50 | 100 | 700 | 9 | 11 |
| 80 | Yaxşı | 4 | 8 | 16 | 40 | 80 | 560 | 7,2 | 8,8 |
| 60 | Kafi | 3 | 6 | 12 | 30 | 60 | 420 | 5,4 | 6,6 |
| 40 | q/kafi | 2 | 4 | 8 | 20 | 40 | 280 | 3,6 | 4,4 |
| 20 | q/kafi | 2 | 2 | 4 | 10 | 20 | 140 | 1,8 | 2,2 |
| 0 | q/kafi | 2 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 |

Digər şkalalarla müqayisədə 9 və 11 ballı qiymətləndirmə şkalalarının qüsurları cədvəl 14.1-dən aydın görünür.

9 ballı şkala haqqında geniş məlumat Təhsil Nazirliyinin Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu tərəfindən çap olunmuş **“Şagirdlərin təlim müvəffəqiyyətlərinin 9 bal sistemi ilə qiymətləndirilməsi normaları“** kitablarda (Bakı-2000, təkrar nəşri-2002) verilmişdir.

Bu kitabın hər ikisində də müvəffəqiyyətin qiymətləndirilməsinə ancaq pedaqoji baxış şərh edilmişdir. Qiymətləndirməyə dövləti, elmi, fəlsəfi, iqtisadi, məntiqi baxış yoxdur. Bu isə təəssüf doğurur. Kitabda bir-iki abzas istisna olmaqla tarixi icmal, qiymətləndirmə haqqında elmi xülasə və ya başqa beynəlxalq elmi-pedoğoji təcrübəyə istinad da yoxdur. Yeganə əl tutası abzasda isə yazılır:

*“Təsadüfi deyildir ki, dünyanın müxtəlif dövlətlərində şagirdlərin təlim müvəffəqiyyətləri müxtəlif bal sistemi ilə qiymətləndirilir. Rusiya, Çexoslovakiya, Macarıstan, Polşa, Almaniya və bir çox başqa ölkələrin məktəblərində 5, Hollandiya məktəblərində 10, İtaliya məktəblərində 11, Fransa, Əlcəzair məktəblərində 20 baldan istifadə olunur. 100 baldan istifadə edən ölkələr də var. Əslində ayrı-ayrı ölkələrdə bal vahidlərinin kəmiyyətcə müxtəlifliyi* ***şərti*** *xarakter daşıyır“.*

İtaliya məktəbləri istisna olmaqla yerdə qalan qiymətləndirmə şkalaları sağlam düşüncəyə və məntiqə uyğundur və istifadə üçün yararlıdır. Xarici İşlər Nazirliyinin əməkdaşlarının köməkliyi ilə İtaliya səfirliyindən aldığımız məlumata görə orada orta məktəblərdə müvəffəqiyyət 10 ballı sistemlə qiymətləndirilir və uğur 6-10 bal arasında qiymətləndirilir. 1, 2 …5 qiymət heç kəsə yazılmır.

Sonra kitabın 6-cı səhifəsində oxuyuruq:

*“Həyatın hər hansı sahəsində insan fəaliyyətinin qiymətləndirilməsində üç səviyyə məlumdur:* ***aşağı, orta, yüksək.*** (Bu fikir korrekt deyil. Cəmiyyətdə qərarlanmış qiymətləndirmə səviyyələri: əla, yaxşı, kafidir). *Məktəbin ənənəsinə* ( məlum deyil hansı ənənədən söhbət gedir) *əsasən 9 balı aşağıdakı səviyyələr üzrə qruplaşdırmaq mümkündür:*

*a) pis;*

*b) zəif;*

*v) orta;*

*q) yaxşı;*

*d)* ***yüksək.***

*5 bal sistemində hər səviyyə üçün bir qiymət vahidi nəzərdə tutulur. 9 bal sistemində isə bu səviyyələrin hər birində müəyyən dərəcələr (qiymət vahidi blokları) nəzərdə tutulmuşdur:*

*a) 1, 2;*

*b) 3;*

*v) 4, 5;*

*q) 6, 7;*

*d) 8, 9.*

*Göründüyü kimi, 9 bal sistemi əslində 5 bal sisteminə uyarlığını saxlayır".*

Deyilənlərdən görünür ki, mənimsəmənin faiz göstəricisi ilə ona uyğun rəqəm göstərici arasında əlaqə bu şkalada unudulubdur. Uğursuzluğun qiymətləndirilməsi bu şkalanın böyük qüsurudur. Mürəkkəblik, istifadə üçün çətinlik bu şkalanın digər qüsurlarındandır. Kafi, məqbul həddin qiymətləndirmə standartının aşağı həddinin olmaması bu şkalanın ən böyük qüsurudur.

Baxmayaraq ki, kitab **"Şagirdlərin təlim müvəf-fəqiyyətlərinin 9 bal sistemi ilə qiymətləndirilməsi normaları"** adlanır, yuxarıdakı materialdan görünür ki, nəinki uğur, həm də uğursuzluq 1, 2, 3, 4, 5 rəqəmləri qiymətləndirilir. Uğursuzluğun qiymətləndirilməsi lüzumsuz olmasına baxmayaraq, ancaq bu şkalada özünə yer tapıbdır. Hətta aşağıda göstərildiyi kimi 1 ilə 2 qiymətlərinin fərqi də var. "1" alana **attestat** verilməyəcək, "2" alan üçün bu mümkündür. Təhsilin keyfiyyətini aşağı salmaq üçün bundan uğurlu bir şey fikirləşmək mümkün deyildir. Belə bir şkala ilə bağlı TN keçrilmiş müşavirdə əldə olunmuş **«ümümi fikir»** təəccüb doğurur. Mən hesab edirəm ki, pedaqoji

ictimaiyyət bu fikirlərə öz münasibətini bildirməlidir. Əks halda respublikada belə bir ictimaiyyətin varlığı şübhə altına alına bilər.

Kitabda hər qiymət səviyyəsinə aşağıdakı şərh verilir:

***"1" qiymət*** *ən aşağı səviyyə olmaqla şagirdin pis oxuduğunu (daha doğrusu, cavab verə bilmədiyini, qeyri-qənaətbəxş cavab verdiyini göstərir). Bu qiymətə görə şagird* ***sinifdə saxlanılır, ona attestat verilmir.***

***"2" qiymət*** *şagirdin zəif oxuduğunu bildirir. Proqram materialı haqqında sistemsiz, qırıq-sökük, qeyri-müəyyən, cüzi bilik, bacarıq və vərdişlərə yiyələnmiş şagirdə "2" qiymət verilir.*

***"3" qiymət*** *proqram materialı haqqında qismən məlumatı olan, müəllimin köməkçi suallarına cavab verərkən onun mahiyyətini lazımınca şərh edə bilməyən, inamsızlıq göstərən şagirdə verilir.*

***"4" qiymət*** *proqram materialının müəyyən hissəsini minimum səviyyədə mənimsəyən, lakin təlim materiallarının mahiyyətini çətinliklə şərh edən, fikrini sərbəst şərh etməyə cəhd göstərən, fikri fəallıq priyomlarından zəif istifadə edən, müəllimin əlavə suallarına qismən cavab verən şagirdə verilir.*

***"5" qiymət*** *proqram materiallarını minimum səviyyədə mənimsəyən, fikrini sübuta yetirməyə çalışan, fikri fəallıq priyomlarından istifadə etməyi qismən bacaran, müəllimin əlavə suallarına düzgün cavab verməkdə çətinlik çəkən şagirdə verilir.*

***"6" qiymət*** *proqram materiallarını, əsasən, qənaətbəxş mənimsəyən, fikirlərini sübuta yetirməyə çalışan, fikri fəallıq priyomlarından istifadə etməyi bacaran, müəllimin əlavə suallarına cavab verərkən bəzən tərəddüd edən şagirdə verilir.*

***"7" qiymət*** *proqram materiallarını yaxşı mənimsəyən, fikrini sərbəst, aydın şərh edən, fikri fəallıq priyomlarından sərbəst istifadə etməyi bacaran, müəllimin əlavə suallarına düzgün cavab verən, nitqində məntiqi ardıcıllığı gözləyə bilən şagirdə verilir.*

***"8" qiymət*** *proqram materialını tam mənimsəyən, fikrini aydın, sərrast, səhvsiz şərh edən, fikri fəallıq priyomlarından*

*sərbəst, yerli-yerində istifadə edən, yiyələndiyi bilikləri təcrübədə tətbiq edən, müəllimin əlavə suallarına inamla cavab verməyi bacaran şagirdə verilir.*

***"9" qiymət*** *proqram materiallarını tam və yüksək səviyyədə mənimsəyən, onunla əlaqədar əlavə məlumatlar da əldə edən, fikrini heç bir çətinlik çəkmədən aydın, sərrast, düzgün, rabitəli, obrazlı ifadə edən, fikri fəallıq priyomlarından müstəqil və yaradıcılıqla istifadə edən, biliyini təcrübədə bacarıqla tətbiq edən, müəllimin əlavə suallarına sərrast, dəqiq, məntiqi cavab verməyi bacaran, cavabında yaradıcı təfəkkürün nümunəsini göstərən şagirdə verilir".*

Bu şkala beynəlxalq əlaqələr üçün də xeyli mürəkkəblik yarada bilər. Misal üçün, orta attestat qiyməti 7 bal olan məzun qiymətləndirmə şkalaları 5, 10, 20, 100 olan ölkələrə təhsil almağa gedərsə, hökmən anlaşılmazlıqla qarşılaşacaq və bu qiymətin nəyə ekvivalent olması haqqında sənəd tələb olunacaqdır.

Qiymətləndirmə şkalalarının "bilir" və "bilmir " parçalarını bir-birindən ayıran nöqtə cədvəl 14.1-in 3-cü sətrində göstərilmişdir. Göründüyü kimi 9 ballı şkala üçün bu 5.4, 11 ballı şkala üçün bu 6.6 baldır. Digər normal şkalalar (5,10,20, 50, 100, 700) üçün isə bu qiymətlər uyğun olaraq tam ədədlərlə (3, 6, 12, 30, 60, 420) ifadə olunurlar.

Çox asanlıqla sübut etmək olar ki, 5, 10, 15, 20 və bunun kimi ballı qiymətləndirmə şkalaları düzəltmək mümkündür və məntiqlidir. Ancaq 6, 7, 8, **9,** 11, 13, 14, 16 və s. ballı şkala düzəltmək məntiqsizdir və məqsədəuyğun deyildir. 9 ballı qiymətləndirmə şkalası sonunculara aiddir.

Beləliklə, təhsildə biliyin qiymətləndirilməsi üçün müxtəlif şkalalar təklif etmək mümkündür. Burada vacib iki şərt ödənilməlidir:

- **biliyin mənimsənilməsinin faiz göstəricisi ilə rəqəm ifadəsi arasında əlaqə sadə olmalıdır;**
- **mənimsəmənin yuxarı və aşağı həddi dövlət**

**standartı şəklində (qanunla) müəyyən olunmalıdır.**

Qiymətləndirmədən danışarkən çağdaş dövrümüzdə ali məktəb sistemində geniş tətbiq olunan “kredit “ sistemindən yan keçmək mümkün deyildir. Bu sistem sadədir, mütərəqqidir və tələbənin potensialının açılmasına və reallaşmasına kömək edir.

Dünyanın bir çox qabaqcıl ölkələrində, xüsusilə ABŞ və Qərbin universitetlərində təhsil prosesində keyfiyyətə nəzarət “kredit sistemi“ vasitəsi ilə həyata keçirilir. Bu sistem bizim ölkəmizdə «Xəzər» və «Qafqaz» universitetlərində tətbiq edilir.

Kredit sisteminin mahiyyəti bundan ibarətdir ki, hər bir fənn xüsusi çəkisinə və həcminə uyğun “kreditlə“ qiymətləndirilir. Universitetlərdə tədris olunan əksər fənlər təqribən 3 kreditlə dəyərləndirilir. Ancaq bəzi fənlər 1,5 -4 kreditlik də ola bilər.

Kredit sisteminin üstünlüyü ondadır ki, tələbələr hər semestrdə müxtəlif saylı fənləri seçib öyrənə bilərlər. Əgər tələbə semestrin sonunda hər hansı bir fəndən müvafiq qiymət ala bilmirsə, o, həmin fəndən kredit almır və növbəti semestrdə yenidən həmin fənni öyrənməlidir.

Misal üçün, Xəzər Universitetində bakalavr dərəcəsi (4 il) almaq üçün seçilən ixtisasdan asılı olaraq, təxminən 32-46 fənn üzrə tədris planını ödəməklə 128-140 kredit toplamaq tələb olunur. (Məsələn, mühəndislik üçün 128, hüquqşunaslıq üçün 138 kredit və s.) Bu universitetdə 100 ballı qiymətləndirmə şkalası tətbiq olunur və bakalavr pilləsində 60 bal keçid bal hesab olunur. 60 baldan aşağı ballar üçün kredit verilmir, minimum orta qiymət isə 70 baldir. Diqqət yetirməyə dəyər ki, 60 bal həddi zəruridir, ancaq kafi deyildir. Bəzi fənlərdən 80 və yuxarı bal toplamaq lazımdır ki, orta qiymət 70 baldan çox olsun.

Magistratura pilləsində isə keçid balı 65, minimum orta qiymət 75 müəyyənləşdirilmişdir. Doktoranturada bu rəqəmlər bir az da sağ tərəfə sürüşür. Bu xüsusiyyətlər bu sistemin mütərəqqiliyindən xəbər verir.

Kredit sistemi xeyli mütərəqqi sistem olmaqla, subyektiv qüsurları da aradan çıxartmağa imkan verir.

Beləliklə, təhsil prosesinin keyfiyyətinə qiymət şkalaları ilə nəzarət sağlam düşüncə əsasında qurulmalıdır. Bu sahədə problemlər var. Klassik qiymətləndirmə prosesində müəllim prosesin tam subyekti, təhsi alan isə tam obyektidir. Bu inzibatçı metodun demokratikləşməsinə ehtiyac duyulur. Təhsilalanları bu prosesin tərəfdaşına çevirmək lazımdır.

**Təhsil** on min il tarix ərzində təkamül yolu ilə inkişaf edərək bugünkü səviyyəyə gəlib çatmışdır. Bu səbəbdən də təhsil sistemində köklü dəyişiklik etmək mümkün olmayan bir işdir. İstənilən koordinal dəyişilik, gərəksiz sistem və nəzəriyyələrin tətbiqi sistemin dağılması ilə nəticələnə bilər. Odur ki, təhsil sisteminin, hər-hansı bir hissəsində təkmilləşdirmə aparmaq olar. Əsas odur ki, bu zaman irəliyə baxmaqla bərabər, tarixi dəyərlər qorunyb saxlanılsın.

Təhsil sistemində yenilik etmək çox çətin, səhv etmək çox asandır. Səhv etməmək üçün N.Çaadayevin bu kəlamını daim yadda saxlamağa dəyər: **«Allaha şükürlər olsun ki, öz ölkəmin rifahı naminə gərəksiz sistem və nəzəriyyələri qəbul etmədim».**

**İmtahanlar.** Təhsilin keyfiyyətinə təsir edən vacib amillərdən biri də təhsilə nəzarətdir. Təhsilə nəzarət prosesində imtahan vacib yer tutur. Bizim təhsil sistemimizdə bir-birindən fərqlənən 4 növ imtahandan istifadə edilir: keçid, buraxılış, test və dövlət imtahanları.

İmtahanlar arasında bəziləri xüsusi əhəmiyyət kəsb edir. Bu imtahanlar orta məktəbi bitirəndə, ali məktəbə qəbul zamanı və ali məktəbi bitirəndə götürülür. Bu səbəbdən də buraxılış imtahanlarının məsuliyyəti digər imtahanlardan daha çox olmalıdır. Çünki bu imtahanların hər birinin nətciəsində təhsilalanlara dövlət tərəfindən müvafiq dövlət sənədi: attestat, tələbə bileti və diplom verilir. Bu sənədlər dövlət tərəfindən verildiyindən dövlət orqanları və təşkilatları tərəfindən

qorunmalıdır. Saxta sənəd verən təhsil işçiləri qanunla müəyyənləşən məsuliyyət daşımalıdır.

Gənclərin həyatında həlledici hadisə kimi dərin iz buraxan orta məktəbin buraxılış imtahanlarıdır. Bu imtahanlarla gəncin 11 illik bilik səviyyəsi qiymətləndirilir. Bu imtahanların məxsusi cəhəti ondan ibarətdir ki, bu imtahanı keçən şagirdlərə dövlət sənədi sayılan «**Attestat**» verilir. Orta məktəbi əla qiymətlə bitirənlər əvvəllər "qızıl"" və ya "gümüş"" medallar alardılar. Təhsilin liberallaşması bu praktikanı yenidən gündəmə çıxarır. Gənclərin 11 illik bilik marafonunda çempionları müəyyən etməmək və mükafatlandırmamaq, qiymətləndirməmək düzgün deyil.

**Keçid imtahanları.** Təhsil prosesində keyfiyyəti yüksəltməyin ən asan və ədalətli yolu, kafi biliyi olmayan təhsilalanı təhsilin yuxarı pilləsinə buraxmamaqdır. Təhsil sistemində keçid imtahanları ədalətlə və ciddi aparılmalıdır. Dördüncü sinif səviyyəsində biliyi olmayanı beşinci sinifə, səkkizinci sinif səviyyəsində biliyi olmayanı doqquzuncu sinifə, 11-ci sinif səviyyəsində biliyi olmayanı ali məktəbə, birinci kurs səviyyəsində biliyi olmayanı ikinci kursa və bunun kimi buraxılmamalıdır. Belə olan halda təhsil sistemi bir çox xəstəlikdən azad olar. İmtahanlar da məhz bu məqsədlə aparılır.

Sovetlər dönəminin son on illiklərində təhsilə nəzarət get-gedə zəifləyirdi. Daha doğrusu, getdikcə təhsilə münasibət də dəyişdi. Təhsil müəssisələri gəncləri təhsilləndirən yox, bir çox işbazların şəxsi mənafelərini təmin edən müəssisəyə çevrilirdi. Orta məktəblərdə imtahanlar normal yox, formal keçirilirdi. Qiymətləndirmə obyektiv aparılmırdı. Sinifdəqalma praktikası tətbiq edilmirdi. Birinci sinfə qəbul olunanların (ölüm-itim halları istisna olmaqla) hamısı orta məktəbi qurtarıb kamal attestatı alırdı. Attestat qiymətləri şişirdilirdi. Məzunlar dövlət sənədi olan **«attestatdakı»** qiymətlərə uyğun bilik nümayiş etdirə bilmirdilər. Bəzən attestatların satılması halları da müşahidə olunurdu. Siyasət naminə belə cinayət hallarının üstü tez ört-basdır edilirdi.

Pedaqoji qurumlar fəaliyyətsizlik göstərirdi. Attestat dövlətin yox, məsuliyyətsiz bir məktəb direktorunun sənədinə çevrilirdi.

Təhsil naziri cənab M. Mərdanov çıxışlarının birində ali təhsilin imtahan-semestr proseslərində anormallıq olduğunu etiraf etmişdir. O, deyir: *"...təəccüb doğuran odur ki, yanvarda imtahanlarda dərslərə davamiyyəti yaxşı olanlar aşağı qiymət alırlar. Dərsə getməyən uşaqlar isə yüksək qiymət alır".* ("Yeni Azərbaycan" qəzeti, 05.11.2002, №209). Bu anormallığın səbəbini axtarmaq, araşdırmaq, qüsurları aradan qaldırmaq təhsilin vacib problemlərindəndir. İlk baxışda bu qüsuru ali məktəb müəllimlərinin ayağına yazmaq olar. Yəni müəllimlər gəlməyənlərə müəyyən səbəblərdən yüksək qiymət verirlərsə, bu, ali məktəb rəhbərliyinin, nazirliyin fəaliyyətinə gölgə salır. Belə müəllimlər ya düz yola dəvət olunmalıdır, ya da ali məktəbdən uzaqlaşdırılmalıdırlar.

**Dövlət imtahanları.** Təhsil sistemində aparılan imtahanlar arasında orta və ali məktəbi bitirərkən aparılan imtahanlar xüsusi əhəmiyyət kəsb edirlər. Çünki bu imtahanların nəticəsi olaraq gəncə attestat və mütəxəssis diplomu verilir. Ali məktəbi bitirərkən tələbənin verdiyi imtahan dövlət imtahanı adlanır və yüksək statusa malikdir. «Dövlət» sözü «imtahan»" sözünün qarşısına ona görə yazılır ki, dövlət imtahan komissiyasının üzvləri və dövlət nümayəndəsi tərəfindən dövlətin mənafeyi qorunsun, tələbənin biliyi və dövlətin xərclədiyi pulun biliyə necə çevrildiyi qiymətləndirilsin.

Keçid dövründə bu sahədə də dolaşıqlıq və məntiqsizlik yaranıbdır. Misal üçün, BDU-nun fizika fakultəsinin Dövlət imtahanları siyahısında "Xarici dil»", "Elektrodinamika»", "Optika»" - 2-ci kursda, "Atom fizikası»", "Kvant mexanikası»" - 3-cü kursda aparılır. Aydındır ki, dövləti mənafe baxımından 2-ci və 3-cü kurslarda dövlət imtahanı götürməklə ixtisasçını səviyyəsini qiymətləndirmək olmaz, çünki 2-ci və 3-cü kurs təhsil prosesinin yarı yoludur. Hələ qarşıda dövlətin xərclənməyən

pulu, tələbənin keçmədiyi təhsil yolu durur. Deməli, dövlət imtahanı sonuncu kursun axırıncı imtahanları olmalıdır.

**Test imtahanları.** Sovetlər dönəmində ali məktəbə qəbul ətrafında ajiotaj baş verirdi. Ölkədə ali təhsil müəssisələrinin süpürgəçisindən tutmuş nazirə qədər hamı avqust ayında qəbulla məşğul olurdu. Qəbul bütün güc strukturlarının diqqət mərkəzində saxlanılırdı. Bu inzibati-partiya nəzarətindən də çoxlu qüsurlar törəyirdi.

Test imtahanlarının tətbiqi irəliyə doğru uğurlu və mütərəqqi addımdır. Test imtahanları milli mənafeyə uyğundur. Möhtərəm Prezidentimizin testlə bağlı fikri belədir: «**Apk rznçzbpzxz njgkxkpzs çjüç krçağaspaxl szçközüksez zs bkpknpk ozsöpzx apk rznçzbpzxz eaıkp tpşxpax. Tjüç hüşpş kpz afaxlpas krçağaspax, ehəhshxzr nk, zeapzçpkekx, ozsöpzxks kgzxküksezs zs bkpknpküksk üjgkb apk rznçzbpzxz qzbşp jekxpzx».**

Test ölkə miqyasında vahid ölçüdür, meyyardır. Atalar düz deyiblər: «Ölçüdən böyük səadət yoxdur. Ölçü harmoniyanın əsasıdır». Test cəmiyyətimizə harmoniya gətiribdir. Abituriyentləri biliyə görə sıraya düzür. Rayonları və məktəbləri tədris uğuruna görə sıraya düzür. Yaxşı müəllimi seçməyə imkan verir. Belə bir sistemdən imtina etmək, ölçüdən, meyardan imtina etməkdir. Şübhəsiz, test sistemi ciddi təkmilləşməlidir. Sovetlər zamanı qəbul imtahanlarının birindən iki alan ali məktəbə daxilolma şansını 100 faiz itirərdi. İndi bütün imtahanlardan “2“-dən də aşağı qiymət alanlar TQDK tərəfindən ali məktəblərə qəbul edilir. Belə gənclərin ali məktəbə daxil olması qəbul imtahanlarını aparmağın zərurətini heçə endirir. Bu problem ciddi problemdir və gələcəyimizi uçuruma aparır. Əminəm ki, ali məktəblərə tələbə qəbulu iki mərhələdə keçirilməsi məqsədəuyğundur. Tələbələrin ali təhsil ocaqlarına yerləşdirilməsi ilə Tələbə Qəbulu üzrə Dövlət Komissiyası məşğul olmasın. Bilik səviyyəsini test müəyyənləşdirəndən sonra abituriyentlərə azad seçim imkanı vermək lazımdır. Gəncin hansı

şəhərdə, hansı institutda, hansı fakültədə oxumasını özü seçməlidir. Onda çoxlu qüsurlardan qaça bilərik. Azərbaycan təhsil sistemində yaranan qüsurların əsas səbəbi TQDK-nın istifadə etdiyi 700 ballı şkalanın aşağı həddinin olmaması ilə bağlıdər. On ildir ki, bu qüsur təhsil sistemində özünə möhkəm yer tutubdur. Aşağı həddin olmaması, qəbul ətrafında gedən söz-söhbətin əsasıdır.

Testin bütün uğurlarına kölgə salan faktor onun bir gündə başlayıb qurtarmamasıdır, iki mərhələdə aparılmasıdır. Fəlsəfi kitablarda yazılır ki, fəaliyyətdə münasibət çox böyük əhəmiyyət kəsb edir. İnsan bədənini kəsən cərrah bıçağı insanı sağaltmaq , cani bıçağı insanı öldürmək niyyəti daşıyır.

Qeyd etmək lazımdır ki, test suallarının hazırlanma metodikası da mübahisəlidir. Yeri gəlmişkən qeyd edək ki, ekspertlərin və mütəxəssislərin fikrincə ilbəil test sualları sadələşdirilir. Bu isə təhsilin ümumi səviyyəsini ilbəil aşağı endirir.

Çağdaş dövrdə ali məktəblərin qəbul planı dünyada qəbul olunmuş qaydalara, standartlara uyğun yox, inzibati metodlarla doldurulur. Başqa sözlə, ali məktəblərə girməyə hüquqi-haqqı olmayanlar inzibati üsullarla ali məktəblərə qəbul edilir. Bu bir tərəfdən təhsil sisteminin mövcud qüsurunu ekranlayır, digər tərəfdən təhsil sisteminin tədricən deqradasiya etməsinə, çürüməsinə, çökməsinə səbəb olur. Çünki 100 balla da ali məktəbə qəbul olmaq mümkündür.

TQDK-nın keçirdiyi test imtahanlarının və orta məktəb buraxılış imtahanlarının nəticələri arasında böyük ziddiyyətlər vardır.

Ali məktəblərə qəbulun nə köhnə, nə də təzə qaydaları özünü doğrultmur. Buna görə bəşəri təcrübədən bəhrələnərək, həm də rüşvətə zərbə vurmaq naminə şagirdlər instituta qəbul olmamalıdırlar, **qeyd olunmalıdırlar**. Bu konseptual müddəa tələb edir ki, orta məktəblərdə gənclərə verilən attestatların sayı ilə institutlarda tələbə qəbulu yerlərinin sayı arasında uyğunluq

olmalıdır. Əgər orta məktəbin buraxılış imtahanı düzgün aparılarsa, onda bu uyğunluğu yaratmaq çətin olmazdı. Yeri gəlmişkən qeyd edək ki, 400 –dən aşağı bal toplayanların ali məktəblərə qəbul edilməsi orta məktəbin fəaliyyətinə ağır zərbələr vurur.

**Beyin axını.** Beləliklə, özəl universitetlərin elitar təhsil müəssisəsinə çevrilməyə şansı daha böyükdür. Dövlət bu şansın həyatda reallaşmasına kömək etməlidir. Ona öz təhsil sisteminin bir hissəsi kimi, özü də yaxşı bir hissəsi kimi baxmalıdır. Belə olan halda cəmiyyətimiz vətəndaş cəmiyyətinə daha tez çevrilə bilər, cəmiyyətimizdə demokratik ənənələr tez bərqərar olar.

## 15. Təhsilin strukturu

*“Bilik maddi sərvət deyil ki, onu hissələrə böləndə və ya bölünmüş hissələri birləş-dirəndə, ümumi dəyəri dəyişməz qalsın. O yerdə ki, hər kəs az bilir, o yerdə hamı az bilir. Çünki bilik bölünməzdir”.*

***J.Leopardi***

Yuxarıda qeyd edildiyi kimi təhsil əsas sosial institutdan biri olduğu üçün bütün dövlətlər bu sahəni xüsusi diqqət mərkəzində saxlamağa cəhd edir, onun inkişafına qayğı göstərir və onu zərərli kənar müdaxilədən qoruyurlar. Ancaq inkişaf etmiş ölkələrin təhsilə diqqəti əlahiddədir. Təhsil izah olunması çətin olan sehirli qüvvəyə malikdir. Bu sehrin açılmasını yüxarıda qeyd edildiyi kimi Amerika prezidentlərindən biri belə ifadə etmişdir: **“Amerika universitetləri qüvvətlidir, ona görə yox ki, Amerika varlıdır. Amerika varlıdır, ona görə ki, onun universitetləri qüvvətlidir“.** Bu kəlam universitet təhsilinə Amerika dövlətinin verdiyi qiymət və münasibəti bildirir.

“Dünya Bankı» və «Beynəlxalq İnkişaf və Yenidənqurma Bankı» tərəfindən əvvəlcə 2000-ci ildə Vaşinqtonda ingilis dilində nəşr olunmuş, sonra rus dilinə tərcümə edilmiş **«Obrazovanie v stranax s perexodnoy gkonomikoy: zadaçi i razvitiə»** kitabında Avropa və Mərkəzi Asiya dövlətlərində təhsilin vəziyyəti ilə bağlı dəyərli məlumatlar çoxdur. Kitabın 4-cü səhifəsində bu ölkələrdəki təhsil sisteminin strukturu haqqında verilmiş icmalda yazılır:

*“Avropa və Mərkəzi Asiya regionunun müxtəlif ölkələrində təhsil sisteminin quruluşu və təhsil səviyyəsinə uyğun olaraq təhsil alanların yaşı və siniflərin həddi (ili) müxtəlifdir. Son 10 il ərzində regionun bir çox ölkələrində təhsil sisteminin quruluşunun əsasən yenidən yaradılması zərurəti meydana gəlir*

*ki, ixtisas təhsilində bu dəyişikliklərin olunması xüsusilə vacib sayılır. Regionda təhsil sistemi quruluşunun əsas xarakterik cəhətlərini ümumiləşdirsək, onda region üzrə məktəbəqədər təhsilin (3 yaşa qədər uşaqlar üçün körpələr evini nəzərə almasaq) 3 yaşdan 5-6 yaşa və ya 7 yaşa qədər əhatə etdiyini görərik. Məktəbəqədər təhsili 7 yaşlı uşaqlardan ibarət olan ölkələrdə məktəbəqədər 7 yaşlı uşaqlar üçün tədris proqramı bir qayda olaraq, digər ölkələrin ilkin (ibtidai) məktəblərinin birinci sinif proqramına yaxınlaşdırılıb. İlkin (ibtidai) təhsil 6-7 yaşdan 10 yaşa kimi uşaqları və buna uyğun olaraq 1-ci - 4/5-ci sinifləri əhatə edir. Orta məktəbin aşağı pilləsini 5/6-cı sinifdən 8/9-cu siniflərə qədər və uyğun olaraq 10 yaşdan 14 yaşa qədər və 11 yaşdan 15 yaşa qədər olan uşaqlar təşkil edir.* ***Baza*** *təhsili dedikdə, ilkin təhsil və orta məktəbin aşağı pilləsi başa düşülür. Səkkiz-doqquz tədris ilindən sonra təhsilalanlar 3 mümkün tədris proqramlarından birini seçirlər:*

*(1) orta məktəbi bitirdikdən sonra ali təhsil müəssisələrinə daxil olmağa imkan verən (hüquq verən) 2-4 illik ümumtəhsil tədris proqramını;*

*(2) 3-4 illik texniki/peşə təhsili proqramı, peşə (sənət) tədrisi ilə tam orta təhsil birgə verilir və məzunlara ali təhsil müəssisələrinə daxil olmağa imkan yaradır (hüquq verir);*

*(3) 1-2 illik peşə tədris proqramı peşə (sənət) öyrətməyi nəzərdə tutur, lakin ali məktəblərdə təhsili davam etdirməyə imkan vermir (hüquq vermir).*

*Ali təhsilin təşkil edilməsi tamamilə müxtəlifdir və universitet təhsili və ya ali texniki təhsil almaq imkanlarını nəzərdə tutur.*

*Yaşlıların təhsili və peşə hazırlığı əmək qabiliyyətli insanlara yönəldilmişdir (istiqamətləndirilmişdir)».*

Təhsilin strukturu, demək olar ki, bütün dövlətlərdə təqribən eynidir. Təhsil Təsnifatının Beynəlxalq Standartına **(International Standart Classificator of Education-**İSCED) görə təhsil 3 pilləli struktura malikdir:

1) ilk təhsil;

2) orta təhsil;

3) ali təhsil.

Bu pillələrin bəziləri çoxsəviyyəlidir.

Son zamanlar dördüncü pillə hesab edilən bir sektor da yaranır. Burada ömürboyu öyrənmək LLL (lifelonq learninq), hamı üçün təhsil EFA (Education for All), yaşlılar üçün təhsillə AE (Adult Education) bağlı problemlər diqqət mərkəzinə çəkilir. İnkişaf etmiş Avropa ölkələri bu sektora xüsusi əhəmiyyət verirlər. YUNESKO və Almaniya xalq universitetləri birliyinin Beynəlxalq Əməkdaşlıq üzrə İnstitutu (İİQ DVV) bu sektora çox diqqət və qayğı göstərirlər.

Strukturanın əhəmiyyəti böyükdür. Yaddan çıxarmaq lazım deyil ki, struktura xassəni təyin edən faktordur. Misal üçün, almaz, qrafit və kömür eyni karbon atomlarından təşkil olunublar, ancaq atomların düzülüşü müxtəlifdir. Belə ki, karbon atomları almaz kimi strukturlaşanda çox qiymətli materiala, kömür kimi kristallaşanda çox ucuz materiala çevrilir. Deməli, təhsil sisteminin strukturu elə qurulmalıdır ki, dövlətin təhsilə ayırdığı vəsait və təhsilalanların enerjisi, gündəlik vaxtı dövlət proqramlarında əks olunmuş biliklərə çevrilə bilsin və gənclərimiz vətənimizin qiymətli övladları kimi yetişsinlər. Təhsil sisteminin strukturu elə qurulmalıdır ki, təhsilin məzmununu təşkil edən həm birinci (milli), həm də ikinci (elmi) blok fənlər öyrəncilər tərəfindən asan mənimsənilsinlər.

İlkin təhsil başlanğıc təhsildir. İlkin təhsil heç də ibtidai deyil. Orta təhsil ona görə orta təhsil adlanır ki, o ilkin təhsillə ali təhsilin arasındadır. Ali təhsil ona görə ali adlanır ki, bu pillədən sonra təhsil prosesi bitir. Bu pillələrin reallaşması zamana görə müxtəlifdir. Belə ki, orta təhsil Azərbaycanda 4+5+2, Yaponiyada 6+3+3, ABŞ-da 6+3+3, Gürcüstanda 6+3+3, Türkiyədə 8+3/4 struktura malikdir. Ali təhsil isə bütün dünyada təqribən 4+2 formulası əsasında qurulubdur. Səhifə 137-141-də bir neçə dövlət üçün təhsil sisteminin strukturu göstərilmişdir.

Milli təhsil sisteminin qarşısında duran məqsədlərə nail olmaq üçün ya münasib quruluş seçilməli, ya da təhsilin köhnə strukturunu saxlamaqla onu yeni məzmunla zənginləşdirmək lazımdır. Burada nə strateji, nə də taktiki səhv yolverilməzdir.

Müxtəlif strukturlu təhsil sistemlərinin bəşəri nailiyyətləri müxtəlifdir. Bu sahədə Şərq təhsil sisteminin geriliyi göz qabağındadır. Belə ki, yuxarıda dəfələrlə qeyd edildiyi kimi fiziki və əqli gücümüzü qat-qat artıran ***motor*** və ***kompüter*** Qərbdə icad edilibdir. XX əsrdə Fizika sahəsində 160 nəfərdən çox alim Nobel mükafatı alıbdır. Bunlardan ancaq biri - Adil Salam müsəlmandır. Nəzərə alsaq ki, dünya əhalisinin üçdən biri müsəlmandır, onda bu say 50 nəfərdən çox olmalı idi. Kəsir göz qabağındadır. Bu qüsur müsəlman əhlinin düşüncə tərzindən və müsəlman dövlətlərinin təhsilə münasibətindən törəyən qüsurudur. Allah tərəfindən 50 nəfərdən çox Şərqli müsəlman əhlinə verilmiş intellektual potensialın açılmasına vaxtında, zamanında şərait yaradılmayıb, tədbir görülməyibdir. Dövrün, zamanın çağırışına vaxtında reaksiyamız olmayıbdır. Müasir tələblərə cavab verən universitetləri və təhsil sistemi olmayan ölkə elm sahəsində bəşəri uğur qazana bilməzdi.

Günəş Şərqdən çıxmasına baxmayaraq, uğurların gözqamaşdırıcı mənbələri niyə Qərbdədir? – sualına düzgün cavab tapmalıyıq ki, geriliyimizə son qoya bilək.

"Şərq-Qərb"" məsələsinə toxunduğuma görə "Sony"" firmasının sahibinin "**Dialoq Avrasiə**"" dərgisinin 2001-ci il tarixli 5-ci sayında çap edilmiş bir fikrini də dəyərli oxucuların nəzərinə çatdırmaq istəyirəm: *"Qərb insanları kərpic kimidir, biri digərini əvəz edə bilir. Şərqdə isə hər kəs çox fərqlidir. Şərq adamı ilə işləmək divar çəkmək kimidir. Daşları bir-birinə uyğun seçməlisən".* Buradan çıxaracağımız nəticə bundan ibarətdir ki, orta məktəblərimiz şagirdlərimizi **"sənaye üsulu"** ilə hazırlamalıdır. Sənayedə hər məhsul standarta uyğun istehsal edilir. Standart pozulanda məhsul zay hesab edilir. Məşhur rus

alimi Kapitsanın "təhsil gələcəyə yönəlmiş sənaye şəhəridir"" fikri indi çox böyük əhəmiyyət kəsb edir. İmkan verməməliyik ki, məktəblərimiz kustar emalatxanalara çevrilsin.

Orta məktəblərimiz şagirdlərimizə fənn proqramlarını 80-100%, yəni 4 ilə 5 qiymət arasında (və ya 560 ilə 700 bal intervalında) bilik verməyi bacarmalıdır. Şagirdlər proqram materiallarını təqribən eyni dərəcədə mənimsəməlidirlər. Mənimsəyə bilməyənlər (standarta uyğun gəlməyənlər) yuxarı sinfə buraxılmamalı, sinifdə qalmalıdırlar. Belə olan halda orta məktəb şagirdləri bilik səviyyəsinə görə **eyniləşdirər** və təqribən kərpiclər kimi bir-birinə bənzər edər.

Orta təhsil sahəsində "ÇAĞ" Öyrətim İşlətmələri şirkətinin ölkəmizdə olan məktəbləri bizim üçün örnək ola bilər. İndoneziyada 2002-ci ilin 22-30 iyul tarixində keçirilən **33-cü Beynəlxalq Fizika Olimpiadasında** şagirdlərimiz əfsanəvi uğur qazanmışlar. Belə ki, Azərbaycan Respublikasının komandasını təşkil edən 4 şagirddən 3-ü qızıl, biri isə gümüş medal qazanaraq, 69 ölkə arasında (İran və Çindən sonra) dünyada üçüncü yerə çıxmışlar. Cəmiyyətimizin bu şagirdlərimizi tanımasına, alqışlamasına ehtiyac vardır.

"ÇAĞ" Öyrətim İşlətmələri şirkətinin Quba Özəl Türk Liseyinin şagirdləri - **Tural Bədirxanov** (XI sinif), **Aqşin Heybətov** (X sinif) və Dədə-Qorqud Özəl Türk Liseyinin şagirdi **Zöhrab Niftəliyev** I yerləri tutaraq **qızıl medallar** qazanmışlar. Quba Özəl Türk Liseyinin IX sinif şagirdi **Emil Nurməmmədov** isə II yeri tutaraq **gümüş medala** layiq görülmüşdür. Mən bu şagirdləri təbrik edirəm. Onları xalqımızın layiqli övladları və gələcəyimizin təminatçıları sayıram.

Quba Özəl Türk Liseyinin müəllimi Mülkmir İsmayılovu, İbrahim Şeralı, Dədə-Qorqud Özəl Türk Liseyinin müəllimi Ayxan Yamanı və Erdal Körkməzi təbrik edir, onlara bu dəyərli işlərində yeni-yeni uğurlar diləyirəm.

Bu faktın özü sübut edir ki, yeni tip ümumi orta təhsil müəssisələrinə ehtiyac böyükdür. «ÇAĞ"» Öyrətim İşlətmələri

şirkətinin məktəbləri gənclərimizin intellektual **potensialını və vaxt potensialını** biliyə uğurla çevirə bilirlər. Bu təcrübəni öyrənmək və tətbiq etməklə təhsildə keyfiyyəti xeyli yüksəltmək olardı.

Azərbaycan Prezidenti cənab Heydər Əliyev bu liseylərin fəaliyyətini yüksək qiymətləndirmişdi: **“Bu uğurlar çox sevindiricidir. Mən bilirəm ki, bu liseylər “ÇAĞ” Öyrətim İşlətmələri şirkətinə aiddir. Mən onların işindən çox məmnunam, o liseylərdə şagirdlərə çox gözəl təhsil verirlər, ona görə də oranın tələbələri dünyanın bir çox yerlərində böyük müsabiqələrdə qalib olurlar, medallar qazanırlar. Bu liseylərin fəaliyyəti Azərbaycanda təhsilin səviyyəsinin yüksəlməsinə xeyli kömək edir. Biz bu liseylərin işini nümunə kimi göstəririk. O biri məktəblər bu liseylərin fəaliyyətindən öyrənirlər. Mən bütün bunlara görə lisey rəhbərliyinə öz təşəkkürümü bildirirəm”.** (Zaman” qəzeti, 15.10.02)

Cənab prezident orta təhsillə bağlı öz istəyini bu fikirdə söyləmişdir. Mütərəqqi təcrübəni öyrənmək lazımdır. Belə təcrübəni öyrənmək üçün uzağa getmək lazım deyildir. Belə məktədlər Azərbaycanda fəaliyyət göstərir. Yeri gəlmişkən, qeyd edək ki, bu məktəblər dövlətdən maliyyələşmirlər. Bu məktəblərin məxsusi cəhəti bundan ibarətdir ki, onları Türkiyə və Azərbaycan cəmiyyətləri maliyyələşdirir. Bu baxımdan bu məktəblər Azərbaycan və Türkiyə cəmiyyətləri arasında bir körpüdür.

## АЗЯРБАЙЪАН РЕСПУБЛИКАСЫНЫН ТЯЩСИЛ СИСТЕМИ



Rusiya Federasiyasının Təhsil Sistemi




A-Attestat D-Diploma

Gürcüstan Respublikasının Təhsil Sistemi



## Türkiya Respublikasının Tahsil Sistemi



Bu paraqrafda verilmiş müxtəlif dövlətlərin təhsil sistemlərinin strukturlarını şərh etməyə ehtiyac yoxdur. Ancaq türk təhsil sisteminə inteqrasiyamızı nəzərə alaraq bu təhsil sistemi barədə verilən sxemlə əlaqədar «ÇAĞ» Öyrətim İşlətmələri Şirkətinin əməkdaşı Veysəl Seyfinin verdiyi şərhi olduğu kimi oxucuların nəzərinə çatdırırıq:

**1. Uşaq bağçası**-xüsusi icazə ilə müstəqil məktəb və ya orta məktəbin tərkibində sinif kimi yaradılmış və icbari olmayan təhsil müəssisəsidir.

**2. İbtidai sinif (1-8 sinif)**- dövlət və özəl məktəblər tərəfindən verilən 8 illik icbari təhsil müəssisəsidir. 8-ci sinfi bitirənlərə diplom verilir.

**3. Orta məktəblər:**

**3.1. Təbiət fənləri təmayüllü lisey**- İbtidai sinif məzunları imtahan verməklə qəbul olunurlar və bir il ingilis dili üzrə hazırlıq keçməklə, 4 illik icbari olmayan təhsil müəssisəsidir. Bu liseyləri bitirənlərə orta məktəb diplomu verilir.

**3.2. Normal orta məktəb** – ibtidai sinif məzunlarının imtahansız başlaya biləcəyi 3 illik icbari olmayan təhsil müəssisəsidir. Bu məktəbi bitirnlərə orta məktəb diplomu verilir.

**3.3. İngilis dilli təmayüllü Anadolu liseyi** – ibtidai sinif məzunları imtahan verməklə qəbul olunurlar və bir il ingilis dili üzrə hazırlıq keçməklə, 4 illik icbari olmayan təhsil müəssisəsidir. Bu liseyləri bitirənlərə orta məktəb diplomu verilir.

**3.4. Peşə liseyləri (ilahiyyət, səhiyyə, sənaye, ticarət, pedaqoji və s.)** - ibtidai sinif məzunlarının imtahanla başladığı və təmayüllü, icbari olmayan 3 illik təhsil müəssisəsidir. Bu liseyləri bitirənlərə orta məktəb diplomu verilir. Sənaye təmayüllü liseyi bitirənlərə **"texnikor"** adı verilir.

**3.5. Super lisey** – ibtidai sinif məzunlarının diplomundakı orta balın yüksəkliyinə görə başlaya biləcəyi və bir illik ingilis dili üzrə hazırlıq keçməklə, 4 illik icbari olmayan təhsil müəssisəsidir. Bu liseyləri bitirənlərə orta məktəb diplomu verilir.

**4. Ali məktəblər:**

**4.1. Texnikumlar** – orta məktəb məzunlarının imtahanla başlaya biləcəyi iki illik təhsil müəssisələridir. Texnikumu bitirənlərə natamam ali təhsil diplomu verilir. Sənaye təmayüllü texnikumları bitirənlərə **“texniksiyən”** adı verilir.

**4.2. Bakalavr** – orta məktəb məzunlarının imtahanla başlaya biləcəyi 4-6 illik təhsildir. Bəzi universitetlərdə başlanğıcda bir illik ingilis dili tədris olunur. Məzunlara ali təhsil diplomu verilir.

**4.2.1. Magistratura** – bakalavriaturanı bitirənlərin imtahanla başlaya biləcəyi 2 illik təhsildir. Məzunlara magistr diplomu verilir.

**4.2.2. Doktorantura** – magistratura məzunlarının imtahanla başlaya biləcəyi 3 illik təhsildir.

**4.2.3. Dosent** – doktorantura məzunlarının başlaya biləcəyi və elmi məqalələri, dosentlik imtahanı olan təhsildir.

**4.2.4. Professor** – dosent məzunu olmaqla, elmi məqalələri və kitablar müəllifi olan və təhsil sahəsində işləyənlərə verilən ən yüksək elmi addır.

**4.3. Hərbi Akademiya** – orta məktəb məzunlarının xüsusi imtahanla başlaya biləcəyi hərbi təmayüllü 4 illik təhsil müəssisəsidir.

**4.3.1. Polis Akademiyası** – orta məktəb məzunlarının xüsusi imtahanla başlaya biləcəyi 4 illik təhsil müəssisəsidir.

Bu izahat türk təhsil sistemi haqqında yetərincə məlumat verir. Qeyd etmək lazımdır ki, bu təhsil strukturu kifayət qədər mükəmməldir və təhsildə yüksək keyfiyyəti əldə etməyə imkan verir.

## 15.1 İlkin məktəb

> **«Hzx bkx ksüas hghs ğzmaç asaeas etdşpeşdş ohsezs baəpamlxüa, ksüasls əhşxpş ğzmaçl, tsşs ozpz- özmk, tsşs özrkmmzçez uyhsz mjx çşçraül rznçzbezs baəpamlx».**
>
> ***Heydər Əliyev***

İlkin təhsildən öncə məktəb yaşına çatmayan uşaqların təhsili (İSCED -də səviyyə "0"") ilə məktəbəqədər təhsil müəssisələri (uşaq bağçaları, körpələr evi) məşğul olurlar. İlkin təhsil ilk məktəblərdə verilir. Bu məktəblərə ruslar "naçalğnaə şkola", ingilislər "primary school"" deyirlər. İlkin məktəb müstəqil fəaliyyət göstərə bilər. İlkin təhsil (İSCED -də səviyyə 1) ya ilk təhsil məktəblərində və ya məktəbəqədər təhsil müəssisələrinin bazasında uşaqların elementar bilikləri (oxumağı, yazmanı, hesablamanı) və bəzi sadə əşyaların, hadisələrin öyrənilməsini təmin edir. Dünya dövlətlərinin əksəriyyətində ilkin təhsil pulsuz və icbaridir. Bizdə də ilkin təhsil pulsuz və icbaridir. Bəşəri təcrübədə diqqət çəkən məqam bundan ibarətdir ki, **ilkin təhsilin** müddəti bir çox qabaqcıl ölkələrdə 6 ildir.

İlkin məktəbin saxlanılmasına sərf olunan maliyyə vəsaitinin Respublika Statistik Məlumat kitabçalarında olmaması təəssüf doğurur. Diqqətli oxucularımız əgər fikir veriblərsə, cədvəl 13.1-də bu qrafa məlumatsızlıq səbəbindən boş qalmışdır.

Azərbaycanda yeni fəaliyyətə başlamış şəhər və rayon bələdiyyələri ilkin təhsil məktəblərinə əlavə qayğı göstərərək, təhsilin səviyyəsini xeyli yüksəldə bilərlər.

Heydər Əliyevin kəlamı ilə başlayan bu yarım paraqrafı Sokratın bir kəlamı ilə bitirmək istəyirəm:

**«Yunanlıları yunanlı edən yunanlı olaraq doğuluşu deyil, gördüyü təhsil və tərbiyədir».**

## 15.2. İntellekt əmsalı: İQ

*«Azərbaycan xalqı öz köklərinə görə zehni inkşaf etmiş xalqdır. Biliyə, inkşafa həmişə diqqət vermiş və bu yol ilə getmiş xalqdır».*

**Heydər Əliyev**

İnkişaf etmiş ölkələrdə uşaqların, gənclərin həm fiziki, həm də zehni inkişafı diqqətdə saxlanılır. Fiziki inkişafı izləmək üçün metr və tərəzi kifayət edir. İntellektual inkişafı «Ay-kü» (İQ) əmsalı vasitəsi ilə izləmək mümkündür.

Adətən İQ əmsalını təyin etmək üçün **"ağıl yaşı"** deyilən anlayışdan istifadə edilir. "Ağıl yaşı"" intellektual qabiliyyətdən asılı olaraq xronoloji yaşa bərabər, ondan çox və az da ola bilir. Bu yaşların nisbətinin 100-ə hasili İQ əmsalını verir. Əgər ağıl yaşı xronoloji yaşa bərabərdirsə, İQ =100 olar. Əgər ağıl yaşı xronoloji yaşdan çoxdursa, onda İQ > 100, əgər azdırsa, İQ < 100 olar.

Məlumat üçün bildirim ki, yəhudi və çinli gəncləri üçün İQ əmsalı 100-dən xeyli çoxdur. 2002-ci il abituriyentlərin (azərbaycan bölməsi) test imtahanlarının nəticələrinə görə orta balı Me =158 olmuşdur. Bu göstərici aşağıdakı fikirləri söyləməyə əsas verir:

a) ya bizim təhsil maşınımız yaxşıdır, uşaqlarımızın intellekt əmsalı - İQ çox aşağıdır;

b) ya da bizim intellekt əmsalımız - İQ yüksəkdir, təhsil maşınımız düz işləmir, faydalı iş əmsalı çox aşağıdır.. Üçüncü fikir söyləmək çətindir.

Əgər xalqımızı cənab prezidentin yuxarıda dediyi kimi «zehni inkişaf etmiş» xalq hesab etsək (Ü.Hacıbəyovu, M.Ə.Sabiri, C.Cabbarlısı, S.Vurğunu, H.Cavidi və digər dahiləri olan xalq, şübhəsiz belələrindəndir), onda günah təhsil maşınında,

təhsil sistemindədir. Bu nəticəni Anadolu Türk Liseyinin 2002-ci il göstəricisi (Me =480) də təsdiq edir.

Prezident Heydər Əliyevin digər bir kəlamında deyilir:

**“Xalqımız, millətimiz genetik xüsusiyyətlərinə görə fiziki cəhətdən sağlam insanlardan ibarət olan xalqdır, millətdir. Fiziki sağlamlıq və fiziki güc, mənəvi sağlamlıqla bərabər Azərbaycan xalqına, millətinə xas olan xüsusiyyətdir. Xalqımızda istedadlar potensialı böyükdür**”””“.

Çünki yuxarıda göstərildiyi kimi bütün normal xalqların gənclərinin 15%-i talantlı insanlardır. Böyük məsuliyyətlə qeyd etmək olar ki, bizim xalq da belələrindəndir. Hər 100 min məzunun 15 000-ni talantlı, 3 000-ni isə çox talantlıdır. Çox təəssüf ki, orta məktəblər nəinki 15 000 talantlı gəncləri, heç 3000 nəfər çox talantlı gənclərin potensialının açılmasına imkan yaratmır. Yaxşı ki, hər il bu gənclərin bir qisminə (ildə təqribən 600 nəfər) yüksək təhsil vermək məsuliyyətini «ÇAĞ» Öyrətim Şirkəti öz üzərinə götürübdür. 2400 nəfər talantlı gənc yüksək təhsildən kənarda qalır, potensialı açılmaz qalır. Konstitusion normanı - dövlətin talantlı şəxslərlə bağlı üzərinə götürdüyü öhtəliyi təmin edə bilmir. Bu haqda ciddi düşünmək lazımdır. Bu sosioloji nəticə və test imtahanlarının nəticələri və millətimizin intellektual səviyyəsi haqqında yüksək fikirlər bir-birini tam inkar edir.

Heydər Əliyevin digər bir kəlamında deyilir: **«Xalqımızın fitri istedadı və XX əsrdə təhsil sahəsində toplanılmış təcrübə, yaranmış məktəblərin potensialı, yüksək təhsil vermək səviyyəsi Azərbaycanın indi orta məktəbdə təhsil alan gənc nəslinin gələcəyi hərtərəfli hazırlanmasına təminat verir. Ona görə də məktəb, müəllimlər Azərbaycanın gələcəyi üçün məsuliyyət daşıyır”.**

Biz bu fikirdən düzgün nəticə çıxarmalı, xalq qarşısında məsuliyyət daşıdığımızı dərk etməliyik. Əfqanstan, İraq ətrafında hadisələr göstərir ki, XXI əsr XX əsrdən amansız gəlir. Yaddan

çıxarmayaq ki, XX əsrdə itirdiyimiz torpağın sahəsi 28 000 kv. km –dan çoxdur.

## 15.3. Orta məktəb

*"İnsanlara orta təhsil verin. İstibdad və ruha-bədənə edilən zülm, sübh işığında cin kimi yox olacaqdır".*

***Tomas Cefferson***

Ümumi təhsilin strateji vəzifəsi hər bir təhsialanın həvəs, meyl, qabiliyyət və istedadının reallaşdırılmasını təmin etməkdən ibarətdir. Ona görə ki, hər bir kəs Allah tərəfindən ona həvalə edilmiş missiyanı – gələcək nəsillərin xoşbəxt yaşaması üçün insani borcu ləyaqətlə yerinə yetirməli və öz töhvəsini verməlidur. Hər bir fərd öz fiziki varlığı ilə gələcək nəsillərə problem yaratmamalıdır. Bunun üçün o keyfiyyətli təhsil sistemindən keçməlidir.

Orta məktəb pilləsi iki səviyyəlidir (İSCED -də 2 və 3-cü səviyyələr): baza (ümumi orta) və təmayüllü (tam orta) məktəblər-liseylər.

Azərbaycanda təqribən 4560 ümumi-təhsil məktəbi var. Onlardan 470-i ibtidai, 920-si baza, 3169-u isə orta məktəbdir. Prezidentin İcra Aparatının şöbə müdiri **Şahin Əliyevin** "Azərbaycan Respublikasının Konstitusiyasına elmi-praktik şərh"" kitabında (Bakı, 2000, səh. 163) qeyd olunur: *"Vətəndaşların konstitusiya borcu nöqteyi-nəzərindən hər kəs mütləq ümumi orta təhsil almalıdır və hal-hazırda bu, ümumtəhsil məktəbinin və ya ona bərabər başqa təhsil müəssisəsinin 9-cu sinifidir".* Azərbaycanın indiki reallığı üçün bu şərhin əksinə getmək düzgün deyildir. Tam orta məktəbin icbari olması ətrafında manipulyasiya keyfiyyəti xeyli aşağı salır.

Baza təhsili natamam orta təhsil olaraq İSCED -in ikinci pilləsinin alt səviyyəsidir və minimum 4 illik təhsili nəzərdə tutur. Orta təhsilin son pilləsi (İSCED -də səviyyə 3) tam orta və ya ixtisaslaşmış orta təhsili əhatə edir.

Keçmiş təhsil sistemimizin orta məktəb səviyyəsində uğurları çoxdur və bizə yaxşı məlumdur. Ona görə ki, özümüz bu sistemin içərisindən keçmişik. Bu təhsil sisteminin əsas vəzifəsi bütün gəncləri, kütləni icbari orta təhsilli etmək olmuşdur. Bununla bərabər, Sovet dövləti hər təhsil səviyyəsinə uyğun keyfiyyəti inzibati və partiya nəzarəti yolu ilə kifayət qədər qoruya bilirdi. İndi bu funksiyanı yerinə yetirən digər bir nəzarət orqanı olmadığından təhsildə keyfiyyət allah ümüdünə qalıbdır və səviyyə ilbəil aşağı düşür. İctimai nəzarət isə hələ formalaşmayıbdır.

Sovetlər zamanında siyasətə uyğun olaraq təhsilin **üfqi** istiqamətdə genişləndirilməsi, **şaquli** istiqamətdə təhsilin inkişafını qurban vermək hesabına baş verirdi. Çünki hər iki istiqamətdə təhsili lazımı səviyyədə saxlamağa dövlətin iqtisadi gücü çatmırdı.

Orta məktəblərin sayı artdıqca, məktəblərə mərkəzi nəzarət zəifləyirdi. Bunun nəticəsində keyfiyyət göstəriciləri aşağı düşürdü. Keyfiyyət aşağı düşdükcə **repetitorluq** institutu işə düşməyə başladı. 1960-cı illərin əvvəllərində universitet tələbəsi olarkən mənim bəzi tələbə dostlarım da zaman-zaman belə fəaliyyətlə məşğul olurdular. Repetitorluq institutunun işə düşməsi orta məktəbin verdiyi bilik səviyyəsinin, ali məktəbə qəbul olmaq üçün tələb olunan bilik səviyyəsindən xeyli aşağı olmasının nəticəsi idi. Bu fərqin olması ali məktəbə qəbul zamanı neqativ halların yaranmasına səbəb olurdu. Bu neqativ hallarla «mübarizə» qəbul imtahanları ətrafında ajiotaj yaranmasına səğəğ olurdu. Ali məktəbə qəbul prosesinə ictimai diqqət artırdı.

Dövlət bu sosial fenomenə vaxtında reaksiya vermədi. Nəticədə orta məktəblər zəiflədi, repetitorluq fəaliyyəti gücləndi. Leqal orta məktəb **”qeyri-leqal”** məktəblə, dövlət təhsili “gizli təhsillə’”“ paralel işləməyə başladı. Bu problem ölçülü-biçili həll tələb edir. İndi repetitorluq institutunu saxlamaq nə qədər qorxuludursa, bağlamaq da o qədər qorxuludur. Sonralar dövlət orta məktəbin verdiyi biliyin kafi olmadığı səbəbindən ali

məktəblərin nəzdində **hazırlıq fakültələri** açmağa məcbur oldu. Bu fakültələrin açılması dolayısı ilə məktəblərin verdiyi orta təhsildə keyfiyyətin olmamasının dövlət tərəfindən etirafı idi.

Dövlət əhalisinin savadlı olmasında maraqlıdır. Bu səbəbdən də Təhsil Nazirliyinin əsas funksiyası öz struktur və sisteminin köməkliyi ilə dövlətin təhsilə ayırdığı vəsaiti təhsilalanların biliyinə, bacarığına və vərdişinə, sonra isə onların vasitəsi ilə dövlətin maraqlarını qoruyaraq iqtisadiyyatı yüksəltmək qabiliyyətinə çevirməkdir. Dövlət təhsil nazirliyi kimi bir quruma, təhsili idarə edən orqanlara və 200 mindən çox müəllim ordusuna maaşı bu vəzifəni yerinə yetirmək üçün verir. Ancaq təəssüflə qeyd edək ki, pul biliyə pis çevrilir. Qurumun faydalı iş əmsalı çox aşağıdır.

Yuxarıda qeyd edildiyi kimi sovet təhsilinin qüsuru bundan ibarət idi ki, **keyfiyyət göstəriciləri kəmiyyət göstəricilərinə** qurban verilirdi. **Keyfiyyətə nəzarət** inzibati idarəçilik metodu ilə həyata keçirilirdi. Ancaq bu üsul da az kömək edirdi. Təhsil sisteminin baza prinsiplərindən olan keyfiyyətlilik, ədalətlilik, obyektivlik öz yerlərini yavaş-yavaş keyfiyyətsizliyə, ədalətsizliyə, qeyri-obyektivliyə, saxtakarlığa və məsuliyyətsizliyə vermişdir.

16.10.02. tarixdə BDU-da professor **Qəmbər Namazovun** 70 illik yubileyi qeyd edilirdi. Rektor prof. Abel Məhərrəmov keçmişi yada salaraq onların sinifindən 11 nəfərin orta məktəbi medalla bitirməsindən danışdı. Bir sinifdə, adətən 20-25 şagird olur. Hər 2-3 nəfərdən birinin medala layiq bilik ( 700 ballı qiymətləndirmə şkalasına görə 680-700 bal) nümayiş etdirmələri sevindirici haldır və belə yüksək səviyyəni təmin edən məktəblərimiz və müəllimlərimiz olubdur (Bu fakt təhsildə “sənaye üsulunun“ tətbiqinə bariz nümunədir). Bu səviyyəni keçmişdə biz fəth etmişik, onu bir də fəth etmək mümkündür.. Əslində, belə təhsil müəssisələri o zamanlar ölkəmizdə çox idi. Mənim təhsil aldığım orta məktəbdə də təhsilin səviyyəsi çox yüksək idi. 1956/57-ci tədris ilində Kəlbəcər qəsəbə orta

məktəbini, təqribən 20 məzunun 14-ü məktəbi medalla (2 qızıl, 12 gümüş) bitirmişdir. Onların biri də hamının yaxşı tanıdığı şair Məmməd Aslandır. O Məmməd Aslan ki, möhtərəm Prezidentimiz Heydər Əliyev onun əməyini, cəsarətini yüksək qiymətləndirərək, onu Şöhrət Ordeni ilə mükafatlandırmışdır. Bu gün mən direktorumuz Cəfər müəllimi, riyaziyyat müəllimimiz Qara Bəhməni və digər müəllimlərimizi minnətdarlıq hissi ilə xatırlayıram. Dünyasını dəyişənlərə Allahdan rəhmət, qalanlara isə can sağlığı diləyirəm.

Çağdaş dövürdə təhsildə vəziyyət ürəkaçan deyil. Milli Məclisin deputatı professor Şamil Qurbanovun mətbuatda getmiş və geniş ictimai rezonans doğurmuş bir fikiri diqqəti cəlb edir:

*"1995-ci ildə təhsil nazirliyində keçirilən kollegiyada dedim ki, burada bir yaxşı adamın yeri əksikdir. Şeyxülislamın. Təhsili öldürmüsünüz, indi fatihəsini vermək lazımdır. Gəlin onun fatihəsini də verək, çıxaq gedək evimizə".* ("Şərq" qəzeti, 11.09.02)

Bu əhvalat 1995-ci ildə olub. **Bəs təhsildə vəziyyət indi necədir?**

Son illərin təhsillə bağlı statistik məlumatlarını diqqətlə izləyərək yuxarıdakı suala cavab axtaraq.

"Abituriyent""" jurnalının 2000, 2001 və 2002-ci illərin 12-ci saylarından götürülmüş test imtahanlarının nəticələrinin bir qismi cədvəl 15.1-də müqayisəli şəkildə göstərilmişdir. Biliyin səviyyəsi 700 ballı şkala ilə qiymətləndirilmişdir.

Cədvəl 15.1-in ikinci sütununda müxtəlif bal intervalları, 3-5-ci sütunlarda müxtəlif illər üçün verilmiş bal intervalına uyğun bilik nümayiş etdirmiş abituriyentlərin mütləq sayı, 6-8-ci sütunlarda bu abituriyentlərin nisbi sayı və 9-11-ci sütunlarda isə verilmiş bilik səviyyəsinə uyğun bal toplamış abituriyentlərin nisbi saylarının cəmi göstərilmişdir.

Cədvəlin 6-cı sətrində göstərilir ki, 2000-ci ildə 80-100 intervalda bal toplamış abituriyentlərin sayı $\Delta N=5158$ nəfər olubdur. Bu, abituriyentlərin ümumi sayının (qeyd edək ki,

Azərbaycan bölməsi üzrə test imtahanlarında N=66028 nəfər abituriyent iştirak etmişdir) 7,81%-ni təşkil edir. Bu sətirlə 9-cu sütunun kəsişdiyi yerdə 39,48% göstərilmişdir. Bu faiz o deməkdir ki, 0-0, 0-20, 20-40, 40-60, 60-80 və 80-100 intervalında bal toplamış abituriyentlərin ümumi sayı, test imtahanlarında iştirak edənlərin sayının 39,48%-ni təşkil edir. 2001-ci il üçün bu rəqəm 27,54% təşkil edir. Bu isə o deməkdir ki, 72412 abituriyentdən 0-100 intervalda bal toplayanların nisbi sayı 27,54% olmuşdur.

Cədvəl 15.1-in 22-ci sətri ilə 9-cu stunun kəsişdiyi yerdə (2000-ci il) 94.74 rəqəmini oxuyuruq. Bu rəqəm o deməkdir ki, abituriyentlərin 94.74%-i 0-la 3 qiymət (0-420 bal) intervalında biliksizlik nümayiş etdiriblər. Deməli, 2000-ci ildə abituriyentlərin cəmi 100-94.74=**5,26%-i** üç qiymətindən yuxarı qiymət toplaya biliblər. Yəni beş ballı qiymətləndirmə sisteminə görə test imtahanlarında iştirak edən hər 1000 abituriyentdən ancaq 53-ü 3 qiymətindən (420 baldan) yuxarı qiymət toplayıb və ali məktəbə daxil olmaq şansı qazanıbdır. Nəzərə alsaq ki, test imtahanlarında orta məktəb məzunlarının hamısı yox, bir qismi iştirak edir, onda məzunların ali məktəbə qəbulolma faizinin nə qədər aşağı olduğunu hesablamaq çətin deyildir.

Cədvəl 15.1-ə görə 0-200 bal (yəni 5 ballı sistemdə 0 ilə 1,42 qiymət intervalında) bilik nümayiş etdirən abituriyentlərin nisbi sayı 2000-ci ildə 69,1%, 2001-ci ildə 55,5%, 2002-ci ildə 70,34% olmuşdur. **Göründüyü kimi 2002-ci ilin göstəricisi həm 2001-ci ilin, həm də 2000-ci ilin göstəricilərindən zəif olmuşdur.** Əgər nəzərə alsaq ki, test imtahanları ümumi orta təhsil üzrə yox, ixtisaslaşmış orta təhsil üzrə (qruplar üzrə) imtahan aparır, onda real orta təhsilin səviyyəsinin daha acınacıqlı olduğu qənaətinə gəlmək olar. Çünki çağdaş test imtahanları ixtisaslar üzrə aparılır və bu imtahanlarda özünə güvənən məzunlar iştirak edir. Yəni dəqiq elmləri yaxşı bilən abituriyentlər I qrupun, humanitar fənləri yaxşı bilənlər isə III qrupun test imtahanlarından keçirlər.

Cədvəl 15.1-də 2002-ci il üçün verilmiş rəqəmlərin bir qismi şəkil 15 (a)-da qrafik şəklində göstərilmişdir. Daha doğrusu, bu şəkildə test imtahanlarını keçərək müxtəlif intervalda bal toplayan abituriyentlərin nisbi sayının biliyə (bala) görə paylanma diaqramması göstərilmişdir.




**Şəkil 15** (a): Azərbaycan bölməsi üzrə abituriyentlərin nisbi sayının test ballarına görə paylanma əyrisi:

A – 2002-ci il qəbulu (a/bölməsi),

B – SSRİ zamanı qəbul;

Qrafikin absis oxu bilik oxudur. Bu oxda biliyin qiymətləndirilməsi həm 700 ballı, həm 5 ballı şkala ilə, ordinat oxunda isə vahid bal (bilik) intervalına düşən abituriyentlərin nisbi sayı göstərilmişdir.

Abituriyentlərin biliyə görə paylanma əyrisını tapmaq üçün statistik üsuldan istifadə etmək lazımdır. Misal üçün, biliyi 80 ilə 100 bal arasında olan abituriyentlərin ΔN-sayı, test imtahanlarında iştirak edənlərin ümumi N-sayından, bal intervalı ΔB=20=(100-80) böyüklüyündən və paylanma funksiyasından f (B) asılıdır. Belə ki,

$$\Delta N = N f(B) \Delta B.$$

Buradan alırıq:

$$f(B) = \frac{1}{N}\frac{\Delta N}{\Delta B}$$

Qrafikin ordinant oxunda $\frac{1}{N}\frac{\Delta N}{\Delta B}$ parametri, yəni vahid bal (bilik) intervalına düşən abituriyentlərin nisbi sayı faizlə göstərilmişdir. Misal üçün, şəkil 15 (a) -da göstərilmiş paylanma funksiyasına görə 80 ilə (80+20) intervalında ($\Delta B$=20) bal toplamış abituriyentlərin $\Delta N$ sayının ümumi saya nisbəti 8,13%-dir. Qeyd edək ki, 2002-ci ildə azərbaycan bölməsi üzrə abituriyentlərin ümumi sayı N=43 565 nəfər olmuşdur.

Son üç il test imtahanlarının nəticələrinin bir qismi həm Azərbaycan, həm də rus bölmələri üçün faizlərlə cədvəl 15.2-də göstərilmişdir.

**Cədvəl 15.2**

| Qiymətləndir-mə şkalası | | 2000-ci il | | 2001-ci il | | 2002-ci il | |
|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 5 bal | 700 bal | A/b | R/b | A/b | R/b | A/b | R/b |
| 0- 1 | 0- 140 | 53,34 | 32,88 | 39,5 | 29,1 | 56,73 | 38,48 |
| 0- 2 | 0- 280 | 82,55 | 71,12 | 72,39 | 63,90 | 82,49 | 72,82 |
| 0- 3 | 0- 420 | 94,74 | 90,95 | 89,75 | 87,02 | 94,37 | 90,45 |
| 0- 4 | 0- 560 | 99,21 | 98,65 | 97,72 | 97,51 | 99,24 | 98,13 |
| 0- 5 | 0- 700 | 100 | 100 | 100 | 100 | 100 | 100 |

Yuxarıda qeyd edildiyi kimi, ölçü harmoniyanın əsasıdır. Bu rəqəmlər ölçüdür. Ölçüyə göz yummaq olmaz. Cədvəldə əks olunmuş bilavasitə görünən qüsurları doğuran səbəblərə qarşı mübarizə aparmaq lazımdır. Bu qrafik və cədvəl son üç ilin

abituriyentlərinin bilik göstəricilərinin güsgüsüdür və təhsilin vəziyyəti haqqında obyektiv məlumatları əks etdirir.

Cədvəl 15.2-yə diqqət yetirsək praktiki əhəmiyyət daşıyan çoxlu nəticələr əldə etmək mümkündür. Cədvəldən görünür ki, 2000, 2001 və 2002-ci illərdə test imtahanında iştirak edənlərin 90%-dan çoxu 420-dən (5 ballı sistemdə 3-dən) az bal toplaya biliblər. Bu göstərici həyatda rast gəldiyimiz konkret hallarla da təsdiqlənir. BDU-nun fizika fakültəsinin müəllimlərindən birinin dediyinə görə, test imtahanlarında 424 bal toplamış birinci kurs tələbəsi *ikidə bir* ilə *üçü* toplaya bilmir. Yəni bu abituriyentin 6-cı sinif səviyyəsində biliyi yoxdur.

Cədvəl 15.2-yə görə 2001-ci il üçün 420 baldan çox bal toplayanların sayı Azərbaycan bölməsi üçün (100-89,75) =10,25 %, rus bölməsi üçün (100-87,02) = 12,98% olmuşdur. **2002-ci il ilin nəticələri 2001-ci ildən pis olmuşdur.** Belə ki, Azərbaycan bölməsi üçün bu rəqəm 5,63 %, rus bölməsində 9,55 % olmuşdur. Diqqəti cəlb edən nəticələrdən biri də bundan ibarətdir ki, rus bölməsində təhsilin vəziyyəti Azərbaycan bölməsinə nisbətən babatdır. Buradan törəyə bilən arzuolunmaz sosial nəticə isə bundan ibarətdir ki, əhali övladlarını rus məktəblərinə verməyə meyilli olacaqdır. Valideyn uşağının gələcəyini, yoxsa dilini qurban vermək delemması qarşısında qalarsa, edəcəyi seçimi duymaq çətin deyildir. Bu cünləri övladlarına rus və ingilis dilində təhsil verən valideyinlərimiz az deyildir. Bunun qarşısını azərbaycan dilində keyfiyyətli təhsil verməklə almaq olar.Milli birlik baxımından bu çox əhəmiyyətli bir işdir.

Bu vəziyyətin törədə biləcəyi nəticəni bu gün yox, gələcəkdə hiss edəcəyik. Çünki dəfələrlə qeyd etdiyimiz kimi təhsil sisteminin məxsusi cəhəti bundan ibarətdir ki, ona edilən müsbət və mənfi təsirlər öz nəticəsini çox gec - 20-30 ildən sonra bildirir. 2002-ci ilin oktyabr ayının 25-də "Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı"nın təqdimatına həsr olunmuş ümummilli konfransda Yaponiyanın ölkəmizdəki səfiri cənab **Toşiyuki Fucivara** da bu fikiri

təsdiqlədi: **“Əlbəttə, təhsil sahəsində görülən işlər bəhrəsini dərhal verməyəcəkdir, amma uzun müddətli perspektivlər Azərbaycan xalqının gələcək rifahının təmin olunmasında mühüm rol oynayacaqdır”.**

ABŞ-ın “Təhsil-2000”“ proqramında ümumtəhsil məktəblərdən tələb olunur ki, şagirdlərə proqram materiallarını 90%-ni öyrənsinlər. Yuxarıda qeyd edildiyi kimi bu göstərici bizdə 5%-dən də aşağıdır. Abituriyentlərin 95%-nin nümayiş etdirdikləri bilik səviyyəsi kafi (məqbul) həddən aşağıdır. Bu bizim təhsil sistemimizin böyük qüsuru və gizli böhran keçirməsinə subutdur. Elə məktəblər var ki, bir məzunu belə ali məktəbə qəbul ola bilməyibdir. Belə məktəblərin sayı yüzlərlədir. Bu təhsil müəssisələri dövlətin vəsaitinin 95%-ni biliyə çevirə bilmir. Bu məktəblərin ünvanları “Abituriyent“ jurnalının 2002-ci il tarixli 12-ci sayında göstərilmişdir. Misal üçün, jurnalın 88-ci səhifəsində Daşkəsən rayonunda təhsilin vəziyyəti ilə bağlı oxuyuruq:

*“Qəbul imtahanlarında 19 məktəbin məzunları iştirak ediblər. Bu məktəblərdən Qabaqtəpə, Qaraqollar, Çanaxlı, Dəstəfur, Alunitdağ, Tapan kənd orta məktəbləri, Daşkəsən və aşağı Daşkəsən qəsəbə orta məktəbləri, N.Nərimanov adına 3 saylı və S.Vurğun adına 4 saylı şəhər orta məktəblərinin bir abituriyenti belə tələbə adını qazana bilməmişdir“.*

Digər misal. Mənim deputat seçildiyim Kəlbəcər rayonunda təhsilin vəziyyəti ilə bağlı həmin jurnalın 96-cı səhifəsində oxuyuruq:

*“Qəbul imtahanlarında 62 məktəbin məzunları iştirak ediblər. Bu məktəblərdən 8, 9, 10, 11, 20, 22, 23, 27, 29, 30, 33, 35, 39, 47, 48, 54, 57, 59, 65, 67, 73, 76, 91, 98, 100, 102, 103, 112, 113, 115, 116, 118 saylı orta məktəblərin bir abituriyenti belə tələbə adını qazana bilməmişdir”.* Demək olar ki, digər rayonlarda da vəziyyət buna bənzərdir. Sabirabad, Masallı, Balakən, Ağcəbədi, Laçın, Ağdam rayonlarının 96 məktəblərindən bir nəfər belə ali məktəbə qəbul olmamışdır.

Qobustan rayonundan cəmi iki nəfər ali məktəbə qəbul olmuşdur. 2001-ci ildə bu rayonun büdcəsi 6.814.765 min manat, büdcənin təhsil xərcləri isə 4.995.267 min manat olmuşdur. Bu, təqribən bir milyon ABŞ dollarına bərabərdir. Dövlətin bu qədər xərclənən pulunun müqabilində ali məktəbə cəmi iki nəfər qəbul olubdur. Nəzərə almaq lazımdır ki, bu rayon nə cəbhəyanı, nə də sərhəd rayonudur. Qaçqınların ağır yükü bu rayonda çox deyildir. Təhsil sisteminin bu cür vəziyyətdə olmasını öncə bu rayonun əhalisini narahat etməlidir. Biz yarımçıq müsəlman, yarımçıq kommunist olduğumuz kimi, bu gündə yarımçıq müəllimlik edirik, yarımçıq məktəb saxlayırıq. Yarımçıqlıq bizim səciyyəvi cəhətimizə çevrilir. Yarımçıqlıq böyük qüsurdur. XXI əsrdə belə məktəblərlə milləti qorumaq mümkün olmayacaqdır.

Belə məktəblərin hər biri ayrıca müzakirə obyektinə çevrilməlidir. Qüsurlar araşdırılmalıdır. Səbəblər aydınlaşdırılmalıdır. Publisistik məqalələrimin birində belə təhsil müəssisəsini mühərriki işləyən, ancaq ən azı bir təkəri olmayan şəhər nəqliyyatının marşurut avtobusuna bənzətmişdim. Matoru işləsə də belə avtobus irəliyə gedə bilməz. Şəhərdə, kənddə məktəbin olması əsas deyil. Əsas odur ki, təhsil maşını işləsin, gənclərə təhsil versin və onları irəliyə aparsın.

Şəkil 15 (a)-da göstərilmiş biliyə görə paylanma əyrisini şərti olaraq dörd hissəyə bölmək olar. Hər hissənin əhatə etdiyi sahə bu intervalda bal toplamış abituriyentlərin sayını göstərir.

I hissə: 0-100 intervalında bal toplamış abituriyentlərin sayını göstərir və bu say 17 026 nəfərdir;

II hissə: 100-200 intervalında bal toplamış abituriyentlərin biliyə görə paylanmasını və sayını (11632) göstərir;

III hissə: 200-420 intervalında bal toplamış abituriyentlərin biliyə görə paylanmasını və sayını (12 921) göstərir;

IV hissə: 420-700 intervalında bal toplamış abituriyentlərin biliyə görə paylanmasını və sayını (1986) göstərir.

M – şaquli xətti paylanma diaqrammasını iki bərabər sahəyə bölür. Bu xətt absis oxunu 120 bal nöqtəsində kəsir. Bu o

deməkdir ki, abituriyentlərin 50%-i (21 783 nəfəri) 0-120 bal arasında, digər yarısı 120-700 bal arasıda bilik nümayiş etdiriblər. Bu rəqəmlər də paylanma funksiyasının nə qədər assimmetrik olmasını göstərir. 2001-ci il üçün bu göstərici 208 bal olmuşdur.

Me – şaquli xətti abituriyentlərin nümayiş etdirdiyi biliyin orta qiymətini (yəni bütün abituriyentlərin topladağa balları cəmləyib onu 43565-ə bölsək alacağımız orta bilik göstəricisini) göstərir. Bu parametr təqribən **158 bal** ətrafındadır. 2001-ci ildə bu göstərici 178 bal olmuşdur. Sevindirici haldır ki, Bakı Anadolu Türk Liseyi üçün bu göstərici 479,2 bal olmuşdur. Deməli, yüksək nəticə əldə etmək üçün nə Avropaya, nə də Amerika qitəsinə getmək lazım deyildir. Yaxşı nəticəni Bakıda da əldə etmək mümkündür. Bunun üçün yaxşı məktəb lazımdır.

Absis oxuna diqqət yetirsək görərik ki, bu göstəricilər (M və Me) nəinki 3 qiymətindən (420 baldan), hətta 2 qiymətindən (280 baldan) da xeyli aşağıdırlar. Əsas nəticə isə bundan ibarətdir ki, **bizim təhsil maşınımız zay məhsul buraxır və buraxdığı məhsulun orta qiyməti məqbul, kafi həddən çox-çox aşağıdır.** Zamanı geri qaytarmaq mümkün olmadığından bu səhvi də düzəltmək mümkün deyildir. Ömər Nəttabın bir kəlamında deyilir:

**«Dörd şey geri gəlməz:deyilən söz, atılan ox, keçən zaman və qaçrılan imkan»**. Nəinki zaman, fürsətdə əldən getməkdədir. Gənclərə kamil bilik verməməklə cəmiyyətin intellektual səviyyəsini aşağı salırıq. Gələcəyimizi təhlükə altına alırıq. Təhsil həyat üçün vacib elementinə çevrilibdir, təhsilsiz milli gələcək yoxdur.

Bu bir həqiqətdir ki, biliksiz şagird nə qədər vətənpərvər olsa da cəmiyyət üçün yükdür. Bilikli, vətənpərvər gənc isə cəmiyyətin yükünü çəkəndir. Keyfiyyətli təhsil uğurunda mübarizənin fəlsəfəsi budur.

2002-ci il üçün rus bölməsi üzrə testin nəticəsi əsasında abituriyentlərin nisbi sayının biliyə görə paylanma diaqramması şəkil 15 (b)-də **A əyrisi** ilə göstərilmişdir. Əvvəla, onu qeyd edim

ki, bu əyrinin forması həm Azərbaycan bölməsi, həm rus bölməsi, həm də ixtisas qrupları üçün xarakterikdir. Yəni analoji əyrilər ümumi cəhətlərinə görə bir-birindən az fərqlənirlər. Əyri ilə absis oxu arasında qalan sahə test imtahanlarından keçən abituriyentlərin sayını göstərir. 2002-ci il üçün bu say rus bölməsi üçün 7056 nəfər olmuşdur. A əyrisinin ştrixlənimş sahəsi test imtahanlarında 150-700 intervalında (150 bal keçid balıdır) bal toplamış, yəni klassik qiymətləndirmə sistemində təqribən 1 ilə 5 arasında qiymət almış və TQDK-nın qərarı ilə ali






**Şəkil 15 (b).** Rus bölməsi üzrə abituriyentlərin nisbi sayının test ballarına görə paylanma əyrisi:
A – 2002-ci il qəbulu,
B – SSRİ zamanı qəbul;

məktəblərə qəbul olunmuş abituriyentlərin sayını göstərir. Bu say təqribən 3350 nəfərdir. A əyrisinin qaralanmış sahəsi isə test imtahanlarını keçərək 420-700 intervalında bal toplamış abituriyentlərin sayını göstərir. Bu sahəyə uyğun gələn tələbə sayı 674 nəfərdir.

Sovetlər zamanı qəbul imtahanlarının birindən iki alan ali məktəbə daxilolma şansını 100 faiz itirərdi. İndi bütün imtahanlardan “2“-dən də aşağı qiymət alanlar TQDK tərəfindən ali məktəblərə qəbul edilir. Belə gənclərin ali məktəbə daxil olması qəbul imtahanlarını aparmağın zərurətini heçə endirir. Bu problem ciddi problemdir və gələcəyimizi uçuruma aparır.

Ümumiyyətlə, şəkil 15 (a) və (b) təhsil sistemimizin qüsurlarının əyani şəkildə üzə çıxarır. Başlıca qüsur isə bundan ibarətdir ki, elə orta məktəb var ki, **insan övladı** 11 il ora gedib-gəlib, ancaq əldə etdiyi bilik, şüurlu varlıq adına ləkədir və “0” “

bal səviyyəsindədir. Belə abituriyentlər bir-iki nəfər deyil, onların mütləq sayı 2002-ci ildə Azərbaycan bölməsi üzrə  186 nəfər, rus bölməsi üçün 7 nəfər olmuşdur. Son üç ilin nəticələrinə görə belələrinin nisbi sayı Azərbaycan bölməsi üzrə 2000-ci ildə 1%, 2001-ci ildə 0,29%, 2002-ci ildə isə 0,43% (bax: Cədvəl 15.1. 1-ci sətir) olmuşdur.

Qanun-qaydaya görə belə şagirdlərə əvvəla, dövlət sənədi "attestat"" verilməməlidir. İkincisi, attestatdan qabaqkı çoxsaylı imtahanlarda bu qüsur üzə çıxarılmalı və tədbir görülməli idi.

Açıq Cəmiyyət İnstitunun xətti  ilə "Kembric Təhsilə kömək" qurumunun baş konsultantı xanım Cohanna Krikton bizim komissiyanın qonağı olarkən, bizdən: *Necə ola bilər ki, insan  övladı 11 il orta məktəbə gedib-gəlir, ancaq test  zamanı o, "sıfır" bal toplayır?* – soruşdu. Yəni 120 sualdan birinə  cavab verə bilmir. Mən bu suala cavab verə bilmədim, bu işə günahkar olanların əvəzinə xəcalət çəkdim. Mən istəmirəm ki, gələcəkdə kimsə də mənim kimi xəcalət çəksin. Xəcalət çəkməyə dözmək olar, gələcəyi itirməyə dözmək mümkün deyildir. Bu qüsuru düzəltmək olar və mütləq düzəltməliyik.

Qeyd etmək lazımdır ki, test    sualları müxtəlif variantlarda tərtib olunur. Bu suallar 6-11-ci siniflərdə tədris olunmuş proqlamları əhatə edir. Əgər şagird 8 sinifə qədərki proqram materiallarını mənimsəyibsə, o, hökmən 150 bal toplama imkanına malik olmalıdır. Ancaq bizim "daş şagirdlər" 11-ci sinifi bitirir, dövlət sənədi olan attestat alır, ancaq test  zamanı "0" bal toplayır. Dövlət sənədi olan attestatın devalvasiya olmasına yol verilməməlidir. Bu müstəqilliyin amalına ziddir. Dövlətin imicinə zərbədir.

Qeyd etmək lazımdır ki, test suallarının hazırlanma metodikası da mübahisəlidir. Yeri gəlmişkən qeyd edək ki, ekspertlərin və mütəxəssislərin fikrincə ilbəil test  sualları sadələşdirilir. Bu isə təhsilin ümumi səviyyəsini ilbəil aşağı endirir.

Bu rəqəmlər onu göstərir ki, orta məktəblərdə imtahan biliyin qiymətləndirmə metodu kimi tam iflasa uğrayıbdır. Bu fikir ali məktəblər üçün də doğrudur.

Şəkil 15 (a) və (b)-də **B əyrisi** ilə Sovetlər zamanı ali məktəblərə qəbul olan abituriyentlərin nisbi sayının biliyə görə paylanması göstərilmişdir. Əyrinin maksimumu təqribən 560 bal ətrafındadır. Ümumiyyətlə, müxtəlif ölkələrin təhsil sistemləri və onun nəticələri bir-birindən f(B) paylanma əyrisi ilə fərqlənirlər. A əyrisi ilə müqayisədə B paylanma əyrisi üstünlüyü bundan ibarətdir ki, o 420 balla başlayır, 700 balla qurtarır. Əyrilərin müqşayisəsindən görünür ki, Sovetlər zamanı biliyi 3-dən (420 baldan) aşağı olan bir məzun belə ali məktəbə daxil ola bilməzdi. Bu mümkün olmayan bir iş idi. Hətta II Dünya Müharibəsinin qəhrəmanı K.Jukovun da belə işə gücü çatmazdı. Yəni ali məktəbə qəbul beynəlxalq standarta və ya bəşəri təcrübəyə uyğun aparılıbdır. Bəşəri dəyər isə bundan ibarətdir ki, orta məktəb proqramını 60%-dən az mənimsəyən məzunları ali məktəbə birbaşa buraxmaq olmaz.

Təhsil sistemi mükəmməlləşdikcə bu funksiyanın maksimumu sağ tərəfə 700 bal tərəfə sürüşməlidir. Parlamentin Elm və təhsil məsələləri daimi komissiyasının üzvü akademik Cəlal Əliyev söhbətlərinin birində qeyd etdi ki, onlar universitet tələbəsi olarkən 4 və 5-lə təhsil almaq uğrunda mübarizə aparırdılar və 3 (üç)-ü müsbət qiymət hesab etmirdilər. Yuxarıda söylənilmiş - "orta məktəb **eyniləşdirməli** və ya orta məktəb "şagirdləri sənaye üsulu" ilə öyrətməlidir "" ideyası məhz bu baxımdan söylənilmişdir. Şəkil 15 (a) və (b)-dəki A əyriləri anormallığı ilə diqqəti cəlb edir və müəllim kolektivi komplektləşməyən, maddi-texniki bazası olmayan, mənəvi dəyərləri deqradasiyaya uğramış təhsil müəssisəsini xarakterizə edir. Real paylanma əyrisinin maksimumunun bilik oxunun **80** bal ətrafında olması təhsil sisteminin xəstəhal vəziyyətində olduğunu göstərir.

Əslində bizim təhsil sistemimizin nəticələri 1991-ci ildən indiyə kimi B əyrisi halından A əyrisi vəziyyətinə gəlib çıxmışdır. Bu hamını narahat etməli və düşündürməlidir. Əslində, bu, deputat Ş.Qurbanovun dediyi tezisin elmi sübutudur.

Sadə məntiqə görə, əgər ölkədə məktəb şəbəkəsi mərkəzləşmiş bir qurum kimi olmasa, onda abituriyentlərin biliyə görə paylanma əyrisı A əyrisinə bənzəyər, ancaq funksiyanın maksimumu daha çox sol tərəfə sürüşər və əyri ordinat oxunu daha yüksək nöqtələrdə kəsərdi.

Riyaziyyatda Arximed spiralı adlanan bir spiral var. (Bax: **Vıqodskiy,** Spravoçnik po vısşey matematike, M., 1966 str. 113,). Spiralın səciyyəvi cəhəti bundan ibarətdir ki, əgər MN düz xətti bir nöqtə ətrafında saat əqrəbinin əks istiqamətində bərabər sürətlə fırlanarsa və bu düz xətt boyunca bir nöqtə bərabər sürətli düzxətli hərəkətdə olarsa, onda həmin nöqtənin cızdığı xətt **Arximed spiralı** adlanır. Bu spiral şəkil 15(v)-də göstərilmişdir və bir çox beynəlxalq qurumların, stabil inkişafın emblemınə çevrilmişdir.




Şəkil 15 (v) Arximed spiralı

Müasir təhsil sistemimiz Azərbaycan prezidenti Heydər Əliyevin dediyi kimi: **"Azərbaycanda 1920-ci ildən indiyə qədər mövcud olan təhsil sistemi Sovet təhsil sisteminin bir hissəsidir".** O dövürdən başlayaraq təhsil Arximed spiralına uyğun şəkildə inkişaf etmişdir. İnkişaf o səviyyəyə çatmışdır ki,

bəzən 20 nəfərlik bir sinifin məzunlarının 50%-i məktəbi medalla bitirirdi. İndi təhsildə əks proseslər gedir. Sanki, təhsildə proseslər Arximed spiralı boyunca, ancaq tərs istiqamətdə inkişaf edir. Qobustan kimi bir rayonunun cəmi 2 məzunu tələbə adını qazana bilir. Hesab edirəm ki, bu fakt cəmiyyəti ciddi düşündürməlidir.

Qaçqınlığın yaratdığı mürəkkəb həyat şəraiti, dünyagirlik və nəzarətsiz mühitdən istifadə edərək bir çox acgöz insanlar cinayət fəaliyyəti törədirlər. Kəlbəcər rayon müəllimləri «papka məktəbləri» adlanan məktəblərin mövcud olduğunu deyirdilər. 2001-ci ildə Kəlbəcərdə 127 məktəb, 12371 şagird olmuşdur. 2002-ci ildə bu məktəblərin sayı xeyli azalmış şagirdlərin sayı isə 10575 nəfər olmuşdur. 1796 şagirdin adı iki-üç məktəbə yazılaraq, hər şagirdin hesabına ildə 500 000 manat dövlət vəsaiti talan edilmişdir. Bu, bir ildə təqribən 800 milyon manat talançılıq deməkdir. Çox təəssüf hissi ilə qeyd edirəm ki, bu cür talançılığa qarşı tək-tək müəllimlər mübarizə aparırlar. Hamı bilməlidir ki, pis təhsildən gələcəkdə hamı ziyan çəkəcəkdir. Müasir dövrdə təhsil - su, hava, torpaq, Günəş kimi insan həyatı üçün vacib ünsürlərdəndir. Bu sahə müqəddəs elan edilməlidir və haram barmaqlar ora uzanmamalıdır. Prezident Heydər Əliyevin bir kəlamında deyilir:

**"Təhsilsiz xalq müasir şəraitdə öz imkanlarını həyatına sərf etmək üçün çox problemlərlə rastlaşır. Ona görə təhsil hər bir insana lazımdır və bu təhsili də, təbiidir ki, hər bir insan gəncliyindən, uşaqlıq vaxtlarından almalıdır".**

Məzunların, abituriyentlərin sayı və testin nəticələri (Azərbaycan və rus bölmələri üzrə) 2000-2002-ci illər üçün cədvəl 15.3-də göstərilmişdir. Cədvələ görə 2000-ci il məzunlarının ali məktəbə qəbulolma faizi 16,29 olmuşdur. Bu çox şişirdilmiş, həm də qüsurlu bir rəqəmdir. Qüsur da bundadır ki, bu faiz beynəlxalq standartlardan kənar, TQDK-nın əmri ilə ali məktəblərə qəbul olmuş abituriyentlərin sayının göstəricisidir. Real göstərici isə 5,26%-dir (Bax cədvəl 15.1-də 22 sıra ilə 9-cu

sətrin kəsişdiyi yerə: 100-94,74=5,26). Bu göstərici **2453** abituriyenti əhatə edir. Nəzərə alsaq ki, Azərbaycanda təqribən 3169 orta məktəb fəaliyyət göstərir, onda hər bir məktəb beynəlxalq standartlara uyğun 1 tələbə belə hazırlaya bilmədiyi qənaətinə gəlirik. Sovetlər zamanında ölkə gənclərinin hər üç nəfərindən biri, yəni 30%-i ali və orta ixtisas məktəblərində təhsil alırdı. Yuxarıda qeyd etdiyimiz kimi keçmişdə hər buraxılışdan 10-larla məzun məktəbi medalla bitirərdi. Əgər nəzərə alsaq ki, bizim 3000-dən çox orta məktəbimiz var və xalqımızın 15 000 mindən çox medalist potensialı vardır, onda bu potensialın çürüməsinə imkan verməməliyik. Yuxarıda qeyd edildiyi kimi, yaxşı ki, bu potensialın 10%-dən "ÇAĞ" Öyrətim İşlətmələri Şirkəti istifadə edir. Yerdə qalan 90%-dən də biz istifadə etməliyik. Talantlı gənclərin biliksiz qalmasına yol verməməliyik. XXI əsrdə qloballaşan və informasiyalaşan dünyanın intellektual mübarizələrindən, "müharibələrindən" Azərbaycan xalqını bu talantlı gənclər keçirə bilərlər.

Azərbaycan prezidenti Heydər Əliyevin başqa bir kəlamında deyilir:

**«Təhsili olmayan gənc, şübhəsiz həyatda lazımi yer tuta bilməz. İndi dünya mədəniyyət dünyasıdır, intellektual dünyadır, elmi-texniki tərəqqi dünyasıdır. Azərbaycanın elmi-texniki səviyyəsini inkişaf etdirmək üçün yüksək təhsilə, elmə nail olmalıyıq"**.

Ali məktəblərin qəbul planı dünyada qəbul olunmuş qaydalara, standartlara uyğun yox, inzibati metodlarla doldurulur. Başqa sözlə, ali məktəblərə girməyə hüquqi-haqqı olmayanlar inzibati üsullarla ali məktəblərə qəbul edilir. Bu bir tərəfdən təhsil sisteminin mövcud qüsurunu ekranlayır, digər tərəfdən təhsil sisteminin tədricən deqradasiya etməsinə, çürüməsinə, çökməsinə səbəb olur. Çünki 100 balla da ali məktəbə qəbul olmaq mümkündür.

Nəticədə dərin bilik öyrənmə həvəsi və təhsil səviyyəsi aşağı düşür. Arzuolunmaz hal isə bundan ibarətdir ki, gənclər 100 balla məhz pedaqoji ixtisaslara qəbul edilmişlər.

Cədvəl 15.3

| Sıra Sayı | Təhsilin göstəriciləri | 2000 | 2001 | 2002 |
|---|---|---|---|---|
| 1. | Məzunların sayı | 102 236 | 98 255 | 57 258 |
| 2. | Abituriyentlərin ümumi sayı | 75 243 | 81 198 | 50 621 |
| | *o cümlədən məzun- abituriyentlərin sayı* | *47 825* | *48 752* | *20 322* |
| 3. | Ali məktəblərə qəbul olunanların sayı | 24 372 | 24 499 | 18 640 |
| | *o cümlədən məzun- abituriyentlərdən qəbul olunanların sayı* | *16 675* | *16 501* | *8145* |
| 4. | Məzunlardan qəbul olma %-lə | 16,29 | 16,79 | 14,23 |

Misal üçün, Azərbaycan Dövlət Pedaqoji Universitetinin «Riyaziyyat və informatika» itxtisası üzrə keçid balı 100, Azərbaycan Müəllimlər İnstitutunun (Gəncə filialı) «İbtidai təhsilin pedaqogikası və metodikası» ixtisası üzrə keçid balı 100.375 olmuşdur (Bax: “Abituriyent “, 2002, №12, səh. 58). 100 bal - orta məktəb proqramının 15%-ni mənimsəmək deməkdir. Bu qədər bilik əldə etmək üçün isə 6-7 sinifi bitirmək kifayətdir. 11-ci sinifi bitirməyə ehtiyac qalmır. Belə biliksiz gənclərin inzibatı yolla ali pedaqoji ixtisaslara qəbul etmək, ölkəmizin gələcəyini təhlükə altına ala bilər. Əslində Arximed spiralı öz işini görür və tərsinə fırlanır.

Beləliklə, 2002-ci ildə Azərbaycan bölməsi üzrə 23159 nəfər plan yerinə qəbul olmuş 15112 nəfər abituriyentin ancaq 1986 nəfərinin biliyi beynəlxalq standartların tələblərinə cavab veribdir (bax şəkil 15.a). Qeyd etmək lazımdır ki, bu abituriyentlərin təqribən 200 nəfərindən çoxu türk liseylərinin məzunlarıdır. Repetitorluq fəaliyyətini də nəzərə alsaq dövlət

məktəblərinin vəziyyətini obyektiv qiymətləndirmək olar. Yerdə qalan 12 921 nəfərin test balı 200-420 intervalında, 205 nəfərin topladığı bal isə 100-200 intervalında olmuşdur. Bu vəziyyət ali təhsil məktəblərinə qəbulu, ali təhsilin keyfiyyətini və testin əhəmiyyətini və millətin gələcəyini, möhtərəm prezidentimiz Heydər Əliyevin "Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, sarsılmazdır və əbədidir" inamını təhlükə altına alır. Rus bölməsində də vəziyyət buna oxşardır.

Hər hansı bir inkişaf etmiş ölkədə "0"" bilik səviyyəli bircə nəfərə attestat verilmiş olsaydı, bu ölkə üçün fövqəladə hadisə hesab edilərdi. Həmin şagirdin, onun valideyninin məktəb direktorunun və bu işə məsul digər yetgililərin şəkilləri aylarla, illərlə qara fonda KİV səhifələrindən, TV ekranlarından düşməzdi. Ziddiyyətli vəziyyət yaranır. Bir tərəfdən Azərbaycan prezidenti millətin istedadının yüksək olduğunu hər məqamda vurğulayır, digər tərəfdən biz 11 ilə şagirdə 5 sual öyrədə bilmirik. Bizdə bu hadisəyə ona görə reaksiya yoxdur ki, bunların sayı çoxdur. Artıq vərdiş etmişik. Yaxşı deyiblər: "Bir nəfərin ölümü faciədir. 1000-lərlə insanın ölümü statistikadır"". Bir abituriyentin "0"" bal toplaması faciədir. Yüzlərlə belə abituriyent varsa, bu statistikadır. İctimai şüurumuza düşmənlər tərəfindən yeridilmiş bir deyimdə deyilir: "Elnən gələn qara gün toy-bayramdır". Attestat **dövlət sənədidir və dövlətin adından verilir.** Dövlət nəzarət (Prokurorluq) orqanlarının tədbir görməməsi də təəssüf doğurur.

Bu səbəbdən də buraxılış imtahanlarının məsuliyyəti digər imtahanlardan çox olmalıdır. İmkan vermək olmaz ki, attestat nəzarətsiz bir məktəbin, məsuliyyətsiz təhsil idarəsinin sənədinə çevrilsin. İmtahan prosesi havayı başa gəlmir, ona dövlət pul xərcləyir. Xərclənən pul məqsədinə xidmət etməlidir.

Bir dəyərli şərq misalında deyilir: «Əgər qaş düzdürsə, deməli o əyridir». Deməli, qaşın düzlüyü onun əyriliyindədir. Və ya başqa cür demək olar: Qaş düz (düm-düz mənada) olarsa, deməli o əyridir.

Məktəb öyrədən olmalıdır. Məktəb öyrətmirsə, deməli o məktəb deyil. Yüzlərlə məktəbimiz ali məktəbə tələbə verə bilmir. Deməli, onlar düz işləmir.




Şəkil 15 (q)

Şəkil 15 (q) -də pis, yaxşı və əla təhsil müəssisələri üçün proqramın mənimsənilməsinin, məqbul hədd ilə qeyri-məqbul hədd arasında, 5 ballı şkala ilə 700 ballı qiymətləndirmə şkalası arasında münasibətlər və qadağa hədləri göstərilmişdir. Şəkildən göründüyü kimi biz qadağa həddini sağa və yuxarı sürüşdürməklə

(qaraldılmış sahəni artırmaqla) pis məktəbi əla məktəbə çevirə bilərik və təsinə.

Bir məsələdən də yan keçmək mümkün deyildir. Beləki, Təhsil Nazirliyinin verdiyi attestat qiymətləri ilə iki-üç ay sonra digər dövlət qurumu - TQDK-nın keçirdiyi test imtahanlarının nəticələri arasında böyük ziddiyyətlər vardır. Bu ziddiyyəti görmək üçün “Abituriyent“ jurnalının 2002-ci il tarixli 12-ci sayındakı cədvəl baxmaq kifayətdir. O cədvəlin bir hissəsi cədvəl 15.4-də yenidən verilmişdir. Bu cədvəli təhlil etdikdə anormal nəticələr əldə olur. Belə ki, 2002-ci ilin 2136 əlaçı məzunlarından test imtahanlarında yalnız 276 nəfəri (12,92%-i) biliyini doğrulda bilmişdir. Bu qüsur da məktəb direktorlarının ayağına yazılmalıdır.

Orta attestat balı “3”“ olan 1100 nəfər məzun-abituriyentdən isə 2 nəfəri möcüzə göstərərək, çox yüksək - 500-700 intervalında bal toplamışdır. Bu faktlar çox təəccüb doğurur, araşdırmağa və düşünməyə əsas verir.

Bilikli abituriyentin biliksizlik nümayiş etdirməsini izah etmək mümkündür. Bu fiziki-psixoloji durumdan asılı olaraq baş verə bilər. Lakin biliksizin 500-700 intervalında bal toplamasını izah etmək qeyri-mümkün işdir. Bu “möcüzənin“ yalnız bir izahı ola bilər: ya məktəb, ya da TQDK obyektiv imtahan aparmayıbdır. Yəni imtahan prosesində təhsilin baza prinsiplərindən olan obyektivlik prinsipi ciddi şəkildə pozulubdur.

İki ali dövləti qurumun nəticələri arasında olan belə ziddiyyətli faktlar düşündürməli və məsələnin səbəblərini dərindən araşdırılıb tədbir görülməlidir.

Paraqraf 7-də göstərildiyi kimi dövlət öz büdcəsinin çox böyük hissəsini təhsilə ayırır. 2002-ci il üçün bu rəqəm 1.082 milyard manat olmuşdur. 2003-cü ildə isə bu məbləğ daha çoxdur. Belə nəticə çıxarmaq olar ki, bu pulun buraxılış siniflərə düşən payının 5,73%-dən az bir hissəsi biliyə çevirilibdir. Çünki attestat alanların çoxu test imtahanlarında iştirak etmirlər.

**Cədvəl 15.4**

| S e ç m ə l ə r | C ə m i | B a l i n t e r v a l l a r ı | | | |
|---|---|---|---|---|---|
| | | 0-100 | 100-300 | 300-500 | 500-700 |
| 2002-ci ilin əlaçı məzunları | 2136 | 327 | 879 | 654 | 276 |
| 2002-ci ilin orta attestat balı "3"" olan məzunları | 1100 | 820 | 261 | 17 | 2 |

Vəsaitin yerdə qalan hissəsi isə yanıb yox olur. Təhsil gözlərimiz qarşısında deqradasiya olur. Təhsil tək təhsil nazirliyinin işi deyil. Təhsilə cəmiyyət kömək etməlidir. Təhsillə bağlı QHT – lər təhsilin qüsurlarını araşdırmalı, cəmiyyətin gücündən istifadə edib bu qüsurları aradan qaldırmağa cəhd etməlidir.

Təhsildəki xəstəhal vəziyyətin (Dünya Bankının ekspertləri bu vəziyyəti «gizli böhran» adlandırırlar) həm subyektiv, həm obyektiv, həm keçmişdən gələn, həm də keçid dövrünün yaratdığı səbəblər var. Ən köklü səbəb də bundan ibarətdir ki, çağdaş dövr üçün təhsilin hamı tərəfindən qəbul olunan müasir ictimai-siyasi quruluşa uyğun gələn, özündə liberal-demokratik dəyərləri əks etdirən müasir **konsepsiyası** yoxdur. Həyatımızın hər sahəsinə daxil olan liberallaşma, demokratikləşmə hələ təhsil sisteminə daxil olmayıbdır. Konseptual baxımdan təhsilin məzmununda da problemlər var. Köhnə təhsil sisteminin nəzəri əsasları çağdaş cəmiyyətin-dövlətin nəzəri əsaslarından çox fərqlidir. Yeni quruluş üçün köhnə təhsil sistemi yeniləşməlidir.

Təhsil müəssisələrinə münasibət yanlışdır. Bəzi iş adamları, bəzən dövlət məmurları təhsil müəssisələrinə kommersiya müəssisəsi kimi baxırlar. Orta təhsil müəssisəsinə "məktəb"" yox, "obyekt" kimi baxan bəzi məmurlarımız da az deyildir. Təhsilə gəlir gətirən sahə kimi baxılmamalıdır. Təhsil

müəssisələrinə, (xüsusi ilə də özəl təhsil müəssisəsinə) münasibət kommersiya müəssisəsinə olan münasibət kimidir. Özəl təhsil müəssisələri yaratmaqla gəlir əldə etmək fikirinə düşənlər də var. Bu tamamilə səhv münasibət, səhv fikirdir. Təhsilə verilən pul biliyə çevrilməlidir. Əgər qazanc varsa, deməli, qazanc qədər də pul biliyə çevrilmir. Əgər təhsilə ayrılmış pul yeyilirsə, deməli yeyilən qədər pul biliyə çevrilmir. Bu sadə həqiqətdir. Təhsilə ayrılmış pulu yeməklə, milləti savadsız qoyarıq. Torpaqlarımızın əldən getməsinin əsas və başlıca səbəbi təhsilsizlikdir. Millət canından kəsib təhsilə xərcləmək əvəzinə, təhsil büdcəsindən kəsib canına xərcləyən «ər kişilərimiz» də vardır.

Molla Nəsrədinin bir lətifəsini söyləməklə təhsil sisteminin strukturunda duran vacib bir qüsuru diqqət mərkəzinə çəkmək istəyirəm.

*Bir gün molla papaqçıya bir qoyun dərisi verir və bir papaq tikməsini sifariş edir. Papaqçı **"baş üstə"** deyib dərini götürür. Molla çölə çıxır və fikirləşir ki, papaqçı sifarişi çox sevinclə qarşıladı, yəqin bu dəridən o, iki papaq da tikə bilər. Yenidən geri qayıdır və ustaya deyir ki, dəridən mənə iki papaq tik. Usta yenə əvvəlki kimi baş üstə deyir. Bu münvalla molla papaqların sayını beşə qaldırır.*

*Vədə vaxtı molla ustanın yanına gəlir və papaqçı beş balaca papağı onun qarşısına qoyur. Molla papaqları görüb hiddətlənir və ustaya irad tutur ki, bunlar nə papaqdır tikmisən, başa qoyulası deyil. Usta cavab verir ki, bir dəridən ancaq belə beş papaq tikmək olar.*

Kəmiyyət keyfiyyəti korlayır. Təhsildə də belədir. Bizə çoxlu məktəblər yox, gərəkli məktəblər lazımdır.

Bir rayonun iki qonşu kəndinin hər birində komplekləşməmiş bir məktəb saxlamaqdansa, bu məktəblərin əsasında bir normal məktəb saxlamaq  daha düzgün və məqsədəuyğundur. Necəki, hər kəndə bir təkəri çatmayan iki avtomaşından birini düzəltmək , işlək vəziyyətinə gətirmək daha

düzgündür. Bu ideyanın əlehdarları var və onlar məktəbə «obyekt» kimi baxanlardırlar. Onların əsas arqumenti transportla bağlıdır. Ancaq məsləhətdir ki, onlara əvvəlcə bəşəri təcrübəni öyrənsinlər. Misal üçün, Dünya Bankının məlumatına görə Peruda məktəbə getmək üçün şagirdlərin 56%-i 1 saatlıq, 42%-i isə 1-2 saatlıq yol qət etməli olurlar. İkincisi, indiki zamanda məktəb üçün transport problemi həlli çətin məsələ deyil. Üçüncüsü, özümüzün son on illərin təcrübəsi (elə indinin özündə də) göstərir ki, keyfiyyətli təhsil almaq üçün heç bir çətinliyə baxmayaraq kəndən rayon mərkəzinə, rayondan Bakıya, Bakıdan Moskvaya (və ya başqa şəhərlərə) gedərək, iki qonşu kən arasındakı məsafədən 10 qat, 100 qat, 1000 qat çox məsafə qət edirik. Kenyfiyyətli və dərin təhsil istəyinin qarşısında kəndlər arası məsafə tab gətirə bilməməlidir. Ulularımız dəqiq deyiblər: **«Təhsil üçün Çinə də getmək lazımdır».** Qeyd edəy ki, bu kəlam deyiləndə nə avtobus, nə də ki təyyarə olubdur.

Sovet dönəminin sonlarında təhsil müəssisəsi açarkən şəxsi maraqlar milli maraqları üstələyibdir. Əsası, maddi-texniki bazası və kadr potensialı olmadan çoxlu məktəblər açılıbdır. Təhsil sistemi keyfiyyət yox, kəmiyyət baxımından genişlənibdir. Azərbaycan qədər əhalisi olan heç bir ölkədə inanmıram ki, 4561 ümumtəhsil məktəbi olsun. Olsa belə, mollanın tikdirdiyi balaca papaqlar kimi gərəksiz və xeyirsiz olar. Orta məktəblərin sayının əsassız artırılması keyfiyyəti endirən faktorlardandır. Məktəb tam komplektləşəndə məktəb olur. Məktəblərin sayının şişirdilməsinə maraqlı qüvvələr var.

Təhsildə ciddi struktur islahatları aparılmalı, kadr potensialı saf-çürük edilməli, attestasiya aparılmalıdır. Müəllim-şagird nisbəti Mərkəzi Avropa ölkələri səviyyəsinə qaldırılmalıdır. Məzunları ali məktəblərə daxil ola bilməyən məktəblərin statusu dəyişməli, bəzi halda bağlanmalıdır. Təhsildə rüşvətə qarşı amansız müharibə aparılmalıdır. 20 il bundan sonra başımıza gələ biləcək müsibətləri görməyi bacarmalıyıq. Azərbaycanın **təhlükəsiz gələcəyinin** açarı saf, qüsursuz

təhsildir. Amerikanın “Təhsil-2000“” proqramında qeyd edilir ki, **“ölkənin inkişaf vasitəsi iqtisadiyyat, siyasi quruluş, bazar, hüquq, xüsusi mülkiyyət, hərb və güc və ya daha nələr deyil, yeni tipli təhsildir”.** Yeni Azərbaycan yeni təhsil sistemini qurmağa məhkumdur. Repetitorluq institutuna qarşı tədbirlər görülməlidir.

Məlumdur ki, insan öz saçından tutub ayaqlarını yerdən üzə bilməz. Bunun üçün kənar qüvvə (adam) lazımdır. Bu səbəbdən də təhsilimizə kənardan baxış maraq kəsb etməlidir.

Yuxarıda göstərilənləri qeyri-obyektiv, subyektiv fikirləri kimi də qiymətləndirmək olar. Bəs Azərbaycan təhsili kənardan necə görünür?-sualına cavab vermək üçün İnternetin imkanlarından istifadə edək. ABŞ-ın ölkəmizdəki səfirliyinin İnformasiya Qaynağı Mərkəzinin (İRC) internet səhifəsinin (www usembassybaky.orq) “Public affairs“ bölməsində orta və ali təhsillə bağlı geniş məlumatlar vardır. Məlumatda qeyd edilir ki, ölkədə təhsil sistemi getdikcə xarablaşır, məktəb binalarının təmirə ehtiyacı var. Dərsliklər, laboratoriyalar, kompüterlər çatışmır, olanları isə mənəvi cəhətdən köhnəlmiş və sovet dövründən qalanlardır. Məlumatda təhsil prosesinin subyektlərindən və neqativ halların olmasından da yan keçilməyibdir.

Xarici bir ölkənin səfirliyinin bizim təhsil sistemimiz haqqında fikirləri düzgün nəticə çıxarmaq üçün, məncə diqqətlə təhlil edilməlidir və onlara sağ ol deyilməlidir. Qərb düşüncə tərzinə görə səni tərifləyən yox, tənqid edən həqiqi dostdur.

Dünya Bankının (DB) ekspertlərinin Avropa və Mərkəzi Asiya regionunda təhsilin vəziyyəti ilə bağlı təhlili müasir dövr üçün **beş qlobal** problem üzə çıxarmışdır. Bu problemlər DB-nin çap etdiyi **“Obrazovanie v stranax s perexodnoy gkonomikoy: zadaçi razvitiə”** (2000, Washinqton DC, USA) son hesabatda geniş şərhlə vermişdir. Hesabatda qeyd edilir ki, əmiranlıq iqtisadiyyat və avtoritar siyasi sistemlə müqayisədə açıq bazar

iqtisadiyyatı və açıq siyasi sistem və uyğun olaraq təhsil- başqa qaydalarla oynanılan, başqa xarakterli "oyundur".

Bu fikirləri son illərdə biz də dəfələrlə söyləyərək demişik ki, müasir Azərbaycan köhnə Azərbaycanın, müasir siyasət, ideologiya köhnə siyasətin, ideologiyanın davamı olmadığından, bugünkü təhsil sistemi də sovet təhsil sisteminin davamı olmamalıdır. Təhsilin strukturunda və məzmununda modernləşməyə, yeniləşməyə ehtiyac vardır.

Qeyd edilən beş problemi şərh etmədən onları respublikamızın təhsil ictimaiyyətinin nəzərinə çatdırmağı məqsədəuyğun hesab edirəm:

1. təhsil sisteminin cəmiyyətin sosial-iqtisadi quruluşuna uyğunlaşdırılması;
2. təhsil sahəsində ədalət prinsipinin qorunması;
3. təhsilin iqtisadiyyatı;
4. təhsil sisteminin effektliyi;
5. təhsil sektoruna dövlətin rəhbərliyi və inzibatı nəzarəti, təhsil sferasında məsuliyyət (hesabat, nəzarət) problemi.

Bu problemin hər biri ayrıca strateji məqsəd daşıyır. Birinci problemin başlıca məqsədi – təhsil sistemini açıq cəmiyyətə və bazar iqtisadiyyatına yönəltməkdir.İkinci problemin əsas məqsədi – kasıblığa qarşı mübarizə məqsədi ilə hamının təhsil alması üçün bərabər imkan yaratmaqdır. Üçüncü problemin məqsədi – keyfiyyətli, ədalətli, stabil təhsil xidməti göstərmək üçün təhsilin maliyyə sistemini yaxşılaşdırmaqdır. Dördüncü prolblemin məqsədi – resurslardan istifadənin effektliyini yüksəltməkdir.

Nəhayət, beşinci problemin məqsədi – təhsil sistemi sahəsində dövlət rəhbərliyi prinsiplərinə və inzibati rəhbərlik praktikasına yenidən baxmaq, həmçinin təhsil sahəsində çalışan qulluqçularının məsuliyyətini möhkəmləndirməkdir.

Hesab edirəm ki, təhsilimizdə olan çoxlu sayda problemləri bu beş problemin altında qruplaşdırmaq olar.

Təhsil həm mədəniyyətin, həm iqtisadiyyatın, həm də həyat şəraitinin yüksəlməsinə, yaradıcılıq potensialının açılmasına kömək göstərir. Ancaq zəruri təhsil almaq üçün yol uzundur. Bu yol ən azı insan 25 yaşına çatana qədər davam edir. Bundan sonra qəbirə qədər təhsil başlayır. Xaricdə buna LLL (Lifelonq learninq) təhsil deyirlər. Bəzi dövlətlər təhsil prosesini **illərlə** yox, hətta **saatlarla** ölçürlər. Hər ilin öz təhsil yükü var. Hansı ilin təhsil yükü mənimsənilməsə, yuxarı səviyyələrin biliklərinin mənimsənilməsi işi çox çətinləşir. Gəncin ömründən təhsilə ayrılmış vaxtın asudə vaxta çevrilməsinə yol vermək olmaz. **Bizə oxuyan, oynayan yox, öyrənən cəmiyyət, millət lazımdır.**

## 16. Təhsil və milli təhlükəsizlik

*"Təhsil - geosiyasətdir".*

***V.Filippov,***
*RF-nin təhsil naziri*

V.Yanın "Çingiz xan "" əsərində yazılır ki, Çingiz xan çinli alim Çan Çun ilə söhbət edərkən deyir:

*"Bizim qoca monqolların bir misalı var.* ***"Düz danışan adam öz əcəli ilə ölmür"****- doğru danışanı əcəli çatmamış vurub öldürürlər... Buna görə də adamlar* ***yalan dalınca yalan*** *danışırlar... Sən isə, müdrik qoca, məni görmək üçün on min li yol gəlmisən və həqiqəti, ölməzlik üçün əlac olmadığını mənə deməkdən təkcə sən qorxmadın. Sən saf qəlbli və düz adamsan "*

Təhsildə həqiqəti axtarıb tapmaq və onun haqqında düz danışmaq lazımdır. Dünya Bankının ekspertləri təhsildə «gizli böhrandan» TV ekranlarında isə təhsildəki uğurlardan danışılır. Hansı həqiqətdir?

**Kafkanın** bir fikirinə görə **«həqiqətsiz həyat mümkün deyil. Bəlkə də, həqiqətin özü həyatdır».** Biz həqiqəti görməməklə, kölgələməklə həyatı görmürük, kölgələyirik.

Son 5 ildə biliyin qiymətləndirilməsinin 9 ballı şkalası ilə bağlı aparılan iclas və müzakirələrdə edilən çıxışlar göstərir ki, istənilən zərərli nəzəriyyəni təhsil sistemində tətbiq etmək mümkündür. Respublikanın təhsil görəvliləri, təhsil problemləri institutunun rəhbərləri, bir sıra rayon, şəhər təhsil şöbələrinin müdirləri çıxışlarında problemi təhlil etmədən, dərindən öyrənmədən 9 ballı qiymətləndirmə sistemini mütərəqqi yenilik kimi vəsv ediblər. (bax:«Azərbaycan müəllimi» 5.07. 2002).

Paraqraf 12-də qədim Çin tarixindən bir misal çəkilmişdir. Misalın məğzi bundan ibarətdir ki, bir nazir öz köməkçisini işdən azad edir və deyir: «Üç ildə bir dəfə də olsun çatışmayan cəhətimi göstərməmisiniz. Deməli, siz mənim yaxşı işləməyim üçün deyil, xoşuma gəlmək üçün çalışırsınız. Məhz

bu səbəbdən də mənim sizin xidmətinizə daha ehtiyacım yoxdur». Bu misal, sağlam düşüncə tərzinə layiqli bir misaldır. Bizdə də işin yaxşı getməsi üçün yox, xoşa gəlmək üçün canfəşanlıq edənlər az deyildir.

Deməli, 9 ballı sistemi tərifləyənlər işin düz getməsini yox, kiməsə xoş gəlmək üçün tariflər söyləyirlərmiş. Bu, sovet düşüncə tərzinin praktiki həyatda tətbiqinə misaldır. Bu düşüncə tərzi, müstəqil dövlət üçün qəbulolunmazdır. Belə düşüncə tərzindən azad olmağı bizə beynəlxalq təşkilatlar da məsləhət görürlər.

Mənim inancıma görə **milli təhlükəsizliyi** dövlət sərhədlərində və xarici düşmənlərdən qorumağa Milli Təhlükəsizlik Nazirliyi, daxildə isə bu işə həm də Təhsil Nazirliyi cavabdehdir. Təhsil milli təhlükəsizliyi təmin edən intellektual sütundur. Təhsil ilə milli təhlükəsizlik arasında əlaqə haqda ilk dəfə prof. S.Xəlilov "Təhsildə problemlər və vəzifələr" kitabında (Bakı, 2002, səh.70) maraqlı fikirlər söyləmişdir. KİV-in bu fikirlərə diqqət yetirməsi və bu ətrafda debat açmaması təəssüf doğurur.

Qabaqcıl dövlətlərin sənaye bazalı cəmiyyətlərdən elmi və informasiya bazalı cəmiyyətlərə keçmələri barədə yuxarıda söhbət getdi. Yeni dövrün qayəsi bundan ibarətdir ki, hər bir dövlət əhalisinin təhsil səviyyəsinin yüksək olmasına maraqlıdır. Bu səbəbdən də dövlətlərin təhsil səviyyəsini qiymətləndirmək böyük əhəmiyyət kəsb edir. Belə dəyərlərin biri **təhsil səviyyəsi indeksidir**. Təhsil səviyyəsi indeksini izləmək vacibdir, çünki insan potensialının inkişaf indeksini (İPİİ) təyin etmək üçün lazım olan üç indeksdən (gözlənilən ömür uzunluğu və ləyaqətli həyat səviyyəsi indekslərindən) biridir. Bu indeksi hesablamaq üçün yaşlı əhalinin savad səviyyəsi və təhsilalanların kontinqentinin ümumi sayı əsas götürülür. BMT-nin İnkişaf Proqramının sifarişi ilə çap edilmiş **"Doklad o razvitii çeloveka za 2002 qoda"** kitabında bu indeks (səh. 150) bütün dünya

ölkələri üçün verilmişdir. Bu cədvəldə 173 dövlətinin İPİİ-yə görə reytinq sırası da verilmişdir.

Azərbaycan və dünya dövlətlərinin bəzilərinin təhsil indeksi və İPİİ-yə görə reytinq sıraları cədvəl 16.1-də göstərilmişdir.

**İPİİ-yə görə dövlətlərin reytinqi
və təhsil indeksi**

**Cədvəl 16.1**

| Dövlətlərin reytinqi | Dövlətlər | Təhsil səviyyəsi indeksi |
|---|---|---|
| 1 | Norveç | 0,98 |
| 9 | Yaponiya | 0,93 |
| 14 | Danimarka | 0,98 |
| 76 | Ermənistan | 0,92 |
| 81 | Gürcüstan | 0,89 |
| 85 | Türkiyə | 0,77 |
| 88 | Azərbaycan | 0,88 |
| 98 | İran | 0,75 |
| 173 | Serra-Leon | 0,33 |

Aydındır ki, Norveç bizim, biz isə Serra-Leonun torpağını işğal etmək fikirimiz yoxdur. Ancaq qonşu dövlətlərlə münasibətdə təhlükəsizliyimizi qorumalıyıq. Cədvəldən göründüyü kimi Azərbaycanla müqayisədə Ermənistan üçün təhsil indeksi kifayət qədər yüksəkdir. Təbii resurslarla zəngin olmayan Yaponiya bu cədvəldə 9-cu, Danimarka 14-cü yerləri tuturlar. Çünki həm Yaponiyada, həm də Danimarkada **insan resursu,** insan potensialı, deməli təhsil hər şeydən qiymətli hesab edilir.

Biz bu bəşəri dəyəri dərk etməli və mənimsəməliyik.

Yaponların İkinci Dünya müharibəsindən sonra gəldiyi "papağımızın altındakından başqa heç nəyimiz yoxdur""" dəyərli nəticəni biz də qəbul etməliyik. Neftə çox bel bağlamamalıyıq.

YAP sədrinin birinci müavini, Azərbaycan Respublikasının Baş Naziri İlham Əliyev, ARDNŞ-nin birinci vitse-prezidenti olarkən BDU tələbələri ilə görüşdə dediyi kimi neft bizim üçün **məqsəd yox, vasitə** olmalıdır, insan potensialını inkişaf etdirən vasitə. Norveçlərin təcrübəsi böyük örnəkdir.

Adı çəkilən kitabın 187-ci səhifəsində internet aktivliyini xarakterizə edən, hər min nəfərə düşən "**(İnternet** host qovuşağı)" göstəricisi Ermənistan üçün 0,8, Gürcüstan üçün 0,3, Azərbaycan üçün 0,2-dir. Bu göstərici də dolayısı ilə təhsil səviyyəsi ilə bağlıdır. Ermənilərin informasiya aktivliyinin bizdən 4 dəfə çox olması beynəlxalq aləmdə şərti olaraq onları 3x4=12 milyonluq bir topluma çevirir. Bu isə o deyəndir ki, beynəlxalq çəkişmələrdə ermənilər özlərini 12 milyonluq xalq kimi aparırlar. Acı da olsa cədvəldən aldığımız nəticə belədir.

Bir az geriyə dönərək oxucularımızı təhsillə bağlı bir məlumatla da tanış etmək istəyirəm. Məlumatı İ.Yeniqolopov tərəfindən 1938-ci ildə Bakıda çap olunmuş "Şair Mirzə Şəfi"" kitabının 101-ci səhifəsindən götürmüşəm. Bu səhifəni mənə təqdim etdiyinə görə sabiq deputat Vaqif Qasımova minnətdarlığımı bildirirəm.

Cədvəl 16.2-dən görünür ki, hələ XIX əsrin yarısında ölkə əhalisinin varlı təbəqələri (xanlar, bəylər) təhsilin həyatda, cəmiyyətdə oynadığı rolu başa düşməyiblər, bu səbəbdən də hətta heç öz övladlarına belə təhsil vermək haqqında düşünməyiblər. Təhsil sahəsində xan və bəy babalarımızın buraxdıqları belə tarixi səhvləri bir daha təkrar etməməliyik. Göyçənin, Zəngəzurun, Dərələyəzin, Borçalının, Dərbəndin bizdən qoparılma səbəbini təhsilsizlikdə, savadsızlıqda və dünyagörüşünün məhdudluğunda axtarmaq lazımdır. Yeri gəlmişkən bir məsələyə də toxunmaq istəyirəm. İctimai şüur səviyyəmiz 1852-ci ildən çox qabağa getməyibdir. Sübutum da budur ki, biz Bakı şəhərinin hər qarışını qəsirləşdiririk, hər küçədə 100-lərlə hər tərəfi uca divarlarla hasarlanmış villalar vardır. Şotlandiyanın paytaxtı Edinburqda cəmi bir qəsr var, o da bir neçə yüz il bundan qabaq tikilmişdir.

**Tiflis qəza məktəbinin şagirdlərinin 1843-cü ildə tərkibi**

**Cədvəl 16.2**

| | |
|---|---|
| Knyaz nəslindən olan uşaqlar | 4 |
| Bəy uşaqları | yoxdur |
| Xan uşaqları | yoxdur |
| Rus məmurlarının uşaqları | 16 |
| Zədagan uşaqları | 56 |
| Digər vətəndaşların uşaqları | 66 |
| Xaricilərin uşaqları | 4 |
| Müxtəlif vəzifəlilərin uşaqları | 31 |
| Müsəlman uşağı | 1 |
| **Şagirdlərindin mənsubiyyəti:** | |
| Provaslavlar | 50 |
| Ermənilər | 116 |
| Katoliklər | 2 |
| Lyüteranlar | 5 |
| Müsəlmanlar | 1 |

Təhsilin iqtisadiyyatı paraqrafında (§13) elektrik lampasının yanmasının, çayın axmasının səbəbini izah edərkən demişdik ki, "külək ona görə əsir ki, fəzanın iki nöqtəsi arasında təzyiqlər fərqi var. Çay ona görə axır ki, çay boyunca onun iki nöqtəsi arasında hündürlüklər fərqi var. Elektrik lampası ona görə yanır ki, elektrik dövrəsinin iki nöqtəsi arasında gərginliklər fərqi var"». İki dövlətin təhsil səviyyəsi arasındakı fərqin olması bu dövlətlər arasında baş verən və ya verə biləcək proseslərin, mübahisələrin, hadisələrin axarını, təhsil səviyyəsi yüksək olanın xeyrinə istiqamətləndirir. Təhsil səviyyəsi yüksək olan ölkə iştirak etdiyi siyasi prosesin idarə edən tərəfi, subyekti, aşağı olan

ölkə isə idarə olunan tərəfi, obyekti olacaqdır. Bu fikiri keçmişə və gələcəyə ekstropolyasiya etməyi oxucudan xahiş edirəm. Keçmişə ekstropolyasiya yuxarıda adların çəkdiyim itirdiyimiz torpaqlara aparıb çıxarır.

Yuxarıda qeyd etdiyimiz kimi biz Dağlıq Qarabağ ətrafındakı torpaqları döyüşüb itirmədik, aldanıb itirdik. Savadı, biliyi, təhsili çox olanlar, savadı, biliyi, təhsili az olanları aldada bilərlər, məqsədlərinə nail ola bilərlər.

Ermənistan və Azərbaycan təhsil səviyyələri arasındakı fərq müharibədə onlara uğur gətirdi. Bu fikirlər kiməsə cəfəngiyyat kimi görünə bilər. 1987-ci ildə Kəlbəcərin, Şuşanın, Ağdamın 5 ildən sonra ermənilərin əlinə keçəcəyini kimsə söyləsəydi, o zaman bu fikirlər də cəfəng görünərdi və o adam dəli sayılardı. Ancaq biz bu acı həqiqətlə daha tez qarşılaşdıq. İstər cədvəl 16.2-dəki 116-nın birə nisbəti, istər cədvəl 16.1-dəki təhsi indeksi fərqi (0,92-0,88=0,04), istərsə də İnternetdə aktivlik öz işini görüb və görəcəkdir. Təhsilimizi tərifləməkdənsə, tədbir görmək milli mənafeyə daha uyğundur.

420 baldan (3-dən) az bal toplayıb ali məktəblərə daxil olanlarla Azərbaycanın dövlət müstəqilliyini qorumaq, onu dönməz və əbədi etmək çox çətin olacaq. Çünki belə təhsilin nəticəsində millət düşünən yox, aldanılan millətə çevrilir. Təhsil alan isə rus dilini, xarici dili, hüququ, beynəlxalq hüququ bilməyəcək və bu səviyyə ilə də milli mənafeləri qoruya bilməyəcəkdir.

Qloballaşma erasında **təhsil səviyyəsinin indeksi** qonşu dövlətlərlə müqayisədə az olan dövləti müstəqil dövlət şəklində qorumaq gələcəkdə çətin olacaqdır.

Bir məsələyə də toxunmaq istəyirəm. Rusiya Federasiyasının təhsil naziri V.Filippovun epiqrafa çıxartdığımız fikri dərin məna kəsb edir. Həqiqətən, təhsil geosiyasətdir. Bu siyasətin bir istiqamətinə işıq tutmaq istəyirəm.

Məlumdur ki, Moskvanın metro stansiyalarında qiyməti təqribən 200-250 ABŞ dolları olan institut diplomları satılır. (Bu

fakt Rusiya TV kanallarında göstərilibdir). Bir gün qabaqcadan sifariş verirsən, o biri gün pulunu verib diplomunu alırsan.

Şübhəsiz, bu diplomları alıb Qərb ölkələrinə aparmırlar. Bu bazarın müştəriləri Cənubi Qafqaz və Orta Asiya dövlətlərinin vətəndaşlarıdır. İlk baxışda qəbahətli görünməyən bu alver çox qorxuludur. Diqqətlə təhlil etsək bu müstəqil dövlətlər üçün mənəvi terror planının tərkib hissəsidir. Bu dövlətlərin mədəni, təhsil, sosial sferalarının çürüməsinə yönəlmiş düşünülmüş təxribatdır. Təxribat da bundan ibarətdir ki, 250 ABŞ dolları ilə alınmış diplom çox vaxt milli dövlətlərdə ikinci ali təhsil almaqla "yuyulur" və bir neçə ildən sonra saxta diplom yuyularaq "normal" diploma çevrilir. Bu diplomlar sonralar biliksiz "mütəxəssisləri " məmur kürsüsünə gətirir. Bu məmur təbii olaraq şəxsi mənafeyini milli mənafedən üstün tutaraq, həm Moskvada, həm Bakıda xərclədiyi pulları artıqlaması ilə geri qaytarmaqla məşğul olur. Dövlət işi isə başlayır "axsamağa". Mənəvi terrorun nəticəsində mənəviyyatda çürümə başlayır. Təxribatın qısa mahiyyəti bundan ibarətdir. Bu təxribatın, terrorun qabağını Ali Attestasiya Komissiyasının almas və bu prosesləri nəzarətə götürməsi milli mənafeyə uyğundur.

Qafqaz Universitetinin 10 illik yubiley şənliklərindən (may 2003) sonra Türkiyəli professor Əli Gülümsərlə (19 may Universiteti) təhsil haqqında fikir mübadiləsi etdik. Əli bəy dedi ki, Avropa universitetlərində çoxlu sayda türk gəncləri təhsil alırlar. Bəla burasındadır ki, bu universitetlərin müəllimləri öz millətlərindən olan tələbələrə qarşı çox, ancaq türk tələbələrinə qarşı isə az tələbkarlıq edirlər. Bu münasibət də geosiyasətin tərkib hissəsidir.

Digər bir misal da çəkmək istəyirəm. Rusiya Federasiyasının vilayətlərinin birində yüksək məqam sahibi olan həmyerlilərimizin birinin dediyinə görə RF-nın vətəndaşı üçün pul ilə saxta diplom, elmi dərəcə almaq qeyri-mümkündür. Ancaq qonşu MDB dövlətlərinin vətəndaşları üçün bu işi həll etmək üçün bir ay vaxt, bir də lazımi miqdarda pul lazımdır. Bu

addımlar milli dövlətləri içərisindən çürüdür və geosiyasi mahiyyət daşıyır. Məncə bizim milli təhlükəsizliyimizə nəzarət edən strukturlar, belə faktlara qarşı amansız mübarizə

aparmalıdır. Bu cür çürütmələr dövlətimizin müstəqilliyinin əksinə yönəldilmişdir.

Ölkəmizin bir çox xarici dövlətlərin (və ya ayrı-ayrı siyasi qurumların) maraq dairəsində olduğunu möhtərəm prezidentimiz YAP-ın 10 illik yubiley mərasimində də vurğulamışdır:

**"Azərbaycan elə bir ölkədir ki, indi bir çox xarici dövlətlərin həm maraq dairəsinə çevrilibdir, həm də öz coğrafi-strateji vəziyyətinə, təbii sərvətlərlə zənginliyinə görə müxtəlif ölkələrin öz məqsədlərini həyata keçirməsi üçün onların diqqətini cəlb edir. Yaxud da ölkələrin yox, ayrı-ayrı siyasi qrupların, təşkilatların diqqətini cəlb edir. Ona görə, biz mürəkkəb bir şəraitdə yaşayırıq. Siz bunu bilin".**

Bunu bilməyin yolunu 100 il öncə M.Hadi göstəribdir:

Məktəblə qılar növibəşər dəfi bəlaya,
Məktəblə çıxar zahirə-əsrari-xəfaya,
Məktəblə yaşar rahətü məsud rəaya,
Eylər qələmin şu sözü təkrar vəsaya.

**Darülədəbin bilməyimiz qədrini, millət,**
**Göstərməli ikmalına olduqca həmiyyət.**

Həqiqətən, biz çox mürəkkəb zamanda və geosiyasi məkanda yaşayırıq. Bu çətin şəraitdə yaşamağa ancaq məktəb bizə kömək ola bilər. Rəhmətlik M.Hadi deməli bəlaları dəf etmək üçün, gizli sirləri üzə çıxarmaq üçün, rahat yaşamaq üçün bizə məktəb lazımdır. Məktəb bu cür funksiyaları yerinə yetirməlidir. Əgər yetirmirsə deməli o məktəb deyil, məktəbə bənzər bir şeydir.

Bir Şərq misalında deyilir: *Biri dəvəitirir, biri isə dəvə tapır. Dəvəsi itmiş dəvə tapanın yanına gəlir və deyir ki, mən dəvəmi itirmişəm. Dəvə tapan soruşur: Sənin dəvən erkəkdir, yoxsa dişi? Dəvəsi itən: mənim dəvəm erkək idi- deyir. Dəvə tapan: mən tapdığım dəvə dişidir-cavabını verir. Onda dəvəsi itən: mənim dəvəm bir o qədər də erkək deyildir - deyərək istəyir ki, dəvəni ələ keçirsin.*

Məktəb bilik öyrətməlidir, məktəb yarımçıq olmamalıdır, necə ki, dəvənin erkəkliyi yarımçıq olmur.

## 17. Ali məktəb

*«Ariflərə həmvarə bu söz virdi-zəbandır:*
*Əlməktəbü, əlməktəbü, ey millət amandır.*
*Övladı-vətən etmək üçün bizdə təali*
*Məktəblər açıb kəsb edəlim elmü kəmali!*

**M.Hadi**

Əvvəlki paraqrafı M.Hadinın məktəblə bağlı fikirləri ilə yekunlaşdırdıq. Bu paraqrafı da M.Hadinın dörd sətir şeri ilə açırıq. Şerdə məktəb, məktəb deyərək haray qoparılır. Sanki rəhmətlik Hadı XX əsrin sonunda milləti başına gələcək bəlanı əvvəlcədən görürmüş. Ona görə məktəb açıb elmi-kamalı öyrənməyi məsləhət bilirmüş.

Orta məktəb bir çox fənləri bizlərə orta səviyyədə öyrədir. M.Hadinin emosional harayında şübhəsiz söhbət həm orta, həm də ali təhsildən gedir. Bir sahəni, ixtisası mükəmməl bilmənin hikmətini Nitşe belə ifadə etmişdi: **«Bir çox şeyi yarımçıq bilməkdənsə, bir şeyi mükəmməl bil».**

**Arxilox** əlaməti kimi tanınan başqa bir fikirdə deyilir: **«tülkü çox şeyi, kirpi isə ancaq bir şeyi bilir».** Bu misalların məğzi bundadır ki, bir sahəni mükəmməl öyrənib yaxşı dolanmaq mümkündür.

Bir fənni, bir ixtisası mükəmməl səviyyədə öyrənməkdən ötəri gənc ali təhsil almalıdır.

Ali məktəbin varlığı son bir neçə yüzillik tarixində cəmiyyət və dövlətin inkişafında müstəsna rol oynamışdır. Cəmiyyətdə ali məktəbin müstəsna yeri onunla bağlıdır ki, bir tərəfdən o orta məktəb sisteminin səviyyəsinə təsir edir və onu nizam saxlayır, digər tərəfdən inkişafın, texniki tərəqqinin daşıyıcı qüvvəsi olan elmi inkişaf etdirir, cəmiyyətin yüksək səviyyəli ixtisasçılara artan tələbatını ödəyir.

Ali təhsilli mütəxəssislər universitetlərdə və digər ali məktəblərdə hazırlanır. 19-cu əsrin sonuna qədər Rusiyada 9

universitet, 1916-cı ilə kimi isə cəmi 11 universitet fəaliyyət göstərmişdir.

YUNESKO-nun Baş konfransının 27-ci sessiyasında (noyabr 1993-cü il) ali təhsilə aşağıdakı tərif verilmiş və qəbul edilmişdir: «Ali təhsil deyəndə universitetlər və ya səlahiyyətli dövlət orqanları tərəfindən ali təhsil müəssisəsi kimi tanınmış digər təhsil müəssisələri tərəfindən həyata keçirilən bütün növ tədris kurslarının hazırlığı və ya orta səviyyədən sonrakı elmi tədqiqat üçün hazırlıq başa düşülür».

Məşhur akademik L.A.Arsimoviçə görə 20-ci əsrin əvvəllərində Rusiya fiziklərini bir divanda oturtmaq olardı. Əsrin sonunda bu say 10 minlərlə olmuşdur. Yeri gəlmişkən qeyd edək ki, XX əsrin 20-ci illərində azərbaycanlı ali təhsilli fizik və riyaziyyatçıları da bir divanda oturtmaq mümkün idi (Məmməd bəy Əfəndiyev, Bəhram Mirzəyev, Rəhim bəy Məlikov). Bu say indi minlərlədir. 20-ci əsrdə SSRİ-nin elmi-texniki cəhətdən sürətli inkişafının əsas səbəbini universitetlərin varlığında axtarmaq lazımdır. XX əsrin 40-50-ci illərində SSRİ-də universitet təhsili görünməmiş səviyyəyə yüksəldı. Sovet elminin kosmosda, atom və nüvə energetikası sahəsində uğurları ali təhsilin hörmətini maksimum səviyyəyə qaldırdı. Cəmiyyətdə heç zaman alim və professorun hörməti o zamankı qədər yüksək olmamışdır. Universitetlər və digər ali təhsil müəsisələri milli qürur mənbəyinə çevrilmişdi.

Son yüzilliklərdə Şərq dünyasının Qərb dünyasından geri qalmasının əsas səbəblərindən biri zamanında universitetlərin açılmaması, universitet şəbəkələrinin yaranmamasıdır. Universitetləri olmayan ölkə heç cür inkişaf edə bilməzdi.

Bizim ilk ali təhsil ocağımız 1919-cu ildə ADC tərəfindən açılmış Azərbaycan Dövlət Universitetidir. Bu universitet çox qısa bir zaman kəsiyində müstəqil dövlətin ali məktəbi kimi fəaliyyət göstərmişdir. 1920-ci il 28 aprel işğalından sonra ADU yarımmüstəqil dövlətin ali təhsil ocağı

olmuşdur. Təhsil prosesi siyasi quruluşa uyğun olaraq Moskvada tutulmuş proqramlar, tədris planları əsasında təşkil edilmişdir.

1991-ci ildən Azərbaycan müstəqillik əldə edəndən sonra siyasi müstəqilliyin abı-havası təhsil müəssisələrinə də ciddi təsir göstərmişdir. Fəxrlə qeyd etmək olar ki, müstəqilliyin ilk illərində ADU-da (sonralar BDU) beynəlxalq hüquq, beynəlxalq münasibətlər ixtisası üzrə kadr hazırlığına başlanmışdır. Hal-hazırda BDU-da bu ixtisaslar üzrə müstəqil fakültə fəaliyyət göstərir.

Şükürlər olsun ki, indi ölkəmizdə onlarla ali təhsil ocaqları vardır.

Ancaq ali məktəblərimiz keçmiş sovetlər dövründə formalaşıb inkişaf etdiyinə görə həmin mühitin yaratdığı o mədəniyyət, o həyatın kanonları hələ də universitetlərdə yaşayır. S.M.Kirovun universitetə, təhsilə, elmə aidiyyatı olmadığı bir halda, uzun illər bizim universitetimiz onun adını daşımışdır. Bu cür məntiqsiz həyatı biz yaşamışıq. Sovetlər zamanı təhsildə keyfiyyət kəmiyyətə qurban verildiyindən, ali məktəblərdə təhsilin səviyyəsi ürəkaçan deyildir. Hətta qardaş Türkiyə Respublikası çoxsaylı xahiş-minnətə baxmayaraq bizim bir çox ixtisaslar üzrə verdiyimiz diplomları (tibb və hüquq ixtisasları üzrə) tanımır. Ali məktəb ifadəsindəki «ali» sözü real bilik səviyyəsini əks etdirmir.

Ali məktəb problemləri və onların yaranma səbəblərinin çoxu orta məktəbdəki problemlərə bənzərdi.

Sovetlər dönəmində milli Təhsil Nazirlikləri öz fəaliyyəti üçün lazım olan elmi-nəzəri müddəaları, əsasnamələri özü hazırlamırdı, mərkəzdən hazır şəkildə alırdı və mərkəzin nəzarəti altında da icra edirdi. Bu müddəaların, əsasnamələrin, prinsiplərin, ümumiyyətlə isə təhsil siyasətinin arxasında duran elmi fəlsəfə, nəzəriyyə, məntiq Moskvanın elmi-tədqiqat mərkəzlərində hazırlanırdı. Bu səbəbdən də Azərbaycanda müasir təhsil sistemi hələ dərin elmi kök buraxmayıbdır. Ona görə də təhsildə büdrəmə, yoldan sapma, deqradasiyaya uğrama ehtimalı

çox böyükdür. Respublikanın bəzi rayonlarda biliyin qiymətləndirilməsində 9 ballı şkalanın tətbiqi ilə bağlı aparılmış təcrübələr buna misaldır.

Keçmişdən gələn səbəblər üzündən bir çox universitetlərin bəzi fakultələrində tələbələrin sayı, həm idarəetmə baxımından, həm də ölkənin kadr ehtiyacı baxımından lazım olandan dəfələrlə çoxdur. Bu isə həm nizam-intizamı, həm idarəetməni çətinləşdirir, həm də keyfiyyəti aşağı salır. Fakültə böyük olanda tələbələri ancaq dekan və onun müavinləri tanıyır. Müəllimlər isə tələbələrin çoxunu tanımır. Fərd kütlənin içərisində itir. Mənəvi mühit korlanır, müəllim-tələbə münasibətində soyuqluq və biganəçilik yaranır. Tərbiyəyə nəzarət etmək çətinləşir.

Ali təhsil sistemində də keyfiyyət göstəriciləri kəmiyyət göstəricilərinə qurban verilir. Əgər bu «qurban vermə» əməliyyatı orta təhsil şəbəkəsində komplektləşməmiş məktəblərin açılması hesabına baş verirdisə, ali məktəblərdə bu əməliyyat fakültələrə qəbulun əsassız artırılması hesabına baş verirdi və milli mənafe şəxsi mənafeyə qurban verilirdi.

Əhali şəxsi vəsaiti hesabına uşaqlarını ali məktəblərə qoyurdu. Valideynlərin vəsaitlərini övladlarının intellektual mülkiyyətinə çevirmək cəhdi əslində alqışlanmalı milli keyfiyyətdir. Keçmişdə bu ali milli keyfiyyətdən rektorlar sui-istifadə edərək, fakültələrə qəbul planlarını zərurət olmadan ilbəil artırmaqda maraqlı idilər. Bazar iqtisadiyyatının **təklif** və **tələb** prinsipi sosializmidə ali təhsil sahəsində uğurla işləyirdi.

1970-ci illərdə S.M.Kirov adına ADU-nun hüquq fakültəsinin hər kursunda 100-150 tələbə (əyani, axşam, qiyabi və rus bölməsi) təhsil alardı. Təhsil müddəti beş il olduğundan tələbələrin sayı 500-750 nəfər idi. İndi hüquq fakültəsində bir neçə min tələbə təhsil alır. Fakültə ərazicə böyüməyib, ixtisaslı kadrların sayı lazımınca artmayıbdır. Təbii ki, belə olan halda keyfiyyət aşağı düşəcək və ya keyfiyyətin səviyyəsini yüksək saxlamaq mümkün olmaz. Bu vəziyyət digər fakültələrdə də, başqa institutlarda da baş verirdi.

Hal-hazırda sistemli bilik yarışı, dəyərli təqaüdlər, firmaların sponsorluğu yox vəziyyətindədir. Gənclər bir neçə il ali məktəbdə, sonra aspiranturaya girəndə, daha sonra aspiranturanın özündə də xarici dil dərsi keçirlər, bir neçə dəfə imtahan, dövlət imtahanları verirlər, ancaq heç kəs xarici dil bilmədən elmlər namizədi, bəzən isə elmlər doktoru elmi dərəcələri alırdılar. İmtahan komissiyalarında, elmi şuralarda dövlətin marağı, milli mənafe pis qorunur.

Bununla bərabər bizim dəyərli professorlarımız da az deyildir. 2002-ci il dekabrın 26-da BDU-nun professoru ərəbşunas alim Vasim Məmmədəliyevin yubileyində bu görkəmli alimin uğurlarından geniş danışıldı. Və deyildi ki, V.Məmmədəliyev beş xarici dili mükəmməl bilir və professor elmi adı bu insana çox yaraşır.

İndi Azərbaycanda yeni dövlət qurulduğu üçün yeni ixtisasların, yeni fənlərin tədrisinə böyük ehtiyac duyulur. Beynəlxalq hüquq, beynəlxalq münasibətlər, marketinq, menecment belə fənlərdəndir. Bir fənn üzrə ixtisasçı olmaq üçün bir ömür gərəkdir. Əvəllər «SSRİ tarixi», “Sov.İKP tarixi”, “Elmi ateizm»” və bunun kimi digər fənləri tədris edənlər, şübhəsiz, başqa fənləri tələb olunan səviyyədə tədris etmələri üçün yenidən hazırlanmalı və gərgin əmək sərf etməlidirlər. Bunun kimi digər problemlər ali məktəblərdə var və həllini gözləyir.

Belə problemlərdən biri də Dövlət imtahanları ilə bağlıdır. Ali məktəblərdə **“Dövlət imtahanı”** statuslu imtahanlar var. Adətən**,** bu imtahanlar son kursda, buraxılış imtahanları səviyyəsində keçirilir**. “Dövlət”** sözü **“imtahan”** sözünün qarşısına ona görə yazılıb ki, imtahanda iştirak edən dövlət nümayəndəsi tərəfindən dövlətin mənafeini qorusun. Dövlətin xərclədiyi pulun biliyə necə çevrildiyini qiymətləndirsin.

Keçid dövründə bu sahədə də dolaşıqlıq və məntiqsizlik yaranıbdır. Misal üçün**,** BDU-nun fizika fakultəsinin Dövlət imtahanları siyahısında “Xarici dil»”, “Elektrodinamika»”, “Optika»” - 2-ci kursda, “Atom fizikası»”, “Kvant mexanikası»”

- 3-cü kursda aparılır. Aydındır ki, dövləti mənafe baxımından 2-ci və 3-cü kurslarda dövlət imtahanı götürməklə ixtisasçını səviyyəsini qiymətləndirmək olmaz, çünki 2-ci və 3-cü kurs təhsil prosesinin yarı yoludur. Hələ qarşıda dövlətin xərclənməyən pulu, tələbənin keçmədiyi təhsil yolu durur. Deməli, dövlət imtahanı sonuncu kursun axırıncı imtahanları olmalıdır.

Bu məsələyə mən öz münasibətimi **«Azərbaycan»** qəzetinin 10.06.2000-ci il tarixli sayında çap olunmuş «Keçiddə təhsil, təhsildə keçəçidlər» məqaləmdə bildirmişəm. Eşitdiyimə görə, bu yaxınlarda Təhsil Nazirliyi bu məsələyə yenidən baxmaq istəyir. Bu faktın özü sübut edir ki, təhsil sahəsində yenilik etmək çox çətindir. Yəni bir neçə il öncə yenilik kimi dövlət imtahanlarını ikinci və üçüncü kursa köçürmək ideyası praktikada iflasa uğradı.

Təhsil səviyyəsinin aşağı düşməsindən törəyən, ilk baxışda xırda görünən, ancaq miqyaslı ictimai-sosial bəlanın törənməsinə səbəb olan bir qüsurundan da danışmaq zəruridir.

Yəqin ki, istənilən MDB dövlətlərində, o cümlədən də Azərbaycanda ali məktəblərdə təhsil alan tələbə kütləsini şərti olaraq üç təbəqəyə bölmək olar:

1) əla bilikli;
2) orta bilikli;
3) zəif bilikli təbəqə.

Əla biliklilərin sayı müəyyən bir kritik saydan az olanda və ya zəif və orta biliklilərin sayı müəyyən bir saydan çox olanda keçid dövrünü yaşayan ölkələrin siyasi, mənəvi və iqtisadi həyatında kataklizma törəyə bilər və çox halda da törəyir. Misal üçün, 1920-ci ildə ali təhsilli azərbaycanlıların sayı təqribən 62 nəfər olduğundan ADC müstəqilliyi qoruya bilmədi. Deputat Ş.Qurbanovun dediiynə görə (həm də bax: Raqim bek Melikov «Pamətğ budet poçtena»,Bakı,1987,str.134) ermənilər qoçulara pul verərək, Bakıda Əhməd Ağaoğlunu döydürmüşdür. Bu səbəbdən də Ə.Ağaoğlu Türkiyəyə köç etmişdir. Qoçular ictimai qınağa tutulmamışdır. Çünki o zaman ictimai qınağı yaşadan

ziyalı təbəqəsi yox idi. Çağdaş cəmiyyətimizin böyük ziyalı təbəqəsi var. Müstəqilliyimizin qorunmasında bu təbəqənin rolu böyükdür.

Çağdaş dövrümüzdə ziyalılara əl qaldırmaq böyük ictimai qınaqla qarşılaşır və hadisə cəmiyyətdə böyük rezonans doğurur.

Cəmiyyətin strukturlaşmasında qeyri–təbii proseslər getməsə, bu təbəqələrin hər biri cəmiyyətdə özünə layiq yer tutarlar. Cəmiyyətdə müsibət o zaman başlayır ki, yerlər tərs düşür. Orta və ya zəif bilikli gedib əla biliklinin yerində oturur. Şair Qabil demişkən: **"Müsibət oluruq biz, səhv düşəndə yerimiz".** 1990-cı illərin əvvəllərində biz oxşar həyatı yaşadıq.

Müşahidələr göstərir ki, zəif bilikli 3-cü təbəqədən cəmiyyət zərər çəkmir. Onlar, adətən, alçaq səviyyəli işlərdə işləyirlər, sosial cəhətdən aktiv olmurlar, müdirləri yaxşı olsa, həm Alahından, həm də müdirindən razı olurlar. Əla bilikli 1-ci təbəqə (bax şəkil 11.1) cəmiyyətin ən qiymətli hissəsidir. Ölkənin ən qiymətli var-dövləti bu insanlardır. Belə insanların hesabına Norveç, Yaponiya, Danimarka və başqa dövlətlər **«insan potensialının inkişaf indeksinə»** görə dünyanın qabaqcıl və əmin-amanlığı yüksək olan ölkələrə çevrilmişlər. Bu, intellektual və mənəvi var-dövlət istənilən yeraltı və yerüstü sərvətlə müqayisədə üstündür. Adətən, cəmiyyət bu insanların çiynində irəliyə gedir. Qabaqcıl dövlətlər cəmiyyətin idarə olunmasıda bu təbəqəyə üsünlük verirlər. Demokratiya müasir cəmiyyətlərə məhz bu niyyət üçün daxil olur. Ustad Şəhriyar iqtisadi və mədəni inkişaf ilə bilikli insanların işə cəlb edilməsi arasındakı münasibəti poetik şəkildə sərrast ifadə etmişdi:

**"Bizdən qabaqdadır avropalılar,**
**İşi iş bilənə tapşırır onlar".**

İş bilən insanlar bilikli olduqlarından yeniliyi tez qavrayırlar. Yeni ideyalar əsasında yeni firmalar, özəl qrumlar, yaradaraq yüzlərlə insanlara, həmvətənlərinə, o cümlədən də 3-cü təbəqə

nümayəndələrinə iş yeri aça bilirlər. Fəlsəfi dillə desək, birinci təbəqənin nümayəndələri, adətən, içərisindən keçdiyi proseslərdə, hadisələrdə **subyekt**, üçüncü təbəqənin nümayəndələr isə **obyekt** kimi çıxış edirlər. Cəmiyyət birinci təbəqəyə aid insanların sayının çoxluğunda maraqlı olmalıdır. Təsadüfi deyildir ki, inkişaf etmiş ölkələrdə əhalinin hər 10 min nəfərinə düşən tələbə sayını artırmaq həmişə dövlətin diqqət mərkəzində saxlanılır. Biz orta təbəqənin nümayəndələrinə yüksək təhsil verib onların bir qismini 1-ci təbəqəyə qoşmalıyıq. İnsan potensialını inkişaf etdirməyin fəlsəfəsi bundan ibarətdir. İdarəetməyə 1-ci təbəqədən olanları cəlb etməklə rüşvətin qarşısını nisbətən almaq olar. Avropada rüşvətin nisbi səviyyəsinin az olmasını bunla izah etmək olar. Çünki orta təbəqə nala-mıxa vuran təbəqədir. Şəraitdən asılı olaraq cəmiyyət üçün həm xeyirli, həm də zərərli rol oynaya bilər. Atalar düz deyib: **"Dad yarımçıq əlindən».** Bu təbəqədən orta məmur kütləsi törəyir. Rüşvətxorluq bu kütlənin içərisində geniş yayılır. Bu yarımçıq insanları, yarımçıq məktəblər yetirir. Məktəb tam komplektləşməlidir, yarımçıq olmamalıdır.

Əla bilikli 1-ci təbəqənin nümayəndələrinin halal pul qazanmaq imkanı olduğundan daim dövlətin **qüdrətli olmasını üstün tuturlar**. Bu təbəqə arasında mənfi hallar az yayılan olur. Çünki bu insanlar milli mənafeni şəxsi mənafedən qəlbi tutmağı bacarırlar. Orta təbəqə nümayəndələri rüşvətdən istifadə edərək özlərinə layiq yox, daha yüksək məqam sahibi olmağa çalışırlar. Qüdrətli insanların quruculuq, zəiflərin isə dağıdıcılıq potensialı böyükdür. Azərbaycan Prezidenti Heydər Əliyevin belə insanlara ünvanladığı fikir maraqlıdır:

**"Hər bir insan həyatda öz yerini tapmalıdır. Amma öz yerini, özünə məxsus olan yeri tapmalıdır. Kim ki, öz biliyindən, bacarığından artıq iddialar edir o, həmişə məğlub olur".**

Bu fikirin hikməti böyükdür və geniş əhatə dairəsi vardı. Çünki hər bir vəzifə sahibi qarşılaşdığı problem, məsələ, iş və s.

ilə bağlı qərar qəbul etməlidir. Əgər onun bilik və bacarığı tutduğu vəzifəyə uyğun deyilsə, səhv qərarlar qəbul edəcək və sonda möhtərəm Prezidentimiz dediyi kimi məğlub olacaqdır, həm də cəmiyyətin inkişafını ləngidəcəkdir.

Sovetlər zamanı ali məktəblərdə zəif bilənlərin, orta bilənlərin sayını azaltmaq niyyəti ilə iqtisadi bir faktordan «tələbə təqaüdü» deyilən üsuldan istifadə edilirdi. Əslində, bu üsul təhsilin keyfiyyətinə kifayət qədər müsbət təsir edən iqtisadi faktor idi. Digər tərəfdən tələbənin vaxt resursundan səmərəli istifadə etmək üçün həm də sövqedici bir mexanizm idi. Çünki üç alan tələbəyə təqaüd verilmirdi. Deməli, təqaüd almaq üçün tələbə 4 və ya 5 qiymət almalı idi. Bu səbəbdən də zəif təhsil alanlar gecəni gündüzə qatıb 3 yox, məhz 4 və 5 qiymət almaq üçün çalışardılar və vaxtlarını boş keçirməzdilər. 4 və 5 qiymətlə təhsil alanların daha da əzmlə çalışmaları üçün **adlı təqaüdlər** sistemindən istifadə edilirdi. Bu təcrübəyə müraciət etmək hökmən lazımdır.

Tələbənin, öyrəncinin əlində olan ən qiymətli sərvət, vaxt qaynağıdır, **vaxt ehtiyatıdır.** Təhsil sistemi tələbənin vaxt ehtiyatını nəzarətə götürməlidir. Milli təhsil sistemi elə qurulmalıdır ki, bu qaynaqdan maksimum istifadə edilsin. Subyektiv fikirimə görə vaxta, zamana baxışımız dəyişməlidir. Tərbiyə məhfumu vaxtdan istifadə mədəniyyətini özündə ehtiva etməlidir. Belə bir formula qəbul etsək ki, **tərbiyə – vaxta hörmət və qənaətdir,** xeyli irəli gedə bilərik. Bir çox inkişaf etmiş ölkələrdə təhsilalanların vaxtı, günlərlə, həftələrlə, aylarla yox, saatlarla ölçülür.

Əla biliklilər, orta və zəif biliklilərdən ayırmaq üçün ali təhsil sistemində struktur islahatları aparılmışdır. Bu addımın bir üstünlüyü də bundan ibarətdir ki, orta biliklilərin yüksək struktur səviyyələrə buraxılmasının qarşısını nisbətən alır. Zəifləri orta və ali məktəblərin yuxarı pillələrinə buraxmamaq lazımdır. Zəiflərdən elmlər namizədi «düzəltmək» milli mənafeə ziddir.

Avropa dövlətlərinin əksəriyyətində ali təhsil 4+2 strukturu əsasında qurulmuşdur. 1992-ci ildə qəbul olunmuş «Azərbaycan Respublikasının Təhsil Qanunu»nda da bu sistem təsbit olunmuşdur. Bu sistemin hikməti böyükdür və tarixin sınağından çıxmışdır..

Hal-hazırda bizim «bakalavr» (4 il) və «magistr» (2 il) ixtisas dərəcəsi almış gənclərimiz var və onlar müxtəlif sahələrdə işləyirlər.

Bizdə əvvəllər ali təhsil 5 illik olubdur. İndi ali təhsil sistemi 4+2 sxemi üzrə qurulubdur. Təzə sistemin köhnə sistemdən üstünlüyü nədir?-sualına cavab verməyə çalışaq. Bu məsələ ilə bağlı fikirlərimi 8.02.2002-ci ildə «Azərbaycan» qəzetində çap olunmuş «Magistratura, yoxsa aspirantura» məqaləsində söyləmişəm. Həmin məqalədən bəzi məqamlara təkrar toxunmaq istəyirəm.

Fərz edək ki, bir universitetin fizika fakültəsində 100 tələbə yaxşı (4) qiymətlə, başqa bir universitetin belə fakültəsində 75 tələbə yaxşı (4), 5 tələbə isə əla (5) qiymətlə təhsil alır. Sual olunur: Bu universitetlərin hansının işi cəmiyyət üçün faydalıdır və milli mənafeyə daha uyğundur?

Aydındır ki, 100 nəfər dörd qiymətlə təhsil alan tələbə toplumu ilə müqayisədə cəmiyyət üçün (75+5) tələbə toplum daha qiymətlidir. Çünki ikinci toplum 80 nəfər olmasına baxmayaraq, fizika sahəsində cəmiyyətin qarşısına çıxa biləcək istənilən problemləri həll etməyə qadirdir. Çünki bu toplumun içərisində fənnini əla bilən beş nəfər var. Birinci toplum belə fiziki problemləri həll edə bilməyəcəkdir, çünki onların içərisində əla qiymətlə təhsil alan bir nəfər belə yoxdur. Biliyin maddi sərvətdən fərqi bundadır ki, o, toplanmır, cəmiyyətdə hər kəs az bilirsə, hamı az bilir.

Beləliklə, əlavə xərc çəkmədən 100 nəfərlik tələbə toplumunu daha sərfəli vəziyyətdə təhsilləndirmək üçün 4+2 sxemi çox əlverişlidir. 100 nəfərə 4 il təhsil verilir və onlardan 80 nəfəri bakalavr diplomu alaraq istehsalata göndərilir, 100 nəfərin

beşinci il üçün nəzərdə tutulmuş təhsil xərcinə isə yerdə qalan 20 nəfər magistraturada iki illik təhsilə cəlb olunur. İqtisadi baxımdan da bu sistem sərfəlidir. Çünki 100 nəfərin bir illik təhsil xərci 20 nəfərin 2 illik təhsil xərcindən daha çoxdur. Bax, 5 illik təhsildən 4+2 illik ali təhsil sisteminə keçidin məntiqi bundan ibarətdir.

Yeri gəlmişkən, qeyd edək ki, ali təhsilin birinci pilləsini bitirib «bakalavr» ixtisas dərəcəsi alan məzunlar ali təhsillidirlər. Bu diplomu alanlar orta məktəbdə dərs demək, və digər sahələrdə işləmək, habelə magistraturada təhsillərini davam etdirmək hüququ qazanırlar. «Bakalavr» ixtisas dərəcəsi alanlar lap nazir də ola bilərlər. «Magistr» ixtisas dərəcəsi almış gənclər həm də elmi-tədqiqat və ali təhsil müəssisələrində pedaqoji və elmi fəaliyyət məşğul ola bilərlər.

Ali məktəb təhsilalanları, insanları müxtəlifləşdirməlidir. Yuxarıda bu fikirə rəğmən qeyd etmişdik ki, orta məktəb isə təhsilalanlara eyniləşdirməlidir. Bu tezisin elmi əsası varmı?

Heç kəs belə bir elmi fakta şübhə etməz ki, hər bir insan əvvəlcədən verilmiş ümumi və xüsusi dəst (nabor) qabiliyyətlər toplumu ilə anadan doğulurlar. Keçmişdə bu qabiliyyətlərin yaranma səbəblərini kök ilə, süd ilə, indi isə genetik kodların ötürülməsi ilə bağlayırlar. Orta məktəb, xüsusən onun birinci səviyyəsi (baza təhsili) əsasən, hamı üçün ümumi olan keyfiyyətlər üzərində qurulur və ondan istifadə edib insanlara eyni təhsil verməlidir. Orta məktəbdə təhsil alanların hamısı Nyüton qanunlarını, həndəsə teoremlərini, kimyəvi elementləri, Azərbaycan ədəbiyyatını, tarixini və s. bilməlidir. Əgər məktəb normal fəaliyyət göstərərsə, yəni proqram materialını hamı eyni dərəcədə (100%) mənimsəyərsə, onda gənclər intelektual baxımdan eyniləşər. Gənclərin intelektual səviyyəsi o zaman müxtəlif olur ki, biri proqramı 80%, digəri 60%, başqa biri isə 20% mənimsəyir. Bu hal məktəb yarımçıq olanda baş verir. Ali məktəb həm ümumi, həm də xüsusi qabiliyyətləri üzərində qurulur və gəncləri müxtəlif istiqamətlər üzrə mükəmməl

təhsilləndirir. Biri musiqiçi, biri rəssam, biri tarixçi, biri riyaziyyatçı, digəri fizik və s. kimi hazırlanır. Bu mənada ali məktəb gənclərimizi müxtəlifləşdirir.

## 17.1. Ali məktəblərin sayı

*“Ali məktəblərin kütləvi yaranmasından elmin elm kimi məhv olma tendensiyası yaranır”.*

***Karl Yaspers***

Ali məktəblərin sayının çoxluğu kütləvi informasiya vasitələrində tez-tez müzakirə obyektinə çevrilir. Təhsil sistemində ali məktəblərin sayı çox da vacib göstərici deyildir. Ali məktəblə bağlı dövlətin təhsil siyasətinin əsas göstəricisi əhalinin hər on min nəfərinə düşən tələbələrin sayı və bir də ölkədə tələbələrin ümumi sayıdır. Ona görə də müxtəlif dövlətlərin təhsil səviyyəsi müqayisə edilərkən əsas meyar kimi ali məktəblərin sayından yox, əhalinin hər on min nəfərinə düşən tələbə sayından istifadə edilir. **Bu göstəricini nəzarət altında saxlamaq hər bir müstəqil və milli dövlətin əsas vəzifələrindən biri hesab edilir**. Çünki, xalqın maariflənməsi, cəmiyyətin tərəqqisi, elmi inkişafı, nou-xau qabiliyyəti və intellektual potensialının formalaşması bu göstəricidən asılıdır.

İkinci Dünya müharibədən sonrakı Almaniyanın mənəvi atası sayılan **Karl Yaspersin** yuxarıdakı fikiri keçid dövrünü yaşayan Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir. Bu fəlsəfi fikrin açılışı ondan ibarətdir ki, Ali məktəbin professor–müəllim heyətinin elmi səviyyəsi və ali təhsil xidmətinin səviyyəsi hökmən dünya standartları səviyyəsində olmalıdır. Dünya səviyyəli müəllim və professorların sayı isə istənilən dövlətdə məhduddur. Ali məktəblərin sayı məhz bu saydan asılıdır. Ən xırda ali məktəbdə belə elmi-pedaqoji kadrların sayı 75 –100 nəfərdən az olmamalıdır. Belə olan halda ali məktəblərdə tələbə yerlərinin sayı ilə elmi dərəcəli kadrların sayı arasında məlum şərt ödənilməlidir. Sovetlər zamanında 12 tələbəyə bir müəllim yeri nəzərdə tutulurdu. Bakı Dövlət Universitetinin professor-müəllim kollektivi 1150 nəfərdən çox olmaqla 250 nəfərdən çox

elmlər doktorunu, professoru, 700 nəfərdən çox elmlər namizədini, dosenti və 200 nəfərdən çox yüksək ixtisaslı mütəxəssiləri əhatə edir. Bakı Dövlət Univrsitetinin tələbələrinin sayı 14 500 nəfərdən çoxdur. Bu Universitetdə elmi işçilərin sayı 250 nəfərdən çoxdur.

Ali təhsil ocağı hər il istənilən istiqamət və ixtisas üzrə müəyyən tədris planında nəzərdə tutulmuş fənlərin 90-95%-ni tədris etmək qabiliyyəti olan professor-müəllim kollektivi ilə komplektləşməlidir. Bir neçə müəllim və professor çatmayanda onları başqa ölkələrdən dəvət etmək olar. Necə ki, bizim bir çox alimlərimiz bu cür dəvətlərlə xaricdə çalışırlar. Alim əməyi bahalı olduğundan başqa ölkələrdən çox müəllim çağırmağa ali məktəbin maliyyə vəsaiti çatmaz. Ali məktəblər əsasən milli kadrlar üzərində qurulmalıdır. Ancaq universitetin bəzi dekanlarının, kafedra müdirlərinin fürsətdən istifadə edərək Bakıya müxtəlif niyyətlə gəlmiş adlı-sanlı alimlərin mühazirələrini təşkil etdiklərinin şahidi olmuşam. Bu mütərəqqi təcrübədir.

Keçid dövrünün yaratdığı çətin şəraitdən ən çox əziyyət çəkən elm və təhsil sahəsidir. Postsovet dövründə təhsil sistemi kəskin kəmiyyət dəyişiklikliyinə məruz qalmışdır.

Misal üçün Rusiya Federasiyasında ali məktəblərin sayı və tiplərinin məruz qaldığı dəyşiliklər cədvəl 17.1-də göstərilmişdir.

**Cədvəl 17.1**

| Dövlət ali məktəbləri | İllər | |
|---|---|---|
| | 1992 | 1997 |
| Universitetlər | 85 | 236 |
| Akademiyalar | 28 | 184 |
| İnstitutlar | 420 | 131 |

RF-də ali təhsil müəssisələrinin sayının kəskin artmasına baxmayaraq, qeyd etmək lazımdır ki, hər il RF-dən 31-45 yaşda

xaricə beyin axını təqribən 70-90 min nəfərdir. ABŞ-ın *Silikən vadisində* bəzi seminarlar rus dilində aparılır, çünki seminar iştirakçılarının çoxu Rusiyadan getmiş mütəxəssislərdir. 1970-ci illərdə SSRİ-də işləyən əhalinin hər 30 nəfərindən biri elm sahəsində çalışırdı. İndi RF-də bu göstərici 66 nəfərdən biridir. Azərbaycanda da vəziyyət təqribən belədir.

F.E.Şereqi, V.Q.Xarçeva, V.V.Serikov **(Sosioloqiə obrazovaniə: Prikladnoy aspekt. M., Örist,1997)** kitabının verdiyi məlumata görə RF-də müəllimlərin 81,2%-i kasıblıq və yoxsulluq şəraitində yaşayırlar.

Cənubi Qafqaz ölkələrində ali məktəblərin sayı ilə bağlı məlumat maraq kəsb edir. ”””””””””**”Statistiçeskiy Ejeqodnik Öjno-Kavkazskix stran” (İz-vo “Sada”, 2002)** toplumdan götürülmüş məlumatlar cədvəl 17.2-də göstərilmişdir. Keçid dövrünün iqtisadi çətinliyi və bu ölkələrin də təhsil sisteminə böyük mürəkkəblik yaratmışdır.

**Ъядвял 17.2**

| | **Али мяктяблярин сайы** | **Юлкяляр** | **1997/98** | **1998/99** | **1999/00** | **2000/01** |
|---|---|---|---|---|---|---|
| | Али мяктяблярин | Ерм. | 103 | 100 | 98 | 90 |
| | вя | Азяр. | 41 | 42 | 42 | 43 |
| | | | | | | |
| 1 | тялябялярин сайы (мин | Эцр. | 182 | 178 | 186 | 171 |
| | | | 56.2 | 59.7 | 61.7 | 60.7 |

Dövlət Statistika Komitəsinin son məlumatına görə hazırda ölkəmizdə **26** dövlət və **15** (bunlardan 4-nə 2002-ci ildə tələbə qəbulu inzibati yolla dayandırılmışdır) özəl ali təhsil müəssisəsi təhsil fəaliyyəti ilə məşğul olur.

Bundan başqa, Ali Hərbi Ümumqoşun Komandirlər məktəbi, Ali Hərbi Dənizçilik məktəbi, Bakı Ali Polis Akademiyası, Milli Təhlükəsizlik Akademiyası ali təhsilli mütəxəssislər hazırlayırlar.

Azərbaycanda həm ali məktəblərin sayının, həm də özəl ali məktəblərin tələbələrinin sayının dinamikası qonşu dövlətlərin analoji göstəricilərindən xeyli fərqlənir. Qonşu dövlətlərlə müqayisədə bunu təhsil sahəsində inzibatçılığın çox olması ilə izah etmək olar.

Son illər ali məktəblərin sayı xeyli artdığından ilk baxışda elə təsəvvür yaranır ki, tələbələrin də sayı proporsional olaraq artmışdır. Cədvəl 17.2-dən göründüyü kimi 2000/2001-ci dərs ilinin əvvəlinə özəl ali təhsil müəssisələrində 28,7 min, dövlət ali təhsil müəssisələrində isə (119.7-28.7=91) 91 min tələbə təhsilə cəlb edilmişdir.

Bu sahədə aydın təsəvvür yaratmaq üçün SSRİ dövründə və müstəqillik illərindəki Azərbaycanda vəziyyət cədvəl 17.3-də göstərilmişdir. Cədvəldə əhalinin hər 10 000 nəfərinə düşən tələbə sayı da göstərilmişdir.

Cədvəldən göründüyü kimi ali məktəblərin sayının artmasına baxmayaraq, əhalinin 10000 nəfərinə düşən tələbə sayı artmamış, əksinə azalaraq 172-dən (1980) xeyli aşağı düşmüşdür. SSRİ-də bu göstərici 1980/81-ci illərdə 197 olmuşdur. Azərbaycanda bu göstərici ən yüksək səviyyəyə 1980/81-ci ildə Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi zaman çatmış, və o zaman bu göstərici 172 nəfər, tələbələrin ümumi sayı isə 107 000 nəfər olmuşdur Əgər nəzərə alsaq ki, o zamanlar Heydər Əliyevin təşəbbüsü və səyi ilə minlərlə azərbaycanlı gənclər SSRİ-nin qabaqcıl ali məktəblərinə təhsil almağa göndərilirdi, onda Azərbaycan üçün bu göstərici daha yüksək idi və demək olar ki,

SSRİ-də 3-4-cü yerlərdə dururdu. Qeyd etmək kifayətdir ki, 1999/2000-ci ildə bu göstəricilər Rusiya Federasiyasında 246, Azərbaycanda isə xeyli aşağı 146 nəfər olmuşdur. İnkişaf etmiş ölkələr üçün bu göstərici 300-dən çoxdur. Göründüyü kimi bu göstərici RF-də yüksələn, Azərbaycanda isə azalan istiqamətdə davam edir.

**Cədvəl 17.3**

| Dərs ilinin əvvəlinə | Ali məktəblərin sayı: Dövlət + özəl (ö) | Tələbələrin sayı (min nəf.) | Əhalinin 10000 nəfərinə düşən tələbənin sayı | |
|---|---|---|---|---|
| | | | Azərbaycan üzrə | SSRİ üzrə |
| 1980/81 | 17 | 107,0 | 172 | 197 |
| 1985/86 | 18 | 105,9 | 158 | 185 |
| 1989/90 | 16 | 99.7 | 140 | 179 |
| 1990/91 | 17 | 105.1 | 147 | 178 |
| 1993/94 | 17 | 99.3 | 127 | |
| 1995/96 | 23+20 (ö) | 98.8 | 129 | |
| 1997/98 | 25+16 (ö) | 100.2 | 128 | |
| 1999/2000 | 25+17 (ö) | 116,1 | 146 | 246 (RF) |
| 2000/01 | 25+15 (ö) | 119.7 | 149 | |
| 2001/02 | 26+11 (ö) | 120,5 | 149 | |

"Abituriyent" jurnalının 2002-ci ilin 12-ci sayında ölkəmizdə təhsilin vəziyyəti ilə bağlı (səh.17-də) oxuyuruq:

*"Qəbulolma göstəricilərinin ayrı-ayrı təhsil formaları üzrə təhlili göstərir ki, dövlət ali təhsil müəssisələrinə 17 847, özəl ali təhsil müəssisələrinə isə 793 tələbə qəbul olunmuş, dövlət ali məktəblərinin qəbul planı 72,97%, özəl ali məktəblərin planı isə 25,42% dolmuşdur. Dövlət ali məktəblərinin ödənişsiz ixtisasları üzrə qəbulolma faizi 74,62% ödənişli ixtisaslar üzrə isə 71,56% olmuşdur.*

Beləliklə, 2002-ci ildə 27 577 plan yerinə cəmi 18 640 nəfər tələbə qəbul olmuşdur. Universitetlərdə 8937 nəfər tələbə yeri boş qalmışdır. Bu yerlər ona görə boş qalmışdır ki, orta məktəblər lazımı səviyyədə bilik verə bilmir. Məncə bu faktlar kifayətdir ki, papağımızı qabağımıza qoyaq və fikirləşək. Əgər düzgün fikirləşə bilsək, onda həyacan təbili çalınmalıdır. Çünki bu faktların özü təhsildə gedən *gizli böhranın* aşkar göstəricisidir.

Cari ildə ali məktəb tələbələrinin sayı 120 500 nəfər, hər 10 min nəfər əhali sayına düşən tələbə sayı isə 149 nəfərdir. Bu göstəriciləri xeyli artırmağa potensial imkanlarımız vardır.

Orta ixtisas məktəblərində vəziyyət cədvəl 17.4-də göstərilmişdir.

**Cədvəl 17.4**

| Dərs ilinin Ÿəvvəlinə | Tələbələrin sayı | Əhalinin 10000 nəfərinə düşən tələbənin sayı |
|---|---|---|
| 1980/81 | | 127 |
| 1989/90 | | 56 |
| 1990/91 | 58800 | 81 |
| 1993/94 | 33900 | 46 |
| 1995/96 | 30 500 | 40 |
| 1997/98 | 32 600 | 42 |
| 1999/2000 | 38 800 | 49 |

1980-ci il SSRİ standartları ilə bu gün üçün qiymətləndirmə aparsaq onda bizim dövlət universitetlərində təhsil alan tələbələrin sayı 2001-ci il üçün 91 000 yox, 140 000 nəfər ola bilərdi. Əgər qabaqcıl ölkələrin standartları ilə qiymətləndirmə aparsaq, onda tələbələrimizin sayı 200 000 nəfərdən çox olmalı idi.

Bu səviyyəni saxlamağa ölkəmizin mövcud elmi-pedaqoji kadr, başqa sözlə, professor-müəllim potensialı da imkan verir. Təkcə dövlət ali məktəblərində ümumilikdə 6000 çox (894-elmlər doktoru və 5259 elmlər namizədi) yüksək elmi dərəcəli professor-

müəllim fəaliyyət göstərir. Yəni orta məktəbin məzunlarının 30%-dən çoxuna ali təhsil verməyə bizim yüksək ixtisaslı kadr potensialımız, başqa sözlə, intellektual gücümüz var, sadəcə orta məktəbin verdiyi bilik səviyyəsi ali məktəbdə təhsil almağa kifayət etmir. Yəni bizim əlavə 40-60 min gəncə ali təhsil verməyə potensial imkanımız (yüksək ixtisaslı kadrlarımız, elmi dərəcəli müəllimlərimiz) vardır. Sovetlər dövründən qalmış bu çox **dəyərli qüvvə** sıradan çıxmamış ondan istifadə etməmək böyük günahdır. Bu bizə yox düşmənimizə xeyirdi. İntelektual sərvətin maddi sərvətdən bir fərqi də bundan ibarətdir ki, onun daşıyıcısı sağdırsa mülkiyyət var, daşıyıcı dünyasını dəyişəndən sonra əqli mülkiyyət də onunla bərabər ölür. Keçid dövrünün çətinlikləri altında bu potensialın getdikcə tükənməsinə imkan vermək yolverilməzdir. Karl Yaspersin epiqrafa çıxarılmış fikiri məhz yüksək səviyyəli intelektual potensialın olmadığı yerlərdə ali məktəblərin açılmasına imkan verməməyi nəzərdə tutur. Bu bir həqiqətdir ki, müəyyən intelektual səviyyəli kadrı yalnız və yalnız ondan daha səviyyəli kadr hazırlaya bilər. Milli Məclisə ünvanlanmış sualların birində soruşulur: «Respublikanın 12 rayon mərkəzində Müəllimlər İnstitutunun filialı açıldı. Şəkidə, Lənkəranda müdafiə şuraları yaradıldı. Nə üçün? Keyfiyyət arzusu ilə bunlar bir araya sığırmı?» Mən hesab edirəm ki, bu addımlar keyfiyyəti aşağı salan addımlardandır.

Fizikada qazlarda elektrik cərəyanını yaranmasını **«Sel nəzəriyyəsi»** adlanan bir nəzəriyyənin köməkliyi ilə izah edirlər. Həmin nəzəriyyəyə görə başlanğıcda bir elektron elektrik sahəsində kifayət qədər sürətlənərək qaz atomu ilə toqquşur və ondan əlavə bir elektron qoparır. Sonra bu iki elektron digər qaz atomları ilə toqquşaraq hərəsi yeni bir elektron qopararaq dörd elektron yaranır. Sonra bu dörd elektronun hər biri yeni bir elektron yaradır. Bu səkkiz elektron 16, bunlar da 32 elektron yaradaraq elektron seli əmələ gətirirlər. Bunun nəticəsində isə qazlar elektrik cəryanın keçirir. Gündüz işıqlı lampalar adlanan lümünofor lampaların işləməsi bu nəzəriyyə ilə izah edilir.

Fotoelektron çoxaldıcılar adlanan elektron cihazı da bu prinsip əsasında işləyir.

«Sel nəzəriyyəsi»nin köməkliyi ilə təhsildə nəsillərin bir-birinə bilik ötürməsinin qəribə bir mexanizmin izah etmək mümkündür. Bu mexanizmin yaranması geniş zaman intervalında (on illər ərzində) baş verir. Belə ki, elmlər namizədi dərəcəli olan qocaman bir müəllimin öz biliyini universitetlərdə gənc nəsilə öyrətməsi hesabına bir neçə müddətdən sonra təhsil vasitəsi ilə gənc nəsli (çoxlu sayda) öz səviyyəsinə qaldırır, yerin onlara verərək özü bu prosesdən təbii olaraq uzaqlaşır. Cavan müəllim gənc olduğundan daha yüksək səviyyələrə qalxmağa şansı var. Çünki onun əlində qiyməti dəyərincə dərk edilməyən **zaman** kimi resurs var. Öz yaşlı müəllimlərinin ömrü boyu öyrəndiyini o, çox erkən, gənc yaşlarında öyrənir. Bu şansdan istifadə edərək intellektual potensialını ömrü boyu yüksəldir və növbəti gənc nəsli öz səviyyəsinə qaldırır və beləliklə biliklər nəsildən-nəsilə selvari (bir nəfər on nəfər hazırlayır, sonra bu on nəfərin hər biri yeni on nəfər hazırlayır və bunun kimi) ötürülür, zaman keçdikcə həm elmi və intellektual səviyyə yüksəlir və həm də belə səviyyəli insanların sayı artır. Təhsil kadırlarının zamana görə inkişafını sel nəzəriyyəsinə əsasən izah etmək olar. Bu inkişaf qrafik olaraq Arximed spiralı ilə (şəkil 15 (v)) təsvir edilmişdir.

XX əsrin əvvəllərində mənim bildiyimə görə ölkəsmizdə fizika-riyaziyyat elminin başlanğıcında cəmi bir neçə alim-pedaqoq durmuşdur: Rəhim Məlikov, Məmmədbəy Əfəndiyev və Bəhram Mirzoyev. Bu insanlar sonralar ikinci - fizik və riyaziyyatçılar nəsilini: Əşrəf Hüseynov, Zahid Xəlilov, Maqsud Cavadov, Rəhmi Həsənov, Mehdi Əliyev, Abdulla Muxtarov, Kəriş Köçərili, Qoşqar Əhmədov, Ə.Həbibzadə, Y.Əmənzadə, M. Sərdarlı və onlarla digər dəyərli alimləri yetişdirmişdirlər. Bu alimlərin yetişdirdiyi üçüncü nəsil dünya səviyyəli və şöhrətli alimlərimizin sayı yüzlərlədir. Növbəti nəsilin təmsilçiləri minlərlədir. Bu alimlərimiz dünya elminə layiqli töhfələr verirlər.

Bu töhfələrə biz «**Scince Sitation İndex**» jurnallarını vərəqləyərkən rast gəlirik. Bu imkanların əldən getməsinə, bu mənəvi zəncirin qırılmasına yol verməməliyik. Elmin, təhsilin inkişaf yolu belədir. Bu zəncir qırılmaq üzrədir, ona diqqət lazımdır. Bu gün BDU-nun fizika fakültəsinin çox dəyərli və yüksək səviyyəli alimləri kifayət qədər yaşlıdırlar. Milli Elmlər Akademiyasının üzvləri, beynəlxalq səviyyəli alimlərimiz – Abdulla Muxtarovun, Sabir Hacıyevin, Bəhram Əsgərovun yaşları 65-dən yuxarıdır. Bizim borcumuz bu dəyərli insanlarla gənclərin təmasının qırılmasına yol verməməkdir. Əks halda təzədən 1900-cü ilin əvvəllərində olduğu səviyyədən başlamalı olacağıq. **Təhsil ip deyil ki, qırılanda düyüb təzədən istifadə edəsən, təhsil şüşədir, qırıldı məsrəfdən çıxır**.

Beləliklə, ali təhsilin strateji problemi araşdırılarkən, ali məktəblərin sayı yox, ali məktəb tələbələrinin sayı və əhalinin hər on min nəfərinə düşən tələbələrin sayı ön plana çəkilməlidir, həm də ali məktəbin kadr potensialı diqqət mərkəzində saxlanılmalı və dövlətin, cəmiyyətin qayğısı ilə əhatə edilməlidir. Qeyd etmək lazımdır ki, Sovetlər zamanında alimin cəmiyyətdə statusu düzgün müəyyən edilmişdir. Ali məktəbdə çalışan elmlər namizədi rayon partiya komitəsinin I katibindən yüksək əmək haqqı alırdı. Yəni dövlət və cəmiyyət alimə pramidal strukturda aşağıda yox, kifayyət qədər yuxarıda yer verilmişdir.

Təhsilimizin bugünündən danışarkən bir daha qeyd edək ki, son ildə əhalinin hər on min nəfərinə düşən dövlət ali təhsil müəssisələrində tələbə sayı - 112 nəfər, tələbələrin sayı isə 91 000 nəfər olmuşdur. Bu göstəricilər həm 1980-81 ci il, həm də 1990-91 ci il göstəricilərindən xeyli aşağıdır.

Əgər 1980/81 -ci il təhsil standartları səviyyəsini saxlaya bilsəydik, onda 2001/2002-ci ildə ali məktəblərə və orta ixtisas məktəblərinə əlavə 40-50 min nəfər gənci də təhsilə cəlb edə bilərdik. Çox təəssüf ki, biz bu potensialı itirmişik. Dövlətin **iqtisadi potensialı buna imkan vermir**. İkinci bir imkan isə

cəmiyyətin öz potensialından istifadə etməkdir. Cəmiyyəti düzgün idarə edə bilsək o özünü təhsilləndirə bilər.

## 17.2. Özəl təhsil

*«Dövlət təhsil sistemi ilə yanaşı, Azərbaycanda özəl təhsil sistemi də yaranır. Bu, müasir dövrün tələbidir. Biz bu hadisəni müsbət qiymətləndiririk».*

***Heydər Əliyev***

Yuxarıda qeyd edildiyi kimi müstəqil Azərbaycanda yeni demokratik, sivil, dünyəvi dövlət qurulur və vətəndaş cəmiyyəti yaradılır. Vətəndaş cəmiyyətinin mahiyyəti **"dövlət-vətəndaş"** münasibətini şaquli müstəvidən, üfiqi müstəviyə keçirməkdir. Bu, şaquli istiqamətdə dövlət nəzarətinin zəifləməsi, üfqi istiqamətdə ictimai nəzarətin güclənməsi hesabına baş verir. Təhsil sahəsində bu o deməkdir ki, əgər biri övladına yüksək səviyyəli təhsil vermək istəyirsə və başqa birisi (hüquqi və ya fiziki şəxs) isə bu işi uğurla görə bilirsə, dövlət bu işə maneçilik yox, şərait yaratmalıdır. "Repetitorluq»" həyatda bu prosesin primitiv şəkildə təzahürüdür. Yüksək səviyyədə bu missiyanı özəl universitetlər və məktəblər həyata keçirə bilərlər. Ancaq bir şərtləki, bu proses özbaşına buraxılmasın. Ya dövlət, ya cəmiyyət, ya da qarışıq nəzarət olmalıdır. Əks halda bizdə də Ermənistan və Gürcüstandakı vəziyyət yaranar (bax cədvəl 17.2). İnanmıram ki, Ermənistanda 71, Gürcüstanda isə 145 şəhər və qəsəbə var. Deməli, nəzarətsizlik nəticəsində kənddə də ali məktəb açıla bilər. Bu isə yolverilməzdir.

Ali təhsil çox pul tələb edən sahədir. Dövlətin buna imkanı çatmayanda, bu problemin bir hissəsini cəmiyyətin üzərinə qoymalı və ya bu problemin həllində cəmiyyətin potensialından da istifadə edilməlidir. Başqa sözlə, dövlət bu məqsədlə valideynlərin imkanlarından istifadə etməyə maraq göstərməlidir. Ən varlı dövlətlər belə bu imkandan geniş istifadə edirlər.

Hər şeydən əvvəl qeyd edək ki, dünya iqtisadiyyatında özəl sektor həlledici yer tutur. Azərbaycanda da özəl sektor

uğurla inkişaf edir. Çalışmaq lazımdır ki, başqa sahələrdə olduğu kimi, təhsildə də özəl sektor öz məntiqi yerini tutsun. Bu yeni quruluşun məntiqindən doğur və zamanın tələbidir.

Bazar iqtisadiyyatının prinsipləri həyatımızın müxtəlif sahələrinə tətbiq olduqca vəziyyət yaxşılaşır. Sahibkarlıq çörək və ərzaq bazarına, kənd təsərrüfatı sektoruna, nəqliyyata və rabitə sahələrinə daxil olduqca problemlərin çoxu öz həllini tapır. Əgər fermer təsərüfatları yaratmayıb kolxozları sovxozlarla ya birləşdirib, ya parçalayıb dövlətdə saxlasaydıq, onda yenə də ərzaq bolluğu yaratmaq mümkün deyildi. Torpaq, kəndli, mal-qara dəyişməyib, dəyişən **iqtisadi münasibətdir.** Ölkə heç zaman indiki qədər çox taxıl istehsal etməmişdir. Bu yeni **iqtisadi münasibətin** nəticəsində əldə edilmişdir. Təhsil sistemində də həm struktur dəyişiklikləri aparılmalı, həm də təhsildə yeni **iqtisadi münasibətlərinin** yaranmasına kömək göstərilməlidir.

Ölkəmizdə özəl təhsillə bağlı cəmiyyətdə yekdil fikir yoxdur. Tez-tez ziddiyyətli fikirlərlə rastlaşırıq. Dövlət universitetinin professorlarının birindən: “Kim özəl təhsili müdafiə edirsə, o xalqın düşmənidir””“”, başqa birisindən isə “özəl təhsil yeni dövlət quruculuğunun məntiqindən, təhsildə liberalizmdən törəyir”“” - fikirlərini eşitmək mümkündür.

Bu gün özəl universitetlərin varlığının cəmiyyətdə birmənalı qəbul edilməməsinin əsas səbəbi keçmişdən gələn sovet düşüncə tərzi ilə bağlıdır. Sovetlər dönəmində insanlar ali məktəbdə pulsuz təhsil aldığından, hesab edirlər ki, o müsbət ənənə bu gün də davam etdirilməlidir. Ancaq heç kəs inanmaq istəmir ki, o zaman da ali təhsil pullu olubdur. Sadəcə bizim ali təhsil haqqımızı dövlət ödəyibdir.

Problemi dərindən öyrənmədən bu məsələyə keçmişin gözü ilə baxıb mənfi münasibət bəsləyənlər öz populist çıxışları ilə cəmiyyəti çaşdırırlar. Cəmiyyətə yolun düzgününü yox, səhvini göstərirlər. Özəl universitetlər ətrafında həqiqətə uyğun olmayan fikirlər söyləyirlər.

*"Delovaya Amerika"* kitabında yaxşı bir məsləhət var: "Düz danış, nə bacarırsan - düz danış. Səndən gözləniləndən də artıq düz danış..."""""*"Mәncә, özәl tәhsil barәdә* çox vaxt bilərəkdən düz danışmırlar. Onun təhsil sistemində yerini düz göstərmirlər. Onu təhsildə olan bütün bəlaların əsası kimi cəmiyyətə təqdim edirlər. Əslində belə deyil, onun bu bəlalarda heç bir günahı yoxdur, ona nəzarətdə isə günah az deyildir.. Özəl təhsillə bağlı səhv təsəvvür, bu təhsil sferası haqqında səhv qərarların qəbulu ilə nəticələnə bilər. Söhbət təhsildən (millətin gələcəyindən) getdiyinə görə bu sahədə səhv edilməməlidir. Əks halda gələcəyimizi uduzarıq.

İnancıma görə hər hansı bir hadisə ilə bağlı qəbul olunmuş qərarın xətası (ΔQ) ilə o hadisə ilə bağlı informasiyanın cəminin (**Δİ**) hasili sabitdir. Bu formulanın ictimai əhəmiyyəti bundan ibarətdir ki, insanın qəbul etdiyi qərarın hökmən xətası var. Ağıllıların qəbul etdiyi qərarın xətası az, müdrük adamların qəbul etdiyi qərarın xətası ondan da az olar. Mütləq düzgün qərarı ancaq cənab Haqq qəbul edə bilər. Az informasiyaya malik olmaq səhv qərarların qəbul edilməsinə səbəb olur. Son illərin test imtahanlarının nəticəsi göstərir ki, orta məktəb məzunlarının bilik səviyyəsi çox aşağıdır. Orta bilik səviyyəsi 2002-ci il üçün mənimsəmənin aşağı həddi olan 420 baldan çox-çox aşağı (158 bal) olmuşdur. Deməli, təhsil sahəsində səhv qərarlar qəbul edirik. Əks halda səviyyə bu qədər aşağı düşməzdi.

Özəl təhsillə bağlı biz səhv qərar qəbul etməmək üçün bəşəri təcrübəni öyrənməliyik. Özəl təhsilin cəmiyyətdə yerini, onun yaranma səbəbini, təhsil sisteminə daxil olma məntiqini öyrənməliyik. Çoxlu məlumatlar toplandıqdan sonra qərar qəbul etsək səhvimiz az olar.

Məqsədim özəl təhsili nə müdafiə, nə də tənqid etməkdir. Məqsədim özəl təhsillə bağlı həqiqəti araşdırmaqdır və onun cəmiyyətdə yerini düzgün müəyyənləşdirməkdir. Əgər həqiqəti tapırıqsa, bu bizim dövlətçiliyimizə köməkliyimiz olar. Həqiqət isə dərindədir, tapmaq üçün tədqiqat aparmaq lazımdır,bəşəri

təcrübə ilə bağlı məlumat toplamaq, nəticələr əldə etmək lazımdır. Cədvəl 17.2-nin 2-ci sətrində Cənubi Qafqaz dövlətlərinə aid əks olunmuş rəqəmlərin bir-birindən kəskin fərqlənməsi bu dediklərimizi sübut edir.

Hüquq ixtisası üzrə keçmişdən gələn ajiotaj hələ də davam edir. 1998-ci ildə özəl universitetlərin 20000 tələbəsindən 12000-i hüquq fakültələrində oxuyurdu.

Azərbaycan prezidenti cənab Heydər Əliyevdən başqa milli təhsilə məsul rəhbərlərdən heç kəs bu sahəyə işıq tutmayıbdır, bu problemlə bağlı aydın fikir söyləyibdir. Bu işə cavabdeh olanlar, rəsmi mətbuat, TV, KİV, radio və bunun kimi digər vasitələrlə məsələyə aydınlaq gətirməyiblər.

Cənab Prezident özəl təhsilə öz münasibətini bir neçə dəfə bildirib. 1998-ci il Prezident seçkilərində seçdiyi üç rektor vəkildən ikisinin özəl universitet rektorları olmasını (prof. S.Xəlilovu və prof. H.Bağırovu) cənab prezidentin ümumi halda təhsildə liberalizmə, demokratiyaya, xüsusi halda özəl təhsilə müsbət münasibət bəslədiyi kimi qiymətləndirmək olar. Digər tərəfdən 2001-ci il sentyabrın 1-də ilk özəl ümumtəhsil məktəb kompleksinin açılışındakı çıxışında möhtərəm prezidentimiz:

**“Özəl təhsil müəssisələrinin yaranması Azərbaycanda yeni bir hadisədir və biz bunları dəstəkləyirik» -dedi.**

Bu fikirdən sonra cənab prezident özəl təhsilin cəmiyyətdə yeri ilə bağlı daha ciddi fikir söylədi:

**«Ancaq bir şeyi qeyd etmək istəyirəm ki, ümumiyyətlə, təhsil biznesə çevrilməməlidir. Bunu hamı bilməlidir”.**

Bu fikirlərin hər ikisi özəl məktəblərin cəmiyyətdə yeri haqqında mükəmməl və dəyərlidir, riyazi dillə desək həm zəruri, həm də kafidir.

Rezerfordun belə bir fikiri var: **“İstənilən həqiqət üç mərhələdən keçir. Birinci mərhələdə deyirlər: bu ola bilməz, ikinci mərhələdə deyirlər: bu ola bilər, üçüncü mərhələdə deyirlər: bu ki çoxdan məlumdur”.**

Özəl universitetlər Azərbaycanın təhsil sistemində yeni bir həqiqət olaraq öz inkişafının birinci mərhələsini yaşadı. İlk özəl ümumtəhsil kompleksinin açılışında etdiyi çıxışında möhtərəm prezidentimiz özəl məktəblərlə bağlı müsbət fikirlərini söylədikdən sonra özəl məktəblər öz varlığının ikinci mərhələsini yaşayır. Özəl məktəblərin öz varlıqlarının 3-cü mərhələsini yaşayacağı gün uzaqda deyildir.

Respublika Statistika Komitəsinin məlumatına görə 2000/2001-ci dərs ilinin əvvəlinə 28,7 min tələbənin təhsil aldığı dövlət lisenziyalı 18 qeyri-hökumət ali təhsil müəssisəsi fəaliyyət göstərmişdir.

Təhsil nazirinin dəvəti ilə 26 fevral 2001-ci ildə keçirilən bir kollegiya iclasında iştirak etdim. Kollegiyanın materiallarına istinadən qeyd etmək istəyirim ki, 2000/2001-ci il tədris ilinin qış imtahan sessiyasının yekunları və eksperimentlərinin nəticələri bu sahədə bə`zi qüsurlarla yanaşı böyük irəliləyişlərdən xəbər verir. Belə ki, qış imtahan sessiyasının ümumi müvəffəqiyyət göstəricisi dövlət ali təhsil müəssisələrində 69,6 faiz olduğu halda, özəl təhsil müəssisələrində 82,5 faiz olmuş, monitorinq aparılan qruplarda müvəffəqiyyət göstəricisi dövlət təhsil müəssisələrində 38,5%, özəl təhsil müəssisələrində 66,7% olmuşdur. Nəzərə alsaq ki, özəl universitetlərə qəbul olan tələbələrin bilik səviyyəsi adətən dövlət universitetlərinə qəbul olanlarınkından xeyli aşağı olur (bax: Cədvəl 17.5), onda bu nəticələr özəl universitetlərin uğuru kimi qiymətləndirilməlidir.

Dövlət və özəl ali məktəblərə qəbul olanların
bala görə faizlə paylanması

**Cədvəl 17.5**

| | Bal intervalı | Qəbulolma faizləri | |
|---|---|---|---|
| | | Dövlət | Özəl |
| 1 | 50-100 | 1,4 | 0,1 |
| 2 | 100-200 | 25 | 37,1 |

| | | | |
|---|---|---|---|
| 3 | 200-300 | 29,6 | 44,0 |
| 4 | 300-500 | 37,3 | 17,3 |
| 5 | 500-700 | 6,7 | 1,4 |

Cədvəl 17.5-dən göründüyü kimi dövlət ali məktəblərinin əsas kontingentinin bilik səviyyəsi 200-500 bal intervalına düşdüyü (77%) halda, özəl universitetlərdə bu interval 100-300 bal (81%) əhatəsindədir. Maraqlı hal odur ki, yüksək bal toplamış (500-700) abituriyentlərdən 1,4%-i də özəl universitetlərə üstünlük verirlər.

Dünya praktikasına əsaslanaraq, söyləmək olar ki, bir neçə ildən sonra ölkəmizin elitar təbəqəsi öz övladlarının özəl məktəblərdə və universitetlərdə təhsil almasına üstünlük verəcəklər və məhz özəl universitetlər elitar təbəqənin artan tələblərini ödəyə biləcəklər. Bu seçim uzaqda deyil. Mətbuatın verdiyi məlumata görə artıq RF-də bu proses başlayıbdır. Biznesmenlər, bankirlər, iş adamları öz övladlarının özəl ali təhsil ocaqlarında təhsil almasına üstünlük verirlər. Çox təəssüf ki, 2002-ci ildə özəl universitetlərdən bəzilərinə tələbə qəbulu bu gün də aydın olmayan səbəblərdən dayandırılmışdır.

Özəl universitetlərin yaranması yeni cəmiyyətin məntiqindən doğduğundan milli təhsil sisteminin ayrılmaz hissəsi hesab edilməlidir. Azərbaycanda belə universitetlərin fəaliyyəti səhv iş deyil. Səhv odur ki, bu təhsil sektoruna münasibət yeni quruluşun məntiqinə uyğun deyildir. Bəzən hökumət üzvüləri öz sənədlərində və hesabatlarında bu universitetləri **"qeyri-dövlət universitetləri"** adlandırır. Guya bu universitetlərin dövlətə aidiyəti yoxdur. Bu fikir kökündən səhvdir. Çünki bu unversitetlər də "dövlət-vətəndaş""" münasibətlərində dövlət universitetlərinin gördüyü işi görürlər.

Ümumiyyətlə, bu tip müəssisələri **«qeyri-hökumət təhsil müəssisələri»** adlandırmaq nisbətən düzgün olardı. Bu səbəbdən ki, belə universitetlər hökumət tərəfindən maliyyələşmirlər. Ancaq bu termin də vəziyyəti düzgün əhatə etmir. Özəl təhsil

müəssisələrinin qeyri-hökumət təşkilatlarından əsas fərqi bundan ibarətdir ki, bu təhsil müəssisələri əsasən dövləti vəzifələri yerinə yetirir, vətəndaşları təhsilləndirir. Dövlətin təhsil sahəsində konstitusion borcunu reallaşdırmağa xidmət edir. Dövlət universitetləri hansı məqsədə qulluq edirsə, bu universitetlər də həmin məqsədə qulluq edir. Bu səbəbdən də belə müəssisələri **"özəl"** və ya **«xüsusi»** adlandırmaq daha doğrudur. Möhtərəm prezidentimiz belə müəssisələri qeyri-dövlət təhsil müəssisəsi yox, «özəl təhsil müəssisələri» adlandırır. Biz də bu termindən istifadə etməliyik. Bu müəssisələrdən qazanc götürmək nəzərdə tutulmur və tutulmamalıdır.

Məlumdur ki, valideynlərimiz övladlarının ali təhsil alması üçün pul xərcləməyə (hətta rüşvət hesabına olsa belə) maraqlıdırlar. Biz onların bu istəyini qanunu yolla təmin etməyə borcluyuq və bacarmalıyıq. Burada iki yol var. Birincisi, dövlət öz təhsil müəssisələrində əlavə yerlər açır və bunu ödənişli elan edir. Bununla da bir qrup gənclər valideynlərinin hesabına dövlət təhsil müəssisələrində təhsil alır. Ancaq burada yeni bir keyfiyyət üzə çıxır. On illərlə bizim universitetlərdə tələbələrin təhsil haqqını dövlət ödədiyindən, haqlı olaraq belə universitetlər **dövlət ali təhsil** ocaqları adlandırılıbdır. Misal üçün, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft Akademiyası və s. Bir halda ki, bu universitetlərin iqtisadi əsaslarında köklü dəyişikliklər baş verir, onda bu dəyişiklik həmin institutların, universitetlərin statuslarına da, adlarına da təsir etməlidir. Gözlərimizin önündə dövlət təhsil müəssisələri ictimai təhsil müəssisələrinə çevrilməkdədir. Dövlət təhsil müəssisələrində ödənişsiz və ödənişli təhsil formasının nisbəti 51:49–dan az olmamalıdır. Əks halda belə universitetlərin adlarında **«dövlət»** sözünün işlədilməsi məntiqsiz olar.

Digər yol cəmiyyətin (valideynlərin) potensialından istifadə etməkdir. Ümumiyyətlə, özəl müəssisələr (o cümlədən də özəl universitetlər) dövlət müəssisələrinin qüsurları üzərində yaranır. Bu səbəbdən də özəl müəssisələrin, (o cümlədən özəl

universitetlərin) keyfiyyət göstəriciləri, prinsipcə daha yüksək olmalıdır. (Dövlət müəssisələrinin özəlləşməsinin əsas səbəbi də elə budur). Belə universitetlərin varlığı təhsil sistemi daxilində sağlam rəqabət yaratmalıdır. Özəl təhsil müəssisəsində işə münasibətdə kordinal dəyişiklik olduğundan (özəl olduğundan) neqativ hallar olmamalıdır. Normal özəl universitetlərdə pulla, tapşırıqla qiymət yazdırmağa praktiki olaraq imkan yoxdur. Çünki buna sahibkar imkan verməz. Əks halda, universitet tez nüfuzdan düşər.

Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının üzvü professor S.Xəlilov eyni zamanda «Azərbaycan Universitetinin» rektorudur. Həmin universitetdə təqribən 500 nəfər tələbə təhsil alır. Hər il təqribən dövlətə milyon manatlarla vergi ödənilir. Yüzlərlə alim-ziyalı öz potensialını bu universitetdə reallaşdırır. Bu universitetdə rüşvət yoxdur. Bu yaxınlarda rektorla bir professor arasında yaranmış münaqişənin səbəbi budur ki, professor tapşırıqla bir tələbəyə **«əla»** qiymət yazıbmış. Rektor isə bunu universitetin nüfuzuna zərbə kimi qiymətləndirmişdir və müəllimdən bir daha belə hərəkətlər etməməsini tələb etmişdir.

Bir neçə il öncə özəl universitetlər dövlətdən maliyyələşmədiyi üçün Amerikanın məşhur **"Azadlığa dəstək aktı"**nın" 907-ci düzəlişin tə'siri altına düşməmiş və dövlət universitetlərindən fərqli olaraq xaricdən texniki yardım ala bilmişdilər. Misal üçün, 1999-cu ilin fevral ayında Amerikanın İnformasiya Agentliyinin köməyi ilə Qərb Universitetində **kompüter mərkəzinin** açılışı oldu. Bu universitetin tələbələri 30-dan çox müasir kompüterin vasitəsilə gecə-gündüz pulsuz internet xidmətindən istifadə etmək imkanı qazandılar.

Özəl universitetlər dövlət universitetləri ilə müqayisədə çevikdirlər, cəmiyyətdə gedən proseslərə reaksiyaları yüksək və cəlddir. Dünya şöhrətli alim, həmyerlimiz Lütvüzadə haqqında «Yaxın, uzaq Lütvüzadə»", Qarabağ müharibəsi və Xocalı müsibəti haqqında «Canavar balası» və «Qırmızı qar»" filmləri,

«İpək yolu"», «Audit"», «Təkamül"» və digər dövri jurnalları və onlarla dərsliklər, monoqrafiyalar, dərs vəsaiti, innovasiyalar və digər nəşrlər özəl universitetlərin təhsilimizə, mədəniyyətimizə, mə'nəviyyatımıza, bir sözlə həyatımıza verdiyi töhfələrdir. Təhsil sistemində ən çox tikinti-quraşdırma işlərini özəl universitetlər aparırlar. Özəl universitetlərin hesabına elmi dərəcəli alimlərimizin bir qismi iş yerləri ilə təmin olunmuşdur. İndiki dövr üçün bu da çox vacib göstərici sayılmalıdır.

Özəl universitetlər tədrisin məzmununu və keyfiyyətini Qərb standartları səviyyəsinə yüksəldə bilsələr, onda imkanlı həmvətənlərimiz külli miqdarda pul xərcləyərək övladlarını xaricdə oxutmaq fikrindən daşınarlar. Bu isə əhəmiyyəti böyük olan işdir. Belə olan halda xaricə beyin axını dayanacaqdır. Bu bir tərəfdən valyutanın xaricə axınının qarşısı alınar, digər tərəfdən gəncliyimiz Azərbaycan mühitində təhsil və tərbiyyə alarlar. Ən nəhayət, lətifə sayağı səslənsə də, özəl universitetlər həm də çirkli pulları yuyan müəssisədir. Başqa sözlə, bu universitetlər bə'zi valideynlərin qazandığı çirkli pulları onların övladlarının təmiz biliyinə çevirirlər. Özlüyündə bu da faydalı bir işdir.

Beləliklə, özəl universitetlərin elitar təhsil müəssisəsinə çevrilməyə şansı daha böyükdür. Dövlət bu şansın həyatda reallaşmasına kömək etməlidir. Ona öz təhsil sisteminin bir hissəsi kimi, özü də yaxşı bir hissəsi kimi baxmalıdır. Belə olan halda cəmiyyətimiz vətəndaş cəmiyyətinə daha tez çevrilə bilər, cəmiyyətimizdə demokratik ənənələr tez bərqərar olar.

Bir halda ki, özəl təhsil qurumları dövlətdən vəsait almaldan gənclərin əlavə bir hissəsinə təhsil verə bilirsə, əvvəla buna sevinmək lazımdır, ikincisi də buna maneçilik yox, köməklik göstərmək lazımdır. Cəmiyyətin potensial imkanlarını özəl təhsilə yönəltmək asan bir işdir. Bu potensial ona görə açılmır ki, **ona münasibət** düzgün qurulmayıbdır. Bu sahədə inzibatçılıq çox, demokratiya azdır. Özəl ali məktəblərdə tapşırıq, rüşvət minimum səviyyədədir, çünki burada iqtisadi münasibətlər

dövlət təhsil qrumlarından fərqli və mütərəqqidir. İndi respublikamızda qanuni fəaliyyət göstərən özəl ali təhsil məktəblərində 30 minə yaxın tələbə təhsil alır. 1999-2000–ci təhsil ilində özəl ali məktəblərə 4700 tələbə qəbul edilmişdir. Bu təhsil kanalına etibar edilərsə, onda əvvala, 1990-cı ilin təhsil səviyyəsinə çata bilərik, ikincisi də hər il təhsildən kənarda qalmış yüz minə yaxın gənc oğlan və qızların bir qismini də ali təhsilə cəlb edə və küçə fəlakətlərindən qoruya bilərik. İşsizlik şəraitində bunun çox böyük əhəmiyyəti vardır. Yəni təhsildə olan mövcud vəziyyəti həm kəmiyyət, həm də keyfiyyət baxımından kifayət qədər yüksək səviyyəyə qaldırmaq mümkündür. Bundan cəmiyyət itirməz, qazanar. Cəmiyyətin orta təhsil səviyyəsi artar. Nou-xau qabiliyyəti artar. Azərbaycanın müstəqilliyi dönməz və əbədi olar.

Yeni iqtisadi münasibət hansı sahəyə daxil olursa, orada problemlər öz həllini tez tapır. Ancaq eyni zamanda yeni ilə köhnənin arasında mübarizə gedir və bu mübarizədə çətin olsa belə yenilik qalib gəlir. Təhsil işçiləri yaxşı bilirlər ki, özəl çap mətbəələri dövlət mətbəələrlə müqayisədə kitabları, dərslikləri daha keyfiyyətlə çap edirlər. Çox maraqlıdır ki, özəl sektoru tənqid edənlər öz kitablarını məhz özəl mətbəələrdə çap etdirirlər, öz qonaqlarını özəl restorana dəvət edirəlr, evlərində, məişətdə istifadə etdikləri cihazlar, əşyalar özəl firmaların mallarıdır.

Təhsildə rüşvəti məhz özəl sektorun vasitəsi ilə küncə sıxmaq mümkündür. Normal özəl universitetdə isə prinsipcə rüşvət mümkün deyildir. Çünki burada mənimsənilməli dövlət vəsaiti yoxdur. Sahibkar isə imkan verməz ki, onun mənafeyini hansısa müəllim tapdalasın.

Özəl təhsil müəssisələrində qüsur ola bilər və var. Ancaq bu qüsurlar subyektiv amillərlə bağlıdır. Bu qüsurları tezliklə aradan götürmək mümkündür və lazımdır. Elektrik cərəyanı insanları vurarkən heç kəs evlərində onlara işıq və istilik gətirən elektrik xətlərini söküb çıxartmır. Sadəcə onunla davranış qaydalarını öyrənir. Biz də özəl universitetlərlə normal davranış

qaydalarını öyrənməliyik. Çünki o bizim cəmiyyətə işıq və istilik verə bilər. Özəl təhsil sisteminin hansısa lokal müəssisəsində qüsurun olması, qlobal olaraq bu sektora kölgə salmamalıdır.

Kifayət qədər təhsil yolu keçmiş, maddi-texniki, kadr potensialı toplamış bir neçə özəl universitetlərə tələbə qəbulunun əsas olmadan dayandırılmasını izah etmək çətindir. Şübhəsiz, gələcəkdə özəl universitetlər təhsil sistemində layiqli yerlərini tutacaqlar. Gedilmiş yolu təkrarən təzədən kiminsə getməməsi üçün bu universitetlərə qayğı göstərmək lazımdır. Sadə həqiqət budur ki, müsbət təşəbbüs dövlət tərəfindən dəstəklənməlidir.

Cəmiyyətdə tez-tez eşitdiyimiz sualların biri də dəqiq elmlər sahəsində özəl universitetlərin olmaması ilə bağlıdır. Bu sualla bağlı demək istəyirəm ki, iqtisadi cəhətdən humanitar ixtisaslar üzrə mütəxəssis hazırlamaq dəqiq elmlər üzrə mütəxəssis hazırlamaqdan qat-qat ucuzdur. Çünki fizika, kimya, biologiya və s. ixtisaslarının tədrisi üçün lazım olan laboratoriyalar, cihazlar, avadanlıqlar çox bahadır. Gənc özəl unversitetin belə laboratoriyalar almaq imkanı çox azdır. Bu səbəbdən də bütün özəl unviersitetlərdə humanitar ixtisaslar üzrə mütəxəssislər hazırlanmasına üstünlük verirlər.

Özəl ali məktəblər təhsil haqqından sui-istifadə etməməlidirlər. Onlar aldıqları təhsil haqqını böyük bir hissəsini məhz gənclərin təlim-təhsil problemlərinin həllinə sərf etməlidirlər. Tələbə ödənişləri tələbənin intelektual səviyyəsinin yüksəldilməsinə, biliklənməsinə sərf edilməlidir.

Özəl ali məktəblər müasir tədris binaları tikirlər. Əgər bu işdə hökümət onlara bina ilə kömək etmirsə (əslində onlar hökümətin görməli olduğu işi görürlər) onda bu təşəbbüs alqışlanmalıdır. Çünki məktəbə, təhsilə sərmayə qoymaq gələcəyə sərmayə qoymaqdır. Bu iş milli mənafe baxımından restoran, ticarət mərkəzi, benzindoldurma məntəqələri və s. tikməkdən daha çox əhəmiyyətlidir. Amma bu tikinti-quraşdırma işlərində tələbə ödənişlərindən az, xarici maliyyə mənbələrindən, kreditlərdən daha çox istifadə edilməlidir.

Təhsil tək Təhsil Nazirliyinin işi deyil, təhsil həm də cəmiyyətin işidir. Dövlət və cəmiyyət bu işdə bir-birinə kömək göstərməlidir. Valideynlər təhsilə daha həssas qayğı göstərməlidirlər. Çünki təhsildə həm fərdin, həm də toplumun mənafei təmin olunur.

## 18. Maqistratura, aspirantura və doktorantura

Cəmiyyətimizdə bəzən magistraturanı aspiranturaya, aspiranturanı isə doktoranturaya alternativ qoyurlar. Aspirantura və magistratura problemi ilə bağlı öz fikrimi, «Təhsilin konseptual problemləri» adı altında çap olunmuş məqalədə (Azərbaycan, 17 mart, 1998) şərh etmişəm. Və bu gün də hesab edirəm ki, iki müxtəlif sistemin (Sovet və Qərb təhsilinin) çarpazlaşmasındansa, bir sistemin qəbulu daha duzgün olardı.

Məlumdur ki, magistratura təhsil hadisəsidir və ali təhsilin son pilləsidir. Bu haqda söhbət §8-də (səh.37) getmişdir. Magistraturada tələbələr hər-hansı bir ixtisasla bağlı bilikləri və yeni elmi nəticələri dərindən öyrənirlər.

Magistraturada tədris planı iki blok üzrə: həm dar ixtisas üzrə, həm də elmi araşdırmalar aparmaq üçün planlaşdırılır. Magistratura magistr işi ilə yekunlaşmalıdır. Əlbəttə, təhsilin sonunda magistr işində elmi nəticə əldə etməlidir.

Aspirantın vaxt resursunun təqribən 80%-i elmi tədqiqata, 20%-i isə tədrisə həsr olunduğundan, aspiranturanı elm hadisəsi saymaq olar və aspirant elmi dərəcə almaq üçün hökmən elmi nəticələr əldə etməlidir. Aspiranturanın elm və təhsil hadisələri arasında oynadığı rol haqqında söhbət §1-də getmişdir.

Aspiranturanı da təhsil hadisəsi saymaq olar, ancaq aspirantura **xüsusi** növ təhsildir. Aspiranturada təhsil yüksələrək elmə çevrilir və ya elm təhsilin tətbiq sahəsinə çevrilir. Təhsildə **müəllim** inistitu var. Aspiranturada bu yeri **rəhbər** əvəz edir. Aspiranturada təhsil plan və proqamları, əsasən, fərdi tutulur və fərd üçün tutulur. Elə tutulur ki, bir müddətdən sonra aspirant özünü, obrazlı desək, elm evinin içərisində hiss edir.

Doktoranturanı bizim başa düşdüyümüz klasssik mənada təhsil hadisəsi hesab etmək olmaz, o elmlə intensiv məşqul olmaq üçün imkandır.

Bir haldakı **Avropa Şurasının** təhsil üzrə ekspertləri doktoranturanı təhsil hadisəsi kimi bizə təqdim edirlər, onda biz

aspiranturanı doktorantura adı altında saxlaya bilərik. Onda bu **doktorantura** ali məktəbdən sonra təhsilin xüsusi bir növü (aspirantura) kimi bizim təhsil sistemimizə girə bilər.

**Elmi dərəcə** məsələsi iddiaçı ilə cəmiyyət arasındakı münasibətdən törəyir. Elmi işçi öz elmi nəticələrinin ictimai əhəmiyyət kəsb etdiyini cəmiyyətə və ya onun bir hissəsi olan Elmi Şuraya isbat edib elmi dərəcə ala bilər. Elmi dərəcələri bir, iki, üç pilləli təsəvvür etmək olar. Magistraturanı ilk elmi dərəcə kimi qəbul etmək olar. Belə olan halda doktoranturanı (aspiranturanı) bitirib müdafiə etmiş şəxs ikinci elmi dərəcə – PhD almış olar. Bundan sonra daha bir yüksək dərəcə - **elmlər doktoru** dərəcəsini də təsəvvür etmək olar. Əgər magistratruraya elmi dərəcə kimi yox, ali təhsilin son pilləsi kimi baxsaq, onda elmi dərəcə iki pilləli olar. Əgər elmlər doktoru dərəcəsindən imtina etsək onda elmi dərəcə yalnız PhD qalar.

**Elmi adların** verilməsindən sonra əmək haqqının artırılması gözlənirsə, onda bu işə dövlətin müvafiq icra hakimiyyəti orqanının müdaxiləsi məntiqidir.

Təhsil Qanunu layihəsində **"Elmi dərəcə və elmi-pedaqoji adlar"** adlanan maddə vardır. Həmin maddənin bir bəndində deyilir: "Azərbaycan Respublikasında elmi dərəcə iki pillədən ibarətdir: 1. fəsəfə doktoru (PhD), 2. Elmlər doktoru". Həmin madənin başqa bir bəndində isə yazılır: "Azərbaycan Respublikasında aşağıdakı elmi-pedaqoji adlar müəyyən olunur: 1. dosent, 2. professor. Bu adlar ali təhsil müəssisəsinin elmi şuraları tərəfindən verilir və qanunvericilikdə müəyyən edilmiş qaydada təsdiq edilir.

## 19. Təhsil haqqında fəlsəfi fikirlər

Təhsil sosial sferanın çox vacib sahəsi olduğundan, hər kəsin təhsillə bağlı gzəl firi ola bilər. Ancaq min illərin ərzində formalaşan təhsil sistemi mütəfəkkir insanların, alimlərin, filosofların, siyasətçilərin fikirlərindən yoğrulmuş və təkamül yolu ilə inkişaf edərək bugünkü səviyəyə qalxmışdır.

Fikirlər bəşəri, deyim lakonik olarsa, kəlam fəlsəfi fikir səviyyəsinə, aforizm səviyyəsinə yüksəlir. Belə fikirlər zaman və məkan çərçivəsinə sığmaz. Bu paraqrafda tarixdə iz qoymuş mütəfəkkir insanların təhsillə bağlı söylədikləri dəyərli kəlamların, aforizmlərin və fəlsəfi fikirlərin bir qismini oxuculara təqdim edirik:

- «Mən heç olmasa bir hadisənin əsl səbəbini tapmağı İrana padşah olmaqdan üstün sayardım».

**Demokrit**

- «Əgər bir illik planın varsa, taxıl ək. Əgər 10 illik planın varsa, bağ sal. Əgər 100 illik planın varsa, insanları öyrət».

**Konfutsi**

- «Yunanlını yunanlı edənyunanlı olaraq doğuluşu deyil,.ördüyü təhsil və tərbiyyədir.

**Sokrat**

- "İnsanlara orta təhsil verin. İstibdad və ruha-bədənə edilən zülm, sübh işığında cin kimi yox olacaqdır"".

**T. Cefferson**

- "Müasir cəmiyyətlərdə təhsil məsələsi ölüm-dirim məsələsidir, cəmiyyətin gələcək taleyinin asılı olduğu məsələdir""".

**E. Renan**

- "Elm vətənin ən uca təcəssümü olmalıdır, çünki xalqlardan hansı biri başqalarını fikir və əqli fəaliyyətdə üstələsə, o, həmişə birinci olacaqdır""".

**L.Paster**

- «Tədqiqatlarda uğuru, hazırlıqlı ağıl qarşılayır».

**L.Paster**

- «Bir çox şeyi yarımçıq bilməkdənsə, bir tək şeyi mükəmməl bil».

**Nitşe**

- «Bilik hakimiyyətdir».

**F.Bekon**

- "Yeni qərarlar qəbul etməyəni yeni problemlər gözləyir. Çünki zaman böyük novatordur"".

**F.Bekon**

- «Bilik sərvət deyil ki, onu hissələrə böləndə və ya bölünmüş hissələri bir yerə toplayanda ümumi dəyəri dəyişməz qalsın. O yerdəki hər kəs az bilir, orada hamı az bilir. Çünki bilik bölünməzdir».

**C.Leopardin**

- «Ali məktəblərin kütləvi şəkildə yaranmasından elmin elm kimi məhvolma tendensiyası yaranır».

**K. Yaspers**

- «Təhsil – istənilən həyat situasiyalarında düzgün hərəkət etmək qabiliyyətidir».

**D.Karneqi**

- «Heç kəs sənin düşmənin deyil, heç kəs sənin dostun deyil, hər kəs sənin müəllimindir».

**F. Şinn**

- “Biliyin çevrilməsi üçün onu iştaha ilə udmaq lazımdır»”.

**A.Frans**

- “Amerika universitetləri qüvvətlidir ona görə yox ki, Amerika varlıdır. Amerika varlıdır, ona görə ki, onun universitetləri qüvvətlidir“.

**ABŞ prezidentlərindən biri**

- “Bilik uğrunda döyüş lazımdır“.

**Viqner**

- «Kəmiyyət yox, keyfiyyət əhəmiyyətlidir».

**Seneka**

- «Biliyə ehtiras, var dövlətə olan ehtiras kimidir, əldə etdikcə güclənir»

**Stern**

- «Nə vaxt siz sutkada 24 saat və həftədə 7 gün işləyərsinizsə, onda uğur özü sizə tərəf gələcək».

**A.Xammer**

- «Təhsilin və elmi tədqiqatın keyfiyyət kriteriyası nəticə etibarı ilə ölkənin əldə etmiş olduğu xeyirlər və faydalardı».

**S.Kolqan**

- «Əvvəlcə sev, sonra öyrət».

**Y.Kaminski**

Bu kəlamlardan bir daha təsdiq edir ki, təhsil, torpaq, su, hava  və od kimi həyat üçün vacib olan ünsürlərdən biridir. Bu təbii ünsürlərdən fərqli olaraq təhsil texnoloji ünsürdü. Ağılnan, kamalnan əldə edilir.Fərdin, toplumun, dövlətin ildən –ilə, nəsildən-nəsilə ötrülən kasıblığının qarşısını ancaq keyfiyyətli təhsillə almaq mümkündür.

## 20. Məhəmməd Peyğəmbər elm və təhsil haqqında

Məhəmməd Peyğəmbər elmin, təhsilin cəmiyyətdə rolunu çox yüksək qiymətləndirmişdir. Bu paraqrafda Həzrəti Peyğəmbərimizin söylədiyi fikirlərin bir qismi oxuculara təqdim edilir:

- «Təhsil müqəddəs cihaddır. Alimlər tanrının güvəndiyi adamlardır və peyğəmbərlərin varisləridir».
- «Alimləri eşidin, çünki onlar dünyanın çırağı, axirətin nurudurlar».
- «Cənnətə gedən yollar müxtəlifdir. Bunlardan ən qisası elm və təhsil yoludur».
- «İnsanlar elə bir sədəqə verə bilməzlər ki, öyrənilən, yayılan elmdən üstün olsun».
- «İnsanların ən xeyirlisi, insanlara faydalı olanıdır».
- «İki şəxs doymaq bilməz: elm təşnəsi və dünya (malı) hərisi».
- «Elmi zəncirləyin».
- «Elm fəziləti ibadətdən əfsəldir».
- «Üləməyə hörmət qoyun, onlar peyğəmbərlərin varisidir. Onlara hörmət Allah və onun rəsuluna hörmət deməkdir».
- «Alim öldü, aləm öldü».
- «Elm öyrənən rəhmət tələb edəndir».
- «Elm yolunu seçən insan üçün Allah da behiştə sarı yol açır».
- «Cəhalətdən qorxulu yoxsulluq yoxdur».
- «Suçların ən böyüyü yalan söyləməkdir».

Vaqnerin «Bilik uğurunda döyüş lazımdır» fikiri və Stern qanunu adı altında tanınan «Biliyə ehtiras, var-dövlətə olan ehtiras kimidir, əldə etdikcə güclənir» fikirlərini Həzrəti

Peyğəmbərimiz XIV əsr öncə daha lakonik tutumlu, emosional və informasion yükü çox olan şəkildə söyləmişdir: «Təhsil müqəddəs cihaddır» və ya «İki şəxs doymaq bilməz: elm təşnəsi və dünya malı hərisi». Ancaq yazıqlar olsun ki, biz vaxtında, zamanında nəinki mütəfəkkir insanlarımızın, hətta Peyğəmbərimizin fikirlərini qoruya bilməmişik. Bu səbəbdən də bizim mənəvi sərvətimizə digərləri sahib çıxırlar. Bu hadisə bu gün də baş verir.

# 21. Heydər Əliyevin elm və təhsil haqqında kəlamları

**«Xapqlrly züxpzx btmş ayae tpraq küçzrkə, uy rhüçzqkp euvpzçksks tpraül axyşüş kpz maəarlə, rhüçzqkp upnzüksks vzçzseaəl tpraq küçzrkəekx».**

**Heydər Əliyev**

Azərbaycan keçid dövrünü yaşayır. Cəmiyyətimiz böyük sosial dəyişikliklər dövrünü yaşayır. Dövlətimiz qurulur və dövlət quruculuğu prosesi bu gün də davam edir. Yeni dövlət quruculuğu liberal-demokratik dəyərlərə əsaslanır və sosialist dəyərlərindən çox fərqlidir.

Sosial dəyişikliklər haqqında **Bern** qanununda deyilir: **"Masştablı sosial dəyişikliklərdən sonra 100 il vaxt keçməlidir" və ya üç nəsil dəyişməlidir ki, gərəkliyinə ehtiyac olmayan vərdişlər aradan götürülsün".**

Bern bu qanunun təsirini belə izah etmişdir ki, birinci nəsil köhnə sistemdə tərbiyə alıb. İkinci nəsil köhnə sistemdə tərbiyə almış insanlar tərəfindən tərbiyə olunublar. Bax bu səbəbdən də 100 il və ya üç nəsli əhatə edən zaman kəsiyi lazımdır ki, həyatı vacib vərdişlər, kanonlar dəyişilsin.

Bizim müasir orta məktəblərimiz 1920-ci illərdən bəri formalaşdığına görə, bu məktəblərdə təhsilin məzmununda bəşəri dəyərlərlə bərabər marksizm-leninizm ideyaları da əsas yer tuturdu. Sovetlər zamanında bu dəyərlər orta və ali məktəblərdə sistemli şəkildə öyrədildiyinə görə insanlar sonralar öz praktiki fəaliyyətlərində sosialist ideyalarına, marksizm-leninizm müddəalarına zidd addımlar atmırdılar.

Sosializmdən və onun nəzəri əsasını təşkil edən marksizm-leninizm ideyalarından imtina edildi. Təbiət boşluğu sevmir. Bəşəri və milli dəyərlərə söykənən yeni nəzəri

müddəalara ehtiyac vardır. Yeni quruluşun əsaslandığı bu dəyərlər hələlik təhsil müəssisələrində lazımı səviyyədə tədris olunmadığına, cəmiyyət tərəfindən mənimsənilmədiyinə və ictimai şüurda hələlik özünə yer tutmadığına görə cəmiyyətdə və dövlətdə tutuduğu səviyyədən asılı olmayaraq bir çox vətəndaşlarımız və məmurlarımız fəaliyyətlərində qüsurlara yol verirlər. Təhsil müəssisələrində belə səhvlər təhsilin keyfiyyətini aşağı salır. Bu səbəbdən də cəmiyyətin hər bir üzvünün yeni quruluşun ruhuna uyğun ideyalara, müddəalara, istiqamətverici kəlamlara ehtiyacı vardır.

Azərbaycan prezidenti Heydər Əliyevin yeni quruluşun bütün sahələrinə aid, o cümlədən də təhsillə bağlı qiymətli kəlamları çoxdur. Odur ki, təhsil ictimaiyyətini bu kəlamların bir qismi ilə tanış etməyi məqsədəuyğun hesab edirik. Güman edirik ki, bu dəyərli fikirlər alimlərimizin, müəllimlərimizin, tələbələrimizin, şagirdlərimizin, vətəndaşlarımızın elm və təhsillə bağlı fəaliyyətlərində düzgün mövqe və istiqamət seçmələrinə kömək edəcəkdir.

- XX əsrdə yaranmış təhsil sistemi bizim böyük sərvətimizdir və XXI əsrə biz müstəqil dövlət olaraq, həmin bu böyük potensialla başlamışıq.

- Azərbaycanda təhsil XX əsrdə çox sürətlə inkişaf edibdir və təhsilə cəlb olunmayan uşaq, gənc, insan yoxdur. Bu, bizim böyük nailiyyətimizdir ki, xalqımız tam savadlıdır, tam təhsillidir.

- Ayzxbamöas ıapqlsls ozpzözmk, rhüçzqkp Ayzxbamöasls ozpzözmk ozsöpzxks bş ohs apelqpaxl bkpkn, çzğükp vz çzxbkmzezs aülplelx.

- Ksüas hghs, bkxksökük, tsşs **asaeasozprz küçjeaelelx,** knksökük, apeldl rhnzrrzp çzğükp vz

özrkmmzçez qayaseldl çzöxhbzekx, hghsöhüh, çzöxhbzpk ksüaspaxls, ğzmaçl ouxrhə ksüaspaxls çzöxhbzüksezs küçkcaez jçrznekx.

- Bkykr bheözez zs gtı faml tpas çzğükp üküçjrkekx. Bş ea çzüaehck ejmkpekx. Baəqa üağzez tpa bkpzx, nzükxpzx ez tpüşs, arra çzğükpez mtı. Ghsnk çzğükpez tpas nzükx, gaçlərayplq bkykr ozpzözmkrkyz ızçapax maxaeaöaqelx.

- Məktəbdə gənclərimizi nə qədər yaxşı, hərtərəfli hazırlasalar, müstəqil Azərbaycanın gələcəyi də o qədər müvəffəqiyyətli, uğurlu, parlaq olacaqdır.

- İndi bizim təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir.

- Hər bir gənc əsaslı təhsil almalıdır. Hər bir gənc müasir həyatın tələblərini mənimsəməlidir. Hər bir gənc müasir həyatda iqtisadiyyat, siyasət sahələrində, sosial sahədə bütün yenilikləri, dünyada gedən prosesləri bilməlidir.

- Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır.

- Ğzx bkx şəaq rznçzb ğzmaçl njgrzpkekx. Rznçzb ğzmaçl çznöz çzğükp vjxrkx, jmsk yarasea bş, mhnüzn çzxbkmz töadlelx. Bş, jmsk yarasea şəadl, ozsök rhüçzqkp ğzmaça ğaylxpamas bkx üzvkmmzekx.

- Gənclərimizi nə qədər yüksək təhsilli etsək, həqiqi yüksək təhsilli etsək, onların müəyyən ixtisaslara mükəmməl yiyələnməsinə şərait yarada bilsək,

müstəqil Azərbaycanın gələcəyi və demək, müstəqil Azərbaycanın iqtisadiyyatının inkişafı, elminin inkişafı, təhsilinin inkişafı, insanlarının rifah halı o qədər də yaxşı olacaqdır.

- Dhsmama ozpzs nuxfzpzx, bkxksök ükscz qzezr qtmas şəaqpax, apk rznçzbpzxz eaıkp tpas ozsöpzx çzğükp, bkpkn apraplelxpax, rhüçzqkp Ayzxbamöas Xjüfşbpknaülsls bş ohshsh, ozpzözmksk çzrks jçrzn hghs çzğükp apraplelxpax, bkpkn çtfparaplelxpax, uypzxksk özrkmmzçez czapkmmzçz ğaylxparaplelxpax.

- Xjüfşbpknarly rhüçzqkp euvpzç nkrk Ayzxbamöasls uy rkppk kejtptokma ntsüjfükmaülsl maxaeaxaq, ksnkəac jçekxzxzn, əhbğzüky nk, çzğükp üağzüksk ez rkppk rzqüzepzx, rzsacjpzx züaülsea qşxraplelx.

- Ölnzrkyks, ıapqlrlyls bhçhs üağzpzxez mhnüzn kıçküaüa rapkn, ehsmaea ojezs jprk-çjısknk fxtüjüpzxpz amaqpaəas, rhzmmzs küçkqarzçpzxez bşspaxl qabaqparada qaekx tpas naex ftçjsükapl tpraplelx.

- Mhüçzqkp euvpzç tpaxaq ehsmaea çaslsradlrly vz ehsma bkxpkmksez mjx çşçradlrly tsş çzpzb jekx nk, bkykr upnzrkyks, ıapqlrlyls bhçhs üağzpzxez ozxzn mhnüzn kıçküaüa rapkn tpas, ehsmaea ojezs jprk-çjısknk fxtüjüpz szksnk amaqpaəas vz bzpnz ez rhzmmzs küçkqarzçpzxez tsş qabaqpamas, bşsa qabkp tpa bkpzs naex ftçjsükapl tpraplelx.

- Gənclərimiz gərək bütün əvvəlki nəsillərə nisbətən daha yüksək təhsil almış gənclər olsunlar.

- Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidirlər.

- Əgər çox istəmək, sevmək nəticəsində uşaq, gənc uşaqlıq, gənclik çərçivəsindən çıxırsa, o, yaxşı təhsil ala bilməz. Ona görə də gərək valideynlər də uşaqlarına tələbkar olsunlar. Müəllimlər də tələbkar olsunlar. Məhz belə halda biz yaxşı gələcək nəsil yetişdirəcəyik.

- Təhsil sisteminə çox diqqətli yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır. Amma **keçid dövrünü** yaşayan ölkələr, bir ictimai-siyasi sistemdən başqasına keçən ölkələr bu işə daha da diqqətli olmalı, daha da ciddi və həssas yanaşmalıdırlar.

- İslahatlar, xüsusən təhsil, elm sahəsində islahatlar çox ağıllı, düşünülmüş şəkildə həyata keçirilməlidir... Dəb naminə yox, yalnız əldə etdiyimiz səviyyədən daha yuxarı qalxmaq üçün təhsilin səmərəliliyi, elmin səmərəliliyini artırmaq üçün aparılmalıdır.

- Keçid dövründə iqtisadiyyata vurulmuş zərbə, yaxud həyatımızın bir çox başqa sahələrinə vurulmuş zərbə aydındır, bunu cəmiyyət bilir. Amma təhsil sisteminə də böyük zərbə vurulubdur.

- Universitetlərdə insan gənclik həyatını yaşayır. Mən arzu edərdim ki, bizim hər bir gənc hər bir tələbə bax, bu dövrü uğurla keçsin. Çünki bu dövrdə gəncin formalaşması onun lazımi bilik alması lazımi mənəvi dəyərləri dərk etməsi müasir dünyanı dərk etməsi onun gələcəyinin əsasıdır, təməlidir.

- Çalışmalıyıq ki, gənclərimiz Azərbaycan xalqına xas

olan mənəvi, milli ənənələr əsasında **tərbiyə** edilsin.

- Biz ksüaspaxls üzxbzüç cknkxpzərzüksz, üzxbzüç çzəzbbhü ouüçzxrzüksz əzxakç maxaelxlq. Axyşrşy ea bşeşx nk, bş əzxakçezs bkykr çzöxhbzpk aearpax, rznçzbpzxkrky, çzğükp töaqpaxl üzrzxzpk küçkcaez jçükspzx vz çzğükp ükücjrksks çznrkppzəekxkprzük hghs paylrk çznpkcpzx ğaylxpamlb kxzpk ühxühspzx.

- Texnika, elm, texnologiya çox sürətlə inkişaf edir. Ona görə gərək biz də Azərbaycanda çalışaq ki, bu inkişafda öz yerimizi tapaq, sürəti yavaş-yavaş artıraq və qabaqda gedənlərin səviyyəsində olaq.

- Azərbaycanın elmi-texniki səviyyəsini inkişaf etdirmək üçün yüksək təhsilə, elmə nail olmalıyıq.

- Rhaükx çjısknasl, çjıstptokmasl, rhaükx bayax kqçküaekmmaçlsls bhçhs mtppaxlsl rzskrüzrzn, xjüfşbpknaea çzçbkq jçrzn hghs ozpzözn szüpk ğaylxparaq vz njgrkə euvxz skübzçzs bkx gtı mjsk kıçküaüpax hyxz naexpax ğaylxparaq paylrelx vz bşspaxls züaül txça çzğükp kppzxksez qtmşpraplelx.

- Gzçkspknpzxz qaxəl mjsk aeelrpax açraplmlq. Bş aeelrpaxpa rzezskmmzçkrkyk, zezbkmmaçlrlyl, ksözüzszçkrkyk sz qzezx mhnüzpçüzn, tsşs ğuxrzçksk, ykmaplsls ğuxrzçksk sz qzezx qapelxüaq, t qzezx ez bş bzpapaxeas, gzçkspknpzxezs, özrkmmzçkrkyez tpas rzsck özğzçpzxezs çjy ıkpaü tpa bkpzxkn.

Cəmiyyətin təhsillənməsi prosesində ən aktiv rolu müəllim oynayır. Müəllim təhsil prosesinin aparıcı

subyektidir. Heydər Əliyev cəmiyyətdə müəllimin oynadığı rolu yüksək qiymətləndirir.

- Rzskr hghs rhzppkr ael ğzrkəz zs hpvk, zs əzxzcpk bkx rzcğşr tpşbeşx. Rzs bş ohs rhzppkr qaxəlülsea baə zmkxzr.

- Müəllim adı dünyada ən yüksək addır. Məsələn, şəxsən mən Yer üzündə müəllimdən yüksək ad tanımıram. Çünki hər birimizə təhsil, bilik verən, bu səviyyəyə qaldıran məktəbdir və məktəbdə təhsil verən də müəllimdir.

- İndiyə qədər həyatımda keçdiyim yol, mənim biliyim, elmim – hamısı məhz orta məktəbdə aldığım təhsillə bağlıdır, **müəllimlərin** mənə verdiyi biliklərlə bağlıdır.

- Müəllimlik çox şöhrətli bir sənətdir. Həqiqi müəllim olmaq cəmiyyət üçün doğrudan da çox qiymətlidir.

- Hər bir cəmiyyətdə savadlı şəxs müəllimə hörmət etməli, cəmiyyətin həyatında müəllimin oynadığı rolu qiymətləndirməlidir.

- Azərbaycan böyük müəllim ordusuna malikdir. Böyük təhsil işçiləri ordusuna malikdir və bizim təhsil potensialımız, yəni uşaqları, gəncləri oxudub onların həyatda müxtəlif sahələrdə fəaliyyət göstərməsi üçün Azərbaycanın imkanları böyükdür.

- Bəzi məktəblərdə çox namuslu, sədaqətli, tələbəyə yaxşı bilik verən müəllim də var. Amma onunla yanaşı, vaxtını keçirənlər, tələbənin biliyi haqqında o

qədər də çalışmayanlar da var.

Məşhur bir kəlamda deyilir ki, rəhbərin sənəti, millətinin böyüklüyünü sübut etməkdir. Heydər Əliyev xalqımızın istedadlı olduğunu çıxışlarında dəfələrlə vurğulamışdır. O fikirlərin bir hissəsini oxuculara təqdim edirik:

- Azərbaycan xalqı yüksək elmə, yüksək biliyə, savada malik olan xalqdır. Bunlar hamısı uzun illər – keçmişdən indiyə qədər Azərbaycanda yaranmış təhsil sisteminin fəaliyyətinin əməli nəticələri, Azərbaycan müəllimlərinin, alimlərinin gərgin fəaliyyətinin nəticəsidir.

- Hər bir alim qiymətlidir. Hər bir alimin yaratdığı elmi əsərlər özünə məxsus qiymət alır. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, nəzəri fikirləri tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tutur.

- Dhsmama bkx eağa shramkə jçekxzn, ühbşç jezn nk, ıapqlrly bumhn küçjeaea, jprk ftçjsükapa rapknekx vz bş sakpkmmzçpzxkrky ez ehsma jprksz uyhsz ouxz rhzmmzs çuğczpzx vjxkbekx.

- Bizim gənclərimizin əksəriyyəti çox istedadlıdır. Onların harada hansı şəraitdə yaşamasından asılı olmayaraq, biliyə, təhsilə həvəsi və marağı çoxdur.

- Həm orta məktəbdə, həm də ali məktəbdə təhsil alan gənclərimiz dünya elminin, dünya mədəniyyətinin əldə

etdiyi dəyərlərlə nəinki tanış olsunlar, habelə onu mənimsəməyə şərait yaradılsın.

- Hzx bkx upnzsks, ğzx bkx rkppzçks afaxlöl qhvvzük tsşs bkpknpk shramzsezpzxkekx. Tsşs mhnüzn çzcznnhxz, mhnüzn bkpkmz, mhnüzn kıçküaüa rapkn tpas ksüaspaxlelx.

- Biz tarixi keçmişimiz haqqında söhbət açanda tarixin bütün mərhələlərində Azərbaycan xalqının görkəmli elm xadimləri haqqında qürur hissi ilə danışırıq və bu, xalqımızın nə qədər istedadlı olduğunu nümayiş etdirir.

Təhsil ictimai münasibətlərin, sosial sferanın çox vacib və mürəkkəb sahələrindəndir. Bir çox sahələrdən fərqli olaraq, təhsilə həm dövlətin, həm də cəmiyyətin qayğısı daha çox lazımdır. Bu səpkidə Heydər Əliyevin fikirlərinin bir qismi belədir:

- Ayzxbamöasea çzğükp üküçjrk euvpzç qamdlül apçlseaelx. Mzsk Ayzxbamöasls rznçzbpzxk, çzğükp rhzüüküzpzxk, şskvjxükçjçpzxk, - ay ğküüzüksk szyzxz apraüaq, - ejrzn tpax nk, ğarlül euvpzçz rzıüşüeşx.

- Euvpzç çzğükpks rapkmmzpzəekxkprzüksk, mhnüzn çzğükp apraq hghs rhaükx raeek-çjısknk bayasls maxaelpraülsl, rznçzbpzxks əzxakçksks maıəlpaəelxlpraülsl uyhshs züaü vzykczpzxksezs bkxk ğjüab jekx.

- Ümumi çətinliklər nə qədər çox olsa da biz elmə,

təhsilə daim qayğı göstərməliyik və elmin inkişafı üçün mövcud imkanlardan daha da çox istifadə etməliyik.

- Vəzifəmiz təhsili daha da inkişaf etdirmək, onun **keyfiyyətini** artırmaqdır.

- Bşseas ütsxa ea bky Ayzxbamöasea çzğükpks ksnkəaclsl uyhrhyhs ükmaüzçkrkyks **usöhp üağzük** ğjüab jezözmkn.

Elm və təhsil müəssisələrinin zəruriliyi və onların cəmiyyətdə, dövlətin taleyində oynadığı müsbət rol danılmazdır. Həm MEA, həm də orta və ali təhsil müəssisələri haqqında prezident Heydər Əliyevin söylədiyi bəzi fikirlər aşağıda verilmişdir:

- XX züxks zvvzpksezs Ayzxbamöasea jprks ksnkəacl mjsk vhüzç aplbelx. Ayzxbamöasea jprk rhzüüküzpzx maxaslb, 1919-öş kpez kpn şskvjxükçjç maxaslbelx. Bş şskvjxükçjç ğzr mhnüzn çzğükp töadl, ğzr ez Ayzxbamöas jprksk bkxpzəekxzs, tsş ksnkəac jçekxzs bumhn bkx rhzüüküz, bumhn jpr töadl tpşbeşx.

- Ayzxbamöasls rkppk Anaejrkmaül xjüfşbpknarlyls euvpzç rhüçzqkppkmksz ıkerzç jçrzpkekx vz Ayzxbamöas jprksks ksnkəac jçrzüksez afaxlöl xtpşsş tmsaraplelx.
- Bjpz ğjüab jekxzr nk, ksek Anaejrkmasls qaxəlülsea eşxas vzykczpzxezs bkxk ez Ayzxbamöas ıapqlsls XIX-XX züx çaxkıksks maylpraülelx.

- Ayzxbamöas jprk ehsmasls qabaqölp jprpzxk

ülxaülseaelx. Tsşs ksnkəaclsea Banl Euvpzç Şskvjxükçjçksks czapkmmzçk zvzyükyekx.

- Ğasül kqçküaekmmaç tpşxüa-tpüşs, jpr ksnkəac jçrzpkekx, uçzs euvxez Jprpzx Anaejrkmaülsls gzxgkvzüksez Ayzxbamöas jprk gtı ksnkəac jçrkəekx.

- Uskvjxükçjçpzxin vzykczük qzbşp tpşsas ozsöpzxks ğarlülsls maıəl çzğükp apraülsl çzrks jçrznekx. Şskvjxükçjçpzxks, apk rznçzbpzxks hyzxksz gtı bumhn **vzykczpzx** ehəhx vz gtı ea bumhn **rzüşpkmmzç** ehəhx.

- Təhsil üağzsinez ez suqüaspax vax vz gtıeşx. Rzs bşsş jçkxac jçrzpkmzr. Rzs ksek sakpkmmzçpzx ğaqqlsea ojskə easləasea ğjg nzü jpz ehəhsrzüks nk, oşma ğjüab jekxzr nk, bkykr bhçhs çzğükp üküçjrk, t öhrpzezs txça çzğükp üküçjrk qhüşxüşyeşx, suqüasülyelx. Vzykmmzç çox rhıçzpkcekx vz bş ğzqkqzçk bky ğjg vaıç ksnax jçrzrzpkmkn. Bş üuypzx, bş cknkxpzx şskvjxükçjçpzxz ez akeekx.

- Uyzp çzğükp rhzüükküzpzxksks maxasraül Ayzxbamöasea mjsk bkx ğaeküzekx vz bky bşspaxl ezüçznpzmkxkn. Asöaq bkx əjmk qjme jçrzn küçzmkxzr nk, hrşrkmmzçpz, çzğükp bkysjüz gjvxkprzrzpkekx.
- Özəl təhsil müəssisələrinin də keyfiyyətinin yüksək olması ən vacib amildir. Əgər bu olmasa, biz belə özəl təhsil müəssisələrinin yaranmasına imkan verməyəcəyik.

- Ayzxbamöasea üavaeüly aear çafraq gzçksekx. Ayzxbamöasea apk çzğükp üzvkmmzük gtı mhnüzmz

qapırləelx. Dhyehx, apk rznçzbpzxks kəksez bumhn suqüaspax vax, bş ğzqkqzçekx, asöaq bhçhs bşspaxpa masaəl apk rznçzbpzxkrkyks maxasraül vz ksnkəac jçrzük bş ohs hghs sz qzezx bumhn sakpkmmzçekx.

- Ğzr txça rznçzbpzxez, ğzr apk rznçzbpzxez çzğükpks **njmckmmzçk** mhnüzpekprzpkekx. Çzğükp töaqpaxlsea ozsöpzxks çzğükp apraülsa qamdl axçraplelx. Ozsöpzxks eağa ea maıəl tışraül, çzğükp apraül hghs çzpzbnaxplq axçlxlpraplelx.

Heydər Əliyevin bir kəlamında deyilir ki, cəmiyyətin gələcək tərəqqisi ilə təhsilin məzmunu arasında əlaqə vardır. Təhsil prosesində təhsilin məzmunu öncül yer tutur. Təhsilin məzmunu ilə bağlı H.Əliyevin bəzi fikirləri ilə tanış olaq:

- Mhüçzqkp Ayzxbamöasea ckykna, xkmaykmmaç, bktptokma, nkrma, maışe baəqa czspzxks ğarlül ksnkəac jçrzpkekx. Asöaq bşspaxls ğzxzüksks uyhszrzıüşü gzxgkvzük vax. Arra çaxkı ğzx bkx ksüas hghs mjskmjçrzpknezs baəpamaxaq urxhshs ütsşsa qzezx paylrelx. T öhrpzezs, rzezskmmzçkrkyks, zezbkmmaçlrlyls, jprkrkyks çaxkık paylrelx.

- Rznçzbz ojezs ozsö ozxzn Ayzxbamöasls çaxkıksk bkpüks, tışüşs, umxzsüks.

- Çzexkü ğzx mjxez Ayzxbamöas ekpksez ojçrzpkekx. Asöaq t mjxpzxez nk, xşü zğapkük hghs, maışe bzyk xşüekppk ksüaspax hghs çzexkü xşü ekpksez ojekx, txaea rhçpzq Ayzxbamöas ekpk, Ayzxbamöas çaxkık, Ayzxbamöas zezbkmmaçl çzexkü jekprzpkekx

- Rhüçzqkp Ayzxbamöasea bkpkn apas ğzx bkx ozsö ozpzöznez Ayzxbamöasls rzsacjmk hghs gapləradl qaxəlülsa rzqüze nkrk qtmraplelx. Tsa ouxz, ozxzn t, uy upnzüksk maıəl çaslüls, uy çaxkıksk maıəl bkpüks vz üjgekmk kıçküaüea üaezöz, rhçzızüükü mtı, zs mhnüzn üzvkmmzpk rhçzızüükü tprada gapləüls.

- Vətənpərvərlik hər bir insanın, xüsusən hər bir gəncin ən ümdə borcu, vəzifəsidir. Bütün təhsil ocaqlarında, gənclərlə məşğul olan bütün təşkilatlarda **vətənpərvərlik hissinin** aşılanması, vətənpərvərlik hissinin hər bir gəncin qəlbində olması üçün lazımi tədbirlər görmək lazımdır.

- Banl Euvpzç Şskvjxükçjçksks züaü canhpçzpzxk - çaxkı canhpçzük, ckptptokma canhpçzük, czpüzcz canhpçzük, mz'sk bhçhs bş ğşraskçax canhpçzpzx Ayzxbamöas ekpksls, Ayzxbamöas jprksks ksnkəaclsea rhüçzüsa mjx çşçşx.

Məqaləni prezident Heydər Əliyevin səh.12-də istifadə etdiyimiz bir fəlsəfi fikri ilə bitirmək istəyirəm. Bu fikirdə deyilir: **«Əgər hər bir ölkənin vətəndaşları öz hüquqlarını anlayarsa və qoruya bilərsə, ən kiçik dövlətlər belə böyük məmləkət qədər qüdrətli olar».**

Prezidentimizin bu fikrində aşkar şəkildə təhsildən söhbət getmir. Ancaq kəlamının hikməti bundan ibarətdir ki, məmləkətimizin qüdrətli olması üçün biz öz hüqüqlarımızı bilməli və qorumağı bacarmalıyıq. Bunun üçün isə bizim təhsil səviyyəmiz kifayət qədər yüksək olmalıdır.

*Hörmətli oxucu! İnanırıq ki, möhtərəm Prezidentimiz Heydər Əliyevin bu kəlamları təhsil işçilərinin fəaliyyətində qarşıya çıxan problemlərin həllinə işıq tutacaqdır.*

# Son söz

Azərbaycanın müasir təhsil tarixinin təqribən yüz yaşı var. Əvvəla, qeyd edək ki, təhsil üçün bü böyük yaş hesab edilmir. Bununla bərabər bu illər ərzində təhsil müəssisələri sistem şəklində kifayət dərəcədə strukturlaşa bilibdir. Və artıq ölkəmizdə qismən də olsa, müasir təhsil ənənəsi yaranıbdır. Bu ənənənin nəticəsidir ki, bu gün də vicdanla dərs deyən, fəaliyyət göstərən müəllimlərimizin və alimlərimizin sayı az deyildir.

Sovetlər dönəmində təhsil üzərində olan ciddi partiya və inzibati nəzarətin götürülməsi və yeni ictimai nəzarət şəbəkəsinin hələ formalaşmaması səbəbindən yaranan qüsurlar kitabda diqqət mərkəzinə çəkilmişdir.

**Cənabi Əlinin** bir kəlamında deyilir: **«Öyrəndikcə nə qədər az bildiyimi öyrəndim».** Taleyin hökmü ilə bütün ömrüm boyu təhsil sistemində çalışmmama və təhsil sisteminin bütün pillələrini keçməyimə baxmayaraq, təhsil sistemini öyrəndikcə bu sistem haqqında nə qədər az bildiyimi öyrəndim. Baxmayaraq ki, Avropa təhsil sistemini ezamiyyətlər yolu ilə yox, bilavasitə müxtəlif ölkə univerisitetlərində illə, aylarla ölçülə biləcək zaman kəsiyində daxildən izləmək imkanım da olubdur.

Təhsillə bağlı ictimai şüurda kök salmış səhv fikirlər də kitabda diqqət mərkəzinə çəkilmişdir. Misal üçün, valideynlərin övladlarına pulla qiymət yazdırması, özəl təhsil müəssisələrinə mənfi münasibət, cəmiyyətin təhsil prosesinə zəif müdaxiləsi, bəzi işbazların təhsilə gəlir gətirən sahə kimi baxması, tapşırığa baxmayan müəllimlə müqayisədə tapşırığa baxan müəllimin müsbət imicə malik olması və sairə belə fikirlərdəndir. Valideyn övladı ali məktəbə qəbul olanda daha çox sevinc keçirir, nəinki ali məktəbi qurtarıb ixtisasçı diplom alanda. Ali məktəbin tələbə bileti, dövlətin verdiyi diplomdan qəlbi tutulur. İctimai diqqətin qəbul imtahanlarına yönəlməsi, dövlət imtahanlarının belə diqqətdən kənarda qalması, təhsil sisteminə münasibətdə vətəndaşın, cəmiyyətin buraxdığı ən böyük qüsurlardandır.

Kitabda belə problemlərə də toxunulubdur. Qısası, kitabda «təhsil sferasında düz yaşamırıq» fikiri kitab boyu qırmızı xətlə keçir. Göstərilir ki, təhsilə münasibət həm vətəndaşlar, həm də cəmiyyət tərəfindən dəyişməli və müstəqil dövlətin yaşaması üçün əsas olan **«milli mənafe şəxsi və digər mənafelərdən üstündür»** prinsipinə təhsil sistemində ciddi əməl olunmalıbır.

Təhsil sahəsində mütərəqqi yenilik etmək çox çətin, ancaq səhv etmək çox asandır. Bu səbəbdən də təhsildə səhv yolverilməzdir. Ona görə də hər addım yüz ölçülüb, bir biçilməlidir. Biliyin qiymətləndirilməsi kimi asan görünən problemin nə qədər çətin olduğunu və ənənəvi 5 ballı sistemdən 9 ballı sistemə keçmək üçün aparılan eksperimentin əsassız və zərərli olduğu bu fikiri bir daha təsdiqləmişdir. Kitabda biliyin qiymətləndirilməsinə yeni fəlsəfi baxış verilmişdir. Təhsil sahəsində işlədilən bəzi terminlər ətrafında yeni düşüncə ilə fikirləşmək təklif olunur.

Son minilliklər ərzində həm Şərqin, həm də Qərbin mütəfəkkir insanları tərəfindən təhsillə bağlı söylənilmiş, bəşəri dəyər səviyyəsinə yüksəlmiş aforizm və kəlamlardan yeri gəldikcə istifadə edilmişdir. Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin təhsillə bağlı söylədiyi kəlamlardan geniş istifadə edilmişdir.

Kitabın sonuna təhsillə müxtəlif dərəcədə əlaqəsi olan bir neçə məqalənin və müsahibənin də əlavə olunması tərəfimizdən məqsədəuyğun hesab edilmişdir.

Oxucuların qiymətli təklif və tənqidlərinə tuş gələcəyimə və bir də kitabda təhsilin bir çox məsələlərinin öz əksini tapmaması səbəbindən bu işi gələcəkdə də davam etdirməyə ehtiyac olduğuna inanıram.

Təhsillə bağlı yazılan istənilən kitaba «Son söz» olaraq 100 il öncə M.Hadı tərəfindən yazılmış iki şeri - «Məktəb» və «Məktəb şərqisi» istifadə etmək olar. Bu səbəbdən də kitaba yazdığım geniş «Son sözü» yarımçıq qoyaraq, onu M.Hadının bu şerləri ilə bitirmək istəyirəm. Hesab edirəm ki, bu şerlər təhsillə

bağlı istənilən ölkədə, istənilən dildə, istənilən zamanda yazılmış kitaba həm «ön söz», həm də «son söz» ola bilər. Azərbaycan xalqına yolun düzünü göstərən və bir ziyalı kimi xalqının önündə gedən M.Hadiyə Allah rəhmət eləsin.

Əlyazmanı oxuduğuna və dəyərli məsləhətinə görə professorlar Əli Nağıyevə, Ağarəhim Rəhimova, Əmrulla Paşayevə, kitabın nəşr olunmasına kömək göstərən hər kəsə, xüsusi ilə İ.Alməmmədova və D.Həsənovaya dərin təşəkkürümü bildirirəm.

**Ş.Q.Əsgərov**

## M.Hadı

## Məktəb

Məktəb nə demək? Xadimi –qüdsiyyəti-millət
Məktəb nə demək? Baisi-ülviyyətü şövkət,
Məktəb nə demək? Cilvəgahi-nuri-həqiqət,
Məktəb nə demək? Rəhbəri-irşadü səadət.
Övladı-vətən etmək üçün bizdə təali
Məktəblər açıb kəsb edəlim elmü kəmali!

Məktəb nə demək? Heyəti –milliyyəyə candır,
Məktəb nə demək? Ruhi dili – mürdədilandır.
Ariflərə həmvarə bu söz virdi-zəbandır:
Əlməktəbü, əlməktəbü, ey millət, amandır.
Övladı-vətən etmək üçün bizdə təali
Məktəblər açıb kəsb edəlim elmü kəmali!

Məktəb nə demək? Əncüməni-əhli-səfadır,
Məktəb nə demək? Bariqeyi –fikrə səmadır.
Neyyirləri həp şəşəəbəxşayi-dühadır,
Pərvərdeyi-ağuşi olanlar üdəbadır.

Övladı-vətən etmək üçün bizdə təali
Məktəblər açıb kəsb edəlim elmü kəmali!

Məktəblə bulur təsfiyə ayineyi-vicdan,
Məktəblə edər kəsbi-şərəf zadeyi-insan,
Məktəblə görər tərbiyə həp gülşəni- üryfan,
Təzkar edək ixvanımıza şu sözü hər an:
Övladı-vətən etmək üçün bizdə təali
Məktəblər açıb kəsb edəlim elmü kəmali!

## Məktəb şərqisi

Məktəb nə demək? Şəmi-şəbistani-cəhalət,
Məktəb nə demək? Cülşəni-ürfan, kəmalət,
Məktəb nə demək? Ümmətə bir babi –inayət,
Eylər qələmin sizlərə həqqilə vəsayət:
**Darülədəbin bilməyimiz qədrini, millət,**
**Göstərməli ikmalına olduqca həmiyyət.**

Məktəb nə demək? Rəhbəri-övladi-vətəndir
İrşadına məzhər bulunan əhli-fətəndir.
Məktəb dürü-adabü kəmalətə ədəndir,
Atidəki söz bizlər üçün zibi-dəhəndir:
**Darülədəbin bilməyimiz qədrini, millət,**
**Göstərməli ikmalına olduqca həmiyyət.**

Məktəb nə demək? Ruh,dilə feyzrəsandır,
Gəhvareyi- canpərvəri-rövşənəfəandır,
Aşiqləri darülədəbin növhəvəsandır,
Bu söz bizə hər şamü səhər zikri lisandır
**Darülədəbin bilməyimiz qədrini, millət,**
**Göstərməli ikmalına olduqca həmiyyət.**

Məktəblə qılar növibəşər dəfi bəlaya,

Məktəblə çıxar zahirə-əsrari-xəfaya,
Məktəblə yaşar rahətü məsud rəaya,
Eylər qələmin şu sözü təkrar vəsaya.
**Darülədəbin bilməyimiz qədrini, millət,**
**Göstərməli ikmalına olduqca həmiyyət.**

Azmışlar üçün elmü ədəb nuri səhərdir,
Cəhl ilə kor olmuşlar üçün köhl bəsərdir
İnsana şərəfbəxş fəqət elmü hünərdir.
Bimərfət adam canı yox xüşk şəcərdir
**Darülədəbin bilməyimiz qədrini, millət,**
**Göstərməli ikmalına olduqca həmiyyət.**

# Əlavələr

# 1. Düzgün yaşama formulası

*“Sizin istənilən qərarınız səhvdir”.*
**Eduard Dalberq**

Molla Nəsrəddinin bir lətifəsində söylənilir: *«Bir gün Molla oğlu ilə səfərə çıxır. Molla oğlunu eşşəyə mindirir, özü isə piyada gedir. Yoldan keçən bir neçə adam onları görüb deyir:* ***«Bu da indiki cavanlar. Heç böyüyə hörmət etmirlər. O boyda sağlam oğlan eşşəyə minib, yazıq qoca kişi piyada gedir».***

Bu sözdən utanan uşaq atasına eşşəyə minməyi təklif edir. Özü isə eşşəkdən düşüb piyada gedir. Bu dəfə onların qarşısına başqa adamlar çıxırlar.

***«Bunlara bir baxın. O boyda kişi eşşəyə minib, yazıq uşaq piyada gedir»*** *- deyə bu adamlar onlara irad tuturlar.*

*Bu dəfə Molla özü də oğlu ilə birlikdə eşşəyə minirlər. Yenə onların qarşısına bir dəstə adam çıxır:*

***«Bura bax ey... İki-iki adam minib eşşəyə, yazıq heyvan nəfəs ala bilmir»*** deyirlər.

*Molla eşşəkdən düşür, oğlunu da düşürür və deyir****: «gəl ikimiz də piyada gedək. Onda camaat bizə heç nə deməz».***

*Yenə onların qarşısına bir dəstə çıxır:* ***«Bu axmaqlara baxın. Günün altında piyada gedirlər, atıla-atıla gedən eşşəyə minmirlər»*** *- deyə adamlar onları tənbeh edirlər.*

*Adamların sözündən təngə gəlmiş molla eşşəyi qaldırıb dalına alır və deyir:* ***”Gəl bala, belə eləməsək, camaatın ağzından qurtara bilmərik».***

Mollanın başına gələn bu əhvalat bir çox cəhətdən diqqəti cəlb edir. Birincisi, Mollanın və oğlunun bəzi hərəkətləri, bir vəziyyətdən başqa vəziyyətə keçidi (eşşəyə minməsi və eşşəkdən düşməsi) **xarici qüvvələrin** təsiri altında baş verir. İkincisi, Mollanın öz **ideyası, iradəsi** olmadığına görə yoldan keçənlərin təsiri altına düşür. Molla baş verən hadisələrin idarə edən tərəfi

yox, idarə olunan, aktiv yox, passiv tərəfidir. Fəlsəfi dillə desək, molla hadisələrin subyekti yox, obyektidir.

Son 200 ildə yaşadığımız tarix və məruz qaldığımız siyasi keçidlərin demək olar ki, hamısı **xarici qüvvələrin** təsiri altında baş vermişdir. Biz hadisələrin aktiv yox, passiv tərəfi olmuşuq.

Son 80 illik tariximizdə çox saylı siyasi keçidlər yaşamışıq. 1918-ci ildə Azərbaycan Demokratik Cümhuriyyətini qurduq. 1920-ci ildə bu quruluşdan sol təməyyülü bir quruluşa keçdik. 1921 –ci ilin sonunda SSRİ-nin tərkibinə qatıldıq. 70 ildən sonra SSRİ –nin tərkibindən çıxaraq bugünkü quruluşa keçdik.

Bu keçidlərdə bizim və Mollanın başına gələnlər arasında aydın paralellər görünür. Molla xoş niyyətlə səfərə çıxır. Biz də xoş niyyətlə 1918-ci ilin may ayında müstəqilliyimizi bəyan edərək, gələcəyə müstəqil dövlət kimi getməyi planlaşdırdıq.

Maraqlıdır ki, Molla üçün köməkçi vasitə olan **eşşək** axırda onun özünün yükünə çevrilir. Azərbaycanın çox qiymətli varı olan **nefti** zaman-zaman **yükümüzə** çevrilir və bizə bəla gətirir. Bölgəni diqqət mərkəzinə çəkir, siyasi terminlə desək, geosiyasi mərkəzə çevirir. Super dövlətlərin diqqəti bu məkanda kəsişir.

Çox vaxt Azərbaycanda gedən siyasi proseslər, bizim elitar təbəqənin başa düşdüyündən qəlbidə gedibdir. Başa düşə bilənlər isə **«zərərsizləşdirilibdir».** Misal olaraq, Nəriman Nərimanovun taleyini göstərmək olar.

Mollanın əhvalatında başqa bir cəhət də diqqəti cəlb edir. Yoldan keçən dəstələr hadisələrin (keçidlərin) keçmiş tarixçəsini bilmirlər, bu səbəbdən də yersiz təkliflərlə çıxış edirlər. Mollanın dünyagörüşü zəif olduğundan, özünün ideyası, iözünə inamı və xarici qüvvələrə tab gətirə biləcək daxili gücü olmadığından hərəkətləri (keçidlər) yoldan keçən dəstələr (xarici qüvvələr) tərəfindən idarə olunur. İlk baxışda ağıllı görünən, Molla tərəfindən qəbul olunan bu təkliflər əslində nonsensdir. Əgər hər

dəstə özündən əvvəlki dəstələrin təkliflərini bilsəydi, yersiz təkliflərlə çıxış etməzdilər. Ona görə onlar yersiz çıxış edirlər ki, hadisəni ani olaraq qiymətləndirirlər. Başqa sözlə, əgər hadisə başlandığı andan müşahidə altında olsa idi, onda yoldan ötənlər o cür təkliflərlə çıxış etməzdilər.

Bizi müxtəlif quruluşda yaşamağa məcbur edən xarici qüvvələr (yoldan ötənlərdən fərqli olaraq) etdikləri, hərəkətlərii yaxşı bilir və qərəzli məqsəd güdürlər. Bölgədə siyasətin aktiv tərəfi kimi çıxış etmək istəyirlər.

Molladan fərqli olaraq biz xarici qüvvələrin ideyalarının icraçısına çevrilməməliyik. Bizim öz milli ideyamız, siyasətimiz olmalıdır, **fəaliyyətimiz öz ideyalarımızdan, daxili gücümüzdən bəhrələnməlidir.**

## Qeyri-müəyyənlik prinsipi: təbiətdə və cəmiyyətdə

*"Səhv qarşısında qorxu bizi həqiqəti axtarmaqdan çəkindirməməlidir".*

**Helvetskiy.**

Təbiətşünaslıqda böyük əhəmiyyət kəsb edən və Heyzenberq tərəfindən kəşf edilmiş **«qeyri-müəyyənlik prinsipi»**nin məğzi bundan ibarətdir ki, elementar zərrəciklərin impulsu nə qədər dəqiq ölçülərsə, onun fəzadakı yeri bir o qədər qeyri-müəyyəndir və ya tərsinə, hissəciyin yeri fəzada nə qədər dəqiq ölçülərsə, onun impulsunun qiyməti bir o qədər qeyri-müəyyəndir.

Təbiət hadisələri cəmiyyət hadisələriindən fərqli olaraq obyektiv qanunlarla idarə olunur. Subyektiv qanunlarla idarə olunan cəmiyyət hadisələrində obyektiv qanunauyğunluqlar mümkündür. Misal üçün, **iqtisadiyyatı** yüksək olan ölkələrdə **demokratik** dəyərlər daha tez bərqərar olur. Və ya adam başına **enerji istehlakı** ilə adam başına düşən **milli dəyər** arasında mütənasiblik mövcuddur və s. Başqa sözlə, iqtisadiyyat ilə

demokratiya, enerji istehsalı ilə milli gəlir arasında əlaqə var və bu əlaqə obyektiv əlaqədir.

Yuxarıda söylənilən mühakimələrdən Heyzenberqin **«qeyri-müəyyənlik prinsipi**»”nə analoji qanunauyğunluğu cəmiyyət hadisələri üçün də formalaşdırmaq mümkündür.

Cəmiyyətdə baş verən hadisələri nə qədər az zaman intervalında (Δt) araşdırsaq, öyrənsək o halda qəbul edəcəyimiz qərarın xətası (ΔQ) bir o qədər çox olacaqdır. Və ya tərsinə, qəbul edəcəyimiz qərarın **xətasız** olması üçün hadisə geniş zaman intervalında tədqiq edilməlidir.

1990-cı illərdə Azərbaycanda baş vermiş hadisələrə həmin illərin hadisəsi kimi baxıldığından (zaman qısa götürüldükdə) , 200 ildən çox bir tarixi prosesin davamı kimi baxılmadığından, 1988-1993-cü illərdə Azərbaycan iqtidarları və Azərbaycan cəmiyyəti səhv qərarlar qəbul etdilər. Bu səbəbdən də ağır nəticələrlə qarşılaşdıq. Nə AXC-çilər, nə də partokratlar başa düşmək istəmədilər ki, Azərbaycan son 200 il ərzində dəfələrlə zamanın faciələr zolağından keçibdir . I faciəvi zolaq zamanı Azərbaycan iki yerə bölündü, II faciəvi dövrdə Zəngəzur, Dərələyəz və Göycə mahalını və digər torpaqlarımızı itirdik. Zamanın III faciəvi zolağında həmvətənlərimiz Ermənistan SSR-dəki torpaqlarından qovuldular, Dağlıq Qarabağ isə mübahisə predmetinə çevrilibdir.

Beləliklə, dediklərimizdən çıxaracağımız ən böyük fəlsəfi nəticə bundan ibarətdir ki, hadisəni nə qədər qısa zaman intervalında araşdırsaq, çıxaracağımız qərarın xətası o qədər böyük olacaq. Hadisə ilə bağlı qərarlar qəbul edilərkən həm tarixilik, həm də müasirlik nəzərə alınmalıdır.

Dediklərimizi riyazi formula ilə belə ifadə etmək olar:

$$\boxed{\Delta Q \cdot \Delta t = S = const}$$

hardakı, ΔQ - qəbul edilmiş qərarın xətasıdır və:

$$\Delta Q = Q_m - Q_r.$$

hardakı, $Q_m$ - mütləq düz qərar; $Q_c$- isə cari qəbul edilmiş qərardır. $\Delta Q=0$ olarsa, cari qərar mütləq düz qərara bərabərdir. $\Delta Q$ böyük olarsa, cari qərar, xətası çox olan qərardır. **$\Delta t$-** hadisənin araşdırıldığı zaman intervalıdır.

Böyük fransız filosofu Puankareyə **(Poincare H. «The foundation of Science», N.-Y., 1929, p.181)** görə əgər fiziki hadisəni bir modellə təsvir etmək mümkündürsə, onda onu sonsuz sayda fərqli modellərlə təsvir etmək mümkündür. Şübhəsiz, bu modellərin biri düz, bir neçəsi kvazidüz, qalanları isə səhvdir. Düz model daxilində hər bir problemin sonsuz həlli mövcuddur. Bu həllərin biri mütləq düz , bir neçəsi kvazidüz, qalanları isə müxtəlif dərəcədə səhv həlldir. Düz və səhv həllər arasında aralıq hallar da mövcuddur. Belə ki, düz modelə yaxınlaşdıqca $\Delta Q$ azalır, səhv modelə yaxınlaşdıqca $\Delta Q$ artır. Qəbul edəcəyimiz qərarın $\Delta Q$ xətasının az olması üçün hadisə geniş $\Delta t$ zaman intervalında öyrənilməlidir.

Fərz edək ki, bir çay üzərində körpü tikmək lazımdır. Şübhə yoxdur ki, körpünü çay üzərində yüz yerdə tikmək olar. Korpünün eni, uzunluğu, hündürlüyü ilə bağlı çoxsaylı variantlar da təklif etmək olar. Aydındır ki, bu variantların biri düz, bir qismi kvazidüz, bir qismi səhv, qalanları isə çox səhvdir. Ən düz variantı tapmaq mümkün olsa, onda qəbul edəcəyimiz qərarın xətası (**$\Delta Q=0$**) sıfır olar. Yəni **$Q_m = Q_c$** olar; Ən səhv variant seçəriksə, onda xətamız ən çox (**$\Delta Q= max$**) olar. Düz qərarı tapmaq üçün çox düşünmək və çox ölçüb-biçmək lazımdır. Onda $Q_m=Q_c$ olar.

Yuxarıdakı qanunun varlığını ulularımız intuitiv hiss etmişlər. Onların əsrlər boyu toplanmış, bəşəri və mənəvi və bəşəri dəyər şəklində formalaşmış bəzi fikirlərinə diqqət yetirək:

Misal 1. **«Yüz ölç, bir biç»** atalar sözünün hikməti bundan ibarətdir ki, zamanını yüz dəfə çox götür, hadisəni hərtərfli öyrən, sonra qərar qəbul et. Onda qəbul edilən qərarın

xətası az olar. SSRİ-nin dağılması ilə bağlı ABŞ jurnalisti Karl Bernistaynın «Müqəddəs ittifaq”» məqaləsində (Bax: Za Rubejom, № 9, 1992.) Papa İoahann Pavel II-nin Vaşinqtondakı səfiri, arxiyepiskop P.Laqi ilə prezident R.Reyqanın xüsusi tapşırıqlar üzrə səfiri V.Uolters arasındakı söhbətdən: («Za rubejom», … “Mən Uoltersə deyirdim: Müqəddəs ataya qulaq as! Bizim bu işdə 2000 illik təcrübəmiz var”. R.Reyqan 2000 illik tarixi təcrübəyə arxalandı və istifadə etdi. SSRİ kimi nəhəng bir imperiyanı dağıda bildi.

Misal 2. **«Allahın birinci adı səbirdir»”** - sözünün hikməti bundadır ki, səbirli olub, $\Delta t$-ni çox böyük götürsək, qəbul edəcəyimiz qərarın xətası az olar, bu isə Allaha xoş olar.

Qədim bir rəvayətdə deyilir ki, bir çoban günorta vaxtı yoldan ötən bir yolçunu yeməyə dəvət edir. Çobanın «Kimsən, hardan gəlib, hara gedirsən?”» - sualına yolçu cavab verir ki, mən filan vilayətdənəm. Elm və bilik öyrənmək üçün uzaq ellərə səfər etmişdim. Uzun illərdir ki, dini-elmi dərindən öyrənib, ölkəmə, vətənimə qayıdıram. Çöban: «Onda de görüm, allahın birinci adı nədir?»- sualını verir. Yolçu sualın cavabını bilmədiyini etiraf edir və çobandan cavabını deməyi xahiş edir. Çoban deyir: «bir il mənə nökərçilik etsən, onda bu sualın cavabını sənə öyrədərəm”». Yolçu razılaşır. Beləliklə, bir il tamam olur. Çoban Allahın birinci adının «səbir» olduğunu yolçuya öyrədir. Yolçu xudahafizləşib vətəninə yola düşür. Öz kəndinə, evinə səhərəyaxın çatır. Evə girərkən arvadının bir cavan oğlanla yatdığını görür. Bədənindən qara qanlar axır. İstəyir evə girərkən qapıda gördüyü baltanı götürüb... Yadına çobana birillik nökərçiliyi düşür. Fikrə gedir. Arvadı hənirtiyə oyanır. Ərini tanıyır. Sevincək oğlunu yuxudan oyadır və deyir: dur, atan gəlibdir. Beləliklə, səbir atanı öz doğma oğlunun qətlindən xilas edir.

Bununla, qeyd etmək istəyirəm ki, səbirli olmaq **xilasımız**, kəmhövsələlik isə bizim düşmənimizdir.

Qurani - Kərimdə də səbirliliymn fəziləti barədə yazılmışdır. Orada göstərilir ki, 20 səbirli adam 100 adama, 100 səbirli adam 1000 adama qalib gələr.

Misal 3. «**Bir ağıl yaxşıdır, ikisi ondan da yaxşıdır”** kəlamı yuxarıdakı formulanın işığında o deməkdir ki, məsələnin həllinə iki nəfərin cəlbi sanki problemin çözələnmə vaxtını iki dəfə artırar. Bu səbəbdən də qəbul ediləcək qərarın xətası azalar.

Azərbaycan Respublikası Ali Sovetinin 7 mart 1991-ci il tarixli iclasında yeni ittifaq müqaviləsi ilə bağlı keçiriləcək referendum və digər məsələlər haqqında deputat Heydər Əliyev sərt çıxış edir və təzyiqlərə məruz qalır. O zaman **«Həyat»** qəzetinin müxbiri Heydər Əliyevə yaxınlaşır və sual verir:

**Sual:** Sizə elə gəlmir ki, əvvəllərlə müqayisədə siz indi diametral, əks mövqedən çıxış edirsiniz?

**Cavab:** Bəli, dünyamız dəyişib, vəziyyət dəyişib, keçmişimizə münasibət başqadır. Ona görə də biz tariximizi yenidən təhlil edib, daha obyektiv nəticəyə gəliriksə, burada pis heç nə görmürəm».

Bu deyilənlərdən çox maraqlı nəticə əldə etmiş oluruq: **İstənilən şəxsin bir hadisə haqqında qəbul etdiyi qərarlardan son qərar, prinsipcə, daha düzgün qərar hesab olunmalıdır. Çünki son qərar qəbul edilərkən insan daha çox informasiyaya malik olur.**

Misal 4. **«Ağsaqqal sözünün üstünlüyü».** Bu kəlama açılış verməmişdən qabaq, yuxarıdakı riyazi formulanı başqa cür yazaq.

İstənilən təbiət və cəmiyyət hadisəsinin tədqiqat (müşahidə) müddəti $\Delta t$ ilə həmin hadisə haqqında əldə etdiyimiz informasiyanın miqdarı $\Delta İ$ arasında əlaqənin olmasında şübhə yoxdur. Bu əlaqənin düzxətli (düz mütənasib) olduğunu fərz edək:

Fərz edək ki, problemi həll etməyə başlayanda $t_1$– zamanında problemlə bağlı $İ_1$ informasiyamız (arqument, fakt)

var. Bir müddətdən sonra $t_2$-zamanında məlumatımız dəyişib $İ_2$ səviyyəsinə çatır. Beləliklə,

$$\Delta t = t_2 - t_1$$ - müddətində

**$\Delta İ = İ_2 - İ_1$** qədər məlumat toplanır (həmdə zərərli məlumatlar tullanır). **Δİ**-əslində, zəruri informasiya torlusudur. Əldə etdiyimiz nəticə belədir:

$$\Delta İ \sim \Delta t$$

Belə olan halda, yuxarıdakı formulanı aşağıdakı şəkildə yazmaq olar:

$$\boxed{\Delta Q \,.\, \Delta İ = sonst}$$

Yəni zəruri məlumat **ΔI** nə qədər çox olarsa, qəbul ediləcək qərarın xətası **ΔQ** bir o qədər az olar. Aydındır ki, **ΔQ=0** olarsa, onda $Q_m = Q_s$ olar. Yəni cari qərar mütləq düz qərara bərabər olar.

Ağsaqqalın dünyagörüşü, həyatı boyu topladığı informasiyası gənc insanlarınkından çox olduğuna görə, eyni hadisə haqqında ağsaqqalın qəbul etdiyi qərar, gəncin qəbul edəcəyi qərardan daha xətasız olar. Bu səbəbdən də min illərdir ki, Şərqdə ağsaqqal sözünün qiyməti böyükdür.

Misal 5. **Böyük Şəhriyarın:**

*«Bizdən qabaqdadır avropalılar,*
*İşi iş bilənə tapşırır onlar».*

hikmətinin açılışını yuxarıdakı formulanın işığında belə izah etmək olar.

Professional insanların həyatı boyu topladığı informasiyanın (biliyin) miqdarı qeyri-professionalların malik olduqlarından dəfələrlə çox olur. Bu səbəbdən də qarşıya çıxa bilən problemi professional daha qısa müddətə həll edə bilər. Qabaqcıl ölkələri zirvəyə aparan yolun fəlsəfəsi bundan ibarətdir.

**Misal 6.** Məhəmməd peyğəmbər: **“Mənim hümbətimin müxalif fikir söyləməsində rəhmətlik vardır”.** Müxalif fikir hadisə ilə bağlı informasiyanı çoxaldır, qəbul olunacaq qərarın səhvini isə azaldır.

ANS şirkətlər qrupunun və Ç. Mustafaev adına fondun təsis etdiyi “2002-ci ilin adamı”””””′′””  mükafatı və diplomunun təqdim olunması mərasimində Azərbaycan prezidenti Heydər Əliyev ANS kanalında qaçqınların həyatı ilə bağlı gördüyü bir epizod haqqında söylədi:

“Mən gördüklərimi Rəsizadəyə dedim. Əlbəttə, Rəsizadə bunu görmüşdü. Amma dedi ki, yaxşı biz bunu edirik, daha televizorda vermək nəyə lazımdır. Mən dedim, sən indi belə deyirsən. Ançaq onlar bunu verməsəydilər, biz də görməzdik. Amma bunlar göstərəndən sonra məcburuq bu işə qarışaq və aydınlaşdıraq ki həqiqət nə yerdədir′′””””.

**Misal 7.** Bu deyilənlər qərb düşüncə tərzində də özünə möhkəm yer tutub və dəyərlər şəklində kristallaşıbdır. Qərb **düşüncə** tərzindən də bir neçə misal gətirək:

7.1. Dalberq Eduard: **“Sizin istənilən qərarınız səhvdir».**

”7.2. T.N.İqnatova “ Engish for Communication” ». (Bax: səh. 216)

” a) **«Fəaliyyətə başlamazdan əvvəl faktları toplamağa vaxt ayır»**.

b) **«Problelmə üzləşəndə qərar qəbul etməzdən qabaq, faktları analiz et»**.

**Misal 8: «Kimdir fövqəlinsan?»** – sualına cavab verməyə səy göstərək. Yuxarıdakı formulanın tələbinə görə istənilən hadisə haqqında düşünmə və ya məlumat toplama müddətini azaltdıqca qəbul edəcəyimiz qərarın xətası artır. Bu

qanun adi insanların fəaliyyətini izah edir. Elə insanlar ola bilər ki, yuxarıdakı formulanın tələbinin əksinə olaraq onlar **qısa zaman** müddətində də düzgün, xətasız qərarlar qəbul etmək qabiliyyətinə malik ola bilsinlər. Yəni çevik qərar qəbul etmək qabiliyyətinə malik ola bilsinlər. Onların fəaliyyətinin bu qanunla tənzimlənmədiyi üçün onları qeyri-adi şəxsiyyətlər hesab etmək olar. Belə insanlar fövqəlbəşər və ya fövqəlinsanlardır. Ola bilsin ki, düzgün qərar qəbul edərkən onlar lazım olan informasiyanı yüksək intuisiya vasitəsilə də əldə edirlər. Şübhəsiz peyğəmbərlər fövqəlinsanlardır. Keçid dövrünü yaşayan dövlətdən qüdrətli dövlət quran prezidentləri bu sıraya daxil etmək olar. Bu baxımdan V.Leninlə müqayisədə M.K.Atatürk daha fövqəlinsandır. Çünki onun qurduğu dövlət yaşayır, amma V.Leninin qurduğu dövlət öz içindən çürüyüb dağıldı. Makedoniyalı İsgəndər, Y.Sezar, I Pyotr, I Napaleon, İ.Stalin, R.Reyqan da fövqəlinsanlardır. Onlar qısa zaman müddətində düzgün qərar qəbul edə biliblər. I Napaleonun cəld qərar qəbul etmək qabiliyyəti ətrafını həmişə heyrətləndirmişdir.

İkinci Dünya müharibəsi zamanı İngiltərənin Baş naziri U.Çörçill 1942-ci ilin avqust ayında Moskvaya gəlir. İ.Stalin 2-ci cəbhənin tezliklə açılmasını istədiyini bildirir. Çörçill bunun mümkün olmadığını izah edir və əvəzində Şimali Afrikada «Torç» əməliyyatını aparmaq istəyini bəyan edir. Stalin bu əməliyyatın yaradacağı vəziyyəti həmin dəqiqə dəqiq qiymətləndirir. Həmin anları U.Çörçill belə xatırlayır: «Dünyada yaşayan insanların ancaq bir neçəsi bizim 3-4 ay ərzində inadla hazırladığımız mülahizələri bir neçə dəqiqə ərzində başa düşə bilərdi. O, bunları ildırım sürətilə qiymətləndirdi» (bax: «Vtoraə Mirovaə voyna v vospominaniəx U.Çerçila i dr.» , Moskva, 1990, səh.168) ’’’’’’’’’’’’’’’’’’’’’.’’’’’’’’’’’’’’’’’’’

Qürür hissi ilə qeyd edə bilərik ki, **2001-ci il 11 sentyabr hadisəsi** ilə bağlı qısa bir zaman kəsiyində H.Əliyev çox düzgün qərar qəbul etdi və antiterror koalisiyasına qoşuldu. 2003-cü ilin

əvvəlində Antiirak koalisiyasına qoşulmaqla da H.Əliyev öz siyasi müdrikliyini bir daha təsdiqlədi.

Beləliklə, mütləq düzgün qərar qəbul etmək **cənabi Haqqa məxsusdur. Peyğəmbərlər** də minillərin sınağından çıxmış düzgün qərarlar qəbul etmişlər. **Fövqəlinsanlar** da yüz illər üçün doğru olan qərarlar qəbul edə biliblər**. Müdrik insanlar** zamana tab gətirən qərarlar qəbul edirlər. **Adi insanların** qəbul etdiyi qərarın xətası cahil insanların qəbul etdiyi qərarın xətasından az olur.

Cəmiyyət, adətən, qərar qəbul edənlərə və qəbul edilmiş qərarı icra edənlərə bölünürlər. Mükəmməl cəmiyyət o cəmiyyətdir ki, orada qəbul olunmuş qərarların xətası azdır və hər bir cəmiyyət üzvü bu qərarları xətasız icra edir.

Dünya böyük dəyişikliklər ərəfəsindədir. İnkişaf etmiş dövlətlər sənaye bazalı cəmiyyətdən texnoloji və informasiya bazalı cəmiyyətə keçirlər. Qabaqcıl **dövlətlər elmlə** idarə olunurlar. Çağdaş dünyanın inkişaf istiqaməti belədir. Yuxarıdakı formulanın işığında bu o deməkdir ki, istər daxili, istər xarici siyasətlə bağlı problemlərin həllində qəbul ediləcək qərar elmi olmalıdır, yəni qərarın $\Delta Q$ xətası çox az olmalıdır. Bu isə o zaman mümkündür ki, problemin öyrənilməsi, araşdırılması müddəti $\Delta t$ çox böyük olsun ki, zəruri informasiya bazası toplana bilsin. Problem öz həllini qısa zaman müddətində tapmalı olduğu bir halda, yəni zaman dar olanda çoxlu sayda peşəkar insanları və mütəxəssisləri bu işə cəlb etməklə tədqiqat, müşahidə zamanını dəfələrlə qısaltmaq olar. Bu isə həmin problemin həlli üçün araşdırma mərkəzlərinin, elmi-tədqiqat laboratoriyalarının və ya institutların yaradılması deməkdir. Belə qurumların yaradılmasının və peşəkar ekspertlərin, insanların bir yerə toplanmasının həm hikməti, həm də fəlsəfəsi bundan ibarətdir. Burada hikmət çox adamların bir yerə toplanmasında deyildir, professional insanların bir yerə toplanmasındadır!

Bütün bu dediklərimizdən görünür ki, son 200 ildə yaşadığımız zamanın faciəvi zolaqlarını və 80 ildə Azərbaycanda

baş vermiş keçidlərin öyrənilməsi, ümumiləşdirilməsi, fəlsəfi analizi böyük əhəmiyyət kəsb edir. Bu problemin həllində ümumi halda təhsilin, xüsusi halda filosofların, tarixçilərin, alimlərin rolu böyükdür.

Son yüzilliklərdə ata-babalarımızın da buraxdıqları səhvlər dəqiq analiz edilməli, lazımı fəlsəfi, siyasi, tarixi, psixoloji nəticələr çıxarılmalıdır ki, gələcəkdə səhvə yol verilməsin. Bunun üçün bizə, müasir tələblərə cvavb verə bilən təhsil sistemi lazımdır. Xətasız təhsilimiz gələcəyimizdir.

**PS.** 2002-ci ilin noyabr ayının 6-9-da Bolqarıstanın Sofiya şəhərində **"Avropada ömürboyu təhsil: Hamı üçün təhsilə doğru"** mövzusunda Beynəlxalq konfrans keçirilmişdir. Konfransda plenar iclaslarla bərabər seminarlar da təşkil edilmişdir.

8 noyabr saat 14.00-da keçirilən seminarı Türkiyə nümayəndələri təşkil etmişdilər. Seminarın mövzusu **"Hamı üçün təhsil sahəsində Türkiyə təhsil sisteminin son uğurları"** olmuşdur.

Seminarın işində Türkiyə Milli Təhsil Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri **Zühal Gokcesu** və həmi nazirliyin ibtidai təhsil şöbəsinin müdiri **Yuksel Ozdamqalı,** ABŞ-dan **Rudolf Vruqtman** (University of Missouri) və digər ölkələrin nümayəndələri iştirak edirdilər. Mən çıxışımda

$$\Delta Q \cdot \Delta \dot{I} = const$$

formulası haqqında məlumat verdim. Formuladan çıxan nəticələri seminar iştirakçılarının nəzərinə çatdırdım. İsveçrədən olan nümayəndə həmin dəqiqə formulanı yazdığım kağızın sayını çoxaldıb mənim imzamla seminar iştirakçılarına payladı. Təvəzökarlıqdan uzaq olsa da, bu sözləri də deməyi məqsədəuyğun hesab edirəm.

## 2. Sosial strukturlaşma

### Cəmiyyətin strukturlaşması

Müxtəlif dövlətlərin dövlət təsisatları, dövlət maşınları təqribən bir – birinə bənzəyir. Praktiki olaraq butün dövlətlərdə prezident, parlament, nazirlər kabineti və məhkəmə institutları vardır. Ancaq dövlətlər həyat səviyyəsinə və iqtisadi qüdrətinə görə bir-birindən xeyli fərqlənirlər. O dövlətlər qüdrətlidir ki, orada cəmiyyətin özünütəşkili sağlam düşünjə əsasında formalaşır. Fəlsəfədən də, fizikadan da məlumdur ki, **struktura** xassəni təyin edir. Dövlət elə qurulur və elə qanunlar qəbul edilir ki, hər kəs cəmiyyətdə özünə layiq yeri tuta bilir. Liberal-demokratik quruluşlu dövlətlər müasir dünyada daha öncül mövqe tuturlar.

Strukturlaşmış və strukturlaşmamış cəmiyyət, cəmiyyətin təşkilinin müxtlif aqreqat hallarıdır. Obrazlı desək, buz sudan nə qədər fərqlidirsə, strukturlaşmış cəmiyyət də, strukturlaşmamış cəmiyyətdən bir o qədər fərqlidir. Cəmiyyətin strukturlaşmasını maddələrin amorf haldan kristal hala keçidinə bənzətmək olar. **Keçid dövrü *cəmiyyətin strukturlaşma prosesinin başa çatdığı dövürdür.*** Strukturlaşmış cəmiyyətdə iqtidar öz vəzifəsini, müxalifət öz vəzifəsini, qeyri- hökumət təşkilatları öz vəzifələrini, cəmiyyətin sıravi üzvüləri də öz vəzifələrini yerinə yetirirlər.

Cəmiyyət müəyyən ideya ətrafında strukturlaşanda dövlətə çevrilir. Məlumdur ki, **cəmiyyətin** özünütəşkil formasının ən uğurlu modeli **pramidal** strukturadır. Bu struktura zamanın sınağından çıxmışdır. Bütün ijtimai quruluşlar üçün doğrudur. Pramidal quruluş cəmiyyətin strukturlaşmasının təbii formasıdır. Bu struktura qədim zamanlarda ən çox **zora**, çağdaş dövrümüzdə isə ən çox **ağıla** söykənir və intellekt, potensial, bilik, bajarıq və informasiya oxu ətrafında formalaşır. Bu formanı transformasiya etdirək

hansısa bir nəzəriyyəyə uyğunlaşdırmağa cəhd edən dövlət gec-tez dağılır. İnsanlar intellektual və fiziki qabiliyyətlərinə görə müxtəlif olduqlarından sinifsiz, təbəqəsiz cəmiyyət xəyaldır. Cəmiyyətin stratlaşması təbiidir. Sovet cəmiyyətində anti stratlaşma siyasəti aparılırdı və süni strukturaya malik idi. Bu səbəbdən də dağıldı. Bunu çağdaş Kommunist Partiyasının üzvüləri nəzərə alsalar yaxşıdır.




**Şəkildə** cəmiyyətin pramidal strukturunun en kəsiyi göstərilmişdir. Göründüyü kimi şərti olaraq pramidanı üç hissəyə – **alt, orta** və **üst** - təbəqəyə bölmək olar. Şübhəsiz, bu təbəqələrin hər biri də injə quruluşa malikdir. Hər təbəqə özü çoxlu sayda subtəbəqələrdən (a, v, s) səviyyələrdən ibarətdir

Pramidal strukturada səviyyələrin sayının yüzlərlə, minlərlə olduğunu fərz etmək olar. Səviyyələrin sayı toplumun sayına və mentalitetinə uyğun müəyyənləşir. Hər yuxarı səviyyənin təmsilçiləri özündən aşağı səviyyələrin adamlarını idarə etmək və onlara intellektual-mədəni qulluq etmək imkanı, şansı qazanırlar.

Səviyyələrarası fərq bərabər deyildir. Səviyyələrarası fərq, səlahiyyətlər arasındakı fərq tərtibindədir. Pramidanın zirvəsinə qalxdıqca iki qonşu səviyyə arasındakı fərq artır, yəni səviyyələrin sıxlığı azalır, aşağı endikcə isə azalır yəni səviyyələrin sıxlığı artır. Prezidentlə Baş Nazirin tutduğu səviyyələr arasında fərq onların qulluq səlahiyyətləri arasındakı

fərq qədərdir. Baş həkimlə həkimin tutduqları səviyyələr arasındakı fərq onların səlahiyyətləri arasındakı fərq tərtibindədir. Hər səviyyədə bir və birdən çox şəxslər üçün yer vardır. Beləliklə, cəmiyyət elə strukturlaşır ki, hər bir fərd səviyyələrin birində hökmən öz potensialına uyğun və ya ondan aşağı yer tuta bilir.

Səviyyədən səviyyəyə keçid iki yolla baş verə bilər: **təbii** və **süni.** Şaquli istiqamətdə yerdəyişmə təbii yolla baş verərsə, bu, jəmiyyət tərəfindən razılıqla qarşılanır. Yerdəyişmə süni yolla baş verərsə, bu, sosial gərginliyin törənməsi ilə müşayət olunar. Süni keçidin masştabı, yəni səviyyələrarası fərq böyük olduqja hadisənin masştabı da böyük olur. Aşağı səviyyələrlə müqayisədə yuxarı səviyyələrdə keçidlər böyük sosial hadisələrin törəməsi ilə müşahidə olunur.

Pramidal quruluşun digər vacib **səciyyəvi** cəhəti bundan ibarətdir ki, pramidanın yuxarısına və ya aşağısına doğru hərəkət etdikjə təbəqələrarası kəmiyyət və keyfiyyətlər fərqi dəyişir. Belə ki, yuxarı qalxdıqca səviyyələrdə yerlərin sayı azalır. Misal üçün, zirvə səviyyədə bir şəxs üçün yer vardır. Ona görə bu yer ali yer hesab edilir. Aşağı endikjə səviyyələrin sıxlığı və hər səviyyədəki yerlərin sayı artır. Alt səviyyədə minlərlə, on minlərlə sadə əmək adamları üçün üçün yer vardır. Yuxarı qalxdıja fərdlərin **fərqlilik** dərəjəsi artır, aşağı endikcə isə azalır. Aşağı səviyyələrdən yuxarı səviyyələrə qalxmağın koordinal yolu **təhsildir**. İnsanlar təhsilləndikcə aşağı səviyyələrdən yuxarı səviyyələrə qalxırlar. Başqa sözlə, yuxarı qalxdıca intellektual **fərqlilik (inviduallıq),** aşağı endiyjə isə **seçilməməzlik** prinsipi əsas rol oynayır. Başqa bir səjiyyəvi jəhət də bundan ibarətdir ki, yuxarı qalxdıqja məsuliyyət hissi artır, aşağı endiyjə isə azalır. Bu səbəbdən də yuxarı səviyyələrin təmsilçilərinin çoxunu xalq seçir. Xalq isə öz talelərini məsuliyyətsiz insanlara ümüd etməzlər. **«Qurani Kərim»** - də deyildiyi kimi, **«alimlə cahilin məsuliyyəti eyni ola bilməz»** (surə 45, ayə 23).

**Alt təbəqənin** (1) səviyələri **kütlə** tərəfindən doldurulur.

Cəmiyyətin strukturunun aşağı səviyyələrini tutan insanlar intellektual səviyyələrinə və düşünjə tərzinə görə bir birinə daha çox bənzəyir, daha çox oxşardır. Bu səbəbdən də onlar **seçilməməzlik** prinsipinə tabedirlər. Bu insanların jəmiyyət qarşısında siyasi məsuliyyəti çox azdır. Onlar anjaq seçkilərdən - seçkilərə siyasətə qatılırlar. Kəndli təbəqəsində bu oxşarlıq fəhlə sinifi ilə müqayisədə daha çoxdur. Fəhlələr kəndlilərlə müqayisədə bir birindən daha çox fərqlənirlər. Tarixdə fəhlənin, hətta qulun Ali hakimiyyət səviyyəsinə qalxmasına, bəlkə də, misal tapmaq olar, amma kəndlinin hakimiyyətə gəlməsinə misal tapmaq çətindir. İstənilən səviyyələrdə üfqi istiqamətdə, yəni sağdan sola, soldan sağa keçid maneəsizdir.

İki gənj ekiz qardaşın oxşarlığı daha çoxdur, nəinki fərqli jəhətləri. Genetik kod öz işini görür. Yaşlı iki qardaşın ekiz olsa belə, fərqli jəhətləri daha çoxdur, nəinki oxşarlıqları. Çünki təhsil, həyat təjrübəsi öz işini görür. İnsanlar yaşa dolduqja, təhsil aldıqja alt qatlardan orta qatlara, oradan da üst qatdakı səviyyələri dolduraraq yuxarıya doğru hərəkət edir.

**Postulat 1.** ***Alt qatın aşağı səviyyələrində yüzlərlə - minlərlə insanın yer tutması mümkündür.***

Eyni cür fəaliyyətlə məşğul olan yüzlərlə fəhlə, kəndli ola bilər.

Beləliklə, belə nətijəyə gəlmək olur ki, cəmiyyətin alt təbəqələrinin təmsilçiləri bir-birini əvəz edə bilərlər. Alt təbəqənin təmsilçilərinin bir-birini əvəz etməsi cəmiyyətdə hiss olunan görüntülər yaratmır. Bu təbəqə daxilində **seçilməməzlik prinsipi** əsas rol oynayır. Onların fəaliyyətində yaşama, həyati problemlər əsas yer tutur.

**Orta təbəqə (2)** əsasən **ziyalılardan** təşkil olunur. Yəni orta təbəqənin səviyyələrini cəmiyyətin ziyalı təbəqəsi doldurur.

Yuxarıda qeyd olundu ki, alt təbəqə daxilində əvəz olunmaz şəxs yoxdur. Bu fikiri orta təbəqənin təmsilçiləri üçün demək çətindir. Bu təbəqə daxilində həm **seçilməməzlik,** həm də **individuallıq** prinsipləri fəaliyyət göstərir. Alimlər, yazarlar, rəssamlar bir - birindən daha çox fərqlidirlər, nəinki oxşardırlar. Onlar eyni yaradjı jərəyanın təmsilçiləri olsalar belə, fərdi yaradıcılıqları biri – birindən kifayət qədər seçilir. Bununla bərabər bu təbəqə daxilində **seçilməməzlik** prinsipi tətbiq edilsə, cəmiyyətdə qlobal olaraq hiss oluna bilən sarsıntılar, görüntülər baş verməz, amma lokal olaraq həyajanlanma baş verə bilər. Bunların fəaliyyətində həm şəxsi, həm də cəmiyyətin problemləri əsas yer tutur.

Orta təbəqənin özü də injə quruluşa malikdir və bir-biindən seçilə bilən bir neçə subtəbəqəyə bölünür: a) şairlər, b) rəssamlar, s) bəstəkarlar, d) həkimlər, texniki ziyalılar, müəllimlər və s.

**Üst təbəqədəki (3) səviyyələri -** cəmiyyətin **elitar hissəsi** doldurur. Siyasi elita, hərbi elita, iqtisadi elita və cəmiyyətin digər adlı - sanlı şəxsiyyətləri bu təbəqədə təmsil olunurlar. Cəmiyyəti idarəedən və ya bu funksiyanı bacara bilən siyasətçilər də bu təbəqədə cəmləşirlər. Dövlət adamları, parlament üzvüləri, ictimai xadimlər, beynəlxalq səviyyəli yaradıcı insanlar (alimlər, şairlər, bəstəkarlar, rəssamlar) bu təbəqənin təmsilçiləridir. Bir sözlə xalqını dünyayda təmsil edənlərin yeri elitar təbəqədədir. Hər bir topluma məxsus pramidanın zirvəsi **milli lider** üçündür. Lider ali siyasi və dövləti keyfiyyətlərlə bərabər, həm də yüksək insani və mənəvi keyfiyyətlərə də malik olmalıdır.

Üst təbəqənin hər səviyyəsində **fərqlilik, individuallıq** prinsipi əsas rol oynayır. Üst təbəqənin təmsilçiləri bir-birindən daha çox fərqlənir. Bunların fəaliyyətində siyasət, siyasi hakimiyyət əsas yer tutur.

**Postulat 2.** ***Pramidanın zirvəsi ali bir şəxs –milli lider üçündür. Bu səviyyədə eyni vaxta iki şəxs fəaliyyət göstərə bilməz. Bu səviyyə uzun müddət boş da qala bilməz.***

Şairlər sözləri bir ölçülü (xəttdə) fəzada, rəssamlar rəngləri iki ölçülü (səthdə) fəzada, bəstəkarlar səsləri üç ölçülü (həcmdə) fəzada naxışa düzürlər. Ölçünün dərəjəsi artdıqja fəaliyyət çətinləşir. Ona görə cəmiyyətdə şairlər 1000-lərlə, rəssamlar 100-lərlə, bəstəkarlar isə 10-larla olurlar. Siyasətçilər dörd ölçülü fəzada (üçü **məkan,** biri **zaman**) fəaliyyət göstərirlər. Onlar hadisələri, prosesləri, olayları, tarixi faktları naxışla (öz xalqının xeyrinə) sıraya düzməyi bacarmalıdırlar. Bu isə nadir istedad, əməksevərlik, güclü yaddaş, bütün elmlərdən halilik və digər yüksək ali dövləti və insani keyfiyyətlərin olmasını tələb edir. Bu səbəbdən də siyasətçilər tək-tək olurlar. Ali səviyyəni fəth edən əvəzsiz şəxs olur. Zirvə səviyyəsinə yol xalqın ürəyindən keçməlidir. Xalqın gözü qarşısında fədakar əməklə yüksəlməlisən ki, Konstitusiyamızda qeyd edildiyi kimi **«hakimiyyətin mənbəyi olan xalq»** Ali hakimiyyət zirvəsini sənə etibar etsin.

Cəmiyyət daxilində baş verən sosial hadisələrin bir maraqlı cəhəti də bundan ibarətdir ki, adətən fərdlər öz **potensial səviyyəsindən** daha yuxarı **idarəetmə səviyyəsini** tutmağa cəhd edir. Parkinsonun tez-tez istinad etdiyi ***Piter Prinsipinə*** *görə* ***«İstənilən ierarxiyada hər bir qulluqçunun özünün qeyri-kompitentlik səviyyəsini əldə etmək tendensiyası var».***

Başqa sözlə, insan psixologiyası belədir ki, hər kəs çalışır ki, öz potensialına uyğun səviyyəni yox, daha yüksək səviyyəni tutsun. **Rüşvət, dostbazlıq, yerlibazlıq** bu istəyi həyata keçirmək üçün istifadə edilən zərərli üsullardandır. Bu yolla insanların hakimiyyətə can atması cəmiyyətdaxili gərginlik yaradır, cəmiyyətin inkişafını ləngidir və ölkəni üçüncü dünya ölkəsinə çevirir. Uğursuz misal olsa da deməliyəm ki, **itlə** qoyunu idarə etmək mümkündür, **qoyunla** iti

idarə etmək qeyri- mümkündür. Çünki təbiət strukturlaşanda itə qoyundan yüksək səviyyədə yer ayırmışdır. Kadr siyasətində bu sadə həqiqəti diqqət mərkəzində saxlamaq məqsədəuyğundur.

Alt və ya orta təbəqənin təmsilçisi bu və ya başqa səbəbdən elitar təbəqəyə aid səviyyəni tutarsa (misal üçün rüşvət verməklə), bu cəmiyyətdə masştablı həyəcanlanmaya, bəzən isə sarsıntılara gətirib çıxara bilər. Keçid zamanı səviyyələrarası fərq nə qədər çox olarsa, cəmiyyətdə sosial gərginlik də bir o qədər yüksək olar. Bu tezisi izah etməkdən ötrü təbiətdən bəzi anologiyalar və ya paralellər gətirmək mümkündür:

Çay ona görə axır ki, çay boyu iki nöqtə arasında hündürlüklər fərqi var. Külək ona görə əsir ki, səmanın iki nöqtəsi arasında təzyiqlər fərqi var. Elektrik lampası ona görə yanır ki, dövrənin iki nöqtəsi arasında gərginliklər fərqi var. Bu fərqləri götürsək, nə çay axar, nə külək əsər, nə də işıq yanar. Bu proseslərin intensivliyini artırmaq üçün fərqləri artırmalıyıq.

Cəmiyyətdə də belədir. Fərdin real potensial səviyyəsi ilə arzu edib tutmaq istədiyi struktur səviyyə arasında fərq nə qədər böyük olarsa, cəmiyyətdə **ədalət prinsipi** bir o qədər çox pozular. Haqqı olan yox, haqqı olmayan yuxarı təbəqədə yer tutur. Bu hadisələrin total səviyyədə baş verməsi iqtidarın hakimiyyətdən getməsi ilə nəticələnir.

## Azərbayjan cəmiyyətinin strukturlaşması

Bu deyilənlərin işığında son on ildə cəmiyyətimizdə baş vermiş ijtimai-siyasi proseslərə diqqət yetirək. Bu dövrü iki hissəyə bölmək olar.

Birinci dövr Heydər Əliyevə qədərki dövrdü. Bu dövr müstəqilliyimizin elan olunduğu 18 oktyabr 1991–ci il tarixdən 1993–cü ilin iyunun ortasına qədərki dövrü əhatə edir və cəmiyyətimizin cahilliyyət dövrü adlandırmaq olar. Cahilliyyət dövrlərində nə baş verə bilərdisə, bu dövrdə baş verdi.

Cəmiyyətin alt və orta təbəqələrinin nümayəndələri ali dövlət və hakimiyyət vəzifələrini ələ alaraq elitar təbəqədəki səviyyələri tutdular. Struktur səviyyə ilə şəxsi bilik və bajarıq arasında böyük fərq böyük də gərginliyə səbəb oldu. Bu iqtidarın dövründə **fərqlilik** və **ədalət prinsipləri** total sürətdə pozuldu. Cəmiyyət bu cür strukturlaşa bilmədi, Həyacanlandı, silkələndi, AXC - Müsavat hakimiyyətini qəbul etmədi. Onlar hakimiyyətdən getmək zorunda qaldılar.

İkinci dövr Heydər Əliyevin tarixi qayıdışından sonra başlayır. Bu dövrün birinci iki ili müstəqilliyin qorunmsına sərf olundu. Heydər Əliyev müstəqilliyimiz ilk real təhlükədən (oktyabr 1994) qorudu. Sonra müstəqilliyi dönməz və əbədi etmək üçün o, **dövlət qurujuluğu** prosesinə başladı.

İşin başlanığıcında cənab Prezident qarşısına qoyduğu məqsəd və vəzifələri belə açıqladı:

**«Azərbayjan Respublikasının prezidenti kimi mənim borcum, vəzifəm və məqsədim ondan ibarətdir ki, Azərbayjanda həqiqi, demokratik jəmiyyət yaransın».**

Dövlət qurujuluğunda hansı dövləti prinsiplərdən istifadə ediləcək?- sualına dövlətimizin banisi xalqımıza və dünyaya belə cavab verdi:

**«Respublikamızda hüququ dövlət qurujuluğu demokratik, sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığı, söz, vijdan azadlığının, müasir plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olması bizim əvvəldən qəbul etdiyimiz prinsiplərdir».**

Dövlət quruculuğunda milli və bəşəri dəyərlərdən istifadə ediləcəyini ölkə əhalisinə belə çatdırır:

**«Dövlət quruculuğunda nəinki tarixi və milli ənənələrimiz nəzərə alınır, həm də dünya təcrübəsindən demokratik prinsiplərdən istifadə edilir».**

1995-ci il 28 may bayramı ilə bağlı çıxışında dövlət quruculuğunun gedişi ilə bağlı qarşıda duran vəzifələri belə müəyyən etdi:

**«Dövlətçiliyimizi, müstəqilliyimizi möhkəmləndirmək üçün qarşımızda bir çox mühüm vəzifələr də durur. Bu vəzifələr dövlətçiliyi möhkəmləndirmək üçün islahatlar keçirməkdən, iqtisadi, siyasi, ijtimai sahələrdə islahatlar aparmaqdan, respublikamızda həqiqi demokratik dövlət yaratmaqdan, cəmiyyətimizi tam demokratik bir cəmiyyətə çevirməkdən, insan hüquqlarının qorunması, adamların azad - asudə yaşamasını təmin etməkdən ibarətdir».**

Prezidentimiz minilliklərin ayrıcında xalqa müraciətində praktiki dövlət quruculuğu prosesinin gedişini belə şərh etdi:

**«Azərbaycanda müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesi 1995-ci ildən böyük vüsət aldı. Bunun əsasını da Azərbaycanın qəbul etdiyi Konstitusiya təşkil edirdi. Ondan sonrakı dövürdə Azərbaycanda dövlətçilik möhkəmlənib, demokratik prinsiplər bərqərar olubdur».**

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dövlət quruculuğu ilə bağlı qarşısına qoyduğu məqsədə nail olduğunu 22 sentyabr 2001–ci ildə «**Neftçilər gününə**» həsr olunmuş təntənəli mərasimdə xalqımıza və dünyaya bəyan etdi:

**«Azərbaycanda artıq demokratik, hüquqi, dünyəvi dövlət qurulub, bütün hakimiyyət orqanları yaranıb, iqtisadi, siyasi, hüquqi islahatlar həyata keçir və keçməkdədir».**

Bəli, Azərbaycanda dövlət qurulubdur. Bu **dövlətin banisi və qurucusu Heydər Əlirza oğlu Əliyevdir.**

Azərbaycan cəmiyyətinin strukturlaşması başa çatmaqdadır. Pramidal strukturanın zirvəsində oturmaq hüququnu xalq milli lideri Heydər Əliyevə veribdir. Ondan aşağıdakı səviyyələrdə elitar təbəqənin təmsilçiləri yerləşirlər. Onların əksəriyyəti də Heydər Əliyevin fərmanı və sərəncamları ilə bu səviyyələrdə yer tutblar. Heydər Əliyevin bir kəlamında deyildiyi kimi: **«Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, mədəniyyətini dünyaya nümayiş**

**etdirirlər».** Şübhəsiz, bu insanlar da elitar təbəqənin təmsilçiləridirlər.

Azərbaycan cəmiyyəti o zaman tam strukturlaşmış olacaqdır ki, hər kəs özünə uyğun səviyyədə yer tutsun. Bu prosesin zamana ehtiyacı vardır. Azərbaycan Prezidenti Heydər Əliyev necə gözəl deyib: **«Hər bir insan həyatda öz yerini tapmalıdır. Ancaq öz yerini, özünə məxsus olan yeri tapmalıdır».** Bu şərt ödənilən halda cəmiyyətimiz tam strukturlaşacaq və iqtisadi tərəqqi yolunu tutacaqdır.

Şairlərimizlərdən ustad **Şəhriyarın:**

*«Bizdən qabaqdadır Avropalılar*
*İşi iş bilənə tapşırır onlar».*

poetik deyimindən də aydındır ki, cəmiyyətdə hərə özünə layiq yeri tutanda cəmiyyətin **harmonik** inkişafı təmin edilir.

Bizim vətəndaşların hər birinin amalı Azərbaycanın dövlət müstəqilliyini qorumaq, xalqımızın xöşbəxt gələcəyi uğrunda çalışmaq olmalıdır. Bu amal uğrunda mübarizə aparmayanlar, şəxsi mənafelərini dövləti mənafelərdən üstün tutanlar da cəmiyyətimizdə az deyildir. Bu amallar uğrunda mübarizə aparanlar müxalifət düşərgəsində də azdır. İqtidarın da təmsilçiləri arasında Prezidentə sədaqətlə qulluq edənlərlə bərabər, yolunu sapanlar, şəxsi mənafeyini milli mənafelərdən üstün tutanlar da vardır.

Dövlətin qurulması isə cəmiyyətin dövlət sutunları üzərində strukturlaşması deməkdir. Bu prosesin baş verdiyi dövr **keçid dövrü** adlanır. Dövlət qurulandan sonra keçid dövrü başa çatır.

## Qloballaşma

XX əsr tarixin yaddaşında elektrik, atom, kosmos əsri və digər səciyyəvi cəhətləri ilə qalacaqdır. XX1 əsrin diqqəti cəlb

edən məziyyətlərindən biri ictimai-siyasi proseslərin **qloballaşmasıdır**.

Həmcins toplum daxilində biz hansı dərəcədə bir-birimizdən qarşılıqlı asılıyıqsa, indi dövlətlər bir birindən eyni dərəcədə qarşılıqlı asılı vəziyyətdədir. Bunun əsas səbəbi son iki yüz ildə keçdiyimiz iki bəşəri – sənaye inqilablarıdır. Birinci inqilabın nəticəsində yerdəyişmə sürətimiz əgər 100 dəfələrlə artıbdırsa, ikinci inqilabın nəticəsində infomasiyanın ötrülmə sürəti fantastik dərəcədə çoxalıbdır. Bu səbəblərdən də planetimiz **böyük kəndə**, dövlətlər isə bu kənddə **qonşulara** çevrilibdir. Qonşuların birində baş vermiş hadisə o biri qonşulara sirayət etdiyi kimi, dövlətlərin birində baş vermiş hadisə bütün planetə təsir edir. Bu səbəbdən də planetimizdə yeni bir dövür başlayır. Buna **qloballaşma** erası deyilir.

Qloballaşma ilə bağlı ABŞ-ın keçmiş prezidenti **Bill Klintonun Davos iqtisadi forumunda** (Xalq Qəzeti, 3.02.2000) fikri maraq kəsb edir: *«Qloballaşma bağlı qapıları açır, millətlər, xalqlar, fərdlər, müxtəlif iqtisadiyyatlar və mədəniyyətlər arasında yeni şərait yaradır»*

Dövlətləri dünya duyumuna görə də təsnifata bölmək olar. Dövrün inkişaf istiqamətini, məntiqini, fəlsəfəsini **bilənlər.** Belə dövlətlər öz dövürlərində aparıcı dövlətlər olurlar. Dövrün inkişaf məntiqini, fəlsəfəsini **duyanlar**. Belə dövlətlər öz dövürlərində dövlətlər sırasında ortada olurlar. Bir də dövrün inkişaf məntiqinin **əksinə gedənlər**. Belə dövlətlər gec-tez məhvə məhkumdurlar

BMT-nin baş katibi **Kofi Annanın** 30 dekabr 1999- jı il yeni əsrin astanasında dünya ictimayətinə müraciətində deyilir: *«Qloballaşma inkişaf üçün daha çox seçim imkanları yaradır…Yerli icmalar öz yanğınsöndürmə idarələrinə, kommunal xidmətlərə və şəhər şuralarına, dövlətlər isə qanunverici və icraedici hakimiyyətlərə malikdir. Lakin bugünkü qloballaşmış dünyada qlobal fəaliyyət üçün mövcud*

*olan institutlar və mexanizmlər hələ ki, embrion dövrünü yaşayır».*

İstənilən super dövlət Yer kürəsinin istənilən nöqtəsində öz maraqlarını təmin edə bilir. Bunu inkişaf etməkdə olan ölkələr üçün demək mümkün deyildi. Onda qloballaşmanın nəticəsində varlı dövlət daha çox varlanacaq, kasıb dövlət daha çox kasıblaşacaq. Bunun nəticəsində kasıblaşmadan yeni problemlər törəyəcək: işsizlik, dilənçilik, yoxsulluq, zorakılıq, pozğunluq, narkomaniya və s. Bu isə bumeranq kimi həm də varlı ölkələr üçün də yeni problemlər yaradacaq.

Qloballaşmanın nəticəsində fəza daralır, zaman sürətlənir. Qloballaşma bizim fəzaya bağlılığımızı əlimizdən alır.

İnformasiya agentliklərinin verdiyi məlumata görə 11 sentyabr 2001–ci il terroru nəticəsində Nyü-Yorkda Beynəlxalq Ticarət Mərkəzində baş vermiş faciə nəticəsində 64 millətin nümayəndələri həlak olmuşlar.

Bu dediklərimizdən hiss olunur ki, qloballaşmanın təsiri altında artıq bəşəriyyət strukturlaşmaya can atır. Amerikada bu istiqamətdə aparıcı ideya «Manifest destiny»-dir, hansı ki, onu «yazılmış tale» və ya «əvvəlcədən nəzərdə tutulmuş qədər» tərcümə etmək olar. Bu konsepsiyada hesab edilir ki, sivilizasiyanın inkişafını əks etdirən bugünkü siyasi quruluş, insan haqları, liberal-kapitalist iqtisadiyyat, liberal-demokratik siyasi quruluş, qarşılıqlı mədəniyyət normaları, dərin fərqliliklərin yoxluğu - bütün bunlar insan ağlının yüksək nailiyyətləridir. Bu qloballaşan bəşəriyyətin strukturlaşmasının fəlsəfəsi belədir.

## Bəşəriyyətin strukturlaşması

Əslində bu strukturlaşmadan qabaq bəşəriyyətin inkişafının iki mümkün yolu göstərilir. Bu yolların biri optimist, digəri isə pessimist yoldur.

Birinji yola görə strukturlaşma təkamül yolu ilə formalaşa bilər. Bu istiqamətin müəllifi **Frensis Fukuyama** «Tarixin

sonu» konsepsiyasında belə deyir: liberal-demokratik dəyərlərin üstünlüyü yaxın perspektivdə yeni dünya düzümünün hüquq sistemini yer kürəsi əhalisinin əksəriyyətinə konfliktsiz və problemsiz sırımağa imkan verir.

Xantinqton tərəfindən hazırlanmış ikinci pessimist variantda deyilir ki, ABŞ– ın üstünlüyü şəksiz olan çağdaş hüquq sisteminin, ABŞ hiperüstünlüyü təmin olunan qlobal sistemə birbaşa təkamülü konfliktsiz mümkün deyildir. İtalyanlı professor Santoro hesab edir ki, dünya düzümünün BMT, Yalta modelləri dağılmalıdır. Rusiya, Ukraina və digər dövlətlər parçalandıqdan sonra yer üzərində yeni hüquq sistemi bərqərar olmalıdır.

Bu variantların hər biri dünya dövlətlərin hamısının bir dövlətin hegomonluğu altında strukturlaşmasını təbliğ və təqlid edir. Cəmiyyət strukturlaşaraq kamil bir qurum yarada bildiyi kimi, dövlətlər də bir dövlətin rəhbərliyi altında stukturlaşa bilər. Bu struktur sistemdə hər dövlət özünə layiq səviyyədə yer tuta bilər. Bu struktura yaranandan sonra milli tarixlər bitir. Yeni dünya düzümü başlayır.

Rusiyanın «Avrasiya» ictimai siyasi hərəkatının lideri Aleksandr Duqin bir qütblü yox, çox qütblü qloballaşmanın tərəfdarı və ideoloqudur. O, hesab edir ki, qloballaşma milli suverenliyi məhv edir. Siyasi suverenliyi, müstəqilliyi itirir. Qloballaşma planetin xalqlarına süni şəkildə təqlid edilir. Onun fikirincə, bir qütblü qloballaşmada, gec-tez istənilən suverenlik, özünüidarə, istənilən avtonomiya aradan götürüləjək. Prinsipjə, hamı Amerikanın ştatlarına çevriləjəkdir. Çoxqütblü qloballaşma anti- qloballaşma deyil, alternativ variantda qloballaşma ilə mübarizədir. Çoxqütblü qloballaşmanın fəlsəfəsi Amerika mərkəzçiliyini və Amerika modelini inkar edir.

Doktor Mehmet Əli Qılıcbəy (Qazi Universiteti, Ankara) hesab edir ki, dünyanın müxtəlif yerlərində qloballaşma müxtəlif sürətlə gedir. Çünki müxtəllif dövlətlərin və

regionların potensialları eyni deyildir. İndi dünyada üç regional və kontinental birləşmə vardır: Şimali Amerika, Qərbi Avropa, Avroasiya və Uzaq Şərq. Kənarda qalan dövlət və regionlar materik periferiya adlanır və qloballaşma onlara mənfi təsir göstərir. Mehmet bəy hesab edir ki, bu üç sistemə daxil olmayan ölkələr, ya özləri bir başqa inteqrasion sistem yaratmalı, ya da mövcud sistemlərin birinə qoşulmalıdırlar. Ancaq həm birinci, həm ikinci variant çətindir. Həm A.Duqin, həm də Mehmet bəy hesab edir ki, bu üç sistemə birin də əlavə etmək olar. Avrasiya dövlətlərinin belə bir sistem yaratmağa potensialları və infrastruturu vardır. Ancaq bu dövlətlər çətin dövürlərini yaşayırlar. Bu dövlətlərdə ilk öncə siyasi stabillik güclü dövlətçilik bərqərar olmalıdır.

Qloballaşma «dəyərlərin yenidən qiymətlənməsini» tələb edir. Qloballaşma zamanı gündəmə «bəşəri mənəviyyat», «bəşəri ədalət» kimi yeni məhvumlar daxil olur.

XX əsrin 70-ci illərində kimyəvi yanacağın, xüsusilə neftin tezliklə tükənəcəyi proqnozlaşdırılırdı. Neft qurtararsa, günəş enercisi, termonüvə enercisi ümüdlü perespektivlər idi. Ancaq gələcəyə ümüdlə baxmaq lazımdır. İndisə tarixin sonu proqnozlaşdırılır. Avropa dövlətlərində idarəetmədə ənənə mühüm rol oynayır. ABŞ-da bu boşluğu hüququn aliliyi doldurur. İqtisadi qüdrət hüquqa hörmətdən asılıdır. Dünya dövlətlərinin bir hüquq sistemində birləşməsi tarixin birinci cilidinin sonu, ikinci cilidinin başlanığıcı ola bilər.

M.K.Atatürk və V.İ.Lenin təqribən eyni zamanda iki imperiya üzərində iki dövlət qurdular. Bu dövlətlərdən biri yaşayır və inkişaf edir, digəri isə artıq on ildir ki, dünyanın siyasi xəritəsindən silinibdir. Çünki V.Leninin qurduğu dövlət M.Atatürk dövlətindən fərqli olaraq, dünyanın inkişaf məntiqinə zidd idi. Qloballaşmanı duymaq, izləmək və öyrənmək lazımdır. Ondan faydalanmaq, istifadə etmək lazımdır, **qloballaşmanın əksinə getmək məqsədəuyğun deyildir**. Əks halda Lenin Rusiyasının taleyi yaşanılar.

Məqaləni Azərbayjan Respublikasının Prezidenti **Heydər Əliyevin** 7 sentyabr 2000–ci il tarixli Nyu-Yorkda minilliyin zirvə görüşündə söylədiyi bir fikirlə bitirmək istəyirəm: ***Dünyanın inkişafının indiki mərhələsinin başlıca meyli qloballaşmadır. Bu mürəkkəb, heç də birmənalı olmayan prosesin perspektivləri bizim hamımızı düşündürür. Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünü və idarəetmə sisteminin stabilliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir».***

**Ədəbiyyat**


1. Ş.Q.Əsgərov, «Müxalifətnamə», Bakı, 2002
2. S.N.Parkinson, «Polnıy svod zakonov Parkinsona i missis Parkinson» M.İzd. GKSMO-Press, 2001.
3. «Xalq qəzeti», 3.02.2000
4. Ş.Q.Əsgərov, «Konfiliktlərin qloballaşması», Res. Elmi-praktiki konfransın materialları, s.204, Bakı, 2001.
5. Jurnal «Dialoq Avrasiya» №5, 2001.

# 3. Azərbaycanın intellektual potensialı: Dünən, bu gün, sabah

Müsahibim Milli Məclisin üzvü, əməkdar elm xadimi **Şahlar ƏSGƏROVDUR.**

*- Şahlar müəllim, bilirsiniz ki, XX əsr Azərbaycan üçün böyük məhrumiyyətlər, faciələr, eyni zamanda inkişaf, tərqqi əsridir. Azərbaycanın intellektual potensialın hesabına, həm də keçmiş təcrübədən bəhrələnmənin nəticəsində müstəqil dövlətimiz yaşayır, yeni uğurlar qazanır.*

- Həqiqətən XX əsr Azərbaycan üçün həm uğurlar, həm də faciələr əsridir. Azərbaycan Respublikasının prezidenti möhtərəm H.Əliyev elm, mədəniyyət, tibb, bəddən tərbiyəsi və idman xadimlərinin bir qrupuna vətənin ali mükafatlarını təqdim edərkən söylədiyi nitqində ötən əsrdə üç böyük uğurumuzu göstərmişdir: **"Hesab edirəm ki, XX əsrdə Azərbaycanın ən böyük nailiyyəti, birincisi, 1918-ci ildə öz dövlət müstəqilliyini elan etməsidir, ikincisi, 1991-ci ildə bu müstəqilliyi bərpa etməsi və nəhayət, əldə olunmuş azadlığı, dövlət müstəqilliyini ötən on ildə çətin şəraitdə, çox ağır şəraitdə, bəlkə də sizin hamınızın təsəvvür edə bilmədiyiniz şəraitdə qoruyub saxlamışdır".** XX əsrdə Azərbaycan xalqı zamanın faciəvi zolaqlarından da keçib. Bu əsrdə ərazimiz 130 min kv. km-dən 86,6 min kvadratkilometrə qədər azalmışdır. Hal-hazırda torpaqlarımızın 20 faizi hələ də işcal altındadır. İkinci faciəmiz tez-tez əlifbadəyişmə əməliyyatlarına məruz qalmağımızdır. Bunu kökümüzə, keçmişimizə, tariximizə vurulan ağar zərbələr

kimi qiymətləndirməliyik. 1937-ci ilin qırğınları, 1990-ci ilin yanvar faciəsi, Xocalı soyqırımı, 1992-93-cü illərdə baş verən permanent hakimiyyət dəyişmələri tariximizin qara səhifələridir.

Sualınızın ikinci hissəsi ilə bağlı deyim ki, ziyalı təbəqəsinin, cəmiyyətimizin intellektual hissəsinin Azərbaycanın azadlığa qovuşmasında, müstəqilliyinin qorunmasında əməyi böyükdür. Ölkə daxilində ictimai şüurun formalaşmasında bu qüvvənin xidməti danılmazdır. Eyni zamanda Azərbaycana yönəlmiş xarici düşmən qüvvələrin niyyətlərinin qarşısının alınmasında da bu potensialdan istifadə olunur.

- *Ölkənin bütün həyatında islahatlar aparılanda həm də intellektual potensiala arxalanırıq. Azərbaycan təkcə təbii sərvətlər baxımından zəngin deyil. Dövlət başçımız adını çəkdiyiniz mərasimdə elm, mədəniyyət, təhsil sahəsini xüsusi əhəmiyyət kəsb edən sahə saymışdır.*

- Mən ölkəmizin potensialından danışanda şərti olaraq onu iki hissəyə - iqtisadi və intellektual potensiala bölürəm. İqtisadi potensial deyəndə torpağın, təbiətin ehtiyatları nəzərdə tutulur. İntellektual potensiala yazıçılar, alimlər, mədəniyyət xadimləri, savadlı mütəxəssislərin intellektual mülkiyyəti və s. aiddir. Hər iki potensialı ali məqsədə - insanları xoşbəxt yaşatmaq arzusuna çevrilən qurum isə yığılmaqda olan dövlət maşınıdır. Bu maşının qurucusu möhtərəm Heydər Əlirza oğludur. Ölkə rəhbəri həmişə elmə, mədəniyyətə, təhsilə, ziyalılara yüksək qiymət verir. Həmin tədbirdə prezident belə dedi: "Azərbaycan böyük intellektual potensiala - böyük elmə, böyük mədəniyyətə, böyük təhsilə malik idi. Əgər bunlar olmasaydı və təbiidir ki, bunları qiymətləndirənlər, bunların əsasında həyatımızın yeni mərhələsində işləri irəliyə aparanlar olmasaydı, indi bizim

müstəqil dövlətimiz yaşaya bilməzdi". Bir neçə il öncə isə cənab prezident ziyalılarımız haqqında belə bir fikir söyləmişdi: "Bizim ziyalıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin cəmiyyətdə hörmətini qaldırmaq lazımdır. Çünki xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, elmi ilə tanınır. Şübhəsiz ki, xalqın tarixində sərkərdələrin də, siyasətçilərin də böyük rolu var. Ancaq xalq həmişə mədəniyyəti, elmi ilə tanınır və keçmiş tariximiz də bunu sübüt edir". Ziyalıların cəmiyyətdə rolunu yüksək tutmaqla dövlət başçısı böyük təvazökarlıq nümunəsi göstərmişdir.

- *Sizcə, intellektual potensialı necə qiymətləndirmək olar? Misal üçün, sizin intellektiniz qiyməti nə qədərdir?*

- İstənilən yetkin cəmiyyətdə bu suala cəvəb axtarır. Cəmiyyət həmişə maraqlıdır ki, öz vətəndaşlarının intellektini obyektiv qiymətləndirə bilsin. İntellektual fəaliyyət dərketmənin ön cəbhəsində getdiyindən bəzən yalançı alim, psevdoalim özünü dəyərli bir insan kimi cəmiyyətə sırıya bilir. Dəyərli bir alimsə əksinə, dəyərsiz bir adam kimi küncə sıxılır. ABŞ-da alimin reytinqi onun aldığı elmi nəticələrə istinadların sayı ilə müəyyənləşdirilir və bu niyyətə "SCI" adlı jurnal çap edilir. Elmi məqalənin dəyəri ilə ona edilən istinadların sayı arasında mühasibət Nobel Mükafatı Komitəsi tərəfindən də nəzərə alınır. Belə ki, Nobel mükafatına layiq görülmüş elmi nəticələrə başqa müəlliflər trəfindən adətən 180-dan çox istinad edilir.

Müstəqil dövlət kimi yaşamaq istəyən cəmiyyətdə sözün məsuliyyətini bilən, düz danışmağı özünə amal seçən, yalançılığa dözməyən alimlərə, ekspertlərə, insanlara ehtiyac vardır. Misal üçün, mənim intellektual potensialımı necə qiymətləndirmək olar?

Əvvəla, onu qeyd edim ki, hər bir alimin intellektual

potensialı bir neçə toplananın cəmindən ibarətdir. Bu toplananların hamı üçün sabit və hər kəs üçün dəyişən hissələri vardır. Elmi işlə məşğul olan hər bir kəs orta məktəbi, ali məktəbi və ali məktəbdən sonrakı təhsil pilləsini bitirir. Bu təhsil pillələrinin xərcini həm dövlət, həm də valideynlər çəkir. Hamı üçün sabit olan bu toplananı təqribi də olsa qiymətləndirmək mümkündür. İkincisi, hər bir alim çoxsaylı konfranslarda iştirak və çıxış edərək öz elmi nəticələrini açıqlayır. Bakıda keçirilən elmi konfranslarda iştirakımı nəzərə almasaq, 25-ə yaxın ümumittifaq və beynəlxalq konfranslarda iştirak və çıxış etmişəm. Bugünkü tələblər səviyyəsinə uyğun olaraq belə konfransların hər birində iştirak xərcini hesablamaq çətin deyildir.

Üçüncüsü, hər bir alim eyni zamanda çoxsaylı ezamiyyətlərdə, ixtisasartırma kurslarında olur. Elmi fəaliyyətim zamanı mən on ay Danimarkada, üç ay Finlandiyada, iki ay Çexoslavakiyada, bir ay Almaniya Demokratik Respublikasında elmi ezamiyyətdə olmuş, aspiranturadan sonra 16 ay xaricdə təhsilimi davam etdirmişəm. Belə ezamiyyətlərin hər birinin bir aylıq xərci təqribən məlumdur və zamanında dövlət tərəfindən ödənilmişdir. Dördüncüsü, müəllifi olduğum 150 elmi məqalənin üçdən biri dünyanın nüfuzlu jurnallarında çap olunubdur və SSRİ elektron sənayesinin müəssisələri ilə aparılan onlarla müqavilələrin elmi nəticələri bu işlərdə əks olunubdur. Bu müqavilələrin hər birinin dəyəri o vaxt 20-40 min rubl olduğundan bu nəticələri və məqalələri də dəyərləndirmək mümkündür.

Beşincisi, ikillik axşam ingilis dilli kursunun, ikillik axşam marksizm-leninizm universitetinin dinləyicisi olmuşam və

bu təhsil xərcini də dövlət ödəyibdir. Sonra, alim-müəllim əməyinin müəyyən hissəsi tədrisdə bağlıdır. Tədris proqramları, dərs vəsaitləri, mühazirə konsrektləri hər bir alimin intellektual əməyinin məhsuldur və müəyyən dəyərə malikdir. Nəhayət, alim ölkədə cərəyan edən ictimai-siyasi proseslərə biganə qalmamalıdır. Son on ildə ictimai-siyasi həyatımızla bağlı 150-ə yaxın elmi-publisistik məqalə və kitab müəllifiyəm. Bu işlərin də müəyyən əhəmiyyətə və qiymətə malik olması şübhə doğurmur. Beləliklə, hər bir alim üçün bu toplananların dəyəri müxtəlifdir. Hazırda respublikamız keçid dövrnü yaşadığı üçün intellektual mülkiyyətin qiyməti dəyərindən aşağıdır. Amerika cəmiyyətində isə əksinədir. Əgər biz Türkiyə timsalında qiymətləndirmə aparsaq, yuxarıdakı toplananların ümumi dəyəri bir neçə yüz min ABŞ dolları həcmində olar. Bu nəticə moskvalı professor S.Kapitsanın belə fikrini təsdiqləyir ki, hər bir normal sovet professorunun intellektual mülkiyyətinin qiyməti təqribən bir milyon ABŞ dolları həddindədir. Bir sözlə, hər bir həqiqi professor-alim bir milyon dollar dəyərində intellektual mülkiyyətin daşıyıcısıdır. Bu mülkiyyətin maddi mülkiyyətdən üstünlüyü ondan ibarətdir ki, xərcləndikcə çoxalır. Bizim əsas həyat yükümüz - mənəvi və intellektual yükümüz maddi yükdən - var-dövlətdən daha qiymətlidir. Bəşəriyyətin minillik tarixi də bunu sübut edir. Cəmiyyətdə alimin, ideya sahibinin hörməti bütün zamanlarda yüksək tutulmuşdur.

- *Siz Milli Elmlər Akademiyasına üzv seçilmədiniz. Hesab etmək olarmı ki, seçilənlərin intellektual yükü daha çoxdur?*

- Bəli. Hesab etmək olar ki, milli Elmlər Akademiyasına üzv seçilənlərin intellektual yükü daha çoxdur. Yeri gəlmişkən

mən MEA-ya seçilmiş bütün həqiqi və müxbir üzvləri komissiyamız adından səmimi qəlbdən təbrik edirəm. Seçilməyənlərə isə gələcək elmi işlərində uğurlar diləyirəm.

- *Nəsillərin bir-biri ilə bağlılığı xalq üçün, millət üçün çox əhəmiyyətlidir. Azərbaycanı daha da irəliyə aparmaq üçün gənclərin üzərinə mühüm vəzifələr düşür. Sizə elə gəlmirmi parlamentdə rəhbərlik etdiyiniz Elm və təhsil məsələləri daimi komissiyası bu sahədə mövcud olan ənənələri, gələcək inkişaf perspektivlərini mütləq nəzərə almalıdır ki, bağlılıq pozulmasın?*

- Nəsillərin əlaqəsi, vəhdəti vacib məsələdir. Hər bir nəslin yaratdığı mütərrəqi milli fikirlər qorunub gələcək nəslin sərəncamına verilməlidir. Bü işdə aparıcı qüvvə rolunu oynayan yenə ziyalılardır. Yaxın günlərdə BDU-nun bir tədbirində çıxış edərkən belə bir fikir söylədim: Azərbaycan cəmiyyətində barışmaz müxalifət var. Amma inanıram ki, həmin barışmaz müxalifətin təmsilçiləri ölkə rəhbərinin çıxışlarına 5-6 saat diqqətlə qulaq assalar, onlar bizdən daha çox prezidentinin ardıcıllarına çevrilərlər. Onların bədbəxtliyi budur ki, qulaq asmırlar və ya asa bilmirlər, bilgiləri azdır, ona görə radikaldırlar. Prezidentin hər bir çıxışı yeni ideyalarla zəngindir. Yenilik, orijinallıq isə yeni cəmiyyət quruculuğunda və inkişafında çox vacibdir. 1990-ci ilin əvvələrində Azərbaycana rəhbərlik etmiş şəxsləri tarix ona görə kənara atdı ki, yeni cəmiyyət quruculuğu üçün onlarda yeni ideya yox idi. Bizim partiyanın adının Yeni Azərbaycan adlandırılması da təsadüfi deyil.

Gələcəyimizi elmsiz, təhsilsiz təsəvvür etmirik. Amma bunu təkcə demək yox, iş görmək lazımdır. Özünətənqid baxımından deyim ki, mən komissiyanın fəaliyyətindən hələ razı deyiləm, eyni zamanda təhsilə məsul olan adamların icra

fəaliyyətindən də narazıyam. Dövlət büdcəsinin 23 faizini təhsilə verir, bu qədər, bəlkə də çox əhalinin özü də təhsil üçün pul xərcləyir. Amma qəbul imtahanlarının yekununa baxanda vahimələnirsən.

O ki, qaldı "Təhsil haqqında" qanun layihəsinə, bildiyiniz kimi, bu sənəd birinci oxunuşdan keçib. İkinci oxunuşda biz layihədəki bir çox qüsurları aradan qaldırmağa, yeni lazımi əlavələr etməyə çalışmırıq. İlk növbədə təhsilin məqsədini aydınlaşdırmışıq, onu çərçivə qanunu şəklinə salmışıq. Həmin məqsədə çatmaq üçün zəruri fəaliyyət prinsiplərini müəyyənləşdirmişik. Bizim qənaətimizə görə, təhsil sisteminin idarəetmə prinsipləri dövlət quruculuğu prinsiplərinə uyğun olmalıdır. Prezidenti, parlamenti xalq seçir, deməli, dövlət quruculuğunda demokratik prinsiplər hökm sürür. Onda bu demokratik prinsip təhsilə də gəlməlidir. Niyə orta, ali məktəb rəhbərləri seçilməsin? Dövlət quruculuğunda liberal dəyərlər tətbiq olunur, yəni şəxs, fərd diqqət mərkəzinə çəkilir. Liberal dəyərlər təhsil sistemində də tətbiq edilməlidir, seçimlər, müsabiqələr olmalıdır, cəmiyyət yaxşının yaxşısını seçə-seçə inkişaf etməlidir. Bundan başqa, bazar iqtisadiyyatı təhsilə də daxil olmalıdır. Təhsil müəssisələrinə azadlıq verilməlidir ki, pul qazansın, qazandığı pulu təhsilə xərcləsin. Dövlət məktəbləri ilə rəqabətə girən məktəblər açılmalıdır ki, təhsilin səviyyəsi yüksəlsin, qüsurlar aradan götürülsün. Xaricdə özəl məktəblər elitar məktəblər sayılır. Çünki özəl məktəblərdə daha səviyyəli mütəxəssis hazırlamaq imkanı böyükdür. Ümumiyyətlə, özəl məktəblər daha yüksək səviyyə təqdim etsə, oraya axın daha çox olar. Deməli, digər sahələrdə olduğu kimi, təhsil sistemində də qeyri-hökümət təşkilatları fəaliyyət göstərməlidir.

Mən komissiya üzvləri ilə çoxlu söhbətlər aparmışam və belə qənaətə gəlmişik ki, şərti olaraq "yazıya bağlılıq" adlandırdığımız prinsipi layihədə nəzərə alaq. Bu prinsip ilk dəfə 1945-ci ildə Yaponiya təhsil qanunda yazılıbdır. Azərbaycan cəmiyyəti timsalında bu prinsipin mahiyyətini açaq. XX əsr

Azərbaycan ziyalısının yaratdığı intellektual məhsulu bir yerə toplaşaq, çox böyük yük əmələ gələr. Azərbaycan xalqı XIX əsrdə də yaşayıbdı. Bu əsrdəki intellektual məhsulumuzu bir yerə yığsaq, çox az yük ortaya qoyarıq. Nə üçün iki əsrdəki intellektual məhsulun çəkişi bu qədər ciddi fərqlidir? Çünki XX əsrdə Azərbaycan Avropa tipli məktəblərlə yüzıya bağlandı. Mən istəyirəm bu bağlılığın hüquqi əsasını yaradaq.

- *Bəlkə keçmişin müxtəlif hadisələrini unutmağımız, ötən minilliklərdə tariximizdə çoxlu acı səhifələrin olması da bununla bağlıdır? Yenə prezidentin sözü ilə demək istəyirəm ki, "əgər millətin tarixi yoxdursa, o, millət deyildir. Millətin tarixinin bir hissəsini silib atmaq, o biri hissəsini qabartmaq da milətə xəyanət etməkdir". Görünür, bu silinmələr qabartmalar da yazı ilə əlaqədardir.*

- Sizinlə razıyam. Tarix unudulanda təkrar olur. Tarixin unudulmaması üçün bizim yazıya bağlılığımız olmalıdır. Əgər birinci dəfə (1918-1920-ci illərdə) torpaq itirəndə içtimai-siyasi situasiyaları yazıya köçürmüş olsaydıq, ermənilərin necə millət olduğunu açsaydıq, tarix bir də təkrar olunmazdı. Dünyanın çox məşhur yazıçıları erməni yalanları, hiyləsi, məkri, fəndi barədə yazıblar. Ancaq biz öz torpağımızda onlara yer versək də, oyunlarının qurbanı olsaq da, susmuşuq, onların məkrli hərəkətləri haqqında yazmamışıq. Yaxud AXC hakimiyyəti dövrünün materiallarını toplaşaq ortaya nə çıxacaq?

Mən deməzdim ki, yaponlar tək bu prinsip əsasında inkişaf ediblər, amma onun rolu inkaredilməzdir. Yazıya bağlılıq hesabına biz gələcək nəsillərə dövrün dəyərlərini töhfə şəklində ötürə bilərik. Beynəlxalq qurumların nümayəndələrlə dəfələrlə görüşlərimiz olub. Onlar oturan kimi dəftər-qələmlərini çıxarırlar, deyilənləri qeyd edirlər. Bu yaxınlarda ABŞ səfirliyində Minsk qrupu həmsədrlərlə bir qrup deputatın görüşü oldu. Mən fikir verdim, ABŞ səfiri bizim deputatların dediklərinin hamısını yazdı. Bu məsələyə prezidentimiz çox diqqətlidir. Onunla bağlı bütün hadisələr yazıya köçürülüb. Bunlar tarix üçündür.

H.Əliyevin hər günlük fəaliyyətini xronoloji ardıcıllıqla bərpa etmək mümkündür. Bunu ondan qabaq prezidentlik edənlər haqqında demək çətindir.

Layihədəki digər dəyişiklikləri sadalamaq istəmirəm. Güman edirəm ki, müxtəlif icra strukturlarından aldığımız təkliflər əsasında layihəni təkmilləşdirib payız sessiyasında Milli Məclisin müzakirəsinə edəyəcik.

**V.İSMAYILOVA,**
**"Azərbaycan".**

## 4.Çzğükpks czpüzck fxtbpjrpzxk

«Azərbaycan» qəz. 12.04.01

**Üşap:** *Əağpax rhzppkr, "Çzğükp ğaqqlsea" Ayzxbamöas Xjüfşbpknaülsls Qasşşşşs qzbşp jekprzük ojöknkx, bjpz ejmkprk?*
**Öavab:** Çararkpz xaylmar. Njgke euvxhsh maəamas upnzrkyez çzğükp üağzüksez rhsaükbzçpzxks çzsykrpzsrzüksez qasşs btəpşqpaxl vax. Rhqamküz jçüzn mjsk euvxez üzğkmmz üağzüksez rhsaükbzçpzxk 12 qasşs skyara üaplxüa, çzğükp üağzüksez asöaq 1992- ök kpez qzbşp tpşsrşə qasşs vax, t ea nk, maxlrkəpzn vzykmmzçezekx.

Mjsk çzğükp vz çzğükp üküçjrk mjsk bhsuvxz züaülsea qşxşpraplelx. Bş bhsuvxzsks ntsüjfçşap züaül ğaylxpasraplelx.
**Üşap:** *Əağpax rhzppkr, 17 raxç 1998-ök kp çaxkıpk "Ayzxbamöas" qzyjçksez gaf jçekxekmksky "Çzğükpks ntsüjfçşap fxtbpjrpzxk" rzqapzskyks ütsş bjpz bkx öhrpz kpz bkçkxek. "Çzğükpks asa ızççk, czpüzczük rhzmmzs tpşsaseas ütsxa çzğükp qasşşşş raeezpzx kpz bzyzrzn tpax".*

*Ksek sjöz "asa ızçç, czpüzcz" rhzmmzspzəkbrk?*
**Öavab:** Bş cknkx t yaras bş kəz bkpavaükçz rzü"şp tpaspaxa hsvaspasrləel. Ksek axçlq bş kəz bkykr ntrküükma rzü"şpkmmzç eaəlmlx.Üşaplslya öavab tpaxaq bkpekxrzn küçzmkxzr: Mjsk

çzğükp üküçjrksks  szyzxk züaülsl, asa ızççksk qlüaöa bjpz kcaez jçrzn tpax.      Bş ohsnh euvpzç njgrkə ntrrşsküç euvpzçksks, bş ohsnh ükmaüzç njgrkə ükmaüzçks, bş ohsnh kejtptokma njgrkə kejtptokmasls eavarl tpraeldl nkrk, bş ohsnh çzğükp vz çzğükp üküçjrk ez njgrkəeznksks eavarl tpraraplelx.

Ayzxbamöas bkx köçkrak-ükmaük qşxşpşəeas ekozxksz njgzxzn njgke euvxhsh maəamlx. Ejrzpk, upnzsks çzğükp üküçjrk ez Ütvjç çzğükp üküçjrksezs mjsk qşxşpşəşs xşğşsş uyhsez znü jçekxzs çzğükp üküçjrksz njgrzpkekx.Nuğsz çzğükp üküçjrksezs mjsk çzğükp üküçjrksz njgke şyaselqöa çzğükpez rzsck fxtüjüpzxks ksçjsükvpkmk axçlx. Nuğsz çzğükp üküçjrksezs mjsk çzğükp üküçjrksz njgrzn hghs nuğsz  vz mjsk üküçjrpzxks szyzxk züaül, asa ızççk amels çzüzvvhx tpşsraplelx nk, njgkeks küçkqarzçk ehy üjgkpüks.

Ütvjç çzğükp üküçjrksks asa ızççk, czpüzczük euvpzçks ütükapküç kejtptokmaülseas bzğxzpzszxzn nhçpzsk çzğükppk jçrzn kek. Bş üküçjrez nzrkmmzç züaü ouüçzxkök nkrk glılə jekxek. Ükmaüzçz şmdşs tpaxaq çzğükp hchqk küçkqarzçez ojskəpzskxek. Fxançknk ğzmaçea bş ğzx nzseez, aşpea, tbaea, bkszez rznçzb agraq ejrzn kek. Nzrkmmzç ouüçzxkökpzxk, njmckmmzç ouüçzxkökpzxksk hüçzpzmkxek.

Mjsk çzğükp üküçjrksks asa ızççk, ntsüjfçşap züaül çzğükpks pkbjxappaəraül vz ejrtnxaçknpzərzükekx. Bş küz çzğükp üküçjrksz mjsk kqçküaek rhsaükbzçpzxks, mjsk çzğükp çjıstptokmaülsls, mjsk kejmasls  özpb jekprzük vz çzğükp üküçjrksks eaıkpk  ftçjsükaplseas küçkcaez jekprzük ejrznekx. Bş küz çzğükpks əaqşpk ksnkəaclsl us fpasa glıaxlx.Fxançknk ğzmaçea bş küz t ejrznekx nk, çapasçpl ozsöpzxks ftçjsükaplsls ğzx çzxzcpk aglpraül, yzxşxk bkpkn aprapaxl hghs paylrl əzxakç maxaelpraül çzpzb tpşsşx. Bş üküçjrez njmckmmzç ouüçzxkökpzxk us fpasa glılx. Mjsk çzğükp üküçjrksez ekqqzç rzxnzyksz  czxe,  əzıükmmzç gznkpkx. Bjpzpknpz, bkyz bş njgkepzxk xjappaəelxas çzğükp qasşsş paylrelx.

**Üşap:** ***O****zpks çzğükpks özrkmmzçez çşçeşdş mjxezs easləaq. Mjsk Ayzxbamöas özrkmmzçksez çzğükpks mjxk ğaxaeaelx?*

**Öavab:** Rzpşreşx nk, upnzpzx kqçküaek qhexzçksz ouxz ülxama ehyhphxpzx. Kqçküaekmmaçls agaxl üzsamjezekx. Üzsamjsks agaxl çjıstptokmaeaelx. Çjıstptokmasls agaxl jprezekx. Jprks agaxl küz çzğükpezekx. Ejrzpk, çzğükpkrky kqçküaekmmaçlrlyls baəqa rhüçzvk hyzxksez ksknaülelx, əznkpkekx. ABƏ- ls "Arjxkna - 2000" Rkppk fxtqxarlsea ejmkpkx nk, **"Upnzsks ksnkəac vaükçzük, kqçküaekmmaç, ükmaük qşxşpşə, bayax, ğhqşq, ıhüşük rhpnkmmzç, ğzxb vz ohö vz ma eağa szpzx ejmkp, mjsk çkfpk çzğükpekx".**

MŞSJÜNT üzszepzxksez çzğükp **"ızyksz uyhsez"** ğjüab jekpkx.

Bş cknkxpzx nkcamzçekx nk, çzğükp euvpzçks üçxaçjik üağzük vz naülbpldls eaəlsl açradls mjoasz mtpş ğjüab jekpüks. Bş ehsmabaılə Çzğükp qasşsşsşs ntsüjfçşap rheezapaxlsea uy znüksk çafraplelx. Ğzrks rheezapax vaükçzük kpz çzğükp euvpzçk qhexzçpk, özrkmmzçk ehəhszs, czxepzxk küz əzıükmmzçz gjvkxrzmk baöaxraplelx. Maftspaxls çzğükp qasşsşsea bjpz bkx cknkx vax: "Mafts ksüasl etdşpraül kpz mtı, çzğükpk kpz ksüas tpşx".

**Üşap:** *Bşspaxa sjöz sakp tpraq tpax?*

**Öavab**: Bşsşs hghs euvxhs xşğşsa şmdşs çzğükpks <u>rzqüzek</u> ehyohs çzmks jekprzpkekx. Bkykr qasşs pamkğzüksez çzğükpks rzqüzek qlüaöa aəadleanl nkrk rhzmmzspzəekxkpkbekx:

1. Rhüçzqkp, ejrtnxaçkn, ğhqşqk, ehsmzvk euvpzç tpas Ayzxbamöas Xjüfşbpknaül qaxəlülsea vzykcz vz rzüşpkmmzçksk bkpzs vz tspaxl czapkmmzçksez xzğbzx çşças, euvpzçksk euvxhs çzpzbpzxk üzvkmmzüksez üaıparadl baöaxas vzçzsfzxvzx ozsöpzx mjçkəekxrzn;

2. Ckyknk, zqpk vz zıpaqk özğzçezs üadpar, ayae vz jprk ehəhsöz çzxyksz, ojskə ehsmaouxhəhsz üağkb tpas, ozpzöznez qaxəlma glıa bkpzözn fxtbpjrpzxk şdşxpa ğzpp jçrzn

qabkpkmmzçksz rapkn, ühpğüjvzx vz ejrtnxaçkn bkx rkppzçks uyhsz ohvzszs əzıükmmzçpzxksk mjçkəekxrzn;

3. Ğzx bkx czxeks maxaelölplq krnaspaxlsls xjappaəraülsl, tspaxea rkppk əhşxşs ctxrapaəelxlpraülsl vz ruğnzrpzsekxkprzüksk çzrks jçrzn, kəouxrz qabkpkmmzçksz vz ehyohs qzxax qzbşp jçrzmks çjıstptokmaülsl umxzçrznpz fjəz üağkbk vz rhçzızüükü tprapaxlsl çzrks jçrzn;

Bjpzpknpz, Ayzxbamöas vzçzseaəpaxlsls vz Ayzxbamöas özrkmmzçksks xkcağlsl maıəlpaəelxlb kqçküaek, ütükap, rzezsk ksnkəaca sakp tpraqpa Ayzxbamöas euvpzçksk rhaükx ehsma rzezskmmzçksks qşxşöş, maxaelöl kəçkxanglül jçrznekx.

**Üşap:** *Bş rzqüzepzxz gaçraq hghs czapkmmzçez ğasül fxksükfpzx züaü ouçhxhprzpkekx?*

**Öavab:** Bş fxksükfpzxk ehyohs üjgrzn, çzğükp qasşsş hyzxksez kəpzmzs kəgk qxşfşsşs züaü btxöşeşx.Ozpzözn şdşxpax vz ma qhüşxpax bş fxksükfks sjöz rhzmmzs tpraülseas aülplelx. Bş fxksükfpzx euvpzç qşxşöşpşdşrşyşs fxksükfpzxksezs bzğxzpzsrzpkekx. Çzğükp üküçjrk euvpzç raəlslsls bkx ğküüzük tpeşdşseas, bş üküçjrks szyzxk züaüpaxl, züaü fxksükfpzxk mjsk euvpzçkrkyks szyzxk züaül vz fxksükfpzxksz şmdşs ctxraea ğaylxpasraplelx.

Euvpzçkrkyks qşxşöşüş vz baskük ruğçzxzr Ğjmezx Zpkmjv ezczpzxpz euvpzç qşxşöşpşdşsşs fxksükfpzxksk bzmas jçrkəekx: ejrtnxaçknpkn, ehsmzvkpkn, vzçzseaəpaxls jmsk ğhqşqa rapkn tpraül, ğhqşqpaxls qtxşsraül, ükmaük fphxapkyr bş fxksükfpzxks bkx qkürkekx. Bş fxksükfpzx çzğükp üağzüksez czapkmmzç hghs ez züaüelx. Bjpzpknpz, ğjüab jçrzn tpax nk, çzğükp üağzüksez czapkmmzç aəadleanl fxksükfpzxpz çzsykrpzsrzpkekx:

1. ejrtnxaçknpzərz;
2. bzxabzxpkn (çzğükpez ğarlsls ğhqşq bzxabzxpkmk);
3. pkbjxappaəra (chxüzç vz krnas bzxabzxpkmk);
4. ehsmzvkpkn;
5. vaxküpkn vz caükpzükypkn;

6. rkppkpkmks  vz rhaükxpkmks vzğezçk;
7. akpz kpz rznçzbks vzğezçk;
8. nzrkmmzç vz njmckmmzç ouüçzxkökpzxksks vzğezçk;
9. czxe vz köçkrak raxaqpaxls vzğezçk;
10. fpasplplq.

**Üşap:** *Bzpnz bş fxksükfpzxks bz"ykpzxksk əzxğ jezüksky?*
**Öavab:** Jçkxay jçrkxzr.

Ekozx fxksükf, nzrkmmzç vz njmckmmzç ouüçzxkökpzxksks vzğezçkekx. Rz"pşreşx nk, ütvjç euvxhsez ğzx üağzez nzrkmmzç ouüçzxkökpzxksz hüçhsphn vjxkpkxek. Bş hüçhsphn euvpzçks rağkmmzçksezs çuxzmkxek. Ghsnk upnz czğpz vz nzsepk ğunşrzçk tpeşdşseas tspaxls uvpaepaxlsa çzğükp vjxrzmz btxöpş kek. Bş küz çzğükpks hchqk küçkqarzçez ksnkəaclsa üzbzb tprşəeşx.

Mjsk özrkmmzçez çzğükpez njmckmmzç züaü ouüçzxkök nkrk glılə jekx. Aglq özrkmmzç uyhsz ohvzsz bkpzs ksüaspaxls mjçkəekxkprzüksk çzpzb jekx.  Bş küz çzğükpks əaqşpk küçkqarzçez ksnkəaclsl ekqqzç rzxnzyksz gznkx.

XIX züxez maəarlə ckptütc Ö. Pjtfaxeksks cknxksöz: "Bkpkn üzxvzç ejmkp nk, tsş ğküüzpzxz bupzsez vz ma buphsrhə ğküüzpzxk çtfpamasea hrşrk  ezmzxk ezmkərzy qapüls. T mjxez nk, ğzx nzü ay bkpkx, t mjxez ğarl ay bkpkx. Ghsnk bkpkn buphsrzyekx".

Bkpkmk 4 qkmrzçz pamkq 100 xkmaykmmaçgl çzpzbz  5 qkmrzçk üzvkmmzüksez tpas rzüzpzsk ğzpp jez bkprzy. Bşxeas rzsçkqk szçköz glılx: 100 szczxk 4 qkmrzçz şmdşs bkpkn üzvkmmzüksez ğaylxparaqeaselxüa, tspaxls 20-sks ızxöksk beş szczxz gznkb  tsş  5 qkmrzçz pamkq bkpkn üzvkmmzüksez ğaylxparaq paylrelx. Bjpzpknpz, 80+5  szczxezs kbaxzç  üavaepl çzpzbz bkxpkmk,  4 qkmrzçz  pamkq  üavael tpas 100 szczx çzpzbz bkxpkmksezs özrkmmzç hghs   eağa üzxczpkekx. Maıəl rz"pşreşx nk, 100 czğpzsks bkpkmk, 1 rhğzseküks bkpkmksz gaçray.

**Üşap:** *Əağpax rhzppkr, bş apk çzğükpks banapavx vz raokücxaçşxa fkppzpzxksz buphsrzük yzxşxzçksk maxaelxrl?*
**Öavab:** Bzpk, maxaelx.
**Czxek vz köçkrak raxaqpaxls vzğezçk** fxksükfksks rağkmmzçk tseas kbaxzçekx nk, rkppk çzğükp ıkerzçk vzçzseaəpaxlrlyls küçzn vz qabkpkmmzçpzxk kpz özrkmmzçkrkyks jğçkmaölsa ouxz skyarpasüls.
**Fpasplplq fxksükfksez** küz szyzxez çşçşpşx nk, rkppk çzğükpks ksnkəacl üzsamjsks vz nzse çzüzxxhcaçlsls rhaükxpzəekxkprzüksez paylrk çjıstptik ksnkəacl çz”rks jezözn fjəz vz çjısknk çzğükpz ekqqzçk axçlxraqpa fpaspaəelxlplb ğzmaça njgkxkpüks.
**Üşap:** *Euvpzçks çzğükp üağzüksez ükmaüzçk sjöz tpraplelx?*
**Öavab:** Çzğükpks qaxəlülsea eşxas rzqüzez gaçraq hghs euvpzçks çzğükp üağzüksez aglq- amels ükmaüzçk tpraplelx:

a) euvpzç çzğükpk fxktxkçjç üağz üamraplelx;

b) euvpzç apkrks, rhzppkrks özrkmmzçez ütükap üçaçşüşş hüçhs çşçraplelx;

c) euvpzç fşpüşy köbaxk baya çzğükpk apraq ğhqşqşş çz”rks jçrzpkekx;

ç) küçj”eaepl ozsöpzxks çzğükpksk eavar jçekxrzüksz euvpzç çzrksaç vjxrzpkekx;

e) çzğükpks ksnkəac fxtqxarlsl, çzğükp üçaseaxçpaxlsl rhzmmzspzəekxrzpkdir;

e) çzğükpks njmckmmzçksz szyaxzç jçrzpkekx.

**Üşap:** *Çzğükp qasşşşşşş czpüzck züaülseas easləelq. Qasşşşs baəqa raeezpzxk ğaqlsea sz ejmz bkpzxüksky?*
**Öavab:** Qasşş pamkğzük Rkppk Rzöpküez bkxksök tışşşəea qzbşp tpşseşqeas ütsxa hrşrıapq rhyankxzüksz vjxkprkə vz köçkrakmmzç çzxzcksezs ojskə rhyankxz jekprkəekx. I dövrə Rkppk Rzöpküks akekmmzçk eakrk ntrküükmaülsea 20 ezczezs gtı rhyankxz jekprkəekx. Asöaq bşşşspa bzxabzx pamkğz çjısknk

qhüşxpaxeas ea ıapk ejmkpekx. Ihüşükpz, çjxrkstptik qhüşxpaxl szyzxez çşçşxar. **Rzüzpzs:**

1. Qasşs pamkğzüksks bkx gtı raeezüksez **“saçarar txça çzğükp”** çjxrksksezs küçkcaez jekpkx. Əzxğ jçrzezs ejrzn küçzmkxzr nk, bş çjxrks “baya çzğükpk” vz ma “hrşrk çzğükp” çjxrksk kpz zvzy jekpüz maıəlelx. “Saçarar” üuyh ozsöpzxk maxapamlx.

2. **“Apk çzğükpezs ütsxanl çzğükp”** kcaezük qasşs pamkğzüksks bkx sjgz raeezüksez küçkcaez jekpkx. Çzğükp bkx ütükap cjstrjs nkrk apk çzğükppz mjnşspaəlx. “Apk” üuyh bş ğaeküzsks bkçekmksz kəaxzekx. Apk çzğükpezs ütsxa tsşs çzçbkq üağzük, jpr cjstrjsk baəpamlx. Jpr çzğükp fxtüjüksks eavarl ejmkp, çzğükpezs czxqpk mjsk ütükap ğaeküzekx. Çzğükp rkppk, jpr ntürtftpkç ğaeküzekx. Bş üzbzbezs ez qasşs pamkğzüksez “apk çzğükpezs ütsxanl çzğükp” mtı, “apk rznçzbezs ütsxanl çzğükp” kcaezüksezs küçkcaez jçrzpkmkn.

3. **“Kbçkeak çzğükp”** çjxrksk ez mjxksez ejmkp. Çhxnkmzsks 1973-öh kp çaxkıpk Rkppk çzğükp qasşsşsea ea “kbçkeak çzğükp” çjxrksksezs küçkcaez jekprkəekx. Panks 1983-öh kp çaxkıpk Qasşsea küz ğzrks çjxrks “kpn çzğükp” nkrk küçkcaez jekprkəekx. Rzsöz bky ez qaxeaə upnzsks çzöxhbzüksezs küçkcaez jçüzn maıəlelx. Mzsk- “kbçkeak çzğükp” zvzyksz “kpn çzğükp” ejrzpkmkn. Şəaqpaxa vjxkpzs kpn çzğükp, ğjg ez kbçkeak çzğükp ejmkpekx. Bş öhx qhüşxpax ay ejmkpekx.

**Üşap:** *Əağpax rhzppkr, ğaylxea “Çzğükp ğaqqlsea” Qasşsşs pamkğzüksks rhyankxzüksez zs gtı rhbağküz etdşxas rzüzpzpzxezs bkxk “aüfkxasçşxa”-sls üaıpaslb-üaıpasraraül kpz badplelx. Bş rzüzpzmz Ükyks rhsaükbzçksky sjözekx?*

**Öavab: Çzğükp** - bkpknpzxks ozsö szüpz uçhxhprzükekx. **Jpr** - mjsk bkpknpzxks zpez jekprzükekx. Çzğükp - **rkppk-bzəzxk** ğaeküzekx. Jpr - **bzəzxk-rkppk** ğaeküzekx. Çzğükpez rkppkpkn, jprez ntürtftpkçkyr gtıeşx. Çzğükppz rhqamküzez jprks yarasa

ouxz ezmkərz ühx”zçk gtı bumhnehx. Çzğükp jprpz rhqamküzez ksjxçekx.

Çzğükpez szçközpzx gtıpş ksüaspaxls üz”mk szçközüksez zpez jekpkx. Jprez szçközpzxk czxepzx aplxpax. Çzğükpez szçközpzx ts kppzxpz zpez jekpkx. Jprez szçközpzx ampax vz kppzx zxyksez zpez jekpz bkpzx.

Çzğükpez çzğükpapas ğaeküzsks tbmjnçkekx. Jprez çzeqkqaçgl ğaeküzsks üşbmjnçkekx.

Ouxhsehmh nkrk jpr vz çzğükp ğaeküzpzxk nkcamzç qzezx czxqpk ütükap ğaeküzpzxekx. Bş knk ğaeküz axaülsea zpaqz maxaçraq, çzğükpezs jprz njgrzn bkx **nuxfh** çzpzb jekx. Njgrkə Ütvjç çzğükp üküçjrksez bş nuxfh **aüfkxasçşxa** tpşbeşx. Iaxköez bş nuxfh xtpşşş **etnçtxasçşxa, post graduate student** vz ma **research scholarship** tmsamlbelx.

Aüfkxasçşxa ea çzğükpekx, asöaq aüfkxasçşxa ıhüşük suv çzğükpekx. Aüfkxasçşxaea çzğükp mhnüzpzxzn jprz gjvxkpkx vz ma jpr çzğükpks çzçbkq üağzüksz gjvxkpkx. Çzğükpez rhzppkr ksüçkçşçş vax. Aüfkxasçşxaea bş mjxk xzğbzx zvzy jekx. Aüfkxasçşxaea çzğükp fxtqxarpaxlsls züaül czxek çşçşpşx vz czxe hghs çşçşpşx. Jpz çşçşpşx nk, bkx rheezçezs ütsxa aüfkxasç uyhsh tbxaypl ejüzn, jpr jvksks kgzxküksez ğküü jekx.

Etnçtxasçşxasl bkykr baəa ehəehmhrhy npaüükn rzsaea çzğükp ğaeküzük ğjüab jçrzn tpray, t jprpz intensiv rzədşp tpraq hghs chxüzçekr.

Ğaylxea bky Avxtfa Əşxaülsls çar ğşqşqpş hyvhmhn. Bhçhs üağzpzxez tpeşdş nkrk çzğükp üağzüksez ez Qzxbpz ksçjqxaükma fxtüjük ojçeknöz ezxkspzəkx. Qzxb upnzpzxksez küz ali çzğükp hg fkppzezs kbaxzçekx - banapavxkaç - raoküçxaçşxa - etnçtxasçşxa. Mjxk ozprkənzs, tsş ea qjme jekr nk, bkykr ez hg fkppzpk çzğükp üküçjrksz njgrzmkrkyk Avxtfa Əşxaülsls bş ohspzxez Xjüfşbpknarlyea tpas çzğükp üağzük hyxz jnüfjxçpzxk ez bkyz rzüpzğzç bkprkəpzx. Rzs bjpz ğjüab jekxzr nk, bky aüfkxasçşxasl etnçtxasçşxa ael apçlsea üaıpama bkpzxkn. Rzğy tsea **etnçtxasçşxa** apk rznçzbezs ütsxa çzğükpks

ıhüşük bkx suvh nkrk bkykr çzğükp üküçjrkrkyz eaıkp tpa bkpzx. Üşbmjnçkv cknxkrz ouxz bjpz tpas ğapea jprk köçkrakmmzçez tpas tpas saxağaçglplq axaeas qapelxlpa bkpzx.
**Rhıbkx:** *Əağpax rhzppkr, raxaqpl rhüağkbzsky hghs gtı üad tpşs.*
**Öavab:** Çzəznnhx jekxzr.

## 5. Şərqdə və Qərbdə fərd-toplum problemi

Kapitalizm cəmiyyəti bərqərar olduqca fərd-toplum problemi Şərqdə və Qərbdə kifayət qədər ayrılan xətt üzrə inkişaf etmişdir. Qərbdə həm fərdin, həm də toplumun mənafeyi vəhdətdə baxılır. Bu səbəbdən də qeyd etmək kifayətdir ki, həm sosial-demokrat, həm də liberal – demokrat ideyalar Qərbdə yaranmışdır:

Sosial demokratlar ümuminin mənafeyini qoruyur, yeri gələndə fərdin mənafeyini məhdudlaşdırır. Liberal demokratlar isə fərdin mənafeyini yüksək tutur. Bu iki dünyagörüş müasir siyasi partiyaların nəzəri mənbələridir.

Şərq əhli çox vaxt ümumi mənafeləri şəxsi mənafeyə qurban verir. Hətta fərdi dərdi ümumi dərddən çox yaşadar. Leyli –Məcnun dərdini min illərcə yaşadır. Ancaq Göycə, Zəngəzur, Təbriz dərdini yaşada bilmir. Qüsur ölçüyə gəlməzdir.

Şərq əhlinin fəaliyyəti çox vaxt ağlın yox, hissiyyatın təsiri altında baş verir. Bəzən bunu «Şərq istiqanlılığı» ilə bağlayırlar. Qarabağ probleminin ilk dövrlərində fəaliyyətimizdə mən ağıldan çox hissiyyatın təsirini gördüm. O zamanlar ermənilərin dediyi «müsəlmanın sonrakı ağlı» görünmədi.

«525-ci qəzet»in 18.09.99 tarixli sayında rejissor Şeyx Əbdül Mahmudov yazır: «Bilirsiniz, dünyanı beyinlər və ürəklər idarə edir. Kimisi beyninin , kimis də ürəyinin gözü ilə yaşayır. Məni, 56 yaşlı kişini bu gün ürəyim idarə edir».
Mən isə istərdim ki, 56 yaşlı rejissorumuzu ürəyi yox, ağlı idarə edəydi.

Son zamanlar RF-də gedən proseslər onların Qərb yox, məhz Şərq ölkəsi olduğunu göstərir. Hər bir problemin həllində ağıla yox, gücə istinad edirlər.

Şərqdə qüdrətli və ədalətli padşah, Qərbdə qüdrətli və hüquqi dövlət qurmaq istəyi, ideyası üstünlük təşkil edir. Birincilər fərdi, ikincilər həm fərdi, həm də kütləni güvənc yeri kimi üstün tuturlar.

Fərdin ömrü sonlu, kütlənin ömrü sonsuz olduğundan, ikincilərə güvənən iqtisadiyyat yüksələn xətt üzrə, fərdə-şəxsiyyətə güvənən iqtisadiyyat isə qırıq-qırıq xətt üzrə inkişaf edir.

Qərb əhli haqqın, ədalətin, düzlüyün cəmiyyətdə bərqərar olmasına maraqlıdır. Düzgün bank sistemi (İsveçrə bankları), ədalətli mükafatlandırmaq mərəzi (İsveç Nobel mükafatı Komitəsi), haqlıya haqqını vermək səriştəsi Qərb toplumu üçün xarakterikdir. (Qarabağ problemi istinadır, burada səbəb başqadır).

Dünyada Nobel mükafatı almış 500 şəxsin cəmi 2 nəfəri əhli-müsəlmandır. Əslində bu rəqəm 200-ə yaxın olmalıdır. Qərbdə elə ailələr, elə alimlər var ki, iki dəfə Nobel mükafatı alıblar. Bütün Şərqin elmi göstəricisi Qərbin bir ailəsinin (və ya aliminin) göstəricisi qədərdir. Niyə Şərqin elmdə uğurları bu qədər azdır? Ona görə ki, bu istimətdə fəaliyyətə – haqqın, gerçəkliyin axtarılmasına az maraq göstərilir. Elm – haqqın, gerçəkliyin axtarılması yolunda alim – insan fəaliyyətidir. Elmi alimin şəxsi işi hesab edirik. Maddi varlığı mənəvi varlıqdan üstün tuturuq. Maddi maraq fəaliyyətimizdə haqqı, gerçəkliyi ekranlayır.

Amerika-Azərbaycan Dostluq Cəmiyyətinin prezidenti Kaliforniyada yaşayan cənublu qardaşımız Rza bəy Xosrəvi 1997-ci ilin fevral ayında «Azadlıq» qəzetinə verdiyi müsahibədə qərblilərin həyat tərzini belə xarakterizə edir: «Əgər yolda ayağına bir daş dəysə onu qırağa tullayır ki, daha heç kimə

dəyməsin. İnsan özü üçün yaşamaqla bərabər ətrafındakıları da unutmamalıdır».

Biz isə ətrafdakıları və zamanı unudaraq ictimaiyyət üçün nəzərdə tutulmuş yoldan, səkidən kəsib həyətimizə, bağımıza qatırıq. Bizim mikrorayonlarımızın evlərarası, Bakıətrafı bağlararası yollarımızın darlığı, düşüncə tərzimizin darlığı ilə mütənasibdir.

Qərbdə fikir müxtəlifliyinə hörmət, Şərqdə lider fikrinə hörmət üstünlük təşkil edir.

B.Şounun belə bir fikri var: «Əgər sənin bir alman varsa, əgər mənim bir almam varsa, almalarımızı dəyişsək, hərəmizin yenə bir alması olar. Əgər sənin bir ideyan varsa, əgər mənim bir ideyam varsa, ideyalarımızı dəyişsək, hərəmizin iki ideyası olar».

Bu fikirdə maddi aləmlə ideya aləmi arasında fərq və ikincinin üstün dəyəri aydın göstərilmişdir. Əlavə qeyd edək ki, maddi sərvət xərcləndikcə azalar, bilik, intellektual sərvət xərcləndikcə çoxalar.

İki nəfərdən təşkil olunmuş toplum sadəcə iki nəfərin cəmi deyil, daha qiymətlidir. Bu fikri Napaleonun həbəş və fransız əsgərləri haqqında söylədiyi fikir də təsdiqləyir.

Bir yəhudi misalında deyilir ki, əgər Rabinoviç və Abramoviçin hərəsinin bir ideyası varsa, fikir mübadiləsindən sonra hərəsinin üç ideyası olur. Abramoviçin, Rabinoviçin ideyaları üstəgəl müştərək ideya.

Həzrəti Peyğəmbərimizin də bu səpgidə bir fikri maraq doğurur. «Mənim hümbətimin müxalif fikir söyləməsində rəhmətlik vardır». Ancaq çox təəssüf ki, Şərqdə fikir plüralizmi ideyası kök ata bilmir: Şərqdə yeni ideya köhnə süngü ilə qarşılanır. İdeya düşmənləri bir-birinin ölümünə çalışırlar. Azərbaycan istisna olmaqla, Şərq ölkələrində ölüm cəzası hələ də ləğv edilməyibdir.

Rza bəy Xosrəvinin yuxarıda adı çəkilən müsahibəsindən başqa bir misal: «1946-47-ci illər yadıma düşdü. Onda 7-8 yaşım vardı. Bir ildə Pişəvəri zamanında biz azadlığı gördük, insaf,

ədalət gördük, zalim cəzasını çəkdi… O da yadımdadır ki, ədliyyə nazirimiz Firudin İbrahimini gözümün önündəcə asdılar. Onun üç qədəmliyində durmuşdum. Mənə baxıb gülümsündü. Bilmədim soruşurdu ki , sən burda neynirsən? Yoxsa tapşırırdı ki, mənim asılmağımı unutma. İpi boynuna saldı. Dilini dişləri arasında sıxdı ki, səsi çıxmasın. Dişləri dilini kəsdi. İndiyəcən unutmamışam. Elə bil, dünən olub. Onun ölü, soyuq gözlərini gördüm».

Əslində bu səhnəni Rza bəy kimi heç bir azərbaycanlı heç zaman unutmamalıdır.

Azadlıq böyük nemətdir. Ali məqamdır. Azadlığı iqtidar, müxalifət adıyla iki yerə bölünüb qorumaq əvəzinə, əl-ələ verib qorumaq lazımdır. İndiki zamanda müxalifətin hakimiyyətə gəlməsi azadlığın getməsi, tarixi şansın itməsi deməkdir. Azərbaycan Demokratik Cümhuriyyətindən sonrakı tariximiz də bunu sübut edir. Əvvəlcə ADC yarandı, sonra Azərbaycan Sosialist Respublikasına çevrildi və nəhayət SSRİ tərkibinə daxil edildi. Nəticədə M.Ə.Rəsulzadə və onun həmkarlarının acı taleyini N.Nərimanov və onun həmkarları yaşadılar. Tarix təkrar ola bilər.

Qərb adamı yaşadığı cəmiyyətin inikasıdır. Şərqdə cəmiyyət ilə fərdlərin yaşayış tərzində identiklik azdır.

Qərb əhli (xarici siyasətçilər istisna olmaqla) olduğu kimi görünür. Səmimiyyət, düzlük fəaliyyətlərində üstünlük təşkil edir. Şərq cəmiyyətində riyakar insanlar elitar təbəqəyə tez yol tapa bilir. Qərbdə elitar təbəqədə riyakar insanlara demək olar ki, yer yoxdur. Bu isə saf mənəviyyat formalaşmasına səbəb olur.

Yadıma bir zamanlar ABA teleşirkəti Bakı əhlindən «Bəstəkar Lev Landaunu tanıyırsınızmı?» sorğusu düşür. Onlarca insanlar «tanıyıram» söyləmişdi. «Mahnılarından hansını xoşlayırsınız?»- sualına, «Mahnıları yadıma düşmür» demişdilər. Göründüyü kimi bizim təhsil, mədəniyyət sistemimiz «düz danış, yalan danışma», «bilməmək ayıb deyil, öyrənməmək ayıbdır», «ya olduğun kimi görün, ya da göründüyün kimi ol» və bu kimi

digər mənəvi dəyərləri əhaliyə öyrədə bilməyibdir. Axı, Lev Davidoviç Landau musiqiçi deyil, fizikdir. ABA şirkəti əhaliyə avantürist sual vrməklə onu imtahana çəkib. Qüsurumuzu üzə çıxartmaqla bərabər, kimlərin isə sosial sifarişini yerinə yetiribdir. Əks halda, bu sorğu ABA-nın nəyinə gərəkdir?

Hörmətli sənət adamlarımızdan biri söhbət zamanı dedi ki, kənddə bizə borca gələndə, imkanımız olmayanda atam başqasından borc alıb verərdi ki, qoy elə bilsinlər ki, varlıyıq. İnsanlara əl tutmaq niyyəti olduqca təqdirəlayiqdir. Təqdir olunmayan odur ki, olduğundan varlı görünməyə cəhd edəsən. «Ya olduğun kimi görün, ya da göründüyün kimi ol» kəlamı peyğəmbər kəlamıdır. Bu kəlamın əksinə getmək isə günahdır.

İnkişafımızın bu günkü səviyyəsindən doğan milli xüsusiyyətimiz bundan ibarətdir ki, biz fərd olaraq yaxşı yaşamaq istəyirik. Bu yolda istənilən üsulu (rüşvət, yaltaqlıq, reketçilik) məqbul sayırıq. Qərbdə isə toplumun, cəmiyyətin yaxşı yaşaması üstünlük təşkil edir. Bu səbəbdən də hüquqi-dövlət əhalinin yaxşı yaşamasına təminat verir. Qərb təcrübəsindən bəhrələnərək «Ümumi Azərbaycan» evində əmin –amanlıq yaratsaq, həm fərd, həm də kütlə yaxşı yaşayar.

## Filosoflar fərd və kütlə problemi haqqında

Fərd və kütlə problemi ilə bağlı filosofların, mütəfəkkir insanların dəyərli fikirlərini tarix öz səhifəsində saxlayaraq gələcək nəsillərə çatdırmışdır. Bu fikirlərin bəziləri ilə tanış olaq.

1. Çin filosofu Konfutsinin 2500 il öncə şəxsiyyətlə kütlənin birliyi barəsində söylədiyi bir fikirdə deyilir ki, «əgər padşahla xalq bir olarsa ölkə basılmaz».

2. Dahi şeyx Sədi Şirazi «şəxsiyyət-kütlə» probleminə öz münasibətini bir beytlə belə ifadə etmişdir:
   Əgər oyaq qalsa şah otağında,

Yoxsul rahat yatar öz yatağında.

3. A.Linkolnun belə bir kəlamı var: «Bir nəfəri həmişə aldatmaq olar. Hamını bir müddət aldatmaq olar . Hamını həmişə aldatmaq olmaz».

Bu fikirdən çıxaracağımız nəticələrdən biri də bunda ibarətdir ki, «həmişə aldanan o bir nəfəri» hakimiyyətə buraxmaq olmaz. Buraxsaq milli faciə baş verər.

Hakimiyyətə o kəs buraxılmalıdır ki, onu aldatmaq mümkün olmasın. Yəni hakimiyyətə gələn fərd şəxsiyyət olmalıdır. Hakimiyyət uğrunda mübarizə aparan siyasi partiyaların hər birinin başında duran şəxsiyət olmalıdır. Xalqın isə vəzifəsi bu adamlardan kimin şəxsiyyət, kimin isə adi fərd olduğunu seçə bilməsidir.

4. Antik tarixçi Plutarxa görə:

«Şəxsiyyətsiz azadlıq xəyaldır. Şəxsiyyət üstəgəl xalq – istiqlal deməkdir».

5. Hegelin çox məşhur bir kəlamı var:

«Vətəndaş cəmiyətinin mahiyyəti hamının hamıya qarşı müharibəsidir».

Məncə bu fikirdə «hamının» sözü fərdlərə, «hamıya» sözü kütləyə ünvanlanıbdır.

6. Şarl de Qoll Fransada güclü prezident hakimiyyəti yaratmaq istəyəndə «konstitusiya pozuldu, qanunlar dozuldu deyib hay-küy qoparanlara belə cavab vermişdir: «Mən Fransa dövlətinin, Fransa xalqının mənafeyini bütün qanunlardan üstün tuturam».

Tarixi məqamlarda xalqın mənafeyi ilə qanunlar bir-birinə alternativ olanda dövlətin, xalqın mənafeyi üstün tutulmalıdır.

7. Kütlənin mədəni və intellektual səviyyəsi haqqında F.Kafka belə demişdir: «Materialın xassəsi onda olan elektronların sayı ilə təyin olunur. Kütlənin səviyyəsi isə hər bir fərdin təfəkkür səviyyəsindən asılıdır».

Fərdin təfəkkür səviyyəsinə informasiya seli ilə, təhsillə, mədəniyyətlə təsir etmək mümkündür. Düzgün informasiya seli, təhsi sistemi təfəkkür səviyyəsini yüksəldir.

8. Kütlənin siyasi səviyyəsinin əhəmiyyətini Azərbaycan prezidenti Heydər Əliyev bu cür dəyərləndirmişdir:
«Əgər hər hansı bir ölkənin xalqı öz hüquqlarını anlayar və onları qoruya bilərsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar».
9. Kütlənin təfəkkür və siyasi səviyyəsinin qiymətini Şopenhauer belə vermişdir: «Xalq həmişə yeniyetmədir».

Məlumdur ki, yeniyetmələrin fəaliyəti ağıldan çox emosiyanın təsiri altında baş verir.

10. Professor S.Xəlilov çıxışlarının birində belə bir fikir söyləmişdir:
«Adətən naqislər hissəni, müdriklər tamı görürlər».

Bizim dövrümüzdə tamı yox, hissəni görüb hay-həşir salaraq hakimiyyətə can atanların sayı lazım olandan çoxdur. Misal üçün, Əbülfəz Əliyev 26.12.97-ci il tarixdə «Yeni Müsavat» qəzetində yazır: «Əgər camaat yenidən bu iqtidara səs versə, onda bu xalq xalq deyil».

Aydındır ki, camaat-kütlə, iqtidar-fərd kimi dəyərləndirilir.

11. R.Taqor : «Bəşəriyyət amansız, insan mehribandır».

İnsan həyatın qədrini bildiyi üçün mehribandır. Bəşəriyyətin ölüm qorxusu yoxdur, on görə də amansızdır.

12. Professor İ.Qobozov «Filosofiya politiki» kitabında (M., 1998, səh. 102.) yazır: «Feodal dövlətlərin vahid iqtisadi bünövrəsi olmadığından dövlətin bütövlüyü, onun suverenliyi və müstəqilliyi ancaq monarxiya vasitəsilə müdafiə olunurdu. Dövlətin uğurları bir çox hallarda monarxın şəxsi keyfiyyətləri – intellekti, təhsili, dövləti düşüncəsi, ətrafına yaltaqları, yoxsa müstəqil düşüncəli insanları yığmaq qabiliyyəti ilə təyin olunurdu».

13. Müharibədən sonrakı AFR-ın mənəvi atası hesab olunan Karl Yaspersin bir fikri bugünkü reallığımız üçün gərəkli hesab oluna bilər.

«Mövcudolmanın dönüş məntəqəsi o zaman ki, yol yeni quruluşa, yoxsa məhvolmaya aparır? Sualına cavab axtarılır, bu vaxt o şəxs hakimiyyəti ələ alaraq fəaliyyət göstərə bilər ki, kütlənin iradəsi ilə hesablaşmadan qərar qəbul edə bilər. Əgər belə insanların yaşama imkanı məhv edilərsə, onda ağıla gəlməyən sonluq başa gələ bilər».

Sanki bu ifadə Azərbaycanın son illərdəki tarixi üçün deyilmişdir.

14. Yazıçı, filosof, diplomat və dövlət naziri olmuş Qraf Jozef de Mestr (1953-1821) «İstənilən xalq malik olduğu hökumətə layiqdir» fikrini söyləmişdir.

15. «Milli xarakterdə yaxşı cəhətlər azdır. Çünki onu yaradan subyekt kütlədir».

**Artur Şopenhauer**

16. «Tamaşaçılarsız qəhrəman yoxdur».

**Malro, XX əsr Fransız yazıçısı**

Şəxsiyyət, fərd, toplum problemi ilə bağlı digər filosofların fikirlərini misal gətirərək söhbəti istənilən qədər uzatmaq olar. Misal üçün, fərddən fərqli olaraq şəxsiyyət yeni ideya söyləmək qabiliyyətinə malik olmalıdır. Və yaxud şəxsiyyət informasiyanın (XXI əsr informasiya əsri olacaq. Ona görə çox sosial problemlərə bu faktorun təsirini nəzərə alaraq çözələmək məqsədəuyğundur), mənəvi dəyərlərin qiymətini fərddən daha çox başa düşür və s.

Göründüyü kimi söhbətin nə konkret məkana, nə də zamana dəxli vardır. Söhbət çox qədim bir problemin çözülməsindən gedir. Ona görə söhbəti burda saxlayaraq, əziz oxucuları bu problemlə bağlı fikirlərini bölüşməyə dəvət edirəm.